VİDADİ MURADOV

# AZƏRBAYCANIN İRƏVAN BÖLGƏSİ: tarixi və xalçaları



**“İrəvan xanlığı, Zəngəzur mahalı, Göyçə mahalı bizim torpaqlarımızdır və Ermənistan bu torpaqlarda dövlət qurub. Azərbaycan torpağında ikinci erməni dövlətinin qurulmasına biz heç vaxt imkan verməyəcəyik”.**

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Vidadi Muradov

# AZƏRBAYCANIN İRƏVAN BÖLGƏSİ:

## tarixi və xalçaları

## (XVIII əsrin II yarısı-XX əsrin əvvəlləri)

MHS-Poliqraf

**Elmi redaktor:** Y.M. Mahmudov
Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü,
Dövlət mükafatı laureatı

**Rəyçilər:** T.Ə. Bünyadov
Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü

K.M. Əliyeva
Əməkdar incəsənət xadimi,
sənətşünaslıq doktoru, professor

C.M. Mustafayev
Tarix üzrə elmlər doktoru, professor

**Vidadi Aydın oğlu Muradov. Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları (XVIII əsrin II yarısı-XX əsrin əvvəlləri). - Bakı: "MHS-Poliqraf", 2015. - 224 səh.**

**Çap evi: San Ofset. - Ayazağa Mah. Kemerburgaz Cad. No:13 Sisli - İstanbul**

Kitabda Azərbaycanın İrəvan bölgəsinin XVIII əsrin II yarısı - XX əsrin əvvəllərinə dair tarixi icmalı verilmiş, bölgənin mahallarında xalçaçılığın vəziyyəti nəzərdən keçirilmişdir. İrəvan bölgəsi xalçalarının təsnifatına uyğun olaraq, xovsuz və xovlu xalçaların tarixi, sənətkarlıq xüsusiyyətləri və bu xalçalarda istifadə edilmiş əsas işarələrin, simvolların mənası ətraflı şərh edilmişdir.

Kitab xalçaçılıq sənəti ilə məşğul olan mütəxəssislər, tələbələr, xalça həvəskarları, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Bütün hüquqlar qorunur. Müəllifin rəsmi icazəsi olmadan kitabın və ya onun hər hansı hissəsinin surəti çıxarıla, informasiya bazasında və axtarış sistemində qrafik, elektron və ya mexaniki vasitələrlə yenidən çoxaldıla və ya istifadə edilə bilməz.

ISBN 978-99-52-81-15-5-1

www.mhs-poliqraf.com

©Vidadi Muradov

**MÜNDƏRİCAT**


**Giriş** **6**

**I. İrəvan bölgəsi XVIII əsrin II yarısı-XX əsrin əvvəllərində** **15**

**II. İrəvan bölgəsində xalçaçılığın tarixi coğrafiyası: mahallar və onların xarakteristikası** **26**

2.1. Ağbaba və Şörəyel 30
2.2. Loru və Pəmbək 31
2.3. Şəmşəddin 32
2.4. Göyçə 33
2.5. Gərnibasar və Vedibasar 34
2.6. Zəngibasar və Sərdarabad 35
2.7. Qırxbulaq və Əştərək 37
2.8. Aparan, Dərəçiçək və Talın 38
2.9. Zəngəzur 39
2.10. Dərələyəz 41
2.11. İrəvan şəhəri 42

**III. İrəvan bölgəsi xalçalarının təsnifatı** **44**

3.1. Xalçaların təsnifatına dair -
3.2. İrəvan bölgəsinin xovsuz xalçaları və onların sənətkarlıq xüsusiyyətləri 45
3.2.1. Kilimlər -
3.2.2. Palaz 51
3.2.3. Zililər 52
3.2.4. Vərnilər 53
3.2.5. At çulu 55
3.3. İrəvan bölgəsinin xovlu xalçaları 56
3.3.1. Xanlıq dövrü xovlu xalçaları -
3.3.2. XIX əsrin 20-ci illərinin sonu-XX əsrin əvvəllərinə aid xovlu xalçalar 61

**IV. İrəvan bölgəsi xalçalarının əsas işarə və simvolları** **109**

**Nəticə** **118**

**İrəvan bölgəsi xalçalarının kataloqu** **120**

**Summary** **221**

**Резюме** **222**

# Giriş

Azərbaycan xalçaları dünya xalçaçılıq sənətinin nadir inciləridir. Bu, ölkədə xalçaçılığın qədim tarixi, ən yaxşı xalçaçıların əldə etdiyi təcrübə və ənənənin böyük qayğı ilə qorunaraq nəsildən-nəslə ötürülməsi və daim zənginləşdirilməsi ilə bağlıdır. İstər Azərbaycanın özündə, istərsə də onun hüdudlarından kənarda burada istehsal olunan xalçalara həmişə böyük tələbat olmuşdur. Azərbaycan xalçaları insanların gündəlik məişət ehtiyaclarını və estetik zövqünü ödəməklə yanaşı, həm də əvəzsiz sənət nümunələrinə çevrilmişdir.

Azərbaycan xalçaçılığının ən böyük nailiyyətlərindən biri onun inkişafına göstərilən dövlət qayğısıdır. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə (1969-1982, 1993-2003) bütövlükdə mədəniyyətin, o cümlədən xalçaçılığın inkişafına daim diqqət yetirilmişdir. Ulu öndərin dövlətçilik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli-mənəvi dəyərlərin dirçəldilməsinə, o cümlədən xalçaçılığın inkişafına böyük önəm verməsi nəticəsində xalçaçılığın inkişafının qanunvericilik bazası yaradılmışdır. 2004-cü il dekabrın 7-də "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunu təsdiq olunmuş, 2005-ci il fevralın 7-də həmin qanunun tətbiq edilməsi barədə fərman verilmişdir. Azərbaycan xalçalarının təbliği və nümayiş etdirilməsi məqsədi ilə Prezident İlham Əliyevin iştirakı ilə 2014-cü il avqust ayının 26-da Dənizkənarı Milli Parkın ərazisində unikal memarlıq xüsusiyyətlərinə malik olan Azərbaycan Xalçası Muzeyinin açılış mərasimi keçirilmişdir.

Azərbaycan mədəniyyətinin, o cümlədən xalçaçılığın inkişafı və onun nailiyyətlərinin dünya miqyasında təbliği sahəsində Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İCESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın böyük rolu vardır. Mehriban xanımın rəhbərliyi ilə Azərbaycanın Dövlət müstəqilliyinin iyirmi illiyi münasibətilə Londonda, Parisdə və Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti günləri çərçivəsində təşkil edilən xalça sərgiləri mühüm əhəmiyyət kəsb etmişdir. Bütün bunlar Azərbaycan xalçasının 16 noyabr 2010-cu il tarixdə UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi Mədəni irs üzrə Reprezentativ Siyahısına daxil edilməsinin qanunauyğunluğunu təsdiq etmişdir.

Azərbaycan xalçalarına dair tədqiqatlarda bu sahə üzrə müxtəlif lokal qruplar (Qarabağ, Quba, Şirvan, Bakı, Gəncə, Qazax-Borçalı, Naxçıvan, Təbriz) ayrılır. Tarixi-coğrafi Qərbi Azərbaycan-Ermənistan ərazisində yaşayan azərbaycanlılar arasında xalçaçılığın inkişafının əsas meylləri nəzərə alınaraq, Qazax-Borçalı, Qarabağ və digər qruplar daxilində araşdırılırdı. Lakin aparılan tədqiqatlar Qərbi Azərbaycanda xalçaçılığın inkişafının obyektiv mənzərəsinin yaradılmasını aktuallaşdırmışdır. Bu halda Qərbi Azərbaycan və ya İrəvan bölgəsi xalçalarının əhəmiyyəti nəzərə alınaraq onların şərti olaraq "İrəvan qrupu" kimi ayrılması zərurətini irəli sürmüşdür. Bu bir sıra təbii, sosial-iqtisadi və siyasi amillərlə (təbii-coğrafi şərait, əhalinin təsərrüfat həyatı, Ermənistan dövləti tərəfindən azərbaycanlılara qarşı məqsədyönlü soyqırımı və deportasiya siyasətinin aparılması, azərbaycanlıların dədə-baba torpaqlarından qovulmasının başa çatdırılması və s.) izah olunur. Azərbaycan xalçalarının İrəvan qrupunun ayrılması xalqın ənənələrinin qorunması, yaşadılması, tarixi torpaqlarına sədaqətinin ifadəsi üçün də əhəmiyyətlidir. Ulu öndər Heydər Əliyev demişdir:

“İndi “Ermənistan” adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun, müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir... İnanıram ki, o yerlərin sahibləri – müsəlmanlar, azərbaycanlılar oraya qayıdacaqlar”.[1] Bütün bunlar Azərbaycanın İrəvan bölgəsində xalçaçılıq sənətinin inkişafının kompleks şəkildə tədqiqi zərurətini irəli sürmüşdür.

Tədqiqatın xronoloji çərçivəsi kimi XVIII əsrin II yarısı-XX əsrin əvvəlləri müəyyən edilmişdir. Belə bir xronoloji çərçivə Azərbaycan tarixinin xronoloji dövrləşdirilməsinə tamamilə uyğundur. Məlum olduğu kimi, Nadir şah Əfşarın (1736-1747) öldürülməsindən sonra onun imperiyası dağılır və Azərbaycan ərazisində müstəqil və yarımmüstəqil xanlıqlar meydana gəlir. Xanlıqların etnik və siyasi sərhədləri Azərbaycanın tarixi-coğrafi ərazisinin xeyli hissəsini əhatə edirdi. Bu dövrdə meydana gələn xanlıqlardan biri də İrəvan xanlığı idi. İrəvan xanlığı Azərbaycan xanlıqları tərkibində özünəməxsus yer tuturdu. Qərbi Azərbaycan ərazisində müstəqil İrəvan xanlığının yaranması burada iqtisadiyyatın, o cümlədən onun mühüm sahəsi olan xalçaçılığın inkişafına da təkan vermişdi. İrəvan xanlığının ərazisi 1827-ci ilin oktyabrında Rusiya imperiyası tərəfindən işğal edilmiş və İrəvan xanlığı ləğv edilmişdi. Azərbaycanın İrəvan bölgəsi digər Şimali Azərbaycan torpaqları ilə birlikdə Rusiya imperiyasının dağılmasınadək onun tərkibində qalmışdır. 1918-ci ildə tarixi Qərbi Azərbaycan-İrəvan bölgəsi ərazisində erməni dövləti yaradılmışdır. Bununla da İrəvan bölgəsinin erməniləşdirilməsi, azərbaycanlılara qarşı deportasiya və soyqırımı dövlət siyasətinə çevrilmişdir. Ermənistan hökuməti azərbaycanlıların iqtisadi həyatına, o cümlədən xalçaçılığa da ağır zərbə vurmuşdur. Beləliklə, aydın olur ki, XVIII əsrin II yarısı- XX əsrin əvvəlləri Azərbaycanın İrəvan bölgəsinin tarixində xüsusi bir mərhələ kimi ayrıla və bu dövrdə iqtisadi həyatda vacib yer tutan xalçaçılıq sənətinin vəziyyəti tədqiq edilə bilər. Bu dövrdə xalçaçılığın hərtərəfli tədqiqi baxımından bölgədə Ermənistan dövləti yaradıldıqdan sonrakı vəziyyətin öyrənilməsi bir baza rolunu da oynaya bilər. Bu sahədəki obyektiv vəziyyətin müəyyənləşdirilməsi Ermənistan dövlətinin Azərbaycan xalçaçılığına vurduğu zərbənin miqyasını da müəyyən etməyə imkan verərdi.

Azərbaycan tarixşünaslığında və eləcə də sənətşünaslığa dair araşdırmalarda İrəvan bölgəsində xalçaçılıq sənətinin tarixi uzun müddət tədqiqatdan kənarda qalmışdır. İlk dəfə bu sətirlərin müəllifi həmin problemi irəli sürmüş, bu sahədə tədqiqatlara başlamış və fundamental kitablar nəşr etdirmişdir.[2] Bununla yanaşı, problemin bəzi məsələləri haqqında araşdırmaları da qeyd etmək lazımdır. Həmin məqalə və kitabları aşağıdakı istiqamətlər üzrə qruplaşdıra bilərik:

Tədqiqatın predmetini xalçaçılıq təşkil etdiyi üçün, ilk növbədə, həmin qrupa daxil olan ədəbiyyatı ayırmaq olar. Tədqiq olunan dövrün ikinci mərhələsində, XIX-XX əsrin əvvəllərində Azərbaycan xalçalarına aid ilk məqalələr çap edilmişdir. Y.Zedgenidzenin məqaləsi (1891) Yelizavetpol quberniyasının Şuşa şəhərində xalça və palaz istehsalına, İ.M.Qara-Murzanın məqaləsi (1902) Bakı quberniyasının

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 18-ci cild. Bakı, 2006, s.375-376.

[2] Muradov V. A. Azərbaycan xalçaları. Bakı, 2008; Yenə onun, Azərbaycan xalçaları. İrəvan qrupu. Bakı, 2011

Quba qəzasında xalçaçılıq peşəsinə həsr edilmişdir.[1] V.M.Zummerin 1926-cı ildə nəşr edilmiş məqaləsində Quba xalçalarından bəhs olunur. 1920-1950-ci illərdə xalçaçılığa dair Tiflisdə və Moskvada nəşr edilmiş kitablarda Azərbaycan xalçaları işıqlandırılmışdır.[2] 1950-ci ildə Azərbaycanda da xalçalara dair albom nəşr edilir.[3] Lakin bütövlükdə Azərbaycan xalçaçılığının öyrənilməsində yeni bir səhifənin açılması Lətif Kərimovun (1906-1991) adı ilə bağlıdır.[4] L.Kərimovun 1961-1983-cü illərdə nəşr edilən məşhur üçcildliyi[5] ilə Azərbaycan xalça sənətinin fundamental problemləri irəli sürüldü, Azərbaycan xalçalarının tarixi, məktəbləri və s. məsələlər araşdırıldı. Lakin bu kitablarda Azərbaycanın İrəvan bölgəsinin xalçaları xüsusi məktəb kimi ayrılmamışdır. L.Kərimov digər bir kitabında[6] Azərbaycan xalçalarının ornamentlərini tədqiq etmişdir. L.Kərimov xalçaçılıq sahəsində dünya miqyasında tanınmış mütəxəssis olmaqla yanaşı, eyni zamanda, xalça istehsalının təşkili, xalçaçılıq üzrə yeni tədqiqatçıların hazırlanmasında və nüfuzlu elmi konfransların keçirilməsində də böyük xidmətlər göstərmişdir. 1983 və 1988-ci illərdə Bakıda Şərq xalçaları sənətkarlığı üzrə beynəlxalq konfranslar keçirilmişdir.[7] Belə nüfuzlu konfransların Bakıda keçirilməsi Azərbaycanın dünya miqyasında xalçaçılıq mərkəzlərindən biri kimi tanınması demək idi.

L.Kərimovun Azərbaycan xalçalarına aid çoxcildliyinin birinci cildinin nəşrindən az bir müddət sonra, xalçaçılıq sahəsində böyük əhəmiyyətə malik olan bir hadisə baş vermişdi. Məşhur arxeoloq S.İ.Rudenkonun (1885-1969) "Pazırık" adı ilə tanınan xalça haqqında kitabı nəşr edilmişdir.[8] Bu kitabdan sonra bütövlükdə xalçaçılıq, o cümlədən xalçaçılığın tarixi və sənətkarlıq xüsusiyyətlərinə dair tədqiqatların sayı daha da çoxaldı. 1971-ci ildə N.Abdullayevanın Azərbaycan xalça sənətinə aid kitabı çap edildi.[9]

Azərbaycan xalçaçılığının, xüsusilə onun texnoloji üsullarının tədqiqi və öyrədilməsi, xalçaçılığa dair dərslik hazırlanması bu sahədə mühüm istiqamət kimi qeyd edilə bilər. Bu sahədə C.Mücirinin kitabları[10] bu gün də elmi və təcrübi əhəmiyyətini saxlamaqdadır.

Azərbaycan xalçalarının tarixinin öyrənilməsində A.S.Əliyevanın kitabları da xüsusi qeyd edilə bilər. O, 1987-ci ildə nəşr edilən əsərində[11] XIX-XX əsrin əvvəllərində

[1] Зедгенидзе Я. Производство ковров и паласов в городе Шуше Елизаветпольской губернии// СМОМПК, вып.XI. Тифлис, 1891; Кара-Мурза И.М. Ковровый промысел в Кубинском уезде Бакинской губернии// Изв. Кавказского кустарного комитета. Тифлис, 1902

[2] Орлов Н.М. Горные богатства и ковры. Экспортные ковры Закавказья. ч.III. Тифлис, 1925; Производство ковров. М., 1931; Исаев М.Д. Ковровое производство Закавказья. М., 1931; Адамов А.К. Советские ковры и их экспорт. М. – Л., 1934; Гогель Ф.В. Ковры. М., 1950

[3] Ковры Азербайджанской ССР. Альбом. Баку, 1951

[4] Bax: Əliyeva K., İbrahimov E. L.Kərimov: həyat və yaradıcılığı. Bakı, 2007

[5] Керимов Л. Азербайджанский ковер. В трех тт. т.I. Баку – Л., 1961; т.II. Баку, 1983; т.III. Баку, 1983

[6] Его же, Некоторые элементы азербайджанских ковров. Баку, 1983

[7] Международный симпозиум по искусству восточных ковров. Баку, 5-10 сентября 1983 г. Тезисы. Баку, 1983; Материалы Международного симпозиума по искусству восточных ковров. Баку, 1988

[8] Руденко С.И. Древнейшие в мире художественные ковры и ткани из оледенелых курганов Горного Алтая. М., 1968

[9] Абдуллаева Н.А. Ковровое искусство Азербайджана. Баку, 1971

[10] Müciri C. Azərbaycan xalçaçılığı. Bakı, 1977; Yenə onun, Azərbaycan xalçaçılığının texnoloji üsulları. Orta texniki peşə məktəbi üçün dərslik. Bakı, 1986; Его же, Мюджири Дж. Технологические приемы азербайджанского ковроделия. Баку, 1983

[11] Алиева А. Ворсовые ковры Азербайджана XIX – начала XX века. Баку, 1987

Azərbaycanın xovsuz xalçalarını tədqiq etmişdir. Digər bir araşdırma isə Naxçıvan xalçalarına həsr edilmişdir.[1]

Azərbaycan xalçaçılığının öyrənilməsində K.M.Əliyevanın tədqiqatları da mühüm yer tutur. O, 1988-ci ildə nəşr edilən kitabında[2] Azərbaycanın xovsuz xalçalarından, 1999-cu ildə nəşr edilən kitabında[3] isə XVI-XVII əsrlər Təbriz xalça məktəbindən ətraflı bəhs etmişdir. Ç.Qurbanova isə həmin xronoloji çərçivədə Azərbaycanın ipək xalçalarının tarixini tədqiq etmişdir.[4]

Azərbaycan xalçalarının öyrənilməsində R.S.Tağıyevanın tədqiqatları da maraq doğurur. R.Tağıyeva əsasən, süjetli xalçaları tədqiq etmişdir. Onun tədqiqatlarından biri Azərbaycanın süjetli xalçaları[5], digəri isə Nizaminin xalça obrazları[6] haqqındadır. R.Tağıyevanın Azərbaycan xalçaçılığının nəzəri məsələlərinə dair tədqiqatları[7] da elmi baxımdan əhəmiyyətlidir. Azərbaycan incəsənətinə və sənət tarixinə həsr edilmiş tədqiqatlarda (Əfəndiyev R. və b.) və ümumiləşdirici əsərlərdə də xalçaçılıq haqqında fikirlərə müəyyən yer verilmişdir.[8]

A.Abbasovun namizədlik dissertasiyasında isə XIX əsr-XX əsrin əvvəllərində Azərbaycanda xalça istehsalı və ticarəti məsələləri öyrənilmişdir.[9]

Azərbaycan xalçaçılığına dair tədqiqatlardan aydın olur ki, ümumiyyətlə İrəvan bölgəsi xalçaları tədqiqatdan kənarda qalmışdır. Bundan istifadə edən erməni müəllifləri İrəvan bölgəsi xalçalarını, onun çeşnilərini mənimsəməyə çalışmışlar.[10]

XVIII əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycanda, o cümlədən İrəvan bölgəsində sənətkarlığın, xüsusilə xalçaçılığın inkişafı məsələlərinə dair tədqiqatlar xüsusi qrup kimi ayrıla bilər. C.Mustafayevin xanlıqlar dövründə Azərbaycan sənətkarlığına dair tədqiqatı[11], Ə.S.Sumbatzadənin XIX əsr Azərbaycan sənayesi və kənd təsərrüfatına dair monoqrafiyalarının[12] müvafiq hissələri bu qəbildəndir.

Tədqiqat işinin xronoloji çərçivəsi üzrə xanlıq dövrü, Rusiya imperiyası işğalları və hakimiyyəti, həmçinin imperiyanın dağılmasından sonrakı vəziyyətə dair əsərlər də diqqət mərkəzində olmuşdur. Azərbaycanın İrəvan xanlığının tarixinin öyrənilməsi mürəkkəb yol keçmişdir. Sovet dövründə bu xanlığın tarixi demək olar ki, Azərbaycan tarixşünaslığından çıxarılmışdı. İrəvan xanlığının tarixşünaslığına dair xüsusi tədqiqatda qeyd edilir ki, "...İrəvan xanlığının tarixi

---

[1] Алиева А.С. Нахичеванские ковры. Баку, 1988

[2] Алиева К.М. Безворсовые ковры Азербайджана. Баку, 1988

[3] Её же, Тебризская ковровая школа XVI-XVII вв. Баку, 1999

[4] Курбанова Ч. Шелковые ковры Азербайджана в XVI-XVII вв.// Материалы Международного симпозиума по искусству восточных ковров. Баку, 1988, с. 172-177

[5] Тагиева Р.С. Сюжетные ковры Азербайджана. Баку, 1988

[6] Её же, Ковровые образы Низами. Баку: Ишыг, 1991

[7] Её же, Искусство азербайджанского ковроткачества в контексте межцивилизационного диалога // Кавказ и глобализация. 2009, т.3. вып. 2-3, с.153-169

[8] Əfəndiyev R. Azərbaycan el sənəti. Bakı, 1971; Yenə onun, Azərbaycan dekorativ – tətbiqi sənətləri (orta əsrlər). Bakı, 1976; Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Bakı, 1992

[9] Аббасов А. Производство и торговля азербайджанскими ковпами в конце XIX- нач. XX вв. АДД. Тбилиси, 1980

[10] Bu barədə xüsusi biblioqrafiyaya bax: Казарян М.М. Армянский ковер. Armenian carpet. Библ. Ереван, 1984

[11] Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı, 1996

[12] Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку, 1958; Его же, Промышленность Азербайджана в XIX в. Баку, 1964

uzun müddət Azərbaycan tarixşünaslığının ögey münasibətinə tuş gəlmişdir. Bunun başlıca səbəbi sovet dövrünün ideoloji direktivləri,...saxta beynəlmiləlçilik, xalqlar dostluğu prinsipləri idi. Onların elmə sirayəti bir sıra Azərbaycan-sovet tarixçilərində korafəhimlik yaratmış, digərləri isə milli duyğulara sahib olduqları halda, təhdidlərə məruz qalmamaq üçün "susmaq öhdəliyi götürmüşlər."[1] Yalnız XX əsrin 80-ci illərinin sonlarından Azərbaycan tarixşünaslığında İrəvan xanlığının tarixi ümumi Azərbaycan tarixinin tərkib hissəsi kimi öyrənilməyə başlanmışdır. F.Əliyev və U.Həsənovun 1997-ci ildə nəşr edilən "İrəvan xanlığı" kitabı[2] bu sahədə ilk tədqiqat oldu. Həmin kitabda İrəvan xanlığında sənətkarlıqdan bəhs edilərkən xalçaçılığa da toxunulmuşdur. Lakin müəlliflər burada yalnız bir neçə ümumi sözlə kifayətlənmişlər.[3] İrəvan xanlığı tarixinin Azərbaycan üçün əhəmiyyətini nəzərə alan Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Yaqub Mahmudov bu sahə üzrə mütəxəssislər kollektivi təşkil edərək, xanlığın ən mühüm, prinsipial məsələlərini fundamental şəkildə həll edən monoqrafik tədqiqat nəşr etdirmişdir (Bakı, 2009). Kitab ingilis dilinə də tərcümə edilmişdir. Qısa bir dövr ərzində geniş oxucu kütləsinin marağına səbəb olduğuna görə, ikinci dəfə nəşr olunmuşdur. Azərbaycan dövləti Vətən tarixinə dair digər kitablarla yanaşı, "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" monoqrafiyasını da Azərbaycan Respublikası Dövlət mükafatına layiq gördü. Kitabda, nəinki müəyyən edilmiş xronoloji çərçivədə, hətta xanlığaqədərki dövr və sonrakı vəziyyət də nəzərə alınmaqla İrəvan xanlığı tarixi kompleks şəkildə tədqiq edilmişdir. Burada xanlığın sosial-iqtisadi vəziyyətindən bəhs edilərkən, xalçaçılığın inkişafına da toxunulmuşdur. Orada qeyd edilir ki, "xanlığın əsas əhalisi olan Azərbaycan türkləri ənənəvi olaraq donuz deyil, qoyun saxladıqları üçün gözəl xalçalar, kisə, palaz, çul, qışda geyinmək üçün isti paltarlar, əlcək, corab və s. toxuyurdular."[4] Digər bir maraqlı məsələ boyaqçılıqla əlaqədar idi. Bu problemə də toxunan müəlliflər göstərir ki, "toxuculuqla bağlı digər sənət sahəsi boyaqçılıq idi. Xanlıq ərazisində qırmız ("koşenil") adlanan boyaq maddəsinin müxtəlif növlərindən geniş istifadə olunurdu. Bu boyaq maddəsi haqda xüsusi tədqiqat aparan Rusiya Elmlər Akademiyasının akademiki Qammel İrəvan qırmızını yararlılığına gorə Meksika qırmızı ilə müqayisə edirdi."[5]

XIX – XX əsrin əvvəllərində Şimali Azərbaycan tarixi məsələləri xanlıq dövrünə nisbətən geniş tədqiq edilmişdir. Lakin burada da sovet dövrünün ideologiyası öz təsirini göstərmiş, işğal və müstəmləkə məsələləri ikinci plana keçirilmişdir. SSRİ dağıldıqdan sonra, xüsusilə müstəqillik dövründə XIX-XX əsrin əvvəlləri tarixini işıqlandıran yeni obyektiv tədqiqatlar işıq üzü görmüşdür.[6]

---

[1] Hacıyeva Z.Ə. İrəvan xanlığının tarixşünaslığı. Bakı, 2012, s.126

[2] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Red. və ön sözün müəllifi K.Şükürov. İkinci nəşri. Bakı, 2007 (Birinci nəşri 1997)

[3] Yenə orada, s. 46

[4] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi redaktor AMEA-nın müxbir üzvü Y.Mahmudov. İkinci nəşri. Bakı, 2010, s.107

[5] Yenə orada.

[6] Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar... Bakı, 1997; Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk). Bakı, 1992; Süleymanov M. İrəvan xanlığının Rusiyaya birləşdirilməsi. Bakı, 1997 və s.

Son dövrlərdə İrəvan bölgəsinin tarixi coğrafiyası[1], folkloru[2], toponimiyası[3], etnoqrafiyası[4], azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası[5], ermənilərin azərbaycanlılara qarşı soyqırımı[6] və digər problemlərə dair geniş ədəbiyyat meydana gəlmişdir. Bu tədqiqatlar xalçaçılığın inkişaf etdiyi mühitin, xalq həyatının müxtəlif məsələlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Qeyd etdiyimiz kimi, sovet dövründə İrəvan xanlığı, Rusiya işğallarından sonra isə həmin ərazidə yaradılmış inzibati-coğrafi vahidlərin tarixi Azərbaycan tarixşünaslığında öyrənilmədiyi halda, erməni tarixşünaslığında geniş tədqiqat obyekti olmuşdur.[7] Həmin əsərlər birmənalı şəkildə bölgənin tarixini təhrif etmiş,

---

[1] Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995; Ələkbərli Ə. Qədim türk-oğuz yurdu – "Ermənistan". Bakı, 1994; Yenə onun, Qərbi Azərbaycan. I c. Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları). Bakı, 2000; Yenə onun, Qərbi Azərbaycan. II c. Zəngibasar, Gərnibasar və Qırxbulaq mahalları. Bakı, 2002 və s.

[2] Azərbaycan folkloru antologiyası. III kitab (Göyçə folkloru). Bakı, 2000; Azərbaycan folkloru antologiyası. VII kitab (Qaraqoyunlu folkloru). Bakı, 2002; Azərbaycan folkloru antologiyası. VIII kitab (Ağbaba folkloru). Bakı, 2005; Azərbaycan folkloru antologiyası. XII kitab (Zəngəzur folkloru). Bakı, 2005; Azərbaycan folkloru antologiyası. XV cild (Dərələyəz folkloru). Bakı, 2006 və s.

[3] Bayramov A.Ə. Qədim oğuz ellərinin – Ağbaba, Şərəyəl və Pəmbək bölgələrinin yer-yurd adları. Bakı, 1996; Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002; Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998; Məhərrəmov S. Ermənistan SSR-də Azərbaycan (türk) mənşəli toponimlər // Elm və həyat, 1986, №10; Rüstəmov Ə. Ermənistan SSR Qafan, Gorus və Sisyan rayonları ərazisinin Azərbaycan mənşəli toponimləri. NDA., Bakı, 1990 və s.

[4] Şükürov Ş. Uluxanlı (Bədii – tarixi, etnoqrafik oçerk). Gəncə, 1999; Абдуллаев А.И. Материальная культура азербайджанцев проживающих в Армении в XIX – начале XX веков (Историко-этнографическое исследование по материалам Вайоцдзорской зоны). АКД. Тифлис, 1981 və s.

[5] Arzumanlı V., Nazim M. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998; Deportasiya. Elmi konfrans materialları. Bakı, 1998; Deportasiya. Bakı, 1998; Didərginlər. Bakı, 1990 və s.

[6] Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993; Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, 1911 (Təkrar nəşr. Bakı, 1991) və s.

[7] Агаян Ц.П. Роль России в исторических судьбах армянского народа. К 150-летию присоединения Восточной Армении к России. Отв. ред. акад. А.Л.Нарочницкий. М., 1978; Его же, Победа Советской власти и возрождение армянского народа. М., 1981; Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века. Сост. проф. В.Рштуни при участии К.Степаняна. Ереван, 1951; Адонц М.А. Экономическое развитие Восточной Армении в XIX веке. Ереван, 1957; Акопян Т.Х. История Еревана (1801-1879). АДД. Ереван, 1960; Его же, Очерк истории Еревана. Ереван, 1977; Амбарян А. Развитие капиталистических отношений в армянской деревне. Ереван, 1959; Аракелян Г.Р. Кустарные промыслы в Восточной Армении во второй пол. XIX в. АКД. Ереван, 1976; Арутюнян Ш. Социально-экономическое отношения в уезде Сурмалу (1828-1915). АКД. Ереван, 1971; Бадалян А.Л. Население Армении со времени присоединения ее к России и до наших дней // Изв. АН Арм. ССР, общ. науки 1953, №5, с.49-71; Григорьян З.Т. Присоединение Восточной Армении к России. М., 1959; Гуланян Х. Экономическое состояние Армении в первой половине XIX века и экономические взгляды Х.Абовяна. Ереван, 1955; Зубиетян В.Г. Даралагяз (Экономико-географический очерк) // Изв. АН Арм. ССР. Общ.науки. 1950, №9, с.3-23; Его же, Экономика Зангезура // Изв. АН Арм. ССР. Общ.науки. 1952, №1, с.87-97; История армянского народа: с древнейших времен до наших дней / Под ред. М.Г.Нерсисяна. Ереван, 1980; Кафтарян С.М. Россия и армяно-турецкие отношения от Туркменчайского договора до Берлинского конгресса (1828-1878 гг.). АКД. Киев, 1953; Карапетян С. К истории освобождения Зангезура от дашнакских банд // Изв. АН Арм. ССР. Общ. науки. 1955, №1, с.31-42; Марухян А.О. Положение крестьян в досоветской Армении (1900-1920). Ереван, 1948; Парсамян В.А. Колониальная политика царизма в Армении. Ереван, 1940, ч.I; Его же, История армянского народа. 1801-1900 гг. Кн.1. Ереван, 1972 и др.

onun qədim Azərbaycan ərazisi-Qərbi Azərbaycan olması hər vəchlə inkar edilmiş, azərbaycanlılara məxsus maddi-mənəvi irs qəsdən sərf-nəzər edilmişdir. Xarici erməni tarixşünaslığında da Azərbaycanın İrəvan bölgəsinin tarixi təhrifə məruz qalmışdır.[1]

Azərbaycanın İrəvan bölgəsinin tarixinin bəzi məsələlərinə xarici tarixşünaslıqda da toxunulmuşdur. Bu məsələ Z.Hacıyevanın yuxarıda da qeyd etdiyimiz "İrəvan xanlığının tarixşünaslığı" kitabında ətraflı şərh edilmişdir.[2]

Xarici tarixşünaslıqda Azərbaycanın tarixi torpaqlarında təşkil edilmiş Ermənistan tarixi məsələləri Səmyuel Uimzin əsərində[3] əksini tapmışdır. Kitab 2004-cü ildə Azərbaycan dilinə tərcümə edilərək, Bakıda nəşr edilmişdir.

Beləliklə, problemin öyrənilmə səviyyəsindən aydın olur ki, Azərbaycanın İrəvan bölgəsinin siyasi tarixi, ermənilərin azərbaycanlılara qarşı apardığı deportasiya və soyqırımı siyasəti, toponimiya, tarixi coğrafiya kimi məsələlər müəyyən dərəcədə öyrənilsə də, xalçaçılıq sənətinin inkişafı tədqiq olunmamışdır.

Tədqiqatın əsas mənbə bazasını İrəvan bölgəsinə aid 1970-1980-ci illər ərzində tarixi Qərbi Azərbaycan-Ermənistan SSR ərazisindən toplanmış və hazırda "Azər-İlmə"nin "Sehrli ilmələr" qalereyasında nümayiş etdirilən 100 xalça təşkil edir. (Bax: Azərbaycanın İrəvan bölgəsi xalçalarının kataloqu)

Xalçaların toplanılması prinsipinə, kəmiyyətinə, xronologiyasına, coğrafiyasına və növlərinə əsasən söyləmək olar ki, bu xalçalar Azərbaycanın İrəvan bölgəsində xalçaçılıq sənətinin inkişafı və sənətkarlıq xüsusiyyətləri haqqında tam elmi fikir irəli sürməyə imkan verir.

Xalçalar xronoloji baxımdan 1786-1920-ci illəri əhatə edir. Xanlıq dövrü (1746-1827) 9 xalça ilə təmsil olunmuşdur. Qeyd edildiyi kimi, onlardan ilki 1786-cı ilə aiddir. 1791 və 1794-cü illərin hərəsi də bir xalça ilə təmsil edilmişdir. 1814-cü ilə aid iki, 1816-1817-ci illərin hərəsinə aid bir, 1824-cü ilə aid iki xalça vardır. Qalan 91 xalçadan 90-ı Rusiya imperiyası dövrünə aiddir. Həmin xalçaları da xronologiya üzrə qruplaşdıra bilərik. Onlardan 6-ı XIX əsrin 20-ci illərinin sonu-30-cu illərə, 3-ü 1840-cı illərə, 20-i 1850-ci illərə, 12-i 1860-cı illərə, 15-i 1870-ci illərə, 6-ı 1880-ci illərə, 14-ü 1890-cı illərə, 14-ü isə XX əsrin əvvəllərinə aiddir. Bir xalça imperiyanın dağılmasından sonrakı dövrə - 1920-ci ilə aiddir. İllər üzrə nəzərdən keçirsək ən çox xalça 1854-cü ilə (6 xalça) və 1875-ci ilə (5 xalça) aiddir.

Xalçaların ərazi coğrafiyası da ciddi əhəmiyyyət kəsb etdiyindən, bu məsələ də təhlil olunmuşdur. Xalçalar İrəvan şəhəri və bölgənin tarixi mahalları üzrə aşağıdakı kimi bölünmüşdür: İrəvan şəhəri - 14, Göyçə mahalı - 13, Zəngəzur və Dərələyəz mahallarının hər biri -11, Loru, Pəmbək, Vedibasar, Əştərək və Dərəçiçək mahallarının hər biri - 5, Ağbaba mahalı - 4, Şörəyel, Gərnibasar, Sərdarabad və Talın mahallarının hər biri - 3, Şəmşəddin, Zəngibasar, Qırxbulaq, Aparan və Üçkilsə mahallarının hər biri üzrə - 2 xalça.

100 xalçanın növünə görə təsnifatı da maraqlı nəticələr çıxarmağa imkan verir. Həmin xalçalardan 16-ı xovsuz, 84-ü isə xovlu xalçalardır. 16 xovsuz xalçadan 10-u kilim, 1-i çiyi palaz, 2-i vərni, 2-i zili və 1-i at çuludur.

[1] Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828. Mazda Publishhers in association with Bibliotheca Persia. Costa Mesa, California and New York, 1992; Ibib., The ethnic composition and the socio-economic condition of Eastern Armenia in the first half of the nineteenth century // Transcaucasia Nationalism and Sosial change. The University of Michigan Press, 1996

[2] Hacıyeva Z.Ə. İrəvan xanlığının tarixşünaslığı. Bakı, 2012.

[3] Səmyuel A.Uimz. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri: Ermənilərin böyük fırıldaqlar seriyası. I c. Bakı, 2004

Tədqiqat işi ilə əlaqədar olaraq, arxiv sənədlərində və materiallarında, həmçinin nəşr edilmiş qaynaqlar üzərində sistemli iş aparılmışdır. Lakin həmin mənbələrdə xalçaçılıq haqqında əsasən ümumi məlumatlar verilmişdir. İrəvan bölgəsi xalçalarının növləri, çeşniləri, sənətkarlıq xüsusiyyətləri kimi məsələlər bu qaynaqlarda, demək olar ki, əks edilməmişdir. Bu bir daha problemin məhz həmin dövrə aid orijinal xalçalar əsasında öyrənilməsinin əhəmiyyətini vurğulayır. Buna baxmayaraq, arxiv sənədlərinin və qaynaqların xalçaçılığa dair materialları imkan daxilində tədqiqata cəlb edilmişdir.

Arxiv materialları içərisində Rusiya Federasiyası Dövlət Tarix Arxivində saxlanılan İrəvan quberniyası icmallarını qeyd etmək olar.

Nəşr edilmiş qaynaqlar içərisində dövr üzrə ən çox müraciət edilən Şopenin tədqiqatlarını[1], «Обозрение»ni[2], «Материалы»nı[3], həmçinin müxtəlif statistik toplu və məcmuələri qeyd edə bilərik.[4]

Tədqiqiat işinin əsas məqsədi XVIII əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycanın İrəvan bölgəsində xalçaçılıq sənətinin inkişafını kompleks şəkildə araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- xalçaçılıq sənətinin inkişafının tarixi zəmininin müəyyənləşdirilməsi üçün XVIII əsrin II yarısı-XX əsrin əvvəllərində İrəvan bölgəsi tarixinin əsas mərhələləri kimi İrəvan xanlığı və Rusiya imperiyasının müstəmləkəçilik dövrləri tarixinin araşdırılması;
- iqtsadi həyatın ümumi vəziyyətinin göstərilməsi və burada xalçaçılığın mövqeyinin müəyyənləşdirilməsi;
- İrəvan bölgəsinin tarixi mahalları üzrə xalçaçılıq sənətinin ənənələri və vəziyyətinin göstərilməsi;
- İrəvan bölgəsinin mahalları üzrə toplanmış 100 xalçanın növlərinə görə təsnifatı, xalçaların xarakteristikası və sənətkarlıq xüsusiyyətlərinin tədqiqi;
- İrəvan bölgəsinin xalçalarının əsas işarə və simvollarının müəyyənləşdirilməsi və şərhi.

---

[1] Шопен И. О народах, обитающих в Армянской области // Bulletin Scientifique de l' Academie Imperiale des Sciences de St. Petersbourg, t.8. № 1, et.2,СПб., 1840, p.1-40; Его же, Обозрение Закавказского края // ЖМГИ. СПб., 1841, ч.I, кн.2, с.336-365; Его же, Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852; Его же, Кавказ и его обитатели. СПб., 1866

[2] Обозрение Российских владений за Кавказом в стат., этногр., топограф. и финансовом отношениях. 4 части. СПб., 1836

[3] Материалы для изучения экономического быта государственных крестян Закавказского края. тт.I-VII. Тифлис, 1885-1887

[4] Акты собранные Кавказской Археографической комиссией. тт.I-XII. Тифлис, 1866-1984; Аргутинский –Долгоруков А.М. История сооружения и эксплуатации Закавказской железной дороги за двадцать пять лет ее существования (1871-1896 гг. ). Тифлис, 1896; Зелинский С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т.VII. Тифлис, 1880; Кондратенко Е.И. Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Тифлис, 1899; Материалы для статистики Эриванской губернии // Сборник статистических сведений о Кавказе. т.I. Под. ред. Н.И. Воронова. Тифлис, 1869, Отд.I, разд. III, с.3-67; Описание Закавказского края. Статья XLI // Статистические труды. И.Ф.Штукенберга. т.2. СПб., 1860, с.1-50; Памятная книжка Эриванской губернии. 1902, 1904, 1906, 1912, 1914; Первая Всеобщая перепись населения Российской империи 1897 г. Вып.LXXI. Эриванская губ. СПб., 1905; Статистический взглядь на Эриванскую провинцию // ТВ, 1831, №6,7; Статистическое описание городов Тифлисской и Эриванской губернии // КК на 1866, с.49-90; Статистическое описание городов Тифлисской и Эриванской губернии. Тифлис, 1894

Tədqiqat işinin metodoloji əsasını tarixi inkişafın ümumi qanunauyğunluğuna əsaslanan nəzəri baxışlar sistemi təşkil edir. Bu nəzəri baxışlar tarixi tədqiqat metodları vasitəsi ilə araşdırmaya tətbiq edilmişdir. Onların sırasında ümumi elmi metodlar (sintez, analiz və s.) ilə eyni zamanda tarix elmində geniş tətbiq olunan konkret elmi metodlar, o cümlədən genetik, tarixi-müqayisə və s. mühüm yer tutur. Belə bir metodoloji yanaşma tədqiq edilən problemi obyektiv şəkildə öyrənməyə imkan vermişdir.

Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

-Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq İrəvan bölgəsində xalçaçılıq sənətinin inkişafı kompleks şəkildə tədqiq olunmuşdur;

-İrəvan bölgəsinin XVIII əsrin II yarısı-XX əsrin əvvəllərindəki iqtisadi vəziyyəti, xüsusilə iqtisadi həyatında xalçaçılığın yeri müəyyənləşdirilmişdir;

-Azərbaycan tarixşünaslığında və sənətşünaslıq ədəbiyyatında ilk dəfə olaraq Azərbaycan xalçalarının İrəvan qrupu ayrılmış, onun Azərbaycan xalçaçılığında yeri və rolu müəyyənləşdirilmişdir;

-ümumilikdə İrəvan bölgəsi, o cümlədən bölgənin bütün tarixi mahalları üzrə xalçaçılığın ənənələri və vəziyyəti tədqiq edilmişdir;

-ilk dəfə olaraq müəyyən edilmiş xronoloji çərçivə üzrə mürəkkəb və sistemli şəkildə aparılan iş nəticəsində İrəvan bölgəsinin bütün mahallarına aid 100 xalça toplanmış, onların müasir texnologiyaların yaratdığı imkanlar daxilində fotoları çəkilmiş və tədqiqat işinə əlavə edilmişdir ki, bu da həmin xalçalar haqqında tam təsəvvür yaratmağa imkan vermişdir;

-toplanmış 100 xalçanın hər birinin tarixi və bədii, texnoloji təhlili aparılmışdır;

-İrəvan bölgəsi xalçaları üzərində tətbiq edilən əsas işarə və simvollar müəyyən edilmiş, onların semantikası açıqlanmışdır.

İrəvan bölgəsində xalçaçılıq sənətinin inkişafının öyrənilməsi nəticəsində Azərbaycan xalçaçılıq məktəbləri içərisində yeni İrəvan qrupunun ayrılması ilə Azərbaycan xalçaçılığının tarixi və sənətkarlıq xüsusiyyətlərinin ümumiləşdirilməsində orijinal istiqamət açılmışdır. Bu baxımdan tədqiqat işindən həm konkret olaraq İrəvan bölgəsinin xalçaçılığının öyrənilməsində, həm də Azərbaycan xalçaçılığına dair ümumiləşdirici əsərlər yazılmasında istifadə etmək olar. Azərbaycan xalçaçılığına, Azərbaycanın iqtisadi, sənətkarlıq və incəsənət tarixinə dair xüsusi kurslarda bu materiallardan faydalanmaq mümkündür.

Tədqiqat nəticəsində İrəvan bölgəsi xalçalarının müəyyən edilmiş sənətkarlıq xüsusiyyətlərindən, müxtəlif çeşnilərindən xalça toxunmasında da istifadə edilə bilər. İrəvan bölgəsinə aid xalçaların muzey və qalereyalarda nümayişi ilə həm bölgənin, həm də bütövlükdə Azərbaycan xalçaçılıq sənətinin yüksək inkişafı haqqında tam təsəvvür yaratmaq olar.

# I. İrəvan bölgəsi
# XVIII əsrin II yarısı - XX əsrin əvvəllərində

İrəvan Azərbaycanın qədim tarixi-coğrafi bölgələrindən biridir. Hazırda İrəvan bölgəsi "Qərbi Azərbaycan" da adlandırılır.

Azərbaycanın digər bölgələri kimi, İrəvan bölgəsi də arxeoloji abidələrlə zəngin olmuşdur. Bu bölgə həmin ərazidə meydana gələn müstəqil İrəvan xanlığınadək Azərbaycanda mövcud olmuş dövlətlərin tərkibinə daxil idi. İrəvan bölgəsi Albaniya dövlətinin (e.ə. IV-e.VII əsrlər) meydana gəlməsində və inkişafında mühüm rol oynamışdır. VII əsrdə Ərəb Xilafətinin hakimiyyəti ilə islam dininin yayılması bölgənin dini həyatında köklü dəyişikliklərə səbəb olsa da, Albaniya dövrünün xristianlıq ənənələri də davam etmişdir. Ərəb xilafətinin dağılması ilə müstəqil Azərbaycan dövlətləri yaranan zaman, İrəvan bölgəsi Sacilər, sonra isə Şəddadilər dövlətlərinin tərkibində olmuşdur. Səlcuq imperiyasının parçalanması yeni və güclü Azərbaycan Atabəylər dövlətinin (1136-1225) yaranması ilə nəticələnmişdir. İrəvan bölgəsi Atabəylər dövləti tərkibində də vacib rol oynayırdı. Monqol imperiyasından (XIII-XIV əsrlər) sonra İrəvan bölgəsi Qaraqoyunlu (1410-1468), Ağqoyunlu (1468-1501) və Səfəvilər (1501-1736) dövlətlərinin tərkibində olmuşdur.

Nadir şahın (1736-1747) ölümündən sonra Azərbaycanda meydana gələn xanlıqlardan biri də İrəvan xanlığı idi. İrəvan xanlığı "Şimali Azərbaycanın qərbində-keçmiş Səfəvi imperatorluğunun inzibati-ərazi vahidlərindən biri olan Çuxursəd bəylərbəyiliyinin ərazisində yaranmışdı".[1] Xanlıq Ağrıdağ düzənliyi, Göyçə gölü hövzəsi və Araz çayından cənub-qərbə doğru uzanan Qərbi Azərbaycan torpaqlarını əhatə edirdi **(Xəritə 1).** İ.Şopenə görə, xanlıq paytaxtı İrəvan şəhəri olmaqla inzibati cəhətdən 15 mahala bölünürdü: Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Saatlı, Talın, Seyidli-Axsaxlı (xəritədə Seyid-Axsaqqal), Sərdarabad, Karpi, Aparan, Dərəçiçək, Göyçə.[2]

İrəvan xanlığının əhalisini demək olar ki, azərbaycanlılar təşkil edirdi. Ermənilərə gəldikdə, bu barədə xüsusi tədqiqatda qeyd edilir ki, "ümumiyyətlə, XIX yüzilliyin əvvəlində - Rusiya işğalına qədər ermənilərin Azərbaycan torpaqlarında toplu halında yaşamasını dövrün heç bir qaynağı təsdiq etmir".[3]

İrəvan xanlığının idarə sistemi Azərbaycanın digər xanlıqlarında olduğu kimi idi. Dövlətin başçısı xan idi. İrəvan xanlığını mövcud olduğu dövrdə (1747-1827) Mehdi xan Qasımlı (1747-1748), Məhəmməd Hüseyn xan Gəraylı (1748-1751), Xəlil xan Özbək (1751-1755), Həsənəli xan Qacar (1755-1759), onun qardaşı Hüseynəli xan (1759/60-1783), Hüseynəli xanın oğlanları Qulaməli xan (1783-1784) və Məhəmməd Hüseyn xan (1784-1805), Əliqulu xan Qacar (1797, iyun), Həsən xan Məkulu (1797, yay), Mehdiqulu xan Qacar (1805-1806), Əhməd xan Marağalı (1806, avqust-oktyabr), Hüseynqulu xan Qacar (1806-1827) burada hakimiyyətdə olmuşdur.[4] İrəvan xanlarının əsas siyasi xətti xanlığın müstəqilliyini təmin etməkdən ibarət idi. 1790-cı illərədək

---

[1] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi... s.37

[2] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. СПб., 1852, с. 442-443

[3] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi... s.80

[4] Yenə orada, s. 60-61




dövrün gərgin siyasi hadisələrinə baxmayaraq, İrəvan xanları müstəqilliyi qorumağa nail ola bilmişdilər. Ağa Məhəmməd Qacarın hakimiyyət uğrunda mübarizədə qalib gəlib, mərkəzləşdirmə siyasəti yürütməsi ilə İrəvan xanlığının müstəqilliyi üçün də təhlükə yarandı.

Ağa Məhəmməd Qacar 1795-ci ilin yayında 35 günlük mühasirədən sonra İrəvan qalasını tutdu. 1796-cı ildə V.Zubovun hücumu zamanı Məhəmməd xan diplomatik manevr edərək, Rusiyaya meylləndi. Qacarın yeni hücumu zamanı Məhəmməd xan tutuldu və hakimiyyət Əliqulu xana keçdi. Qacarın ölümündən sonra Əliqulu xan İrəvandan qovuldu. İranın yeni şahı Fətəli şah Məhəmməd xanı yenidən hakimiyyətə gətirdi. 1804-1813-cü illər Rusiya-İran müharibəsi zamanı Rusiyanın İrəvan xanlığını işğal planı baş tutmadı. Gülüstan müqaviləsilə İrəvan xanlığı İranın tərkibinə keçdi[1] **(Xəritə 2).**

[1] Muradov V. Azərbaycan xalçaları. İrəvan qrupu. Bakı, 2011, s. 15

Xəritə 2

## İrəvan və Naxçıvan xanlıqları. 1823-cü il (Qafqaz xəritəsindən fraqment)




Qaynaq: Rusiya Dövlət Qədim Aktlar arxivi; War against Azerbaijan. Targeting Cultural Heritage. Baku, 2007

1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı hər iki tərəfin əsas strateji hədəflərindən biri İrəvan şəhərinin və xanlığın işğalı idi. Rusiyanın hücumlarına qarşı dəfələrlə qəhrəmanlıqla müqavimət göstərilməsinə baxmayaraq, ermənilərin xəyanəti üzündən 1827-ci ilin oktyabrında İrəvan şəhəri işğal olundu **(Xəritə 3)**. Türkmənçay müqaviləsilə xanlıq Rusiyaya birləşdirildi və ləğv edildi.[1]

İrəvan xanlığının iqtisadi həyatında kənd təsərrüfatı əsas yer tutsa da, sənətkarlıq da inkişaf etmişdi. Sənət sahələri arasında xalçaçılığın mühüm rolu var idi. Şopen toxuculardan bəhs edərkən, xalça məmulatları istehsalına da diqqəti cəlb etmişdir.[2] İrəvan xanlığının tarixinə aid tədqiqatlarda qeyd edilir ki, "İrəvan xanlığında fərdi sənətkarlıqda xalçaçılıq əsas yerlərdən birini tuturdu. Xalçaçılar həm özləri, həm də

[1] Muradov V. Azərbaycan xalçaları. İrəvan qrupu. Bakı, 2011, s. 15

[2] Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи..., 336-365 СПб., 1852, с. 442-443

Xəritə 3

# Rus ordusunun İrəvan yürüşləri. 1804-1827-ci illər (sxem-xəritə)




Qaynaq: Григориян З.Т. Присоединение Восточной Армении к России в начале XIX в. М.,1959, с.83

**"Ermәni vilayәti". 1834-cü il.**
**(Qafqaz xәritәsindәn fraqment)**

Xәritә 4






Qaynaq: Rusiya Dövlәt Qәdim Aktlar arxivi;
War against Azerbaijan.
Targeting Cultural Heritage. Baku, 2007

satış üçün xalça-palaz hazırlayırdılar. Boyaqçılığın inkişafına da diqqәt yetirilirdi. Yunun vә müxtәlif ev әşyalarının boyanmasında tәbii bitkilәrdәn istifadә edilirdi".[1]

Çar hökumәti Azәrbaycanın işğal edilmiş Naxçıvan vә İrәvan xanlıqları әsasında 1828-ci il mart ayının 21-dә "Ermәni vilayәti"[2] yaratdı **(Xәritә 4)**. Bu vilayәt 1840-cı il islahatı zamanı lәğv edildi. Belә bir addım sübut edir ki, hәmin vilayәtin yaradılmasının heç bir tarixi zәmini olmamışdır. Hәmin vilayәtin әsasında yaradılan İrәvan vә Naxçıvan qәzaları Gürcü-İmeret quberniyasına tabe edildi **(Xәritә 5)**. Lakin bu da uzun sürmәdi, 1849-cu il iyunun 9-da tarixi İrәvan vә Naxçıvan әrazisindә İrәvan quberniyası tәşkil edildi. İrәvan bölgәsinin tarixi mahalları әsasında, sonrakı dәyişikliklәrlә birgә, İrәvan, Aleksandropol, Eçmiәdzin, Naxçıvan, Novobayazid, Şәrur-Dәrәlәyәz vә Sürmәli

[1] Әlәkbәrli Ә. Qәrbi Azәrbaycan. II c. Zәngibasar, Gәrnibasar vә Qırxbulaq mahalları. Bakı, 2002, s.46
[2] Высочайший указ Сенату об образов Армянской области // Государственный Исторический Архив Российской Федерации, ф. 880, оп.5, д. 389, л.1805.

Xəritə 5

**Qafqazın 1847-ci il xəritəsində Qərbi Azərbaycan ərazisi**



Qaynaq: Rusiya Dövlət Qədim Aktlar arxivi;
War against Azerbaijan.
Targeting Cultural Heritage. Baku, 2007



qəzaları yaradıldı **(Xəritə 6)**. İrəvan şəhəri, əvvəllər olduğu kimi, mərkəz funksiyasını yerinə yetirməkdə davam edirdi **(Xəritə 7)**. Rusiya imperiyasının hakimiyyəti dövründə İrəvan quberniyasında **(Xəritə 8)** azərbaycanlılara qarşı çarizmin ağır müstəmləkə zülmü bərqərar edilmişdi.

Rusiya imperiyası İrəvan xanlığını işğal etdikdən sonra ermənilərin bu torpaqlara kütləvi şəkildə köçürülməsi






siyasətini həyata keçirməyə başladı. Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən İrəvan bölgəsinə köçürülməsi 1828-ci il Tükmənçay müqaviləsindən sonra daha geniş miqyas aldı.[1]

Ermənilərin köçürülməsini təşkil etmək üçün İrəvanda və Naxçıvanda köçürmə komitələri yaradıldı. Köçkünlərə mühüm güzəştlər edildi: onlar 6 il müddətində vergi və imtiyazlardan azad olundu, ermənilərə İrandan ayrılan təzminat hesabına vəsait verildi və i.a.

Hazırlıq tədbirləri həyata keçirildikdən sonra köçürmə başladı. İrandan köçürülən ermənilərin sayı 40-50 min nəfər təşkil edirdi. 1828-1829-cu illər rus-türk müharibəsinin gedişində və müharibədən sonra Türkiyədən də 90 minədək erməni köçürüldü. Köçürmənin əsas istiqaməti Cənubi Qafqazdakı Azərbaycan torpaqlarına yönəlmişdi. N.Şavrov 1911-ci ildə Peterburqda nəşr olunmuş “Zaqafqaziyada Rusiya mənafeyinə yeni təhlükə” adlı kitabında yazırdı ki, “Hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu diyarın yerli əhalisi deyil və bura bizim tərəfimizdən köçürülmüşdür”.[2] Ermənilər köçürülərkən onların Şimali Azərbaycan torpaqlarında, xüsusilə Naxçıvan, İrəvan və Qarabağda yerləş-

[1] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi... s.373-499
[2] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажи Мугани инородцам. СПб., 1911 (Баку, 1990, с.63)

Xəritə 7

**İrəvan şəhərinin planı**





Qaynaq: СМОМПК, вып. I, Тифлис, 1881

dirilməsinə mühüm əhəmiyyət verilirdi. Nersesin layihəsinə görə, rus ordusunun tutduğu bölgələrdən - Təbriz, Xoy, Salmas, Marağadan bütün ermənilər Naxçıvan, İrəvan və Qarabağ vilayətlərinə köçürülməli idi. Onun bu tələbi köçürmə işində canfəşanlıq edən erməniпərəst güruh tərəfindən ardıcıl şəkildə həyata keçirildi. Yuxarıda adı çəkilən N.Şavrov da qeyd edirdi ki, müharibədən sonrakı iki ildə (1828-1830-cu illər) biz Zaqafqaziyaya İrandan 40 min, Türkyədən 84 min erməni köçürmüş və onları ermənilərin azlıq təşkil etdiyi İrəvan və Yelizavetpol quberniyalarında yerləşdirmişdik. Oralara 200 min desyatin xəzinə torpağı ayrılmış, onlar üçün müsəlmanlardan 2 milyon manatlıq xüsusi sahibkar torpağı satın alınmışdır. Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölü sahili həmin ermənilərlə məskunlaşdırılmışdır.[1]

Ermənilərin köçürülməsi nəticəsində Qarabağ, İrəvan və Naxçıvan bölgələrinin əhalisinin etnik tərkibi əsaslı dəyişikliyə məruz qaldı. Rusiya tərəfindən işğal edilənədək İrəvan xanlığının əhalisinin 20%-dən bir az çoxunu əvvəllər köçürülmüş ermənilər təşkil edirdisə, 1834-1835-ci illərdə bu rəqəm 46%-i ötmüşdü.[2]

Ermənilərin Rusiya tərəfindən işğal olunmuş Şimali Azərbaycan torpaqlarına, o cümlədən İrəvan bölgəsinə köçləri 1853-1856-cı illər Krım müharibəsi, 1877-1878-ci

[1] Там же

[2] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi... s.397

Xəritə 8

## İrəvan quberniyası






Qaynaq: Памятная книжка Эриванской губернии на 1914 г. Тифлис, 1913

illər rus-türk müharibələri, XIX əsrin 90-cı illərində Osmanlı imperiyasında dövlət əleyhinə yönəlmiş erməni qiyamlarının yatırılmasından sonra da davam etdirilmişdir.

Çar Rusiyası tərəfindən ermənilərin köçürülməsilə Azərbaycan torpaqlarında etnodemoqrafik durumun ermənilərin xeyrinə dəyişdirilməsi ilə yanaşı, onların idarəetmə sistemində və təsərrüfat həyatında möhkəmləndirilməsi tədbirləri də reallaşdırılırdı. Bü-

tün bunlar ermənilərin yerli azərbaycanlı əhalisinə qarşı düşmənçilik münasibətinin yaranmasına və dərinləşməsinə səbəb oldu. İrəvan qubernatorunun çara göndərdiyi 1905-ci il hesabatından məlum olur ki, çar Rusiyasının hakimiyyət orqanları tərəfindən silahlandırılan və qızışdırılan ermənilərlə dinc azərbaycanlı əhali arasında ilk toqquşmalar hələ XIX əsrin 80-ci illərində baş vermişdir. Tarixə 1905-1906-cı illər "erməni-müsəlman davası" kimi daxil olan hadisələr zamanı erməni silahlı dəstələri azərbaycanlılara qarşı genişmiqyaslı müharibəyə başlamışdılar. Ermənilər Bakı, Naxçıvan və Qarabağla yanaşı, İrəvan şəhəri və qəzasında, Üçkilsə (Eçmiədzin) və Zəngəzurda da 1905-ci ilin iyun – 1906-cı ilin avqust aylarında azərbaycanlılara qarşı açıq müharibəyə keçmiş, qətllər, qarətlər və soyqırımları törətmişdilər.[1]

Fevral inqilabı (1917) nəticəsində çarizmin devrilməsi xəbəri İrəvan quberniyasına martın əvvəllərində çatdı. Quberniyada Müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının formalaşdırılmasına başlandı. Martın 14 (27)-də təşkil olunan Quberniya İcraiyyə Komitəsi özünü Xüsusi Zaqafqaziya Komitəsinin (rusca OZAKOM - Особый Закавказский Комитет) yerli orqanı elan etdi. Qəzalarda da icraiyyə komitələri yaradıldı. Müvəqqəti hökumət tərəfindən İrəvan quberniyasına və qəzalara komissarlar təyin edildi.[2]

Fevral inqilabından (1917) sonra İrəvan quberniyasında sovetlər də yaranmağa başladı. Martın 8 (21)-də Aleksandropolda əsgər, sonra isə fəhlə deputatları sovetləri meydana gəldi. Hər iki sovet tezliklə birləşdi. İrəvan şəhərində də martın 12 (25)-də əsgər, apreldə isə fəhlə deputatları sovetləri yarandı. Mart ayı ərzində İrəvan quberniyasının şəhərlərində sovetlər təşkil olundu. Həm Müvəqqəti hökumətin yerli orqanlarında, həm də sovetlərdə daşnaklar üstünlüyü ələ aldılar. 1917-ci il sentyabrın sonlarında daşnaklar Tiflisdə "Erməni milli müşavirəsi" çağırdılar. Müşavirədə Erməni milli şurası (sədr A.Aqaronyan) təşkil edildi. İrəvan şəhərində və quberniyanın qəzalarında da milli şuraların təşkil olunmasına başlandı. Erməni milli şurası İrəvan quberniyasının azərbaycanlı əhalisinə qarşı soyqırım siyasətinin hazırlanması və həyata keçirilməsi, Osmanlı imperiyasında ermənilərin pozuculuq fəaliyyətinin təşkili, Qafqaz cəbhəsində vuruşmaqdan ötrü erməni korpusunun komplektləşdirilməsi üçün tədbirlər görməyə başladı. Oktyabr çevrilişindən (1917) sonra yaradılan Zaqafqaziya komissarlığı (1917, 15 (28) noyabr) hakimiyyətini İrəvan quberniyasına da yaydı. İrəvan quberniyasında da Müəssisələr məclisinə (Rusiya) seçkilərdə daşnaklar və sazişçilər qalib gəldilər. 1918-ci ilin 10 (23) fevralında işə başlayan Zaqafqaziya Seymi Cənubi Qafqazın Rusiyadan ayrılmasını təsdiqlədi (1918, mart). Zaqafqaziya Demokratik Federativ Respublikası elan olunduqda (1918, 22 aprel) İrəvan quberniyası onun tərkibinə qatıldı.

Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) hökuməti İrəvan quberniyası və Osmanlı imperiyasında yaşayan ermənilərdən özünün siyasi məqsədləri üçün istifadə etmək xəttini həyata keçirirdi. 1917-ci il dekabrın 17 (30)-də Millətlərin işləri üzrə xalq komissarlığında erməni işləri üzrə ayrıca komissarlıq yaradılmışdı. RSFSR Xalq Komissarları Soveti 1917-ci il dekabrın 27-də (1918, 11 yanvar) "Türkiyə Ermənistanı haqqında dekret" qəbul etdi. Rus hərbi hissələrinin Qafqaz cəbhəsindən

---

[1] Muradov V. Azərbaycan xalçaları. İrəvan qrupu. Bakı, 2011, s. 22-25

[2] Yenə orada. s. 19

geri çağırılması (1917, dekabr-1918, yanvar) daşnakların mövqeyini xeyli gücləndirdi. İrəvan quberniyasında azərbaycanlılara qarşı soyqırımı daha da genişləndirildi.

Zaqafqaziya Seyminin dağılmasından sonra (1918, 26 may) daşnaklar 1918-ci il mayın 28-də Tiflisdə Erməni (Ararat) Respublikasının yaranmasını elan etdilər. 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının Tiflisdə keçirilən iclasında İrəvan şəhəri ermənilərə verildi.[1]

Azərbaycanın İrəvan bölgəsində erməni dövləti yaradıldıqdan sonra, azərbaycanlılara qarşı deportasiya və soyqırımlar dövlət səviyyəsində həyat keçirilməyə başladı. Ermənistan hökuməti bununla kifayətlənməyərək azərbaycanlılara məxsus yer adlarını da erməniləşdirməyə başladı. Azərbaycanlılara qarşı deportasiya və soyqırımlar sovet hökuməti dövründə də davam etdirildi.[2] 1980-ci illərin sonlarında isə azərbaycanlılar Ermənistandan tamamilə deportasiya edildilər.

İrəvan bölgəsinin xalçaçılıq sənəti həmin torpaqların azərbaycanlıların tarixi-etnik torpaqları olmasını təsdiq edən əsas qaynaqlardan biridir.

---

[1] Muradov V. Azərbaycan xalçaları. İrəvan qrupu. Bakı, 2011, s. 20-21

[2] Deportasiya. Bakı,1998; Didərginlər. Bakı, 1990; Erməni cinayətləri. Bakı, 2004; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı,1995.

## II. İrəvan bölgəsində xalçaçılığın tarixi coğrafiyası: mahallar və onların xarakteristikası

İrəvan şəhəri və onun ətrafında olan mahallar qədim türk-oğuz tayfalarının yaşadığı ərazilər olmuşdur. Bu ərazidə olan saysız-hesabsız yaşayış məskənləri, nekropollar, kurqanlar, qala, saray və istehkam qalıqları, karvansaralar, körpülər, qəbirüstü sərdabələr, eləcə də at, qoç heykəlləri, məbəd, kilsə, məscid, pir və ocaqlar yerli əhalinin tarixindən, dünyagörüşündən, etnik mənsubiyyətindən xəbər verir. İstər coğrafi adlar, istərsə də müasir dövrümüzə qədər gəlib çatmış folklor nümunələri[1] vaxtilə bu ərazidə yaşamış Azərbaycan türklərinin (azərbaycanlıların) keçmişini, zəngin mədəni irsini özündə təcəssüm etdirir. Buranın yerli əhalisi sənətkarlıq, əkinçilik və heyvandarlıqla məşğul olmuş, təbiətin bəxş etdiyi nemətlərdən səmərəli şəkildə istifadə etmişdir.

Bu bölgədə ənənəvi türk dünyagörüşünü əks etdirən mif və rəvayətlərdən başqa, hər bir coğrafi adın, müqəddəs yerin tarixçəsini özündə yaşadan hekayətlər də yaranmışdır. Ağbabadan Vedibasara, Lorudan Zəngəzura, Göyçədən Zəngibasara qədər olan ərazidə sıx yaşamış əhali tarixi kökləri çox qədimlərə gedən memarlıq, sənətkarlıq nümunələri ərsəyə gətirmişdir.

İrəvan bölgəsinin ərazisində olan abidə adlarının əksəriyyəti özünün orijinallığı, eyni zamanda, türk mənşəli semantikası ilə seçilir. Bu bölgənin sakinlərinin mifik görüşləri, onların yaratdıqları şifahi xalq ədəbiyyatı, o cümlədən nağıl qəhrəmanları sənət nümunələrində, xüsusən də xalçaçılıq sənətində obrazlı şəkildə əks olunmuşlar. Nuhun gəmisi haqqında əfsanənin Gəmiqaya və Naxçıvanla bağlılığına diqqət yetirilsə, aydın olar ki, bu bölgənin demək olar ki, hər kəndində həmin rəvayətlə əlaqədar olan toponim və etnotoponimlər vardır. Ağrıdağı və Ağrıdağın vadisi Vad bütünün adından götürülmüş Vedi, Gögər, Erbi, Zəngi, Gərni, Qamər, Artaş, Saklarla bağlı yer adları qədim türk tayfaları ilə əlaqədardır. "Kitabi-Dədə Qorqud" dastanındakı əksər yer və tayfa adlarının izləri Qərbi Azərbaycandadır. Bu bölgənin folklor nümunələrində adına ən çox rast gəlinən məkan Ağrıdağıdır. İrəvan miflərində sakral element kimi ilk məkan Ağrıdağı, ilk zaman isə Nuh əyyamıdır. İrəvan folklorunda xalqın dağla bağlı mifoloji görüşləri ilə birləşmiş Agrıdağı obrazı bu bölgədə yaşayanların təsəvvüründəki dünya modelinin sakral mərkəzi kimi semantik yozuma malikdir. Bu ərazidə yaşayan xalqın dəyərlər sistemində torpaq, dağ bir simvola çevrilərək, təkcə yaşayış məskəni kimi deyil, eyni zamanda, dünyaya çıxış obrazı kimi folklorda təcəssümünü tapmışdır. Qədim türklərin epik nümunələrində Ərgənəkon, Altay, Altuntuğ, Altunqan və müqəddəs sayılan digər dağ adları kimi Ağrıdağı və Ələyəz/Alagöz dağı da obraz kimi öz ifadəsini tapmışdır. Bu bölgədə yaranan mif, əfsanə və nağıllarda dağ əjdaha obrazı ilə assosiasiya olunur. Hunların, bulqarların mifik görüşlərində dağın ruhu əjdaha obrazı ilə təsvir edilir. Bölgənin dağlıq ərazidə yerləşməsi isə buranın həm də müdafiə, qorunma timsalı kimi də folklorda özünə yer tutmasına zəmin yaradır. Yağı bu ellərə ayaq basanda insanların dağa xitabən

[1] Azərbaycan folkloru antologiyası. III kitab (Göyçə folkloru). Bakı, 2000; Azərbaycan folkloru antologiyası. VII kitab (Qaraqoyunlu folkloru). Bakı, 2002; Azərbaycan folkloru antologiyası. VIII kitab (Ağbaba folkloru). Bakı, 2003; Azərbaycan folkloru antologiyası. XII kitab (Zəngəzur folkloru). Bakı, 2005; Azərbaycan folkloru antologiyası. XV cild (Dərələyəz folkloru). Bakı, 2006.

söylədikləri ağız ədəbiyyatında əsas motivlərdən biri də xeyirlə şərin mübarizəsidir. Müqəddəs yerlərdən, gerçək tarixi şəxsiyyətlərdən bəhs edən rəvayətlər, dastanlar buradakı əhalinin ümumi türk inancından bəhrələndiyini, o cümlədən bu dünyagörüşün bölgə üçün hakim olduğunu göstərir.

Qərbi Azərbaycanın İrəvan şəhəri, Vedibasar, Zəngəzur, Dərələyəz, Ağbaba, Şörəyel, Loru, Pəmbək, Göyçə, Qaraqoyunlu, Şəmşəddin kimi bölgələri digər mahallarla sıx əlaqədə olmuşdur. Böyük ticarət yollarının üzərində olan bu bölgəni Osmanlı dövləti ilə, Şimali və Cənubi Azərbaycanla, Borçalı mahalı ilə ayrılmaz tellər bağlamışdır. Şəmşəddin, Qaraqoyunlu və Göyçə mahallarında yaşayan türklərin adət-ənənə, məişət baxımından Gəncəbasarın yerli əhalisi ilə demək olar ki, eyni olması tarixi faktdır. Zəngəzur mahalının əhalisi adətlərinə, məişətinə görə Qarabağ türkləri ilə eynilik təşkil etmişdir. Bu ərazinin qərb hissəsində yaşayan azərbaycanlılar Anadolu türkləri ilə qaynayıb-qarışmış, onlarla sıx əlaqədə olmuşdur. İrəvan, Zəngibasar kimi ərazilərin Güney Azərbaycanın Təbriz, Xoy, Maku kimi şəhərləri ilə bağlılığı, əlaqələri də bir faktdır. Bu istər şivələrdə, istərsə də sənətkarlıq nümunələrində, adətlərdə özünü qabarıq şəkildə göstərir. Zəngin mədəni irsi, folkloru, ədəbiyyatı və musiqisi ilə seçilən bu bölgə bütöv Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Ayrı-ayrı bölgələrin tarixi, mədəni irsi, toponimləri də onun ümumi Azərbaycan tarixi və mədəniyyəti ilə birbaşa bağlılığını göstərir.

Rəngarəng və zəngin təbiətə malik olan Qərbi Azərbaycan, əsasən, dağlıq və dağətəyi bölgə hesab olunur. Bolsulu çaylar, çəmənliklər bu ərazini xüsusilə heyvandarlıq üçün yararlı etmişdir. Vedi və Qəmərli, Əştərək bölgələri zəngin bağları, üzümlükləri, Mehri ərazisi subtropik meyvələri ilə seçilirsə, qalan ərazilər daha çox alp çəmənlikləri və dağ bitkiləri ilə məşhurdur. Əsasən, palıd, vələs, çinar, armud, alma, gilas, qoz, zoğal və alça ağacları ilə zəngin olan meşə örtükləri ilə yanaşı, bu yurd yerinin çöllərində rəngarəng bitkilər, qayalarında isə cürbəcür kollar bitirdi. Relyefin mürəkkəbliyi və çoxcəhətliliyi onun bitki aləmini də təkrarsız edirdi. Bu amillər istər heyvandarlığın (xüsusilə də qoyunçuluğun) inkişafını, istərsə də təbii boyaqların alınmasını şərtləndirirdi.

Bu ərazidə yaşayan azərbaycanlıların məişətində xalça və xalça məmulatları əsas yer tutmuşdur. Qərbi Azərbaycanda müxtəlif ölçülü xalçalarla, kilimlərlə bərabər, "Namazlıqlar", çullar və digər xalça məmulatları da toxunurdu. Zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng-kompozisiya həllinə çoxçeşidli boyalar bəxş etmişdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürləri, mifik görüşləri, inancları mühüm yer tutmuş, onlar xalçalar üzərində öz ifadəsini tapmışdır. Mifoloji quşlar, heyvanlar, həmçinin dünyaya yanaşma tərzindən irəli gələn semantik elementlər bu bölgənin xalçaları üçün spesifik idi. Azərbaycanın müxtəlif xalça qrupları ilə sıx əlaqəsi duyulan İrəvan xalçalarının bu ərazidə yaşayan insanların düşüncə və hisslərinin müstəvisi kimi çıxış etdiyini tam əminliklə söyləmək olar.

İrəvan xanlığının Azərbaycan xanlıqları, eləcə də bir çox xarici ölkələrlə geniş ticarət əlaqələri olmuşdur.[1] 1782-ci ildə burada olmuş rusiyalı Reyneks İrəvanın pambıq parça, ipək, yazlıq buğda, şərabla zəngin olduğunu söyləmişdir. Burada, həmçinin çəltik istehsalı, küncüt, kətan becərilirdi. İ.Şopen İrəvanda olarkən xanlığın ərazisində

[1] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Red. və ön sözün müəllifi K.Şükürov. İkinci nəşri. Bakı, 2007, s. 47-48 (I nəşri 1997); İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi... s. 109-110.

gördüyü toxmaçarlıqların sayını ipəkçiliyin geniş yayılması ilə əlaqələndirir. Dövrün mənbələrində 1782-ci ilin martında, bayazitli İsak Paşanın xahişi ilə, İrəvandan Bayazitə yeddi min dinar iki abbası dəyərində qara qarpız, göy qarpız, mürsəqulu, xiyar, sürahi, reyhan, xına tozu, badımcan və s. toxumlarının göndərilməsi haqqında danışılır. Üçkilsə məbədinin məxaric dəftərində qeyd edilmiş toxum adlarının hamısı Azərbaycan türkcəsindədir. Dövrün mənbələrində bu toxumların adlarının Azərbaycan türkcəsində yazılması, bu torpaqda qədim dövrlərdən elə Azərbaycan türklərinin yaşadığını, onların oturaq həyat tərzi keçirdiklərini, xüsusilə də əkinçilik və kənd təsərrüfatının digər sahələri ilə məşğul olduqlarını, ermənilərin isə bu bölgəyə sonradan gəldiyini bir daha sübut edir.[1]

Ağrı vadisində Azərbaycanın digər bölgələri üçün səciyyəvi olan yaylaq-qışlaq maldarlığı inkişaf etmişdi. Qırxbulaq, Göyçə, Aparan, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın mahallarındakı otlaqlar heyvandarlığın inkişafı üçün münbit şərait yaradırdı. O dövrün mənbələri İrəvana Təbrizdən çoxlu karvanların gəlməsinə dair məlumatlar verir. İrəvandan Tiflisə, Ərzuruma, Axalsıxa, Qarsa pambıq, Təbriz, Xoy, Bayazitə düyü, buğda, arpa və duz aparılırdı. İrəvan bölgəsinin yolların kəsişməsində yerləşməsi burada çoxlu sayda körpülərin, karvansaraların, zərbxanaların və bazarların olmasına rəvac verirdi. Ticarət yollarından biri Hindistan, Mərkəzi Asiya və İranı Təbriz və Naxçıvan vasitəsilə İrəvan xanlığına bağlayan karvan yolu idi. Bu yola "Ərzurum yolu" və ya "Bəzirgan yolu" da deyirdilər. İrəvandan Ərzuruma gedən digər karvan yolu Aparan və Alagöz dağının şimal ətəyindən keçib Qarsa, oradan da Həsənqalaya yetişir, sonda ana xəttə qovuşurdu. İrəvandan Tiflisə gedən karvan yolu Üçkilsə, Sərdarabad, Hamamlı, Calaloğlu və Şulaverdən də keçirdi. XVII əsrdə fransız səyyahı J.Şarden bu yolun uzunluğunun İrəvan-Ağstafa yolu qədər olduğunu yazırdı. J.Şarden bu yolun üstündə yerləşən yaşayış məntəqələrinin adlarını da qeyd etmişdir. İrəvandan Ağstafaya gedən yolda Bjni, Keşikkənd, Dəlican, Qaradaş, Məlikkənd, Körpükənd yaşayış məntəqələri yerləşirdi. İrəvan bu yolla Gəncə ilə əlaqə saxlayır, Şamaxıda isə Azərbaycanın Rusiyaya gedən əsas ticari yoluna bağlanırdı.[2]

İrəvanın ərazisində olan mahallarda abidələr üzərində yazılar, qayaüstü təsvirlər, daşlara həkk olunmuş simvollar əhalinin həyat tərzindən, məişətindən xəbər verir. Azərbaycanın digər bölgələrindəki abidələrə kifayət qədər oxşar olan bu nümunələrdə türk-oğuz boylarının damğaları, bəzən isə adları dəqiqliklə təsvir edilmişdir. Zəngəzur bölgəsində - Qarakilsədə e. ə. II əsrə aid olan tikili qalıqları "Qoşundaş" kimi tanınırdı ki, bu da qədim türklərin bir çox yaşayış məskənlərində rast gəlinən abidələrə bənzəyirdi. Zəngəzurun Urud kəndindəki Babək qalası, kurqanlar, qədim körpü, qəbirüstü abidələr, qoç heykəlləri[3], Ağdu kəndindəki VII yüzilliyə aid olan türk ornamentləri ilə bəzədilmiş 9 metr hündürlüyündə qəbirüstü abidə, Qırmızıtəpədə Qala divarlarının qalıqları, Göyçə gölü sahilində Kolagirən qalasının xarabalıqlarında mixi yazılar, Gərni qalası və onun xüsusi məharətlə işlənmiş naxış və ornamentləri, Üçkilsə ərazisində IV yüzilliyə aid tikililər, mixi yazılarla zəngin olan Göy mələkləri məbədi, Anaqala, Qanlıca, Keçorus, Goş, Qıpçaq ocağı, Ərgəz piri və saysız-hesabsız digər abidələr bu yurd yerinin qədimliyindən xəbər verir.

[1] Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi (qısa tarixi oçerk). Bakı, 1992.
[2] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi... s. 109-110.
[3] Musa Urud. Urud. Bakı, 2000

İrəvan xanlığından da əvvəlki dövrlərdən başlayaraq burada dekorativ-tətbiqi sənət sahələri arasında xalçaçılıq xüsusi yer tutmuşdur. Naxış kompozisiyasına görə Qazax-Borçalı, Qarabağ və Təbriz qruplarına daha yaxın olan İrəvan xalça qrupunun nümunələri zaman-zaman xarici ölkələrə daşınmış, erməni kolleksiyaçılarının sərvətinə çevrilmişdir. Bu gün "erməni xalçası" kimi təqdim edilən bu incilər azərbaycanlı ilmə ustaları tərəfindən toxunmuşdur.

Xalq yaradıcılığının geniş yayılmış növlərindən biri də tikmədir. İrəvan xanlığına məxsus olan bədii tikmə nümunələrindən ikisi hazırda Milli Azərbaycan Tarixi Muzeyində saxlanılır. 1827-ci ildə ruslar İrəvan şəhərini zəbt edərkən qənimət kimi götürdükləri İrəvan xanlığının bayraqları bədii tikmə sənətinin nadir nümunələrindən hesab olunur. Tarixi faktlar təsdiqləyir ki, vaxtilə İrəvanın mərkəzində yerləşən Şiləçi məhəlləsində boyaq bitkilərindən al-əlvan rənglər alınmış, basma naxışlı parçalar istehsal edilmişdir.

Qərbi Azərbaycanın Loru, Pəmbək, Şəmşəddin, Aparan, Talın, Əştərək, Ərzin, Axtı, Qırmızıkənd, Basarkeçər, Kəvər, Sərdarabad, Üçkilsə, Dərələyəz, Vedi, Qəmərli, Zəngibasar, Soylan kimi bölgələri rəngarəng xalçaları ilə seçilirdi. İrəvan xanlığının həyatında mühüm rol oynayan sənətkarlıq müxtəlif sahələri özündə ehtiva edirdi. Azərbaycanlıların ənənəvi sənətkarlıq sahələri olan toxuculuq və dulusçuluq bütün Qərbi Azərbaycan boyunca geniş yayılmışdı. Toxuculuq, o cümlədən xalça, palaz məmulatı istehsalı xüsusilə seçilirdi. O dövrün səyyahları yerli əhalinin qoyun saxladığını və qoyun yunundan gözəl xalçalar, kisə, palaz, çul, qışda geyinmək üçün isti paltarlar, əlcək, corab toxuduğunu qeyd etmişlər. İ.Şopen hər ailədə toxuculuq dəzgahının olmasından xüsusi bəhs etmişdir. Toxuculuqla bağlı olan digər sənət sahəsi boyaqçılıq idi. Bölgə həm də gön-dəri məmulatlarının istehsalı, sabunbişirmə, yağçəkmə və duz istehsalı ilə məşhur idi.[1]

Bölgənin tarixi kökləri çox qədimə gedən xalçaları vaxtilə bütün dünyada məşhur olmuşdur. Lakin azərbaycanlıların İrəvan bölgəsindən məqsədyönlü şəkildə deportasiyası nəticəsində minlərlə insan öz torpağından çıxarılmış, başqa ərazilərə köçürülmüşdür. Təbii ki, bu kəndlərdə xalçaçılıq ənənələri də itib-batmışdır. Azərbaycanın İrəvan bölgəsində toxunan xalçaların tədqiqi üçün tarixi mahallar üzrə təhlil xüsusi əhəmiyyət kəsb edir.

---

[1] İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi... s. 107

## 2.1. Ağbaba və Şörəyel[1]

Ağbaba mahalında yer-yurd adları arasında İbiş, Öksüz, Dəlisərsəran, Çələb, İlanlı adlarına rast gəlinir. Adların mənşəyi burada yaşayan tayfaların adları və inancları ilə bağlı idi. Qədim türk dilində "Allah" anlamını verən "çələb" sözü Ağbaba ərazisində türklərin animistik görüşləri ilə əlaqədar olan yer adı idi. Müqəddəs ruhlara və bu ruhların obraz kimi çıxış etdiyi heyvanlara münasibət, eləcə də şaman inancının izləri özünü xalçalarda da göstərirdi. Ağbabada yaşayan türklər islamı qəbul etdikdən sonra yeni din onların dünyagörüşünə sirayət etməyə başladı. Bölgədə olan məscidlər və evlər üçün toxunan "Namazlıq"lar burada yaşayan türklərin islam dövrü mədəniyyətini əks etdirir. Bu bir daha göstərir ki, Ağbabada tarixən türklər yaşamış və bütün tarixi dövrlərdə öz dünyagörüşlərinin izlərini abidələrə, xalçalara həkk etdirmişlər. İnanclar xalqın ruhunu yaşadan xalçalarda maddiləşmiş, işarələrə çevrilmiş və bu günümüzədək gəlib çatmışdır.

Xalça ağbabalıların məişəti üçün olduqca vacib atribut sayılırdı. Eyni zamanda palazlar, çullar, duz torbaları, xurcunlar, məfrəşlər və d. məmulatlar əhalinin məişətini asanlaşdırırdı. Bu məmulatların toxunma texnologiyası, rəng-kompozisiya həlli yerli əhalinin estetik dünyagörüşündən xəbər verir. Əsasən, heyvandarlıqla məşğul olan yerli əhali cins qoyunlar yetişdirmişdir. Dənli bitkilərdən buğda, arpa, zəyərək əkilir və bu bitkilərdən yağ, bəzir, dağda bitən kollardan və çiçəklərdən müxtəlif dərmanlar, həmçinin ipləri boyamaq üçün cürbəcür rənglər alınırdı.

Ağbaba bölgəsi qərbdən və şimaldan dağlarla əhatə olunmuşdu. Qışı olduqca sərt keçən bu ərazi dağ bitkiləri ilə də zəngindir. Mənbəyini Ziyarət, Göy dağ, Ağbaba dağlarından götürən gur, bolsulu Qaraxan, Civinli, Seldağıdan, Moküz çayları dərənin gözəlinə çevrilmiş Arpa gölünə axıb tökülür. Qədim türk torpağı olan Ağbabada "Kitabi-Dədə Qorqud"un və digər dastanların izlərini az qala hər kəndin, hər dərənin, hər dağın adında görmək olar. Dastanda adı çəkilən Ənsə Qoca Oğlu Oxçu adından Oxçu oğlu kəndi, Qazan xanın adını çəkdiyi Köçkə dağının adından Göy dağın, Dəli Domrulun adından Güllücə kəndi yaxınlığındakı Domrul qalaçasının, Qazan xanın qardaşı Qara Günənin adından Qara Güney təpəsinin adı götürülmüşdür.

Ağbaba bölgəsində yerli adətlər, adlar və onların obrazları xalçalarda da öz ifadəsini tapırdı.

Təəssüflər olsun ki, indi Ağbabada bircə ilmə belə vurulmur. Xalçanın göy qurşağı kimi rəngarəng iplərini özünə dost-sirdaş seçmiş, ilmələrdən tumarını əsirgəməyən əllər bu ərazidən didərgin düşüb. Ermənilər tərəfindən azərbaycanlıların bölgədən qovulması ilə bərabər, Ağbaba torpağı sanki bütün gözəlliklərini insanlardan gizlədib və müqəddəs yurd indi bir xarabazara çevrilib. Uzun qış axşamlarında buradakı qa-

---

1 Burada və daha sonra İrəvan bölgəsi mahallarının tarixi-coğrafi, sosial-iqtisadi vəziyyəti və toponimiyası haqqında aşağıda göstərilən ədəbiyyatdan və müvafiq folklor antologiyasından istifadə edilmişdir: Bayramov A.Ə. Qədim oğuz ellərinin – Ağbaba, Şörəyəl və Pəmbək bölgələrinin yer-yurd adları. Sumqayıt, 1996; Bayramov İ. Qərbi Azərbaycanın türkmənşəli toponimləri. Bakı, 2002.

Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995; Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar... Bakı, 1997; Ələkbərli Ə. Qərbi Azərbaycan. I c. Vedibasar mahalı (Vedi və Qarabağlar rayonları). Bakı, 2003; Флоровский Н. Бамбако-Шурагельская дистанция // Обозрение. ч. II. СПб., 1836.

dınlar bir yerə yığışıb bayatı deyər, nağıl danışar, xalça toxuyardılar. İndi o zamanlardan cəmi bir neçə iş yadigar qalıb. Bununla belə, həmin nümunələrdə o yerlərin naxışı, rəngi bu torpağın əzəli sakinləri olan azərbaycanlıların əl izlərində yüksək bədii sənətkarlıqla əbədiləşmişdir.

Ağbaba və Şörəyel ərazisində toxunmuş xalça və xalça məmulatları **(Ağbaba mahalında toxunan xalçalar. bax: Kataloq. № 17, 55, 63, 65; Şörəyel mahalında toxunan xalçalar. bax: Kataloq. № 52, 53, 88)**, özünəməxsus toxunma texnologiyasına və buranın təbiətindən irəli gələn çalarlarına, kompozisiya quruluşuna görə Qazax-Borçalı xalça qrupuna yaxındır. Bu ərazidə toxunan xalçalar ağır çəkisi, hündür xovu, yumşaqlığı və parlaqlığı ilə seçilir. İlk baxışdan qalın görünən bu xalçalar yüksək keyfiyyətli yundan toxunmuşdur. Bu xalçaların təbii üsulla alınmış qırmızı, sürməyi, sarı, şabalıdı, yaşıl, şəkəri, sürməyi rənglərdən ibarət kolorit həlli göz oxşayır. Onların kompozisiya quruluşu azərbaycanlıların həyat tərzi və məişəti əsasında əsrlər boyunca formalaşmışdır. Bu xalçalarda abstrakt, həndəsi formalı naxışlar üstünlük təşkil edir. Burada rast gəlinən su, ağac, nar, heyvan motivləri, mürəkkəb həndəsi elementlər toplusu, çərxi-fələk insanı qoruyan, onu müdafiə edən simvollar kimi anlaşılır.

Ağbaba və Şörəyel mahallarında, əsasən, kilim, palaz texnikası ilə toxunan xalçalar üstünlük təşkil edirdi. Bu mahalların xalçaları üçün "damğa", "qoşa damğa", "dilikli damğa" və "qarmaqlı" motivlər səciyyəvi idi. Buranın xalçalarının rəngi şuxluğu, oynaqlığı ilə nəzərə çarpır. Bəzən şux rənglərlə sakit rənglər uzlaşdırılaraq, çox baxımlı, özünəməxsus bir rəng düzümü yaradırdı.

## 2.2. Loru və Pəmbək

Loru və Pəmbək mahallarında toxunmuş xalçalar bu bölgədə yetişən meyvələrin, bitkilərin sayəsində əldə edilən rənglərlə özünəməxsus çalarlar qazanmışdır. Bu xalçaları Qazax-Borçalı xalça qrupunun nümunələrindən ayrı təsəvvür etmək mümkün deyil. Bu xalçaların naxışlarını "bədii sənətkarlığın mürəkkəb nümunəsi" də adlandırmaq olar. Zaman keçdikcə bu təsvirlər fərqli tərzdə təcəssüm olunmağa başlamış, sənət tarixinin ayrılmaz hissəsinə çevrilmiş, keçdiyi inkişaf yolunun məntiqi nəticəsi kimi sabit bədii üsluba yiyələnmişdir.

Loru və Pəmbəkdə qara yunlu cins qoyunların bəslənməsi sayəsində burada iplərin fərqli rəng çalarlarını əldə etmək mümkün idi. Bölgədə qoyunla yanaşı, keçi də saxlayırdılar. Yerli əhali keçi qəzilindən müxtəlif xalça məmulatlarının toxunmasında da istifadə etmişdir.

Bu ərazidə ən çox rast gəlinən xalça növlərindən biri kimi "Namazlığ"ı xüsusi qeyd etmək lazımdır. Mürəkkəb və sadə kompozisiyalı xalçalar bu əhalinin dini dünyagörüşü, islami inanclarından rişələnərək toxunmuşdur **(Loru mahalında toxunan xalçalar. bax: Kataloq. № 27, 41, 45, 61, 71; Pəmbək mahalında toxunan xalçalar. bax: Kataloq. № 35, 36, 56, 62, 89)**. Əsas xalçaçılıq məntəqələri kimi mis mədənləri ilə məşhur olan Allahverdi, Böyük Ayrım, Yuxarı Axtala, Pədik, Mosul, kömürü, bazalt qayaları ilə tanınmış Aşağı kilsə, qədim oğuz qəbirləri, saxsı su anbarları, ziyarətgahları ilə tanınan Mollaqışlaq kəndi hələ qədimdən heyvandarlıqla, bağçılıq, tərəvəzçiliklə tanınmış Hollavar, Heydərli kəndləri, Voronsovka, Qaraqala, Qızıldaş,

Cücəkənd, Sarıyal, Soyuqbulaq, Barana bölgəsinin Yuxarı körpülü, Ləmbəli, Ləlvər, Hamamlı bölgəsinin Qursalı, Qızılörən, Saral, Cəlaloğlu bölgəsinin Çubuqlu, Gərgər kimi kəndlərini göstərmək olar. Xüsusilə də Qursalıda əhalinin böyük əksəriyyəti xalça və xalça məmulatlarının toxunması ilə intensiv şəkildə məşğul olmuşdur. Loru, Pəmbək mahallarının mineral ehtiyatlarla zəngin olması boyaqçılıq işinin inkişafına geniş imkanlar yaratmışdır. Loru, Pəmbək mahallarında toxunan palazlar və kilimlər rəng düzümü və naxış tərtibatına görə Ağbaba mahalında toxunan nümunələrlə oxşardır. Bu mahalda "qoşa damğa", "tək damğa" və rombşəkilli elementlər çox geniş yayılmışdı. Burada toxunan kilimlər və palazlar rənginə, naxışlarına görə Bakı, Şirvan xalça qruplarının nümunələrinə bənzəyir.

## 2.3. Şəmşəddin

Şəmşəddin bölgəsində toxunan xalçalar da bədii kompozisiya quruluşuna görə Qazax-Borçalı xalça qrupunun üslubuna yaxındır. Qazax, Tovuz və Ağstafa ilə intensiv mədəni və məişət əlaqələri olan bölgənin əhalisi, əsasən, heyvandarlıqla məşğul olduğundan, burada xalçaçılıq xüsusilə geniş yayılmışdır.

Şəmşəddinin əsas yaşayış məntəqələrindən biri Tovuzqala ərazisi idi. Vaxtilə Qazax-Şəmşəddin sultanlığının tərkibində olmuş bu bölgənin Vəligah, Qulalı, Qırğı, Haqqın kimi kəndlərində xalçaçılıq inkişaf etmişdi. Meyvə bağları, arıçılıq, üzümçülük bölgə əhalisinin əsas məşğuliyyət sahələri sayılırdı. Çox da hündür olmayan dağların əhatəsində yerləşən bölgənin mülayim təbiəti, həmçinin bulaq, göl və mineral ehtiyatların bolluğu buranın torpağını bərəkətli etmiş, bitki örtüyünü zənginləşdirmişdir. Bu mahala aid Karvansara, Dilican kimi ərazilər özünün sıx meşəlikləri ilə tanınır. Tərsəçay, Armudlu, Karvansaray rayonunun Ağkilsə, Göyərçin, Polad, Salah, Haqqıxlı kəndləri öz xalçaları ilə məşhur idi. Ağstafa çayı Karvansara rayonunun iqtisadi həyatında və kənd təsərrüfatında mühüm rol oynayırdı. Bu ərazinin xalçaları əlvan rəngləri və naxışlarının incəliyi ilə seçilirdi **(Şəmşəddin mahalında toxunan xalçalar. bax: Kataloq. № 10, 12)**. Bölgədə toxunan xalçalarda və məfrəşlərdə, xurcunlarda, palazlarda, çullarda totem izlərinə, mifoloji obrazlara, müxtəlif tayfalara məxsus damğalara rast gəlmək olar. Kilim, vərni, şəddə, zili kimi xovsuz xalça nümunələrində rast gəlinən rəng ahəngi, bədii quruluş, naxış dəsti-xətti, toxunma üslubu digər bölgələrin nümunələrindən fərqlidir. Bu xalçalarda "qoşabuynuz", "dörd ünsür", "S"şəkilli, qarmaqlı, həndəsi (üçbucaqlı, dördbucaqlı), "gözqaytarıcı", "qayçıbalıq", "qazayağı", "dilikli" və digər motivlər işlədilirdi.

## 2.4. Göyçə

İrəvan xalçalarının arasında özünün naxışları, rəngləri ilə fərqlənən Göyçə mahalının sənət nümunələrini də qeyd etmək olar. Göyçə mahalında yaşayan azərbaycanlıların toxuduqları xalçalar öz kompozisiya quruluşuna görə Qarabağın xalçaçılıq nümunələrinə yaxındır. Göyçə gölü ətrafında yerləşən bu mahalın əhalisi Qarabağla sıx mədəni-iqtisadi əlaqədə olmuşdur. Bu yaxınlıq məişətdə, folklorda özünü daha qabarıq büruzə vermişdir.

Göyçə özünün füsünkar təbiəti, aşıq sənəti, bədii tikmə, misgərlik, dulusçuluq və digər sənət sahələri ilə məşhur idi. Bu ərazidə qoyunçuluq təsərrüfatları geniş yayılmışdı ki, bu da xalçaçılığın inkişafına münbit şərait yaratmışdır. Göyçənin təbiətindən xalçaya hopan rənglər parlaq və şuxdur. Sənətkarlar toxuduqları xalçalara, kilimlərə, məfrəş, çul və digər xalça məmulatlarına onları əhatə edən təbiət mənzərələrini, eyni zamanda, türk tayfalarının inanclarını, təfəkkürünü köçürmüşlər. Göyçə xalçaları toxucuların yüksək mədəniyyətini, zəngin təxəyyülünü, bədii istedadını nümayiş etdirir **(Göyçə mahalında toxunan xalçalar. bax: Kataloq. № 6, 21, 32, 44, 50, 67, 75, 76, 80, 81, 93, 95, 98)**.

"Kitabi-Dədə Qorqud"da rast gəlinən yer-yurd adlarını Göyçə gölü boyunca hər tərəfdə tapmaq olar. Bu eposda Göyçə mahalı, Göyçə gölü, Ağlağan dağı, Ayğır bulağı kimi toponimlər qədim türk yaddaşının və mədəniyyətinin izləridir. Göyçə mahalı cənubdan - Ağlağan təpəsi, Dəlik, Çənlibel dağları, Səlimgədiyi, şimalda isə Murğuz, Şahdağ silsiləsi ilə əhatə olunmuşdur. Şah dağından baxanda bu mahal ortasına ayna salınmış güllü bir nəlbəkini xatırladırdı. Öz füsunkar hüsnü, təbii gözəlliyi ilə ürəkləri fəth edən, xoş duyğular oyadan əzəmətli Göyçə mahalı çox qədim zamanlardan bəri sazın, sözün beşiyi, şöhrəti dünyaya yayılmış el şairlərinin vətəni olmuş, bir sözlə, qədim yurdun sənət məbədinə çevrilmişdir. Göyçə mahalında yaşayıb-yaratmış saz ustaları səsləri, nəfəsləri ilə bütün türk dünyasının zəngin könül mülkünü isitmiş, aşıq sənətinə yenilməzlik gətirmişlər. Buranın əhalisi şad günlərdə, qəmli anlarda qədim qopuzun varisi olan sazı kökləmiş və onun sədaları ilə ürək çırpıntısını, sızıltısını ifadə etmişdir. Toxluca kəndindəki Qanqalı dağı, Göyərçin kəndinin örüşündə Qara Quzeyadlı dağı, Zod aşırımında Soyuqbulaq oğuz türklərinin daş yaddaşı idi. Göyçə elinin şifahi xalq ədəbiyyatı nümunələrindəki mifoloji varlıqlar haqqında inanclarının kökü qədim dövrə gedərək tanrıçılıq, şamançılıq dünyagörüşünə söykənir. "Əyə" inancı insanlara sağlamlıq, səadət, bərəkət gətirən ocaq hamisi sayılırdı. Qaraçuxa isə tale, bəxt tanrısıdır. Bu tanrıların simvolları xalça sənətinə də keçmiş, onun naxış-kompozisiya həllində özünü göstərmişdir.

Bu xalçalar üzərində bədii ənənələr əsrlərdən bəri formalaşmış şəkildə təcəssüm olunur. Sınıq, bəzən də əyri xətlərlə işlənən göllərin, irili-xırdalı elementlərin zənginliyi bu xalça məmulatlarını estetik baxımdan daha da gözəgəlimli edir. Ənənəvi mücərrəd həndəsi işarələrin xalçada özünü büruzə verməsi Azərbaycanın əksər xalça qrupları üçün xarakterik olduğu kimi, Göyçə xalçalarında da nəzərə çarpır. Göyçənin cecimi, ladısı, zilisi, heybəsi, yəhərüstüsü, ləmiqabağı, xaralı olduqca məşhurlaşmış və dünyanın bir çox məşhur kolleksiyalarında yer almışdır. Göyçə mahalı Basarkeçər, Çəmbərək, Aşağı Qaranlıq, Kəvər kimi bölgələri əhatə edirdi. Bu mahalın Çəmbərək hissəsində, Ağbulaq, Ardanış, Qaraqaya, Yanıqpəyə, Gölkənd, Toxluca, Çaykənd, Ci-

yil, Şorca kimi məşhur və böyük kəndlərində xalçaçılıq sənəti yüksək inkişaf etmişdir. Basarkeçər rayonunun Ağkilsə, Kərkibaş, Pəmbək, Çaxırlı kəndlərində də xalça və xalça məmulatları toxunmuş, yerli əhalinin məişətində geniş tətbiq edilmişdir.

Dilbər guşələrdən biri də Aşağı Qaranlıq bölgəsi idi. Tamamilə dağlıq ərazidə yerləşən bu bölgənin çəmənləri sanki təbiətin özünün toxuduğu bir xalı idi. Yanıx, Yuxarı Alçalı, Əyricə, Xartlıq kəndlərində yaşayan Azərbaycan türklərinin toxuduğu rəngarəng xalçalar bu günə qədər gəlib çatmışdır.

Göyçədə "Kəvər" adlanan ərazinin xalçalarında Qarabağ qrupunun təsiri hiss olunsa da, yenə də əsas üstünlüyü Qazax-Borçalı qrupunun elementləri təşkil edirdi. Qazax-Borçalı qrupuna aid "Göycəli" xalçası məhz bu ərazidə yerləşən Göycəli kəndində toxunmuşdur. Sonralar bu kəndin əhalisinin bir hissəsi Ağstafa rayonuna köçmüş, yeni məskunlaşdıqları yeri də "Kəvər" adlandırmışlar. Kəvərin Ağqala, Ağzıbir, Əyrivəng, Əfəndi, Muğan kəndlərində də bir-birindən gözəl xalçalar, kilimlər, palazlar, çullar, məfrəşlər, xurcunlar, heybələr toxunmuşdur.

Göyçə mahalında toxunan əksər xalçalarda böyükölçülü göllər, medalyonlar üstünlük təşkil edir. Bu xalçalarda stilizə olunmuş dəvələrin, eləcə də digər heyvanların, quşların təsvirlərinə tez-tez rast gəlinir. Göyçə mahalının xalçaçıları "çərxi-fələk" motivini həm əsas, həm də doldurucu element kimi istifadə etmişlər. Doldurucu elementlərdən rombvari, "buta", "ulduz", qarmaqlı, "Z"şəkilli , "X"şəkilli , yarpaq, gül-çiçək, kiçikölçülü ağac təsvirləri daha çox işlədilmişdir. Bu mahalın xalçalarının ana haşiyəsi üçün səciyyəvi olan "zülfələm" motivi digər mahalların xalçalarında da tətbiq edilmişdir.

## 2.5. Gərnibasar və Vedibasar

Gərnibasar və Vedibasar mahallarında toxunan xalçaların rəng-kompozisiya baxımından oxşarlığını, eləcə də ərazilərinin coğrafi yaxınlığını nəzərə alaraq onları bir qrupda birləşdirmək olar. Gərnibasar, Vedibasar mahalları İrəvan ərazisinin ən dilbər guşələrindən sayılırdı. Vedi və Qəmərli rayonlarını əhatə edən bu bölgə Ağrıdağı vadisində mülayim iqlimli ərazidə, səfalı ərazidə yerləşmişdir.

Bir tərəfdən Ağrıdağın ətəklərindən axan Araz çayı, Göyçə və Dərələyəz mahalları ilə həmsərhəd olan Vedibasar mahalı özünün füsunkar təbiəti və qədim tarixi ilə seçilir. Vedinin dağlıq hissəsi sərt qayalıqlı, çılpaq və meşə zolaqları ilə örtülü yaşıl yamaclardan ibarətdir. Bu mahalın düzənlik hissəsi isə daha mülayim iqlimi ilə seçilir. Dərələri, çayları, gölləri ilə məşhur olan Vedibasarın bitki örtüyü fərqli çalarlı boyaların alınması üçün geniş imkanlar yaradırdı. Naxış kompozisiyasına görə Vedibasar, Gərnibasar mahallarının xalçaları Qazax-Borçalı xalça qrupunun nümunələri ilə eynilik təşkil edir. Vedibasarın təbii-coğrafi şəraiti onun təsərrüfatına, məişətinə birbaşa təsir göstərirdi. Palıd, şam, qoz, alça, yemişan, sarıçiçək, pərpiyan, şirin biyan kimi bitkilər və üzümçülük təsərrüfatlarının geniş yayılması iplərin boyanması işini asanlaşdırır, müxtəlif çalarlar almağa imkan yaradırdı. Növbənöv ərikləri, alçaları ilə tanınan bu bölgənin xalçalarının rəngi də digər bölgələrə nisbətən daha parlaq və əlvan olurdu **(Gərnibasar mahalında toxunan xalçalar. bax: Kataloq. № 15, 19, 38; Vedibasar mahalında toxunan xalçalar. bax: Kataloq. № 18, 25, 28, 49, 86)**.

Vedi bölgəsinin Kotanlı, Avşar, Türk gölü, Ağaslı, Arazdəyən, Bayburt, Böyük Vedi, Qaralar, Dəvəli, Yengicə, Kolanı, Taytan, Şidli, Şirazlı, Şıxlar kimi kəndləri də iri xalçaçılıq məntəqələri olmuşdur. Özünün füsünkar təbiəti, göz oxşayan mənzərələri ilə seçilən, nüfuzlu Seyidlər tayfasının məskunlaşdığı Kotanlı kəndində Əsli xanım yaşayırdı. Onun əlləri ilə bir-birindən gözəl xalçalar toxunmuş, incə ilmələr vurulmuş və yaratdığı naxışlar bütün ətraf kəndlərin xalçaçılarını heyran qoymuşdu.

Gərnibasar mahalının Qəmərli bölgəsi məşhur xalçaçılıq məntəqələrindən idi. Bu bölgənin Arpavar, Baş nalı, Yamancalı, Muğamlı, Sabunçu kimi kəndlərində gözəl xalçalar toxunurdu. Bu yerlərdə "Namazlıq"lar, kilimlər, məfrəşlər, çullar üstünlük təşkil etmişdir.

Gərnibasar və Vedibasar mahallarında toxunan xalçalarda göllərin mərkəzində "çərxi-fələk", "qoşaquyrum" ("qoşabuynuz") elementləri işlənirdi. Bu xalçalarda da "S"şəkilli , "X"şəkilli , "qarmaqlı", rombvari, kənarları pilləli klassik elementlər, müxtəlif ölçülü həndəsi fiqurlar və s. motivlər olurdu.

## 2.6. Zəngibasar və Sərdarabad

İrəvana bitişik olan Zəngibasar azərbaycanlıların qədim yaşayış məskənlərindən biri olmuşdur. Bu ərazini mədəniyyət və təhsil mərkəzi də adlandırmaq olar. Hələ orta əsrlərdən bölgənin əhalisi islam dünyasının müxtəlif şəhərlərində təhsil alaraq, buranın sakinlərinin dini və elmi dünyagörüşünün formalaşmasında mühüm rol oynamışlar. İrəvanla coğrafi yaxınlığı bölgənin mədəni mühitinin formalaşmasına öz təsirini göstərmişdir. Bu mahalı mərkəzindən keçən, mənbəyini Göyçə gölündən götürən Zəngi çayı iki yerə bölürdü. Bir çox qədim mənbələrdə adı çəkilən Zəngi çayı bol suyu ilə Zəngibasar mahalının torpağını daha da bərəkətli edirdi. Bir çox səyyahların bu bölgə haqqında tarixi qeydləri mövcuddur. Yerli əhalini, onun məişətini təsvir edən səyyahlar burada zadəgan ailələrinin yaşadığını, din xadimlərinin, ziyalıların olduğunu vurğulamışlar. Əsasən, taxılçılıqla, bostançılıqla, tərəvəzçiliklə məşğul olan yerli əhali xüsusi əkinçilik ənənələri yaratmışdır. Bölgədə ipəkçilik və heyvandarlıq da geniş inkişaf etmişdir. Ucu-bucağı görünməyən, göz oxşayan biçənəkləri, yaylaqları olan Zəngibasarın al-əlvan bitki örtüyü burada boyaqçılığın inkişafına təkan vermişdir. Zəngibasar boyunca xüsusi boya hazırlayan sənətkarların yaşadıqları məhəllələr var idi.

Bu ərazidə yaşayan əhalinin geyimi haqqında da xüsusi bəhs etmək lazımdır. Kişi geyimləri, əsasən, arxalıq, çuxa və şalvar, enli çit qurşaq, dəri çarıq, başmaqdan ibarət idi. Qadın geyimlərindən isə uzun arxalıq, çit köynək, ləçək və yaylığı göstərmək olar. Karvan yolunun üstündə yerləşən Zəngibasar mahalının əhalisi zinət əşyalarından da çox istifadə edirdi. Xüsusi gümüş pullar, gümüşdən və qızıldan hazırlanan silsilələr, əsas zərgərlik nümunəsi sayılan kəmərlər bu mahalın xanımlarına xüsusi yaraşıq verirdi. Zəngin mətbəxi, folkloru, el-oba oyunları, meydan tamaşaları ilə yadda qalan Zəngibasar mahalının xalçaçılıq ənənəsi də zəngin idi. Zəngibasarda şöhrəti bütün Qafqaza yayılmış Uluxanlı məktəbi, müqəddəs Ağdədə ocağı, Qarapirim ocağı, Şahin qalası, hamamlar və saysız-hesabsız məscidlər burada yaşayan əhalinin dünyagörüşündən, mədəniyyətindən və türk kökündən xəbər verirdi. Zəngibasar bölgəsinin Arbat, Aşağı Necilli, Qaraqışlaq, Dəmirçi, Zəngilər,

Zəhmət, Rəncbər, Uluxanlı, Hacı Elləz, Şorlu kimi məntəqələrində toxunan xalçalar öz incəliyi, zərifliyi ilə seçilirdi. Bölgənin əksər kəndləri süni şəkildə ləğv edilsə də, əhalisi zorla deportasiya olunsa da, orada toxunan xalçalar bu torpağın yaddaşını bu günümüzədək qoruyub saxlamışdır. Bu baxımdan əldə olan sənət nümunələri hələ ötən əsrin ortalarından məhv olunmuş böyük bir mədəniyyətdən xəbər verir. Bu mahalın Üçkilsə bölgəsində də xalça toxumaq ənənəsi mövcud olmuşdur.

İrəvanın qədim mahallarından olan Sərdarabad öz qalası ilə məşhur idi. İrəvan xanı bu ərazilərdən istər müdafiə məqsədi ilə, istərsə də strateji məntəqə kimi istifadə edirdi. Bu mahalın İrəvan xanlığının tarixi ilə xüsusi bağlılığı və tarixi əhəmiyyəti qeyd olunmalıdır. Sərdarabad şəhərinin özü, Kərimarx, Qatırabad, Xeyirbəyli, Şahverdi kimi kəndlər azərbaycanlıların məskunlaşdığı ərazilər olmuş və burada çeşidli kilimlər, palazlar, xurcunlar toxunmuşdur. Bu yerlərdə aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi-mədəniyyət nümunələri, məişət əşyaları, müxtəlif daş fraqmentləri və onların üzərində həkk olunmuş təsvirlər böyük türk mədəniyyətinin yadigarlarıdır.

Kompozisiya quruluşuna görə bu ərazidə toxunan xalçaların Azərbaycanın Qazax-Borçalı və Təbriz xalça qrupuna aid nümunələrlə yaxınlığı hiss olunur **(bax: Zəngibasar mahalında toxunan xalçalar. Kataloq. № 43, 48; Sərdarabad mahalında toxunan xalçalar. Kataloq. № 59, 79, 85)**. Bölgənin əhalisinin mifoloji dünyagörüşündən, inanclarından irəli gələn, onları ifadə edən həndəsi elementlərlə bərabər, süjetli, daha incə naxışlı xalça məmulatlarına da rast gəlinir. Zəngibasar və Sərdarabad mahallarının, coğrafi mövqeyinə görə Cənubi Azərbaycanla yaxınlığı, həmçinin burada yaşayan əhalinin Təbriz, Xoy, Maku kimi şəhərlərlə ticari, mədəni əlaqələri Güney Azərbaycan mədəniyyətinin izlərini burada barmaqları ilə əvəzsiz sənət nümunələri yaratmış toxucuların yaddaşına həkk etmişdir. Nəbati elementlər burada toxunan xalçalar üçün də xarakterik idi və bunlar ana təbiətin xalça üzərində bədii təzahürü kimi çıxış edirdi. Dünyaya inam, əbədiyyət axtarışı, ilahi qüvvəyə səcdə kimi duyğular öz əksini xalçalar üzərində tapırdı. Qızılgül, süsən, bənövşə və s. güllərin xalça üzərində təsviri onu toxuyanların estetik zövqlərini təzahür etdirirdi. Bunu da qeyd etməliyik ki, İrəvan qrupunun əksər xalçalarında olduğu kimi, Zəngibasar və Sərdarabad xalçalarının üzərində də hicri təqvimlə tarixlər göstərilirdi. Bu ərazidə zili, cecim, sumax, çul, çanta, xaral kimi xalça və xalça məmulatları toxunur, onların üzərində həndəsi, nəbati, zoomorf elementlər və süjetlər yer alırdı. Zəngibasar və Sərdarabad mahallarında toxunan xalçalarda, əsasən də kilimlərdə rombvari, "damğa", böyük ölçüdə uzunsov "S"şəkilli təsvirlər və həndəsi motivlər işlənirdi.

## 2.7. Qırxbulaq və Əştərək

Qırxbulaq və Əştərək ərazisində toxunan xalçaların oxşar cəhətləri əsasında onları bir qrupda birləşdirmək olar. İrəvandan 13 km şimal-şərqdə yerləşən Əştərək qədim türk-oğuz torpağı olmuşdur. Qədim türk dilində "şam ağacı" anlamını verən "terek" və türk xristianlığının izi olan "xaç" sözü bu ərazinin adında özünü göstərir. Bölgədə qədim türk inancları və islam dini ilə bağlı xeyli abidə vardır. Eyni zamanda, səlcuqların bu ərazilərlə bağlılığı xalçalarda, memarlıq incilərində öz izini buraxmışdır.

Əştərək bölgəsinin ərazisi yarı dağlıq, yarı düzənlikdir. Bu bölgə əsrarəngiz alp çəmənlikləri və dağətəyi meşəliklərlə zəngin idi. Meşələrində palıd, qoz, cır ərik, cır alça, yemişan ağacları bitirdi. Yerli əhali kal qozu əncir yarpağı ilə birlikdə qaynadıb yaşıl rəng əldə edirdi. Laciverd daşından isə tünd sürməyi rəng, lazuritdən bənövşəyi rəng alınırdı. Bölgənin əsrarəngiz mənzərələrinin, güllü-çiçəkli bağlarının, yaşıl meşələrinin, çəmənliklərinin gözəlliyi xalçalara hopmuş, onlara min bir rəng vermişdir. Əştərək bölgəsində yaşayan əhalinin folkloru, adətləri, eyni zamanda, mətbəxi, məişəti ümumi Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Bu bölgənin əsrarəngiz mənzərələrinin, güllü-çiçəkli bağlarının, yaşıl meşələrinin və alp çəmənliklərinin gözəlliyi burada toxunan xalçalardan da yan keçməmişdir.

Qırxbulaq İrəvan şəhərinin yaxınlığında yerləşən çayları, bulaqları ilə məşhur olan bir mahaldır. Tiflis yolunun üzərində yerləşən bu mahal da qədim körpüləri, məscidləri və türk xristianlığının izi olan məbədləri ilə məşhur idi. Burada yaşayan əhali hələ qədim dövrlərdən dəvə təsərrüfatları ilə məşhur olmuşdur. Mineral ehtiyatlarının zənginliyi və boyaq bitkilərinin çeşidliliyi burada tarixi çox qədimə gedib çıxan boyaqçılıq sənətinin inkişafı üçün də əlverişli şərait yaratmışdır. Qırxbulaq mahalında Ellər bölgəsinin Avdallar, Göykilsə, Cadqıran, Civriş, Ellər qəsəbəsi, Ərzni qəsəbəsi, Kənəkir, Nurnus və digər kəndlər xalçaçılıq məntəqələri olmuşdur.

Əştərək bölgəsinin Ucan, Fətrici, Pərpi, Kötəkli və Əştərək şəhərində yaşayan qədim azərbaycanlılar da xalçaçılıqla məşğul olmuşlar **(bax: Qırxbulaq mahalında toxunan xalçalar. bax: Kataloq. № 82, 91; Əştərək mahalında toxunan xalçalar. bax: Kataloq. № 8, 66, 94, 97)**. Qırxbulaq, Əştərək xalçaları kompozisiya quruluşuna görə Qazax-Borçalı xalça qrupuna yaxındır. Qırxbulaq-Əştərək mahallarında toxunmuş xalçalarda gül-çiçək, ağac, ulduz, "romb", "buta", "S"şəkilli, dördbucaqlı, paxlava formalı, kənarları pilləli elementlərdən geniş istifadə edilmişdir.

## 2.8. Aparan, Dərəçiçək və Talın

Bu mahalların da xalçaları kompozisiya quruluşuna və elementlərinə görə Qazax-Borçalı xalçaçılıq qrupunu təmsil edən xalçalara yaxındır.

Talın mahalı dəniz səviyyəsindən 2047 m yüksəklikdə yerləşir. Burada yerləşən möhtəşəm Alagöz dağının hündürlüyü 4095 metrdir. Dağ vulkan mənşəlidir. Göz oxşayan əsrarəngiz mənzərəyə, alp çəmənliklərinə, hündür dağlara malik olan bu rayonda hələ qədim dövrlərdən nəfis xalçalar və xalça məmulatları toxunmuşdur. Burada heyvandarlıq yüksək səviyyədə inkişaf etmişdir. Zərif yunlu qoyunların bəslənməsi xammal ehtiyatının bolluğuna səbəb olmuşdur. Bu da xalçaçılığın inkişafına təsir göstərmişdir. Təbii üsulla alınan boyaq maddələri burada toxunmuş xalçaların kompozisiyasının emosional təsir gücünü artırmış və xalçalara ecazkar görkəm vermişdir.

Talında toxunmuş xalçaların **(Talın mahalında toxunan xalçalar. bax: Kataloq. № 2, 54, 69)** gözəlliyinin, parlaqlığının səbəbi onların zərif, parıltılı, elastik yundan alınan iplərdən toxunmasıdır. Burada toxunan xalçalarda rənglərin və rəng çalarlarının sayı 7-dən 10-a qədər, bəzən isə daha çox olmaqla dəyişir. Talın bölgəsinin Aynalı, Quldərviş, Əkərək, Aşnaq, Mehriban, İrind, Sultanabad kimi kəndləri xalçaçılıq məntəqələri olmuşdur.

İrəvan şəhərindən 59 km. şimal-qərbdə yerləşən Aparan Qazax çayının sahilindədir. Tarixi çox qədimə gedib çıxan bu şəhərin və onun ətrafındakı kəndlərin əhalisi, əsasən, Azərbaycan türkləri olmuşdur. Bunu yer-yurd adları da təsdiq edir. Mürəkkəb relyefə malik olan Aparan şimaldan başı qarlı dağlarla, cənubdan isə çöllərlə əhatələnib. Alp çəmənliklərində və qayalarda bitən kollar buranın xalçaçılıq sənətinə öz təsirini göstərmiş, əlvan rənglərin alınmasına imkan yaratmışdır.

Bu bölgənin Babakişi, Kirəşli, Düzkənd kimi kəndlərində müxtəlif çeşidli xalçalar, məfrəş, xurcun, heyvə, çul və s. kimi xovsuz məişət əşyaları toxunmuşdur **(Aparan mahalında toxunan xalçalar. bax: Kataloq. № 7, 11)**. Aparan şəhərində isə xalçaçılıq sənəti tədricən unudulmuş, yalnız bəzi evlərdə saxlanılmışdır.

Dərəçiçək mahalına aid olan Axtı bölgəsinin xalçaları olduqca məşhur idi **(Dərəçiçək mahalında toxunan xalçalar. bax: Kataloq. № 16, 74, 84, 99, 100)**. İrəvandan 50 km məsafədə yerləşən Dərəçiçək mahalı və Axtı İrəvan xanlarının yay iqamətgahı olmuşdur. Burada Yay sarayının, Xan bağının izləri mövcuddur. Ərazisindən axıb keçən Zəngi və Böyük çayları bu bölgəyə füsunkar gözəllik bəxş edirdi. Dərəçiçək mahalının şimaldan Qarakilsəyə qədər uzanan Teş dağları qədim türklərin - Dış Oğuzların sərhəddini göstərir. Həmçinin Dərəçiçəkdə olan Altuntaxt yaylağı ”Kitabi-Dədə Qorqud”da adı çəkilən Altuntaxtla eynilik təşkil edir.

Bu bölgə dağlıq ərazi idi və dəniz səviyyəsindən 1500-2000 metr yüksəklikdə yerləşirdi. Yerli əhali, əsasən, kənd təsərrüfatı ilə məşğul olurdu. Hələ qədimdən Alapars, Qorçulu, Bığlı, Qaraqala, Qarnıyarıq, Ozanlar, Ulaşıq kəndləri xalçaçılıq ənənələri ilə məşhur olmuşdur. Ümumiyyətlə, adı çəkilən hər üç mahalın xalçaçılıq ənənələri göstərir ki, bu ərazidə uzun tüklü, qara, qonur rəngli qoyunların, keçilərin saxlanılması toxunma texnologiyasına da təsir etmişdir.

Aparanda, Dərəçiçəkdə, Talında toxunan xalçalarda əsas elementlərlə yanaşı, “sallama”, “qoşabuynuz”, “daraq”,“şamdan”, “S”şəkilli, “ulduz”, “dörd ünsür” və s.

motivlər də geniş tətbiq edilmişdir. Bu mahalların xalçalarında 7-dən 10-a qədər rəng çalarlarından istifadə olunurdu.

## 2.9. Zəngəzur

Zəngəzur bölgəsi[1] şərqdən Qarabağla, qərbdən Naxçıvanla, cənubdan Araz çayı ilə əhatələnmişdir. Zəngəzurun bir hissəsi 1920-ci ildən Ermənistanın tərkibinə verilmişdir. Bu ərazinin folkloru, mədəniyyəti Qarabağ, Naxçıvan və Göyçə əhalisinin tərzinə çox yaxındır. Qədim abidələrlə, çoxsaylı qoç daşlarla, türbələrlə zəngin olan Zəngəzur Təbrizlə İrəvan arasında əsas yol və körpü olmuşdur. Rəngarəng təbiəti, bitki örtüyü Zəngəzurun yerləşdiyi coğrafi mövqe ilə bağlıdır. Kiçik Qafqaz dağlarının əhatəsində olan bölgə mədənlərilə və faydalı qazıntılarla məşhur idi.

Zəngəzurun cənubunda yerləşən Mehri Zəngəzur dağı ilə Arazın qovuşduğu yerdə rəngarəng bağları, ləzzətli meyvələri ilə tanınırdı. Bu yurd yerinin zəngin və rəngarəng bitki örtüyü, meşələri və ucsuz-bucaqsız otlaqları xalçaçılıq üçün münbit şərait yaradır, havası, suyu və bitkiləri xalçalara min bir rəng verirdi. Bölgədə ən qədim dövrlərdən etibarən bitki, heyvan və mineral mənşəli təbii boyaqların olması boyaqçılığın inkişafına təkan vermişdir. Peşəkar boyaqçıların çoxəsrlik təcrübəsi zəminində təşəkkül tapmış ənənəvi boyama texnologiyası toxuculara bir çox rəng çalarlarından istifadə etməklə, onları bir-biri ilə uzlaşdırmaqla misilsiz ahəngdarlığa nail olmağa imkan yaratmışdır.

Tarixi abidələri, qədim məzarlıqları ilə məşhur olan Sisyan rayonu coğrafi mövqeyinə görə həm heyvandarlığın inkişafı üçün, həm də dağlıq və dağətəyi bölgələrdən toplanan bitkilər hesabına əldə olunan təbii boyaqlarla xalça sənətinin inkişafına ciddi təkan vermişdir. Burada toxunan xalçalar mürəkkəb kompozisiya quruluşuna və qədim dünyagörüşünə söykənən obrazların semantik həlli ilə seçilirdi **(Zəngəzur mahalında toxunan xalçalar. bax: Kataloq. № 4, 9, 20, 33, 40, 42, 58, 60, 78, 90, 96)**. Eyni fikri Qafanda və Gorusda toxunan xalçalara da aid etmək olar. Ümumiyyətlə, Zəngəzur bölgəsi qədimdən azərbaycanlıların kompakt halda yaşadıqları məntəqə olmaqla, Azərbaycan tarixinin tərkib hissəsi kimi özünəməxsus inkişaf yolu keçmişdir. Buradakı yerli əhali bütöv Azərbaycan mədəniyyətinin dəyərlərini, adətlərini öz məişətində yaşatmışdır.

Zəngəzur mahalının toxucuları isə əl işlərini digər bölgələrin xalılarından fərqləndirirdilər. Zəngəzur mahalının xalçaçılığı daha çox Qarabağ qrupunun

[1] Azərbaycan folkloru antologiyası. XII kitab (Zəngəzur folkloru). Bakı, 2005; Bayramov İ. Qərbi Azərbaycanın türkmənşəli toponimləri. Bakı, 2002; Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı,1998; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995; Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar... Bakı, 1997; Musa Urud. Zəngəzur (elmi-publisistik nəşr). Bakı, 2005; Nəbibəyli Z., Zəngilanlı M. Zəngəzurun qısa tarixi və coğrafiyası. Bakı, 2000; Rüstəmov Ə. Ermənistan SSR Qafan, Gorus və Sisyan rayonları ərazisinin Azərbaycan mənşəli toponimləri. NDA., Bakı, 1990; Rüstəmli Ə. Qədim oğuz yurdu Zəngəzurun türk mənşəli yer-yurd adları. Bakı, 1998; Алекперов А.К. Поездки в Зангезура и Нахкрай // Изв. об-ва обслед. и изуч. Азербайджана, 1927, №4; Гедеванов М.А. Зангезурский уезд в медицинском отношении за 1890-92 гг. // Медицинский сборник, 56. Тифлис, 1892; Карапетян С. К истории освобождения Зангезура от дашнакских банд // Изв. АН Арм. ССР. Общ. науки. 1955, №1; Кулиева В.А. Роль и позиция мусульманского духовенства в социально-культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в XIX-нач. XX вв. Баку, 1979; Описание сел. Герусы и говор о преобразовании его в уездный город // Кавказ, 1874, №12; Чурсин Г. Армяне Зангезура. Тифлис, 1931. Отд. оттиск из Научные записки. т.1; Шульгин Ф. Путевые заметки по Зангезурскому уезду // Кавказ, 1873, №58, 75.

ənənələrinə yaxındır. Buna səbəb Zəngəzurun tarixən Qarabağ xanlığı və burada yaşayan əhali ilə mədəni, iqtisadi əlaqələri və yaxınlığı idi. Mədəni-sosial mənada Qarabağı Zəngəzurdan ayırmaq mümkün deyil. Naxçıvan, Cənubi Azərbaycan və Qarabağla həmsərhəd olan Zəngəzur mahalının folklorunda, tətbiqi sənət sahələrində adı çəkilən bölgələrin təsiri duyulur. Rəvayətlərdə, nağıllarda, qayaüstü təsvirlərdə, daş işləmələrdə müxtəlif mifoloji obrazlar, zoomorf elementlər, həndəsi simvollar geniş yayılmışdır. Ucubılıx, Təkgöz, Div, Qaraçuxa, Virgin, Albastı, Kaftarquş kimi mifoloji obrazlar bu bölgənin folklorunda, tətbiqi sənət nümunələrində də öz əksini tapmışdır. Bu ərazidə yaşayan azərbaycanlıların inancındakı Ağ yol və Qara yol tanrılarının semantik həlli xalçalarda da ifadə olunmuşdur. Həmçinin, Xızır obrazı bəxt, həyat verən, tale bəxş edən mürəkkəb həndəsi elementlərlə işlənmişdir.

Zəngəzur mahalı həm də pir və ocaqların, müqəddəs ziyarətgahların tez-tez rast gəlindiyi bölgədir. Zəngəzurun dağların əhatəsində olması dağ və daş elementlərinin sakral mahiyyətini daha da qüvvətləndirmişdir. İlana dağ ruhunun daşıyıcısı kimi münasibət bəsləyən bölgə əhalisi öz inancında və məişətində onun simvollarını yaşatmışdır.

Zəngəzur qədim Albaniya dövlətinin qüdrətini əks etdirən abidələrlə, məbədlərlə də məşhurdur. Qoşundaş abidəsi quruluşuna və formasına görə türk-oğuz inanclarından və adətlərindən irəli gələn daş elementlərin toplusudur. Nüvədi kəndindəki Qarğı daşı dağındakı qəbirüstü yazılar və onların açılışı türk izlərindən xəbər verir. Urud kəndindən tapılan məzarüstü daşlardakı XV-XVI əsr təsvirləri, buradakı naxışlar öz orijinallığı ilə bu yurdun Azərbaycanın tərkib hissəsi olduğunu aydın göstərir. Şeyx Rza Amrusal, Əliyar, Şahnəzər, Çələbi nəsillərinə aid olan qəbirlər, istər naxışları ilə, istərsə də ərəb əlifbası ilə yazılan qeydləri ilə burada yaşayan əhali haqqında ətraflı məlumat çatdırır. Bu məzarüstü daşlardan biri xüsusilə maraqlıdır. Üzərində hicri təqvimlə "992-ci il" (1584), "Aysoltan" yazılmış daşın üzərində iki toxucu qadın təsvir edilmiş, hana, daraq və xalçaçılığa aid digər təsvirlər verilmişdir. Bu bir daha sübut edir ki, hələ qədimdən bu ərazidə azərbaycanlılar xalçaçılıqla məşğul olmuşlar. Bölgədə itib-batmış şəhərlərin izlərinin də olduğu söylənilir. Bölgədəki Şəki kəndinin tarixi bu ərazidə qədim şəhərin olduğunu söyləməyə əsas verir.

Zəngəzur mahalına aid olan Qafan bölgəsi dağlıq rayondur. Qərbdən Bərgüşad dağları, şimaldan Zəngəzur sıra dağları ilə əhatə olunur. Bu bölgənin Aralıq, Atqız, Açağu, Acıbac, Baydak, Qaraçimən, Qatar, Kığı, Çaykənd, Xələc, Ciriş, Şəhərcik kimi kəndləri və Qafan şəhəri xalçaçılıq məntəqələri olmuşdur.

Zəngəzur mahalının digər bir bölgəsi Gorus rayonudur. Öz gülləri və çayları ilə məşhur olan bu rayon, əsasən azərbaycanlıların yaşadığı bir ərazi olub. Ağbulaq, Qurdqalaq, Şurnuxu kəndlərində də xalçaçılıq məntəqələrinin olduğu tarixi faktlarla öz təsdiqini tapmışdır.

Zəngin təbiəti, bağları ilə şöhrət qazanmış Mehri bölgəsi Zəngəzur mahalına daxil olmaqla, Naxçıvan, Qarabağ və Cənubi Azərbaycanın qovuşuğunda yerləşir. Mehrinin Lök, Əldərə, Lehvaz, Maralzəmi, Nüvədi kəndlərində qədim ənənələr əsasında mükəmməl sənət əsərləri yaratmış toxucular yaşamışdır. Və onlar yüzilliklər boyunca incə, dərin məzmun daşıyan naxışları xalça, kilim, məfrəs, çul, xurcun, heybə kimi xalça və xalça məmulatlarının üzərinə həkk etmişlər.

İrəvan şəhərindən 227 km cənubda yerləşən Sisyan bölgəsi Zəngəzur mahalının bö-

yük tarixə malik olan ərazilərindən biri hesab edilir. İri yaşayış məntəqələri olan Ağudi, Ağkənd, Vağudi, Qarakilsə, Şıxlar, Qızılcıq, Dəstəkerd, Murxuz, Urud, Comərdli, Şəki kəndlərində xalçaçılıq ənənəsi davam etdirilmiş, bölgə özünün rəngarəng, şux xalçaları ilə şöhrət qazanmışdır.

Zəngəzurda toxunmuş kilimlər nəfis tərtibatı ilə göz oxşayır; bu mahalda "qoşabuynuz", "qarmaqlı", "S"şəkilli, dörd, altı, səkkiz, on iki ləçəkli güllər, spiralşəkilli, ox işarəli, "məşəl", "şamdan","damğa" adlandırılan motivlər çox yayılmışdır.

## 2.10. Dərələyəz

Dərələyəz mahalı[1] özünün xüsusi xalça kompozisiyaları, forma və rəng çalarları ilə seçilirdi. Təsadüfi deyil ki, bu bölgədə olmuş İ.Şopen Dərələyəz mahalını "Zaqafqaziyanın İsveçrəsi" adlandırmışdır. Mahalın başdan-başa bərəkətli torpaqları, meşələri, çəmənlikləri məşhur idi. Dərələyəz mahalını Azərbaycan xalçaçılıq sənətinin beşiklərindən biri hesab etmək olar. Burada olan bitkilərin yüksək yağlılıq dərəcəsi onlardan alınan boyaqları təravətli və şux edirdi.

Dərələyəz mahalı Təbrizlə İrəvanı Qarabağa bağlayan yolun üzərində yerləşirdi. Məhz buna görə də burada körpülərin, karvansaraların sayı çox idi. Bu mahalda yaşayan əhalinin folklorunda türk motivləri açıq-aşkar duyulmaqdadır. Xüsusən, əjdaha ilə bağlı motivlər çox geniş yayılmışdır. Əjdaha və ilan inancları rəmz kimi, istər memarlıqda, istərsə də dekorativ-tətbiqi sənətdə geniş işlənmişdir. Qalaların qalıqları, mağaraların çoxluğu, mineral bulaqların bolluğu bu bölgənin ecazkar mənzərəsini tamamlayaraq, təbiət gözəlliklərinin xalçalara və xalça məmulatlarına köçürülməsinə rəvac vermişdir.

Dərələyəz mahalının iri yaşayış bölgələrindən biri də Keşişkənddir. Bu bölgənin Almalı, Bülbülölən, Qabaxlı, Qaraqaya, Qovuşuq, Ələyəz, Əmağu, Kədikvəng, Güllüdüzü, Sallı, Hors, Çivə kəndlərində xalçaçılıq geniş yayılmışdır. Soylan bölgəsinin Axta, Zeytə, Kabut, Kotanlı, Köçbəy, Gomur, İtqıran, Her-her kimi kəndlərində tarixi çox qədimlərə gedib çıxan müxtəlif sənət növləri inkişaf etmişdir. Dərələyəzdə toxunan xalçalar kompozisiya quruluşuna görə həm Qarabağ, həm də Qazax-Borçalı xalçaçılıq qruplarına yaxındır. Bu bölgədə toxunmuş xalçalarda stilizə edilmiş ilan, əjdaha təsvirlərinə tez-tez rast gəlinir. Toxucular, əsasən, qara və qonur rəngli qoyun yunundan hazırlanan iplərdən istifadə edirdilər.

Dərələyəz mahalında toxunmuş xalçalar yüksək bədii tərtibatı ilə seçilir **(Dərələyəz mahalında toxunan xalçalar. bax: Kataloq. № 3, 13, 31, 34, 37, 47, 51, 57, 64, 77, 92)**. Bu mahalın xalçalarında "əjdaha", "Z"şəkilli , "damğa", stilizə olunmuş quş, "çərxifələk", "bulud", "qırxbuynuz", "əlibelində", "T" şəkilli, "sərmə", "S"şəkilli, "qoşabuynuz", "məşəl", "buta" motivlərinə rast gəlirik. Dərələyəz mahalının xalçalarında rənglər 7-11 arasında dəyişir.

[1] Azərbaycan folkloru antologiyası. XV cild (Dərələyəz folkloru). Bakı, 2006; Bayramov İ. Qərbi Azərbaycanın türkmənşəli toponimləri. Bakı, 2002; Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995; Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar... Bakı, 1997; Зелинский С.П. Три магала: Нахичеванский, Ордубадский и Даралагезский. Географически-статистическое и сельскохозяйственное описание // Сборник сведений о Кавказе. т.VII. Тифлис, 1880; Зубиетян В.Г. Даралагяз (Экономико-географический очерк ) // Изв. АН Арм. ССР. Общ.науки. 1950, №9.

## 2.11. İrəvan şəhəri

İrəvan qrupu xalçaları arasında İrəvan şəhərində[1] toxunmuş xalçaları fərqləndirmək tamamilə məntiqlidir. İrəvan şəhəri İrəvan xanlığının mərkəzi, onun mədəni və siyasi paytaxtı İrəvan şəhəri olmuşdur. Bu qədim türk-oğuz yurdunun tarixini, mədəniyyətini tədqiq etmək üçün vaxtilə bu torpaqlarda olmuş, buranın gözəlliyini, əhalisinin məişətini təsvir etmiş səyyahların qeydləri xüsusilə əhəmiyyətlidir. Fransız J.B.Taverniye (1655), J.Şarden (1673), Dübua de Monpere (1833), italyan Cemelli (1694), ingilis C.Moriyer (1813), Ker Perter (1817), P. Kameron, M. Vaqner İrəvanın gözəlliyini təsvir etmişlər. İrəvanın qədim mədəniyyət mərkəzi olduğunu təsdiqləyən Jan Şarden qeydlərində İrəvan sərdarının sarayında 1664-cü ildə Novruz bayramı günündə tamaşaya baxdığını yazmışdır. Burada mahir ifaçıların olduğunu söyləyən müəllif səhnələşdirilmiş hərəkətləri Avropa operasına bənzətmişdir. 1881-ci ildə Pənah xan Makinskinin evində "İrəvan xanı Novruz bayramında", 1882-ci ildə isə yerli həvəskarların iştirakı ilə "Tamahkarlıq düşmən qazanır" tamaşası göstərilib. Bütün bunlar burada yaşayan azərbaycanlıların yüksək mədəniyyətindən xəbər verir. Adı qədim mənbələrdə çəkilən bu şəhər orta əsrlərdə öz məscid və minarələri ilə Qafqazın incisi sayılırdı. İ.Şopen 1832-ci ildə bu şəhərdə 12 məscidin olduğunu bildirmişdir. Həmin məscidlərin arasında ən gözəli Hacı Hüseynəli xan tərəfindən inşa olunmuş Göy məsciddir. Əvəzsiz sənət möcüzəsi sayılan Göy məscidin bərpasında, kitabənin yazılmasında və onun divarlarının bəzədilməsində böyük Azərbaycan rəssamı Mirzə Qədim İrəvaninin əvəzsiz rolu olmuşdur. İrəvanda ilk məscid Şah İsmayılın əmri ilə 1510-cu ildə tikilmişdir. Səfəvi Məhəmməd Şah Xudabəndə XVI əsrdə o dövr üçün olduqca möhtəşəm sayılan bir məscidin tikilməsi barədə göstəriş vermişdir. Şah Abbas məscidi də həmin dövrdə, Azərbaycanın bütün şəhərlərində olduğu kimi, Şah Abbasın şərəfinə ucaldılmışdır. 1655-ci ildə İrəvana gəlmiş Jan Batul Taverniye İrəvan qalasını təsvir etmiş və onu "kiçik şəhər" adlandırmışdır. Səyyah təsvirində bürclər, darvazalar, yer və çay adları göstərmişdir ki, bununla da ərazinin qədim Azərbaycan torpağı olduğunu sübut etməyə imkan yaranmışdır. Lakin 1679-cu ildə İrəvanda baş vermiş güclü zəlzələ onun bir çox qədim abidələrini yerlə-yeksan etmiş, şəhər yenidən salınmışdır.

XVII əsrdə İrəvanın üç iri məhəlləsi olmuşdur. Şəhərdə Təpəbaşı, Dəmirbulaq, eyni zamanda, səyyahların təsvir etdiyi kimi şilə (qırmızı) boyayanların, sabun bişirənlərin, göy rəngli parça boyayanların məhəllələri olmuşdur. Səyyahlar bu günədək gəlib çatan "şiləçi", "sabunçu", "boyaqçı" adlarını çəkmişlər.

İrəvanın tikililəri haqqında danışarkən kərpicdən və daşdan zövqlə inşa edilmiş bina, şəbəkəli, tağlı, dördkünc karvansaralar, xüsusi ornamentlərlə bəzədilmiş

---

[1] Bayramov İ. Qərbi Azərbaycanın türkmənşəli toponimləri. Bakı, 2002; Budaqov B., Qeybullayev Q. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998; Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası. Bakı, 1995; Həbib Rəhimoğlu. Silinməz adlar, sağalmaz yaralar... Bakı, 1997; Kərimov S. XIX əsrin əvvəllərində Yerevan şəhərinin urbanizasiyası // Elm və həyat, 1991, №3; Məmmədov S. İrəvan şəhərində etnik çevrilişlər // Azərbaycan, 1992, №1-2. Onullahi S. Çuxursəəd – İrəvan Səfəvilər dövründə // Elturan, 1995, №1-2; Акопян Т.Х. История Еревана (1801-1879). АДД. Ереван, 1960; Акопян Т.Х. Очерк истории Еревана. Ереван, 1977; Статистическое описание городов Тифлисской и Эриванской губернии // Кавказский календарь на 1866; Статистическое описание городов Тифлисской и Эриванской губернии. Тифлис, 1894; Шахазиз Ерв. Старый Ереван. Ереван, 1931.

fəvvarələr, gül-çiçək rəsmləri, parıltısı ilə seçilən güzgülü salon, Təbriz qapısı, Sərdarın sarayı və qala divarlarından bəhs edilir.

Sərdarın sarayını təsvir edən səyyahlar onun tavanının və divarlarının başdan-başa bər-bəzəyə qərq olmasından, gül-çiçək, quş rəsmlərindən, kətan parça ilə divarlara yapışdırılmış zərif haşiyəli portretlərdən söhbət açırlar.

İrəvanda toxunan xalçalarda da böyükölçülü göllər (medalyonlar) üstünlük təşkil edir. **(İrəvan şəhərində toxunan xalçalar. bax: Kataloq. № 1, 5, 14, 23, 24, 26, 30, 39, 46, 68, 70, 73, 83, 87)**.

Bu xalçalarda "qoşabuynuz", "S"şəkilli , "çəngəl", "məşəl","ox" işarəli, beş, altı, səkkizguşəli ulduz, "tac", stilizə olunmuş it və digər heyvanların təsvirləri də verilmişdir. Bu xalçalarda stilizə olunmuş insan təsvirləri də vardır. İrəvan xalçalarında 8-dən 11-ə qədər rənglərdən istifadə edilmişdir.

# III. İrəvan bölgəsi xalçalarının təsnifatı

## 3.1. Xalçaların təsnifatına dair

Xalçalar toxunuş texnikasına görə xovsuz və xovlu olmaqla iki qrupa bölünür. Həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax və ladı xovsuz texnika ilə toxunan xalçalardır. Xovsuz xalçalar qrupuna daxil olan xalça və xalça məmulatlarında ərqac ipləri "sadə" və "mürəkkəb" üsulla əriş iplərinin arasından keçirilir. Xovsuz xalçaların "sadə" və "mürəkkəb" dolama üsullarında isə əlavə olaraq yun naxış iplərindən də istifadə edilir.

Xovlu xalçalar isə "ilmə-düyün" üsulu, yəni "dolama ilmə" və yaxud "qullabı ilmə" texnikası ilə toxunur.

Tədqiqatçılar xovlu və xovsuz Azərbaycan xalçalarının keçdiyi inkişaf yolunun dörd əsas və ardıcıl mərhələsini fərqləndirmişlər:

I mərhələ - xalça sənətinin ibtidai dövrüdür. Palaz və cecimlər bu dövrə aid edilir. Bu dövrdə toxunan xalça məmulatı bəzəksiz, saya yerli və birrəngli olmuşdur. Sonralar toxucular heyvan yunlarının təbii rənglərindən istifadə edərək zolaqlı palazlar da yaratmışlar. Xalça sənətinin ibtidai dövrünü təşkil edən və keçirtmə üsulu ilə toxunan palaz zolaqlarının üç bədii inkişaf forması vardır:

a) sadə zolaqlar;
b) sulu zolaqlar;
c) naxışlı zolaqlar.

Bu bədii inkişaf formaları cecimlərə də aiddir. Ümumiyyətlə, palaz yaylaq-qışlaq həyat tərzi keçirən əhalinin məişətində daha geniş yayılmışdı. Adətən, palazlar dik hanalarda, cecimlər isə yer hanalarında toxunurdu.

II mərhələ - xalça sənətinin texniki və bədii cəhətdən inkişafının ilk dövrüdür. Bu dövrdə sadə dolama texnikası ilə kilim toxunmağa başlayır. Bu texnikanın meydana gəlməsi xalçaların üzərində ibtidai formalı, sadə naxışlar toxumağa imkan yaratmışdır. Palaz və kilimlərdən alaçıqlarda, dəyələrdə və eləcə də toyxanalarda həm daxili bəzək, həm də xarici örtük kimi istifadə olunurdu.

III mərhələ - vərni, şəddə, zili, sumax, ladı toxuma üsulunun meydana gəlməsi ilə xarakterizə olunur. Mürəkkəb dolama texnikasının çox geniş yayıldığı bu dövr xalça bəzəyinin mürəkkəbləşməsi və müxtəlif ölçülü naxış elementlərinin inkişafı ilə yadda qalır. Xalça sənətinin üçüncü dövrünü təşkil edən və mürəkkəb dolama üsulu ilə yaranan şəddə və vərnilər əksər hallarda maldarlıqla məşğul olan bölgələrdə toxunurdu. Buna görə də belə xalçaların üzərində, başlıca olaraq, stilizə edilmiş heyvan təsvirlərinə daha çox təsadüf edilir. Şəddə və vərninin ilk dəfə Qarabağda, Naxçıvanda istehsal olunduğu ehtimal olunur. Mürəkkəb dolama toxuma üsulu ilə toxunan zili istər toxunuşuna, istərsə də bədii cəhətlərinə görə şəddə və vərniyə nisbətən daha mükəmməldir.

Xovsuz xalçalar və xalça məmulatları özünəməxsus ornamentlərə malikdir. Bu ornamentlər arasında palaz zolaqları, kilimlərə xas klassik elementlər, şəddə və vərni elementləri, zili, ladı, sumax elementləri adı altında qruplaşaraq bir-birindən fərqlənirlər.

Qədim istehsal tarixinə malik xovsuz xalçalar bütün dövrlərdə yerli əhalinin məişətinin ayrılmaz hissəsi olmuşdur. Xalçaçılar məfrəş, xurcun, heybə, çuval, çul,

yüküzü və s. kimi məişət əşyalarının yüngüllüyünü və yumşaqlığını nəzərə alaraq, onların istehsalında daha çox xovsuz toxuma texnikasına üstünlük verirdilər. Bu ənənə hal-hazırda da davam etdirilir.

IV mərhələ - düyünləmə, yəni əvvəllər dolama ilmə, sonralar isə qullabı ilmə texnikası ilə əmələ gələn xovlu xalçatoxuma üsulunun inkişaf etdiyi dövrdür. Xalçaçılıq bu mərhələdə istər texniki, istərsə də bədii cəhətdən yüksək inkişaf dövrünu yaşayır. Hələ eramızdan əvvəl tətbiq olunan ilmə-düyün texnikası, bütün digər üsullardan fərqli olaraq, mürəkkəb kompozisiyaların tətbiqinə imkan yaratmışdır. Bu texnikanın inkişafı ilə əlaqədar yeni istehsal alətləri (dəmir qayçı, bıçaq) meydana gəlir. Həm xovlu, həm də xovsuz xalçaların toxunma prosesində digər istehsal alətləri - həvə və kirkit tətbiq edilmişdir.[1]

Xovlu xalcalar istifadə baxımdan müxtəlif ölçülərə malik olmuşdur. Kicik ölcülü xalcalar – "Namazlıq", puştu, taxt üstü, xalça, iri ölçülü xalçalar isə xalı, kənarə, üç-beş hissədən ibarət olan xalçalar dəst xəli-gəbədir. Xalça kompozisiyasının iki hissəsi - arasahə və haşiyə qurşağı fərqləndirilir.

Azərbaycanın İrəvan bölgəsində də xalçaçılığın inkişafı belə bir yol keçmiş və sənətkarlıq nöqteyi-nəzərindən mükəmməl səviyyəyə yüksəlmişdir. İrəvan bölgəsi xalçalarının sənətkarlıq xüsisiyyətlərini müəyyən etmək üçün xovsuz və xovlu xalçaları[2] ayrı-ayrılıqda nəzərdən keçirək.

## 3.2. İrəvan bölgəsinin xovsuz xalçaları və onların sənətkarlıq xüsusiyyətləri

### 3.2.1. Kilimlər

Xovsuz xalçalar içərisində kilimlər mühüm yer tutur. İrəvan bölgəsində toxunan kilimlərin sənətkarlıq xüsusiyyətlərini müəyyən etmək üçün xüsusi olaraq toplanmış on yun və kilim **(bax: Kataloq. № 52, 54, 55, 57, 58, 59, 60,63, 67, 74)** tədqiqata cəlb edilmişdir. Onların hər birinin xronoloji ardıcıllıqla sənətkarlıq xüsusiyyətlərinin şərhini verək.

İlk belə kilim **(bax: Kataloq. №52)** h. 1292-ci ilə (1875-ci il) aiddir. Bu kilim İrəvan bölgəsinin Şörəyel mahalında, Gümrü şəhərində toxunmuşdur. Ölçüsü 302×193-dür. Kilimin yuxarı hissəsində sol tərəfdə h. 1292 tarixi işlənmişdir. Bu kilimin əsas bəzəyini rapport əsasında qurulan kompozisiya təşkil edir. Rapportların dəfələrlə təkrarı əsasında tərtib edilən bu kompozisiya tipində ara sahədə kompozisiya mərkəzi yoxdur. Rapportlara bölünmüş bu hissələrdə İrəvan kilimləri üçün səciyyəvi olan "kilimgülü" adlanan elementlər təsvir edilmişdir. Bu elementlər "qarmaqlı" elementlər adlanır. İrəvan xalçaları üçün səciyyəvi olan "qarmaqlı" elementlərinə Qazax-Borçalı və Qarabağ qrupuna daxil olan kilimlərdə də rast gəlinir. Rapportlara ayrılmış yaşıl yerlikdəki boşluqlar qırmızı rəngli, qırmızı yerlikli boşluqlar isə sürməyi rəngli üz-üzə dayanmış quşu xatırladan qarmaqvari elementlərlə doldurulmuşdur. Xalçanın kompozisiya quruluşuna uyğun ölçüsü xalça boyu motivlərin rənglərinin ardıcıllıqla dəyişdirilməsinə, ornamental dekorasiyanın orijinallıqla tərtib edilməsinə imkan yaratmışdır. Xalçanın haşiyə hissəsində toxucular arasında "mollabaşı"

---

1 Керимов Л. Азербайджанский ковер. т.II. Баку, 1983, с.9

2 Müciri C. Azərbaycan xalçaçılığının texnoloji üsulları. Bakı, 1987, s.17-18.

adlandırılan motivlər təsvir edilmişdir. Bu motivlər sürməyi, mavi, qırmızı və yaşıl rənglərlə işlənmişdir. Xalçanın ara haşiyəsi daxildən sağ və sol hissədə dilikli xətlərlə əhatə olunmuşdur. Xalçanın sağ və solunda ağ yerlikdə, baş və ayaq hissəsində qırmızı yerlikdə təsvir edilən bu elementlərin rəngi ardıcıl olaraq dəyişdirilərək çox baxımlı rəng düzümü, parlaq rəng qamması yaradılmışdır. Ara sahədə rapportları bir-birindən ayıran ensiz zolaqların içərisində yarımçıq formalı "kilimgülü" adlanan klassik elementlər, sürməyi, sarı, mavi, zoğalı və yaşıl rəngli "burma" adlanan elementlər təsvir edilmişdir. Ensiz zolaqların kənarlarındakı boşluqlar "mollabaşı" elementləri ilə doldurulmuşdur. Şux rəngə malik olan bu kilimin ara sahəsindəki motivlərdə işlədilən rənglər haşiyə hissəsindəki motivlərdə də təkrarlanır. Parlaq kontrastlı rənglərin qanunauyğunluqla və peşəkarlıqla uzlaşmasından çox baxımlı bir rəng düzümü tərtib edilmişdir.

Digər bir kilim **(bax: Kataloq. №54)** də h.1292-ci ildə (1875-ci il) toxunmuşdur. Bu kilim İrəvan bölgəsinin Talın mahalında toxunmuşdur. Ölçüsü 340x173-dür. Kilimin ara sahəsinin yuxarı hissəsinin mərkəzində tünd şabalıdı rəngli rombşəkilli elementlərin içərisində h. 1292 tarixi vardır. Qarabağ kompozisiyası əsasında toxunmuş bu kilim özünəməxsus orijinallığı ilə seçilir. Ağ yerlikli ara sahənin bəzəyini tünd şabalıdı, qırmızı, yaşıl, mavi rənglərlə işlənmiş kənarları pilləli rombşəkilli kiçikölçülü göllər təşkil edir. Göllərin içərisində müxtəlif klassik elementlər işlənmişdir. Bu elementlərə Qazax-Borçalı qrupuna "Salahlı" xalçalarında da rast gəlinir. Xalçanın soldan göy, sağdan isə açıq göy rənglərlə işlənmiş haşiyəsi çox aydın nəzərə çarpır. Haşiyədə ağ, qırmızı, tünd və açıq şabalıdı, narıncı, yaşıl, tünd və açıq qırmızı, sürməyi, qarpızı rəngli klassik elementlər işlənmişdir. Toxucular arasında bu elementlər "şamdan" adlandırılır. Bu elementlərə Təbriz kilimlərində və Hindistanın xovsuz xalçalarında da rast gəlinir. "Şamdan" adlanan motivlər hər tərəfdən kənarları çıxıntılı, dilikli, böyükölçülü elementlərlə əhatə olunmuşdur. Xalçanın ara sahəsinin sağında və solunda haşiyə divarlarına tərəf istiqamətlənən yaşıl, göy, qırmızı, narıncı, şabalıdı, mavi rəngli çıxıntılı motivlər "çəngəl"i xatırladır. Bu motivlər "daraq" elementlərinə də bənzəyir. Xalçanın yuxarı və aşağı hissəsindəki ensiz haşiyələr yarımçıq rombvari medalyonlarla işlənmişdir. Medalyonlar narıncı, mavi, tünd şabalıdı, tünd və açıq qırmızı yerliklə işlənmişdir. Medalyonların içərisində yarımçıq formalı "şamdan" motivləri işlənmişdir. Xalçanın haşiyə divarlarına tərəf istiqamətlənən müxtəlif rəngli, kənarları çıxıntılı motivlərin üzərində "S"şəkilli , dördləçəkli güllər və digər kiçikölçülü elementlər təsvir edilmişdir. Qarabağ xalçaları üçün səciyyəvi olan haşiyə motivləri İrəvan xalçalarında da geniş surətdə tətbiq edilmişdir. Bu tipli xalçalarda kompozisiya mərkəzi olmur və eyni motivləri müxtəlif rənglərlə, müxtəlif ölçüdə toxumağa imkan verir. Xalçadakı eyni ölçülü və eyni düzülüşlü rombvari göllərin yerliyinin, içərisindəki motivlərin rənglərinin bir-aşırı dəyişdirilməsi nəticəsində çox baxımlı naxış silsiləsi, dinamik və ritmik bir kompozisiya quruluşu yaradılmışdır. Xalçadakı rombvari elementlər ağ yerlikdə daha qabarıq və ifadəli görünür. Xalçanın bir-birini tamamlayan tünd və əlvan rəng qamması, dekorativ kompozisiya həlli yüksək peşəkarlıqla tərtib edilmişdir.

Eyni ilə aid (h.1292/1875) üçüncü kilim **(bax: Kataloq. №55)** İrəvan bölgəsinin Ağbaba mahalında toxunub. Ölçüsü 262x176-dır. Şux qırmızı rəngli yerlikli bu kilimin kompozisiyası ara sahədən və haşiyə hissəsindən ibarətdir. Xalçanın yuxarı

hissəsində ara sahənin sol tərəfində h. 1292 tarixi işlənmişdir. Kilim Qazax-Borçalı kompozisiyası əsasında toxunmuşdur. Ara sahənin əsas bəzəyini "dilikli damğa" adlanan elementlər təşkil edir. Bu elementlər asimmetrik formada bütün ara sahə boyu düzülmüşdür. Ağ və sarı rəngli motivlərin kənarları qara, sürməyi rəngli motivlər sarı, şabalıdı rəngli motivlər mavi, bənövşəyi rəngli motivlər isə yaşıl və mavi "su"larla əhatə olunmuşdur. Toxucular arasında bu kilimlər "gəzməli kilim" adlandırılır. Xalçanın haşiyə zolağının əsasını təşkil edən enli haşiyə ağ, qırmızı, sarı rəngli böyükölçülü "kilimgülü" adlanan klassik elementlərlə bəzədilmişdir. Haşiyəni hər iki tərəfdən ziq-zaq şəkilli, ağ rəngli mədaxil əhatə edir. Xalçanın baş və ayaq hissəsində enli haşiyənin hər iki tərəfi Qərbi Azərbaycan, Qazax-Borçalı və Qarabağ xalçaları üçün səciyyəvi olan "köhnə su" adlanan qırıq-qırıq xətlərlə əhatə olunmuşdur. Xalçanın özünəməxsus kolorit xüsusiyyətləri vardır. Azərbaycan xalçaları üçün səciyyəvi olan əksər rənglərin bu xalçada toplanmasına baxmayaraq, bu qrupa aid ənənəvilik də aydın nəzərə çarpır. Ara sahənin rənglərinin haşiyə hissəsindəki rənglərlə qanunauyğunluqla uzlaşması xalçanın bədii keyfiyyətini yüksəldir. Çalarlar baxımından bu xalça çox rəngarəngdir. Burada parlaq kontrast rənglər çoxluq təşkil etsə də öz sərbəstliyi ilə xoş əhval-ruhiyyə yaradır. Kilimin yerliyinin qırmızı rəngdə olması da təsadüfi deyildir. Qədim inama görə, qırmızı rəng səmadan, kosmosdan gələn qoruyucu sakral rəmz, onun şüası həyatverici, insanları bədxah ruhlardan qoruyan qüvvə hesab edilirdi. Bu rəng qoruyucu sakral işarə kimi qiymətləndirilir və müvafiq olaraq xalq yaradıcılığının müxtəlif növlərində bu günə qədər inkişaf etdirilir. Qırmızı rəng insanları xəstəliklərdən, bədbəxt hadisələrdən qoruyan həyat rəmzi, magik qüvvəyə malik bir rəng kimi qəbul edilir. Təsadüfi deyildir ki, qızılcaya, məxmərəyə tutulmuş xəstələrin yataqları və otağın döşənəcəyi də qırmızı rəngdə olurdu. Hətta gözü səyriyən hər bir kəsin gözünün üstünə qırmızı rəngli sap və yaxud parça kəsiyi qoyardılar. Bu gün də bu adət xalq arasında qalmaqdadır. El adətinə görə, Azərbaycanda toyxanalar qırmızı rəngli kilimlər və digər xalçalarla bəzədilir, gəlinlərin gərdək pərdələri qırmızı rəngli kilimlərdən, şəddələrdən və yaxud parçalardan hazırlanırdı. Qırmızı rəngli ipək gərdək pərdəsinin üstündə üçbucaqlı motivlər işlənirdi. Bu motivlərə kilimlər üzərində də rast gəlinir. Yerli toxucular arasında bu motivlər nəsil artımı rəmzi kimi yozulur. Qədim dövrlərdə və bu gün də Azərbaycan toylarında gəlinin belinin qırmızı rəngli lent (şərit) və ya yaylıqla bağlanması mühüm ayinlərdən biridir. Bu ayin üç dəfə təkrar olunduqdan sonra gəlinin belinin bağlanması ilə başa çatdırılır. Qırmızı rəngin dini, magik rolu toy ləvazimatlarının, gəlinin cehizinin qırmızı lentlə bağlanmasında da öz əksini tapmışdır. Qədim dövrlərdə yeni doğulmuş körpənin göbəyinin qırmızı rəngli bel bağından kəsilmiş bir parça ilə bağlanması da təsadüfi deyildir. Azərbaycan xalqının əski inamlarına görə, rəmzlər, işarələr vasitəsilə, səma və kainatla əlaqəyə girmək mümkündür. İnsanlar bu əlaqə nəticəsində bolluq, firavanlıq, nemət əldə edər, faydalana bilərdilər. Bir sözlə, bu rəng bədnəzərdən xilas olma, xoşbəxtlik və müvəffəqiyyət rəmzi kimi yozulurdu.

İrəvan bölgəsinin Dərələyəz mahalında (Soylan) toxunan kilim **(bax: Kataloq. №57)** h.1293-cü ilə (1876) aiddir. Ölçüsü 266x165-dir. Xalçanın yuxarı hissəsində sol tərəfdə h. 1293 tarixi işlənmişdir. Xalçanın sürməyi yerlikli ara sahəsində XVIII-XIX əsrin I yarısına aid olan kilimlərdə təsadüf edilən "gəzməli kilim" elementləri təsvir edilmişdir. Bu elementlər şaquli və maili istiqamətdə işlənmiş ritmik düzülüşü ilə

nəzərə çarpır. Xalçadakı bu elementlər asimmetrik olaraq tərtib edilmişdir. Xalçanın ara sahəsi boyu 45 bütöv və 6 yarımçıq yarım rombşəkilli motivlər yerləşdirilmişdir. Ağ yerlikli motivlər maili və şaquli istiqamətdə eyni rəng düzümü ilə, narıncı və tünd qırmızı yerlikli motivlər isə bəzən eyni düzümlə, bəzən isə bir-aşırı dəyişdirilərək müxtəlif rəng düzümü ilə tərtib edilmişdir. Toxucular arasında bu elementlər "damğa", kilim isə "damğalı" adlandırılır. Qazax-Borçalı kilimləri üçün səciyyəvi olan bu elementlərə Quba bölgəsinin Pirəbədil xalçalarında da təsadüf edilir. Tünd yerlik üzərində zəngin rəng çaları ilə işlənmiş bu kilim, Azərbaycanın digər bölgələrində toxunan kilimlərdən özünəməxsus bədii tərtibatı və rəng düzümü ilə seçilir. Kilimin kənarları qara rənglə işlənmişdir. Xalçanın ara sahəsindəki motivlərin mərkəzində təsvir edilən klassik elementlər haşiyə hissəsindəki motivlərdə də təkrarlanır. Haşiyə hissəsindəki klassik elementlər bir-birinə bitişik formada düzüldüyündən xalçanın kənarlarında ziq-zaq formalı bir görünüş almışdır. Haşiyə elementlərinin rəngi peşəkarlıqla bir-aşırı dəyişdirilərək, zəngin və müxtəlif rəng çalarlı bu xalçada xüsusi harmoniya yaratmışdır. Qışı sərt keçən bölgələr üçün səciyyəvi olan isti rənglər soyuq rənglərlə qanunauyğunluqla uzlaşdırılaraq rahatlıq duyğusu yaradır və xalçanın ornamentasiyasının bədii keyfiyyətini yüksəldir. Xalça sənətinin ilk inkişaf dövrünə aid olan, sadə dolama texnikasına və zəngin rəng çalarlarına malik olan bu tipli kilimlər iki üzlü olduğundan əhalinin məişəti üçün çox sərfəli idi. Kilimlərdən alaçıqlarda, dəyələrdə və eləcə də toyxanalarda istər daxili bəzək-döşəmədə, istərsə də xarici örtük kimi istifadə edilirdi.

H.1296-cı ildə (1878) İrəvan bölgəsinin Zəngəzur mahalında (Qafan) toxunan kilimin **(bax: Kataloq. №58)** ölçüsü 300x173-dür. Xalçanın ara sahəsinin yuxarı hissəsində sürməyi rapportun içərisində h. 1296 tarixi vardır. Bu xalça Azərbaycan xalçalarının Şirvan qrupuna daxil olan kilim kompozisiyası əsasında toxunmuşdur. Xalçanın ara sahəsi rapportlara ayrılmış kompozisiyadan ibarətdir. Tünd sürməyi yerlikli enli rapportların içərisində Qazax-Borçalı kilimləri üçün səciyyəvi olan kənarları qarmaqlı motivlər yerləşdirilmiş göllər təsvir edilmişdir. Zoğalı, şəkəri, tünd qırmızı, açıq şabalıdı, yaşıl, sarı rənglərlə işlənmiş bu motivlər çox aydın nəzərə çarpır. Mərkəzdəki kərpici yerlikli nisbətən ensiz rapportda ağ, sarı yerlikli beş bütöv və on bir yarımçıq medalyon təsvir edilmişdir. Medalyonun kənarları qarmaqlı motivlərlə təsvir edilmişdir. Qarmaqların rəngi yerliyin dəyişməsinə görə, ardıcıl olaraq dəyişir. Göllərin arasındakı boşluqlar kilimlər üçün səciyyəvi olan "şamdan"ı xatırladan klassik elementlərlə doldurulmuşdur. Rapportların hər iki tərəfindəki zolaqların içərisində tünd sürməyi, qırmızı, yaşıl, sarı rəngli uzunsov formalı, "S"şəkilli motivlər işlənmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif növlərində təsvir edilən "S"vari elementlər çox qədim tarixə malikdir. Bu elementlər son tunc və erkən dəmir dövrlərində geniş yayılmışdı. Bu elementlərə saxsı və zərgərlik məmulatlarında, həmçinin metal əşyaların ornamentasiyasında rast gəlirik. Şəkəri yerlikdə təsvir edilən bu motivlər qarmaqlı haşiyə elementləri növünə daxildir. Çox nadir hallarda təsvir edilən bu haşiyə elementlərinə Qarabağ qrupu xalçalarında təsadüf edilir. Xalçanın baş və ayaq hissəsində nisbətən ensiz zolaqlar içərisində ağ, sarı, yaşıl, sürməyi, qırmızı, açıq şabalıdı və zoğalı rənglərlə işlənmiş yarımçıq göllər tərtib edilmişdir. Sadə texnoloji xüsusiyyətlərə malik olan bu kilim mürəkkəb kompozisiyalı kilimlər sırasına daxildir. Çox zəngin rəng çalarlarına malik

olan bu xalçada rəng düzümü yüksək peşəkarlıqla tərtib edilmişdir. Xalçadakı isti rənglər soyuq rənglərlə, tünd rənglər isə açıq rənglərlə tutuşdurularaq xüsusi ahəng yaradılmışdır.

İrəvan bölgəsinin Sərdarabad mahalında toxunan kilim (367x131) h.1297-ci ilə (1879) aiddir. Kilim **(bax: Kataloq. № 59)** Şirvan kompozisiyası əsasında toxunmuşdur. Bu kilimin ara sahəsi rapportlara bölünmüşdür. Xalçanın aşağı hissəsində ağ yerlikli mərkəzi rapportun içərisində h. 1297 tarixi vardır. Ağ yerlikli rapportun içərisində qırmızı, mor, göy, tünd və açıq şabalıdı rənglərlə işlənmiş üçbucaqlı formaya malik motivlər təsvir edilmişdir. Bu motivlərin içərisində kilimlər üçün səciyyəvi olan yarımçıq formalı "kilimgülü" adlanan klassik elementlər vardır. Üçbucaqlı motivlərin içərisində üz-üzə dayanmış alt və üst cərgədəki qoşa quş təsvirləri orijinallığı ilə diqqəti cəlb edir. Üçbucaqlı motivlərin aşağı hissəsində başını arxaya çevirmiş quş başları ümumilikdə ikinci üçbucaqlı forma almışdır. Rapportun boşluqları latın əlifbasının "S" hərfinə bənzər motivlərlə işlənmişdir. Şabalıdı, tünd qırmızı rəngli rapportların içərisində də eyni motivlər ağ, göy, tünd qırmızı, çəhrayı, mavi rənglərlə işlənmişdir. Xalçanın ara sahəsini içərisində "damğa" elementləri işlənmiş ağ yerlikli ensiz haşiyə əhatə edir. "Damğa" elementləri tünd və açıq qırmızı, şabalıdı, göy və sürməyi rənglərlə tərtib edilmişdir. Xalçanın sürməyi yerlikli enli haşiyəsi çəhrayı, tünd və açıq qırmızı, sarı, sürməyi, göy, açıq və tünd şabalıdı rənglərlə işlənmiş, içərisində "kilimgülü" və rombvari motivlər olan altıbucaqlı elementlərlə bəzədilmişdir. Ağ yerlikli ensiz haşiyə "damğa" motivləri ilə işlənmişdir. Enli və ensiz haşiyəni hər iki tərəfdən kənarları çıxıntılı ağ rəngli zolaqlar əhatə edir. Bu zolaqlar çox aydın nəzərə çarparaq, xoş əhval-ruhiyyə yaradan bir görünüş gətirir. Xalçanın baş və ayaq hissəsindəki ensiz haşiyə sürməyi, tünd və açıq şabalıdı, göy, sarı, qırmızı içərisində klassik motivlər işlənmiş kiçikölçülü altıbucaqlı həndəsi elementlərlə bəzədilmişdir. Bu həndəsi elementlərin içərisində işlənmiş motivlərə orta və son tunc, erkən dəmir dövrlərinə aid keramika məmulatlarında rast gəlirik. Həmin təsvirlər saxsı qablar üzərində qaramtıl fonda ağ materialdan inkrustasiya üsulu ilə işlənmişdir və bunlara Gəncə, Qarabağ, Gədəbəy, Naxçıvan və digər regionlarda tunc və ilk dəmir dövrlərinə aid (e.ə. II minilliyin sonları - I minilliyin əvvəlləri) aid qəbirlərdən tapılmış bir çox qablar üzərində rast gəlinir.

H.1298-ci ilə (1880) aid olub, İrəvan bölgəsinin Zəngəzur mahalında (Qafan) toxunan kilim də (278x206) sənətkarlıq baxımından diqqətəlayiqdir. Xalçanın **(bax: Kataloq. №60)** mərkəzində h. 1298 tarixi vardır. Bu xalça Qarabağ kompozisiyası əsasında toxunmuşdur. Qırmızı yerlikli kilim böyük və kiçikölçülü rapportlarla üfüqi hissələrə bölünmüşdür. Üfüqi hissələrə bölünən bu növ kompozisiyalar ən qədim xalça nümunələri hesab edilən palazlar və zililər üçün də səciyyəvidir. Enli rapportlar yaşıl, nisbətən ensiz rapportlar qırmızı rənglə tərtib edilmişdir. Bu xalçada üfüqi zolaqlar içərisində ritmik surətdə ağ, zoğalı, mavi, sarı, mor rəngli böyük və kiçikölçülü rombvari elementlər təsvir edilmişdir. Bu elementlər xalçaçılar və sənətşünaslar arasında "damğa", kilim isə "Damğalı" adlanır. Bu tipli kompozisiyalar bitkin deyildir və toxunma prosesində eyni elementləri istənilən qədər təkrarlamağa və müxtəlif ölçülərdə toxumağa imkan verir. Xalçadakı elementlərin tünd göy rənglə qırmızı və mavi, ağ rəngli qırmızı və sürməyi, sarı rənglə tünd şabalıdı, ağ rənglə şabalıdı, sürməyi, sarı və s. şux rənglərin peşəkalıqla uzlaşdırılmasından canlı bir

görünüş yaradılmışdır. Xalçanın nisbətən ensiz zolaqlarında sürməyi, ağ rənglərlə işlənmiş böyükölçülü çəngəli xatırladan orijinal motivlər təsvir edilmişdir. Boşluqlar "su" adlanan xətlərlə işlənmişdir. Enli zolaqları əhatə edən ensiz zolaqlar isə kənarları pilləli klassik elementlərlə bəzədilmişdir. Zolaqlar hər iki tərəfdən "siçandişi" elementləri ilə əhatə olunmuşdur. Xalçanın kənarları qara, ağ və qırmızı rəngli pilləli motivlərlə əhatə olunub. Bu motivlərə Mingəçevirdə arxeoloji qazıntılar zamanı tapılmış e.ə. VI-I əsrlərə aid bəzək əşyalarında da rast gəlinir. Xalçanın rəng tərtibatı yüksək peşəkarlıqla həll edilmişdir. Müxtəlif çalarlar (yaşıl, qırmızı, qara, ağ, narıncı, şabalıdı, sürməyi, mavi, sarı) zövqü oxşayan rəng palitrası yaratmışdır. Xalça yüksək keyfiyyətli, əl üsulu ilə əyrilmiş və təbii boyalarla boyanmış iplərdən toxunmuşdur.

İrəvan bölgəsinin Ağbaba mahalında h. 1299-cu ildə (1881) toxunan kilimin **(bax: Kataloq. № 63)** ölçüsü 280x199-dur. Xalçanın yuxarı hissəsində h. 1299 tarixi vardır. Bu xalça "Damğa"lı kilim və "Çiyi" palazlar üçün səciyyəvi olan kompozisiya əsasında toxunmuşdur. Zəngin kompozisiya quruluşuna malikdir. Onun əsas bəzəyini üfüqi istiqamətdə işlənmiş zoğalı, sürməyi, mavi yerlikli enli zolaqlar təşkil edir. Enli zolaqların içərisində "damğa" adlanan böyükölçülü və "qoşa damğa" adlanan kiçikölçülü elementlər təsvir edilmişdir. Bu elementlər XVIII-XIX əsr kilimləri üçün səciyyəvidir. Göy yerlikli, nisbətən ensiz zolaqların içərisində rombvari elementlər işlənmişdir. Bu zolaqların kənarları hər iki tərəfdən "burma" adlanan zoğalı və narıncı rəngli elementlər təsvir edilmiş ensiz zolaqlarla əhatə olunmuşdur. Göy yerlikli rapportlar "çiyi palaz"lar üçün səciyyəvi olan, bir-birinin ardınca üfüqi istiqamətdə işlənmiş ağ rəngli zəncirə bənzər rombvari motivlərlə bəzədilmişdir. Bu rapportlar şabalıdı yerlikli zolaqla əhatə olunmuşdur. Rapportların arasındakı ensiz zolaqlar hər iki tərəfdən palazlar üçün səciyyəvi olan qırmızı rəngli ensiz zolaqlarla tamamlanmışdır. Zolaqların içərisində maili istiqamətdə düzülmüş kiçikölçülü "romblar" təsvir edilmişdir. Romblar kəsik-kəsik zənciri xatırladır. Zolaqların kənarları "su" larla tamamlanır. Zoğalı rəngli enli zolaqlar hər iki tərəfdən şəkəri və mor rəngli "burma" adlanan naxışlarla bəzədilmiş zolaqlarla əhatə olunmuşdur. Bu zolaqlar daxildən və xaricdən "siçandişi" adlanan elementlərlə tamamlanmışdır. Xalça sənətinin yaranmasının birinci dövrünə aid edilən sadə zolaqlar (mavi, zoğalı, sürməyi rəngli) xalçanın ümumi görünüşünə xüsusi ahəng gətirmişdir. Xalçanın rəng çalarlarının zəngin olmasına baxmayaraq, sərbəstlik də aydın nəzərə çarpır. Xalçanın rəng palitrası yüksək peşəkarlıqla həll edilmişdir. Qərbi Azərbaycan xalçaları üçün səciyyəvi olan sürməyi, zoğalı və ağ rənglər bu xalçada üstünlük təşkil edir. Zoğalı, sürməyi, şəkəri, narıncı, mor, mavi, ağ və şabalıdı rənglər bir-biri ilə uzlaşaraq çox baxımlı bir görünüş yaratmışdır. Xalçadakı rənglərin ahəngdarlıqla düzümü harmoniya prinsipi ilə tərtib edilmişdir. Bu palaz-kilim yüksək keyfiyyətli əl üsulu ilə əyrilmiş və təbii boyalarla boyanmış iplərdən toxunmuşdur.

Təqdim olunan növbəti kilim h. 1307-ci ildə (1889) İrəvan bölgəsinin Göyçə mahalında (Basarkeçər) toxunmuşdur. Ölçüsü 380x223-dür. Xalçanın **(bax: Kataloq. №67)** ara sahəsinin yuxarı hissəsində qırmızı yerlikdə h. 1307 tarixi vardır. Xalça Qarabağın kilimləri üçün səciyyəvi olan kompozisiya əsasında toxunmuşdur. Xalçanın ara sahəsi enli və ensiz rapportlara bölünmüşdür. Qırmızı yerlikli rapportlarda sürməyi, açıq yaşıl, rəngli rapportlarda qırmızı, ağ, açıq yaşıl rapportlarda isə qırmızı, ağ rənglərlə işlənmiş medalyonların içərisində "kilimgülü" adlandırılan klassik elementlər təsvir edilmişdir.

“Kilimgülü” elementlərinin mərkəzində xaçşəkilli “dörd ünsür” adlandırılan kənarları pilləli motivlər vardır. Xalçada təsvir edilən “kilimgülü” elementlərinin də kənarları pilləlidir. Rapportlardakı medalyonların arasındakı boşluqlarda üçbucaqlı formaya malik olan bitməmiş klassik elementlər işlənmişdir. Bu elementlərin mərkəzində pilləli motivlər vardır. Yarımçıq pilləli motivlər sarı, şabalıdı, çəhrayı, qırmızı, ağ, bənövşəyi, göy, açıq yaşıl, sürməyi rənglərlə tərtib edilmişdir. Enli rapportların kənarları ağ, qara rənglərlə işlənmiş kiçikölçülü dilikli motivlərlə tamamlanır. Xalçanın ağ yerlikli ensiz zolaqlarında bənövşəyi, qırmızı, açıq yaşıl, sürməyi, mor rəngli klassik elementlər vardır. Bu elementlərin arasındakı boşluqlar qara rənglə işlənmiş xaçşəkilli (“dörd ünsür”) motivləri ilə bəzədilmişdir. Ağ yerlikli ensiz zolaqlar hər iki tərəfdən içərisində kiçikölçülü “kilimgülü” elementləri işlənmiş sürməyi yerlikli zolaqlarla əhatə olunmuşdur. “Kilimgülü” motivləri sarı, yaşıl, qırmızı, ağ, çəhrayı və göy rənglərlə tərtib edilmişdir. Sadə dolama texnikası ilə toxunan bu kilim zəngin naxış tərtibatına malikdir. Xalça çox zəngin rəng palitrasına və mürəkkəb kompozisiya quruluşuna malikdir. Ağ yerlikli ensiz zolaqlar hər iki tərəfdən qara yerlikli, içərisində göy, sarı, açıq yaşıl, narıncı, mor rənglərlə işlənmiş elementlərlə bəzədilmişdir.

İrəvan bölgəsinə aid onuncu kilim **(bax: Kataloq. №74)** h. 1312-ci ildə (1894) Dərəçiçək mahalında (Axtı) toxunmuşdur. Xalça Qazax-Borçalı qrupu kompozisiyası əsasında toxunmuşdur. Xalçanın yuxarı hissəsində h. 1312 tarixi vardır. Xalça sənətinin ilk inkişaf dövrünə aid olan və sadə dolama texnikası ilə toxunan kilimlərin naxışları gəzməli və yaxud gəzməsiz olur. Kilimlərdən, adətən alaçıqlarda, dəyələrdə və toyxanalarda istər daxili bəzəkdə-döşəmədə, istərsə də xarici örtük kimi istifadə edilirdi. Kilimlərdən yas mağarının daxili döşəməsində də istifadə edilirdi və bu ənənə hal-hazırda da Azərbaycanın əksər bölgələrində davam edir. Xalçanın əsas bəzəyi üfüqi istiqamətdə tərtib edilmiş enli və ensiz rapportlardan ibarətdir. Enli rapportlarda “cütbuynuz” motivləri işlənmişdir. Bu motivlərin arasında kənarları pilləli klassik elementlər vardır. Bu klassik elementlər “cütbuynuz” motivlərinin mərkəzində də rəngləri bir-aşırı dəyişdirilərək təsvir edilmişdir. “Cütbuynuz” motivləri ağ yerlikli rapportlarda tünd qırmızı, sürməyi, yaşıl, göy rənglərlə, sürməyi yerlikli şəkəri, qırmızı, ağ, açıq şabalıdı, tünd qırmızı yerlikdə isə açıq yaşıl, sürməyi, sarı rənglərlə işlənmişdir. Ensiz rapportlarda “damğa” adlandırılan elementlər təsvir edilmişdir. Bu elementlər tünd yaşıl yerlikdə qırmızı, qara-qırmızı yerlikdə sarı, göy, ağ yerlikdə qırmızı və zoğalı, göy yerlikdə, şəkəri və qırmızı rənglərlə tərtib edilmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrində, o cümlədən xalçaçılıqda təsvir edilən “cütbuynuz” və “damğa” motivlərinin tarixi çox qədimdir. Xalçada kontrast rənglər üstünlük təşkil edir. Ahəngdar surətdə təkrarlanan rapportlarda rənglərin bir-birini əvəzləməsi ilə, çox baxımlı rəng düzümü yaradılmışdır.

### 3.2.2. Palaz

Xovsuz xalçaların əsas növlərindən biri də palazdır. İrəvan bölgəsinin palazlarının sənətkarlıq xüsusiyyətlərini müəyyən etmək üçün Loru mahalında (Barana) toxunmuş bir çiyi palazı nəzərdən keçirmək istərdik. Bu palaz **(bax: Kataloq. №61)** h. 1298-ci ildə (1880) toxunmuşdur. Ölçüsü 314x186-dır. Xalçanın mərkəzində h. 1298 tarixi işlənmişdir. Bu xalça “Damğalı” kilim və Bakının “Çiyi” palaz kompozisiyası əsasında

toxunmuşdur. Azərbaycan xalqının məişətində çox geniş istifadə edilən kilim-palazlar yaşayış yerlərinin döşəmələrini, köçmə həyat tərzi keçirən tərəkəmələrin alaçıqlarının divar və döşəmələrinin bəzəyi və yataq örtüyü kimi geniş surətdə istifadə edilirdi. Qədim dövrlərdə bu tip xalçalar dini və dəfn mərasimlərində də çox əhəmiyyətli idi. Qızlar gəlin köçərkən onların cehizinin içərisində mütləq kilim-palaz texnikası ilə toxunmuş xalçalar olurdu. Kilim-palazlar divar bəzəkləri olmaqla yanaşı, həm də pərdə kimi istifadə edilirdi. Xalçanın əsas bəzəyi üfüqi istiqamətdə tərtib edilmiş enli və nisbətən ensiz zolaqlardan ibarətdir. Enli zolaqların içərisində "damğa" və "qoşa damğa" adlanan motivlər, nisbətən ensiz zolaqlar içərisində isə şəbəkəni xatırladan rombvari naxışlar işlənmişdir. Bu zolaqlar hər iki tərəfdən içərisində maili istiqamətdə kiçikölçülü zəncirvari rombşəkilli elementlər işlənmiş ensiz zolaqlarla əhatə olunmuşdur. Xalça boyu üfüqi istiqamətdə işlənmiş mavi rəngli sadə zolaqlar çox aydın nəzərə çarpır. Çiyi palazlar üçün səciyyəvi olan ağ rənglə işlənmiş motivlər xalçaya xüsusi gözəllik gətirir. Bu xalçada təsvir edilən "damğa" motivləri digər xalçalardakı "damğa" motivlərindən öz sadə tərtibatı ilə seçilirlər. Bu motivlər ənənəvi qanunauyğunluqlar əsasında icra edilmişdir. Eyni motivlərin xalçada təkrarən təsvir edilməsinə baxmayaraq, rənglərin bir-biri ilə əvəzlənməsi nəticəsində çox baxımlı bir kompozisiya quruluşu yaradılmışdır. Bu kompozisiyalı xalçaları müxtəlif ölçülərdə toxumaq mümkündür. Gəncə, Qazax-Borçalı xalça qrupları üçün xarakterik olan motivlər və rənglər bu xalçada toplanmışdır.

### 3.2.3. Zililər

Xovsuz xalçaların əsas növlərindən biri də zilidir. İrəvan bölgəsi zililərinin sənətkarlıq xüsusiyyətlərini müəyyən etmək üçün iki zili **(bax: Kataloq. №11, 50)** tədqiqata cəlb edilmişdir.

Zililərdən biri İrəvan bölgəsinin Aparan mahalında h.1252-ci ildə (1836) toxunmuşdur. Ölçüsü 204x150-dir. Xalçanın **(bax: Kataloq. №11)** yuxarı hissəsində sol tərəfdə haşiyənin kənarında h. 1252 tarixi vardır. Mürəkkəb dolama üsulu ilə toxunan zililər istər toxunuşuna, istərsə də bədii xüsusiyyətlərinə görə digər xovsuz xalçalara nisbətən daha çox təkmilləşmişdir. Zililərin bədii tərtibatında stilizə olunmuş heyvan təsvirlərindən başqa, ibtidai formalı bir sıra həndəsi elementlər də özünü göstərir. Qədim dövrlərdə Azərbaycanın müxtəlif bölgələrində toxunan zililər öz yüksək bədii tərtibatına görə yalnız ölkə daxilində deyil, dünya bazarlarında da şöhrət qazanmışdır. Tünd şabalıdı yerlikli bu xalçanın əsas bəzəyi ara sahədə işlənmiş kvadratşəkilli medalyonlardan ibarətdir. Medalyonların hər tərəfində "T"şəkilli çıxıntılar vardır. Medalyonlar şəkəri, sürməyi, göy, sarı, solğun qırmızı rənglərlə tərtib edilmişdir. Medalyonların mərkəzində "çəngəl" adlandırılan motivlər vardır. Ara sahənin boşluqları kiçikölçülü, səkkizbucaqlı elementlərlə doldurulmuşdur. Səkkizbucaqlı elementlərin içərisində səkkizguşəli ulduzlar vardır. Bu elementlər sarı, şəkəri, mavi, göy, solğun qırmızı, açıq şabalıdı rənglərlə işlənmişdir. Xalçanın sağ və sol kənarlarında kiçikölçülü daraq, rombvari, üçləçəkli gül, kvadratşəkilli zəif nəzərə çarpan elementlər və yarımçıq "bədən" motivləri vardır. Xalçada təsvir edilən "daraq" motivlərinin tarixi çox qədimdir. Bu element mənəvi paklığa bir işarədir. Ara sahəni şabalıdı yerlikli enli haşiyə əhatə edir. Xalçanın ara sahəsindəki medalyon-

ların içərisində təsvir edilən "çəngəl" motivləri haşiyə hissəsində də təkrarlanır. Sağ və sol hissələrdəki haşiyələrdə dördbucaqlı elementlərin içərisində rombşəkilli və "X"şəkilli motivlər işlənmişdir. Haşiyəni hər iki tərəfdən içərisində kiçik rombşəkilli motivlər işlənmiş sarı rəngli mədaxillər əhatə edir. Haşiyənin kənarları mavi, qırmızı rənglərlə dolama üsulu ilə işlənmişdir. Bu zilinin üzərindəki elementlərin xüsusi şərhi verilmişdir.

İkinci zili **(bax: Kataloq. №50)** Göyçə mahalında (Basarkeçər) toxunmuşdur. Bu zili (242x137) 1290-cı ilə (1873) aiddir. Xalçanın aşağı hissəsində yarımçıq rombvari elementin içərisində şabalıdı yerlikdə h. 1290 tarixi vardır. Tünd şabalıdı yerlikli bu zilinin ara sahəsinin əsas bəzəyini bir-birinin ardınca simmetrik formada düzülmüş rombvari elementlər təşkil edir. Xalçanın ara sahəsində 32 bütöv və 20 yarımçıq rombvari göl yerləşdirilmişdir. Bu rombvari göllərin içərisində qarmaqlı motivlər işlənmişdir. Qarmaqlı elementdən XV əsrə aid olan duz torbalarının kompozisiyasında geniş istifadə edilmişdir. Sırf xalça ornamenti hesab edilən bu element Gəncəçay vadisindəki kurqanda, Daşkəsəndə aşkara çıxarılmış son tunc dövrünə aid keramika nümunələrində özünün quruluş prinsipinə görə, analogiyasını tapır. Xalçanın şabalıdı yerlikli enli haşiyəsində kənarları qırmızı, ağ rəngli diliklərlə işlənmiş ara sahədəki motivlərə nisbətən kiçikölçülü rombvari göllər təsvir edilmişdir. Göllərin kənarları qırmızı rəngli diliklərlə əhatə olunub. Göllərin mərkəzində içərisində qoşa üçbucaqlı motivlər olan səkkizbucaqlı element yerləşdirilmişdir. Səkkizbucaqlı elementlərin kənarları dilikli motivlərlə işlənərək dördbucaqlı, rombvari forma almışdır. Azərbaycan xalçaları üçün ən səciyyəvi ornament həndəsi ornamentdir. Azərbaycan, faktiki olaraq, tunc dövründə təşəkkül tapmış mücərrəd-həndəsi formalı təsvirlərin məhz həmin üslubda zəmanəmizədək qorunub saxlandığı diyarlardan biridir. Azərbaycan xalçalarında təsvir edilən üçbucaqlı, dördbucaqlı, altıbucaqlı, səkkizbucaqlı ornamentlər qədim keramika məmulatlarında geniş istifadə olunmuşdur. Azərbaycanın orta və son tunc, erkən dəmir dövrlərinə aid keramika məmulatları üçün yan tərəflərdə kvadrat və romblarla işlənmiş üçbucaqlı şəklində haşiyə zolaqları, yaxud da qabların təpə hissəsində bu cür üçbucaq təsvirləri səciyyəvidir. Bu elementlərə Gəncə, Qarabağ, Gədəbəy, Naxçıvan və digər rayonlarda tunc və ilk dəmir dövrlərinə (e.ə. II minilliyin sonları-I minilliyin əvvəlləri) aid qəbirlərdən tapılmış bir çox qablarda rast gəlinir. Xalçanın enli haşiyəsini hər iki tərəfdən içərisində qırmızı rəngli zəncirvari düzülüşlə işlənmiş kiçikölçülü rombşəkilli motivlərlə bəzədilmiş mədaxillər əhatə edir. Mədaxillərin kənarları ağ, sarı və qırmızı rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Bu xalçanın rəng palitrası sadədir, lakin ayrı-ayrı rənglərin uzlaşdırılması, bir-birini əvəz etməsi ənənəvi qanunauyğunluqla həll edilmişdir.

### 3.2.4. Vərnilər

Xovsuz xalçalar içərisində vərnilər də xüsusi yer tutur. İrəvan bölgəsində vərnilərə də maraq böyük olmuşdur. İrəvan bölgəsi vərnilərinə dair təsəvvür əldə etmək üçün aparılan axtarışlar nəticəsində tədqiq edilən dövrə aid iki vərni toplanmış və öyrənilmişdir.

Onlardan biri **(bax: Kataloq. №21)** 1854-ci ildə Göyçə mahalında (Basarkeçər)

toxunmuşdur. Ölçüsü 302x230-dur. Xalça sənətinin ikinci inkişaf dövrünü təşkil edən və mürəkkəb dolama üsulu ilə toxunan vərnilər əksər hallarda maldarlıqla məşğul olan köçmə həyat tərzi keçirən əhali tərəfindən toxunmuşdur. Digər xalçalardan fərqli olaraq vərnilərdə başlıca olaraq şərtiləşmiş heyvan təsvirlərinə daha çox təsadüf edilir. Azərbaycanın dağlıq rayonlarında yaylaq-qışlaq həyat tərzi keçirən əhaliyə məxsus vərni toxunuşlu dəvə, at çulu, məfrəş, xurcun, pərdə, yüküzü kimi məişət əşyalarına tez-tez təsadüf edilir. Vərnilər ən çox Qazaxda, Qarabağda, Qaradağda (Cənubi Azərbaycan) və İrəvanın bir çox mahallarında istifadə olunmuşdur. Kərpiciyə çalan qırmızı yerlikli bu vərninin əsas bəzəyi 16 böyükölçülü 2 rəqəminə və yaxud tərsinə düzülmüş "S"-ə bənzər elementlərdən ibarətdir. Bu elementlər sürməyi yerliklidir. Əjdahaların quyruğu və buynuzları çox aydın nəzərə çarpır. Bu elementlərin kənarları daxildən və xaricdən yaşıl rəngli çıxıntılarla əhatə olunub. Çıxıntılar ağ rəngli sularla tamamlanır. Əjdahaların üzərində latın əlifbasının "Z" hərfinə bənzər motivlər işlənmişdir. Bu motivlər mor, qırmızı, ağ, göy, sarı, açıq və tünd yaşıl, bənövşəyi, açıq və tünd şabalıdı rənglərlə tərtib edilmişdir. Bu motivlərin kənarları müxtəlif rəngli "su"larla işlənmişdir. Ara sahənin boşluqları kənarları pilləli klassik elementlər və "S"-ə bənzər motivlərlə doldurulmuşdur. Bu elementlər tünd və açıq yaşıl, ağ, bənövşəyi, mor, tünd və açıq şabalıdı, sürməyi, qara rənglərlə işlənmişdir. Xalçanın haşiyəsi mavi və qara rənglərlə işlənmiş "mollabaşı" elementləri ilə tərtib edilmişdir. Haşiyənin kənarları yaşıl və qırmızı rənglərlə tərtiblənmiş mədaxillərlə əhatə olunmuşdur. Mədaxillərin kənarları qara rəngli "su"larla, "mollabaşı"motivləri isə qırmızı rəngli "su"larla tamamlanır.

İkinci vərni isə h.1299-cu ildə (1881) Dərələyəz mahalında (Soylan) toxunmuşdur. Ölçüsü 374x228-dir. Xalça **(bax: Kataloq. №64)** Qarabağ kompozisiyası əsasında toxunmuşdur.Vərninin mərkəzində sağ tərəfdə h. 1299 tarixi vardır. Bu xalça Azərbaycanın dekorativ-tətbiqi sənətində, o cümlədən xalçaçılıqda əsrlərlə tərtib edilmiş klassik, stilizə olunmuş motivləri əks etdirir. Açıq qırmızı yerlikli bu xalçanın əsas bəzəyi böyükölçülü sürməyi, ağ yerlikli "S"-ə, yaxud "2" rəqəminə bənzər elementlərdən ibarətdir. Bu elementlər xalçaçılar və sənətşünaslar arasında fantastik heyvan - "əjdaha" kimi yozulur. Əjdahaların üzərində tərsinə düzülmüş "Z"-ə bənzər və yaxud stilizə olunmuş ördəyə bənzər kiçikölçülü motivlər işlənmişdir. Ağ rəngli əjdahaların kənarları sürməyi, sürməyi rəngli əjdahaların kənarları isə ağ "su"larla işlənmiş çıxıntılarla tərtib edilmişdir. Əjdahaların buynuzları və quyruqları bu motivlərin rənglərinə uyğun olaraq ağ və sürməyi rənglərlə işlənmişdir. Xalçanın ara sahəsinin boşluqları stilizə olunmuş dördayaqlı fantastik quşlar, kənarları pilləli rombvari kiçikölçülü "S"-ə bənzər, ağaca bənzər motivlər və digər klassik elementlərlə doldurulmuşdur. Xalçanın ensiz haşiyəsi açıq qırmızı və yaşıl rənglərlə işlənmiş "mollabaşı" motivləri ilə tərtib edilmişdir. Haşiyə hər iki tərəfdən şəkəri rənglərlə işlənmiş "siçandişi"lərlə tamamlanır. Xalçanın baş və ayaq hissəsindəki haşiyələr tünd şabalıdı yerlikli "köhnə su" motivləri işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Xalça sənətinin ikinci inkişaf dövrünə aid edilən mürəkkəb dolama üsulu ilə toxunan "vərni" adlanan xalçalar əksər hallarda maldarlıqla məşğul olan əhali tərəfindən toxunmuşdur. Buna görə də bu tipli xalçaların üzərində başlıca olaraq şərtiləşmiş heyvan təsvirlərinə daha çox təsadüf edilir. Azərbaycanın dağlıq bölgələrində yaylaq-qışlaq həyat tərzi keçirən əhalinin vərni toxunuşlu at, dəvə, öküz çulu, məfrəş,

xurcun, pərdə və yüküzü kimi məişət əşyalarına tez-tez rast gəlinir. Vərnilər bir, iki hissədən ibarət olur. Nadir hallarda üç hissədən ibarət olan vərnilərə də təsadüf edilir. Vərnilər, əsasən, tünd qırmızı, sürməyi, kərpici və bəzən isə şəkəri yerliklə toxunur. Yalnız Azərbaycanda toxunan bu xalça özünəməxsus rəng harmoniyası və zəngin naxış tərtibatı ilə digər ölkələrdə toxunan xovsuz xalçalardan seçilir.

### 3.2.5. At çulu

Azərbaycanlıların həyatında at mühüm rol oynadığı üçün at çullarının toxunması da geniş yayılmışdı. At çulu insanların məişət tələbatını ödəməklə yanaşı, qiymətli sənət əsəri kimi də dəyərləndirilir.

Belə at çullarından biri h.1291-ci ildə (1874) İrəvan bölgəsinin Dərələyəz mahalında (Keşişkənd) toxunmuşdur. Ölçüsü 193x161-dir. Xalçanın **(bax: Kataloq. №51)** aşağı hissəsində şabalıdı rapportun içərisində h. 1291 tarixi vardır. Zili texnikası ilə toxunmuş çul üç hissəyə bölünmüşdür. Şabalıdı yerlikli mərkəzi hissə rapportlara ayrılmışdır. Çulun yuxarı hissəsindəki rapportun içərisində "rombvari", nəbati, ağaca və quşa bənzər motivlər işlənmişdir. Rapport yuxarı və aşağı tərəfdən içərisində rombşəkilli və digər klassik elementlər işlənmiş zolaqlarla əhatə olunmuşdur. Mavi yerlikli üfüqi zolaqlar qarmaqlı motivlər və üz-üzə dayanmış quş fiqurları ilə bəzədilmişdir. Hələ qədim zamanlardan Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif nümunələrində, o cümlədən xalçalarda işlənən əfsanəvi obrazlar bu əşyalara yüksək bədii məna bəxş etmişdir. Bu obrazlardan biri quş obrazıdır. Araşdırmalar göstərir ki, qədim dövrlərdə bir sıra quş obrazları dini ayin və mifik təsəvvürlərlə əlaqədar tətbiq olunmuşdur. Əsrlər ötdükcə bu obrazlarda daha çox dekorativ məzmun ön plana çəkilmişdir. Sonralar bu obrazlar bəzən ənənəvi bəzək elementinə çevrilərək stilizə edilmiş və mücərrədləşmişdir. Şabalıdı yerlikli ensiz zolaqlarda stilizə olunmuş tovuzquşu, dördayaqlı fantastik "qoşa quş" təsvirlərinə Quba, Qarabağ xalça qruplarına daxil olan xalçalarda və tikmələrdə də təsadüf edilir. Azərbaycan xalçalarında ən geniş yayılmış quş obrazlarından biri tovuzquşudur. Bu surət əsrlər boyu Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif növlərində dönə-dönə təsvir edilmiş və hal-hazırda edilməkdədir. Bu at çulunun mərkəzindəki şabalıdı yerlikli rapportun içərisində üç at fiquru təsvir edilmişdir. Atların üstündə insan təsvirləri vardır. Azərbaycan xalçalarında və xalça məmulatlarında at obrazı ən geniş yayılmış obrazlardandır. Bu heyvan xalqımızın təsərrüfatında və məişət həyatında böyük rol oynamışdır. Azərbaycan xalçalarında və xalça məmulatlarında təsvir edilən at obrazı ona olan böyük ehtiramın nəticəsidir. Oğuz tayfalarında at totemi şərəf, igidlik, qələbə rəmzi olmuşdur. Çulun ara sahəsini hər tərəfdən içərisində rombvari motivlər işlənmiş haşiyə əhatə edir. Haşiyə çulun ara sahəsinin sağında və solunda, həmçinin aşağı və yuxarı hissəsində tərtib edilmişdir. Haşiyənin içərisində "gözqaytarıcı", "qoşabuynuz" motivləri də işlənmişdir. Çulun ara sahəsindəki rapportlar və haşiyə zolaqları dilikli motivlərlə və ağ rəngli sularla əhatə olunmuşdur. Sürməyi yerlikli sahəni sağ və soldan kərpici rəngli rapport əhatə edir. Bu rapportlarda stilizə olunmuş dəvə, tovuzquşu, dörd ayaqlı fantastik quşlar, kiçikölçülü medalyonlar, səkkizguşəli ulduz və müxtəlif nəbati elementlər təsvir edilmişdir. Çulun hasiyəsi rombvari motivlərlə bəzədilmişdir. Onların içərisində "cütbuynuz" və kiçikölçülü

romblar işlənmişdir. Kiçikölçülü romblar bədnəzərdən qoruyucu kimi şərh edilir. Kərpici rəngli rapportların kənar hissələrində haşiyə divarlarına bitişik daxildən sürməyi, qırmızı, xaricdən isə mavi, qırmızı rənglərlə işlənmiş dilikli motivlər vardır. Yuxarı hissənin sağında və solunda kişi təsvirləri vardır. Çulun rəngləri bir-biri ilə peşəkarlıqla və qanunauyğunluqla uzlaşdırılmış, çox baxımlı bir rəng palitrası yaradılmışdır.

## 3.3. İrəvan bölgəsinin xovlu xalçaları

### 3.3.1. Xanlıq dövrü xovlu xalçaları

İrəvan bölgəsi üzrə tədqiqata cəlb edilən 100 xalçadan 84-ü xovlu xalçalara aiddir. Bu xalçaların hər biri əvəzsiz sənətkarlıq nümunəsi olub, həm İrəvan bölgəsi, həm də bütövlükdə Azərbaycan xalçalarının sənətkarlıq xüsusiyyətləri haqqında ətraflı təsəvvür yaratmağa imkan verir. Ona görə də bu xalçaların hər biri üzərində ciddi araşdırma aparılmış, onların tarixi və sənətkarlıq xüsusiyyətləri tədqiqata cəlb olunmuşdur.

İlk doqquz xalça **(bax: Kataloq. №1, 2, 3, 4, 5, 6, 7, 8, 9)** İrəvan xanlığı dövrünə aiddir. Onlardan ilk üçü tarixi baxımdan çox nadir xalçalar olub, XVIII əsrin sonlarına aiddir. Qeyd edilən doqquz xalça xanlıqlar dövründən bizə gəlib çatmış əsl sənətkarlıq nümunələridir. Onların əsasında xanlıqlar dövrü xalçaları haqqında fikir yürütmək olar.

Birinci xalça **(bax: Kataloq. №1)** h.1201-ci ilə (1786) aiddir. Ölçüsü 178x124 olan xalça İrəvan şəhərində toxunmuşdur. İrəvanda toxunan xalçalar bədii quruluşu baxımından Qazax-Borçalı xalçalarına çox yaxındır. Bu xalçanın toxucular tərəfindən “Qazax” adlandırılması təsadüfi hal deyil. Xalçanın ara sahəsinin aşağı hissəsində sağ küncdə h. 1201 tarixi vardır. Xalçanın ara sahəsinin əsas bəzəyi qırmızı yerlikdə yerləşdirilmiş doqquz altıbucaqlı medalyondan ibarətdir. Medalyonlar yuxarıdan birinci cərgədə iki mavi, bir açıq yaşıl, ikinci cərgədə iki tünd və bir açıq şabalıdı, üçüncü cərgədə isə mavi, tünd yaşıl və sürməyi yerliklidir. Medalyonların içərisində şaquli istiqamətdə düzülmüş kvadrat şəkilli elementlər, yuxarı və aşağı künclərdə, mərkəzdən sağ və sol istiqamətdə stilləşmiş insan fiqurlarına bənzər motivlər təsvir edilmişdir. Ara sahənin boşluqları səkkizbucaqlı medalyonlar, rombvari elementlər, buta və dördləçəkli çiçəklərlə doldurulmuşdur. Medalyonların içərisində hər tərəfə istiqamətlənən ucları ox işarəli motivlər vardır. Xalçanın enli haşiyəsi sağda və solda oxa bənzər motivlərlə bəzədilmişdir. Bu motivlər qırmızı, sarı və sürməyi, mavi, şabalıdı rənglərlə tərtib edilmişdir. Yuxarı və aşağı hissələrdəki enli haşiyələr ağaca bənzər motivlərlə bəzədilmişdir. Enli haşiyə hər iki tərəfdən içərisində diliklər işlənmiş ensiz haşiyələrlə əhatə olunmuşdur. Diliklər sürməyi, açıq şabalıdı, zoğalı, sarı, mavi, tünd və açıq yaşıl, ağ rənglərlə tərtib edilmişdir. Daxili haşiyə xaricdən ağ rəngli “su” lar, daxildən isə tünd şabalıdı və ağ rəngli “siçandişi”lərlə əhatə olunmuşdur. Xarici haşiyə xaricdən tünd şabalıdı, sarı, daxildən isə zoğalı “su”larla tamamlanır. Xalçanın ara sahəsinin aşağı hissəsində əbrəş çox aydın nəzərə çarpır.

İkinci xalça **(bax: Kataloq. №2)** h.1206-cı ildə (1791) İrəvan bölgəsinin Talın mahalında toxunmuşdur. Xalçanın (ölçüsü 186x111) üzərində h.1206 tarixi vardır. Xalçanın bədii quruluşu şaquli istiqamətli rapportlara ayrılmış ara sahə və haşiyə

hissəsindən ibarətdir. Rapportlar ağ, kərpiciyə çalan qırmızı, sürməyi və kiçik bir hissə qarpızı rənglə tərtib edilmişdir. Rapportlarda kiçikölçülü ağac motivləri vardır. Bu motivlərin sağa və sola şaxələnən kiçik budaqları və gülləri vardır. Ağ yerlikli rapportlarda ağaclar sürməyi, qırmızı və sürməyi yerlikli rapportlarda isə ağaclar ağ, sürməyi və qırmızı rənglərlə tərtib edilmişdir. Sürməyi və qırmızı yerlikdə güllər və yarpaqlar qırmızı, sarı, şabalıdı, ağ, sürməyi, zoğalı rənglərlə tərtib edilmişdir. Göy və yaşıl yerlikdəki güllər və yarpaqlar bəzən bir-aşırı, bəzən isə eyni rənglə dəfələrlə təkrarlanır və ritmik bir görünüş yaradır. Xalçanın ağ yerlikli ana haşiyəsi qarmaqlı motivlərlə bəzədilmişdir. Bu motivlər tünd qırmızı, yaşıl, sarı, sürməyi rənglərlə işlənmişdir. Qarmaqlı motivlərin mərkəzində rombşəkilli elementlər vardır. Haşiyənin boşluqları kiçikölçülü, üzü nəzərə çarpan üçbucaqlı kvadrat şəkilli və kənarları pilləli klassik elementlərlə doldurulmuşdur. Bu elementlər sürməyi, tünd qırmızı, tünd yaşıl və şabalıdı rənglərlə tərtib edilmişdir. Xalçanın sürməyi yerlikli nisbətən ensiz haşiyəsində səkkizguşəli ulduzlar təsvir edilmişdir. Ulduz motivləri sarı, tünd qırmızı, qarpızı, tünd və açıq şabalıdı, narıncı, göy rənglərlə işlənmişdir. Haşiyələr qırmızı, ağ rənglərlə işlənmiş "Z"şəkilli motivlər işlənmiş mədaxillərlə əhatə olunub. Mədaxillərin kənarları xaricdən şabalıdı, daxildən isə sürməyi rəngli "su" larla tamamlanır.

Xanlıqlar dövrünə aid olan üçüncü xalça **(bax: Kataloq. №3)** h. 1209-cu ildə (1794) Dərələyəz mahalında (Soylan) toxunmuşdur. Ölçüsü 261x157-dir. Xalçanın yuxarı hissəsində ağ yerlikli haşiyənin içərisində sağ və sol tərəfdə h. 1209 tarixi və ərəb hərfləri ilə yazılar işlənmişdir. Bu xalça özünəməxsus bədii xüsusiyyətləri ilə seçilir. Xalça Qazax-Borçalı kompozisiyası əsasında toxunmuşdur. Yaşıl yerlikli ara sahənin əsas bəzəyi iki tünd-şabalıdı və bir sarı yerlikli böyükölçülü göllərdən ibarətdir. Şabalıdı yerlikli göllərin içərisində tünd qırmızı, sarı yerlikli gölün içərisində isə sürməyi yerlikli, kənarları pilləli klassik elementlər vardır. Qırmızı pilləli motivlərin kənarları sürməyi zolaqlarla və qırmızı "su" larla, sürməyi rəngli pilləli motivin kənarları isə qırmızı "su" və yaşıl zolaqlarla işlənmişdir. Qırmızı yerlikli motivlərin kənarlarındakı ağ rəngli qarmaqların kənarları qırmızı rəngli on iki qarmaq motivi ilə təsvir edilmişdir. Mərkəzdəki sürməyi yerlikli motivin kənarları qırmızı qarmaqlarla işlənmişdir. Xalçanın ara sahəsinin yuxarı hissəsində ağ, qırmızı, sarı dördbucaqlı həndəsi elementlər tərtib edilmişdir. Bu elementlərin içərisində "qoşabuynuz" motivləri vardır. Ara sahənin boşluqları ağ və qırmızı rənglərlə işlənmiş digər "qoşabuynuz", altıbucaqlı, kənarları pilləli klassik, "gözqaytarıcı", "damğa" və nəbati motivlərlə doldurulmuşdur. Xalçanın ağ yerlikli enli haşiyəsi tünd qırmızı, yaşıl, sarı, sürməyi, göy rənglərlə işlənmiş baş və ayaq hissələrdə qarmaqlı çıxıntıları olan rombvari motivlərlə bəzədilmişdir. Haşiyə elementlərinin rəngi bir-birinin ardınca davamlı şəkildə dəyişdirilmiş, ritmik naxış silsiləsi yaradılmışdır. Ara haşiyəni hər iki tərəfdən sürməyi və tünd qırmızı "mollabaşı" motivləri işlənmiş bala haşiyələr əhatə edir. Daxili haşiyə xaricdən sarı, qırmızı, daxildən isə ağ, qırmızı "siçandişi"lərlə tamamlanır. "Siçandişi"lərin kənarları tünd şabalıdı rəngli "su"larla işlənmişdir. Xalçanın ümumi rəng qamması harmonikdir və bütün rənglər təzadlı olub, biri digərini daha qabarıq göstərir.

H.1230-cu ilə (1814) aid olan dördüncü xalça **(bax: Kataloq. №4)** Zəngəzur mahalında (Sisyan) toxunmuşdur. Ölçüsü 180x112-dir. Xalçanın tünd-qırmızı yerlikli

ara sahəsinin yuxarı hissəsində sürməyi rəngli medalyonun altında iki hissədə h. 1230 tarixi vardır. Xalçanın ara sahəsində iki sürməyi və bir mavi rəngli medalyon vardır. Yuxarı hissədəki və mərkəzdəki medalyonların içərisində dördbucaqlı formaya malik torvari görünüşlü tünd qırmızı, şəkəri və göy rənglərlə tərtib edilmiş kvadrat şəkilli motivlər işlənmişdir. Medalyonların kənarları ağ rəngli "su"larla tamamlanır. Ara sahənin boşluqları üçbucaqlı, rombvari elementlərlə doldurulmuşdur. Bu elementlər mavi, şəkəri rənglərlə işlənmişdir. Ara sahənin yuxarı və aşağı hissəsində mavi rənglə işlənmiş mərkəzi hissəsi çıxıntılı element vardır. Bu elementin kənarları sarı "su"larla əhatə olunmuşdur. Xalçanın yaşıl yerlikli enli haşiyəsi tünd qırmızı rəngli səkkizləçəkli güllərlə bəzədilmişdir. Güllərin içərisində sürməyi, sarı, ağ, mavi rəngli səkkizguşəli ulduza bənzər, aşağı hissədə isə dördbucaqlı, kənarları çıxıntılı motivlər işlənmişdir. Haşiyə daxildən ağ, tünd qırmızı rəngli diliklərlə, xaricdən isə qırmızı rəngli zolaqlarla əhatə olunub. Qırmızı rəngli zolaq daxildən sarı rənglə işlənmiş "su"lar, xaricdən isə ağ, qırmızı rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Diliklərin kənarları isə şabalıdı, qırmızı rəngli "su"larla tamamlanır. Xalçanın nisbətən ensiz haşiyəsi şabalıdı və ağ rəngli qarmaqlı elementlərlə bəzədilmişdir. Qarmaqlı elementlərin kənarlarında qırmızı rəngli gəzmələr vardır. Haşiyəni göy, qırmızı rənglərlə işlənmiş dilikli mədaxillər əhatə edir. Mədaxillər qırmızı, sarı kvadratşəkilli motivlər və qırıq-qırıq xətlərlə əhatə olunub. Xalçanın kənarları ənənəvi olaraq qırmızı, göy rənglərlə dolama üsulu ilə işlənmişdir. Bu xalçanın da üzərindəki elementlərin xüsusi təhlili verilmişdir.

Beşinci xalça **(bax: Kataloq. №5)** h.1230-cu ildə (1814) İrəvan şəhərində toxunmuşdur. Xalçanın (ölçüsü 463x250-dir) yuxarı hissəsində şəkəri yerlikli haşiyənin içərisində h. 1230 tarixi vardır. Bu xalça Təbriz kompozisiyası əsasında toxunmuşdur. Sürməyi yerlikli bu xalçanın əsas bəzəyi ara sahədə yerləşdirilmiş dörd böyükölçülü medalyondan ibarətdir. Medalyonların mərkəzində on iki ləçəkli gül vardır. Mərkəzdəki qoşa medalyonların içərisindəki on iki ləçəkli güllər göy, narıncı, açıq yaşıl və mor rənglə işlənmişdir. Medalyonların boşluqları qızılgül və digər gül-çiçək motivləri ilə doldurulmuşdur. Medalyonların kənarları bir-birinin ardınca düzülmüş yarımdairəvi formada tərtib edilmiş yarpaqlarla əhatə olunmuşdur. Yarpaqların arasında dördləçəkli, səkkizləçəkli güllər işlənmişdir. Xalçanın ara sahəsinin sağ və sol hissələrindəki iki medalyonu və yaxud künclərdəki dörd yarımçıq medalyonu birləşdirdikdə mərkəzdəki bütöv medalyonların eyni forması alınır. Xalçanın ara sahəsinin boşluqları kiçikölçülü rombvari elementlərlə bəzədilmişdir. Rombvari elementlərin kənarlarında və mərkəzində kiçikölçülü səkkizləçəkli çiçək motivləri vardır. Güllər hər tərəfdən yarpaqlarla əhatə olunmuşdur. Yarpaqlar balığa bənzədiyi üçün xalçaçılar və sənətşünaslar arasında bu elementlər stilləşmiş "balıq" adını almışdır. Cənubi Azərbaycanın qocaman xalçaları bu kompozisiyanı "Məlayır" adlandırırlar. Xalçada təsvir edilmiş medalyonlar Təbriz qrupuna daxil olan "Ləmpə" xalçalarındakı medalyonları xatırladır. Məhz buna görə də bəzi toxucular bu kompozisiyanı "Ləmpə", bəziləri isə "Balıq" adlandırırlar. Xalçanın şəkəri yerlikli ensiz haşiyəsi kiçikölçülü gül-çiçək motivləri ilə bəzədilmişdir. Haşiyələr və mədaxillərin kənarları "siçandişi"lərlə tamamlanır. Xalça kolorit baxımından Cənubi Azərbaycanın Təbriz xalçaları üçün səciyyəvi olan ənənəvi qanunauyğunluğu, rənglərin düzgün paylaşdırılması ilə yadda qalır. Xalçanın ümumi kompozisiyası, rəng düzümü sakitləşdirici duyğu yaradır.

Göyçə mahalına (Basarkeçər) aid olan növbəti altıncı xalça **(bax: Kataloq. №6)** h. 1232-ci ildə (1816) toxunmuşdur. Ölçüsü 300x136-dır. Xalçanın ara sahəsinin yuxarı hissəsində (mərkəzdən bir qədər yuxarı) mavi rəngli medalyonun aşağı hissəsində sağda h. 1232 tarixi vardır. XVI əsrin sonunda Təbriz rəssamları yeni tipli "Şahabbası" xalça kompozisiyası yaratmışdılar. XVII əsrdə bu kompozisiya İranın xalçaçılıq mərkəzlərində də yayılmışdı. XVI əsrdə dekorativ ornamentasiyanın inkişafı ilə əlaqədar olaraq xalça sənətinə daxil olan bu naxışlar ilk əvvəl əyri xətlərlə tərtib olunmuşdur. Sonralar Qarabağın peşəkar toxucularının "Qoca" adlandırdığı bu kompozisiya yerli texnologiyaya uyğun olaraq qırıq-qırıq xətlərlə tərtib edilmişdir. "Qoca" xalçası XVII əsrdə Bərdədə də toxunmuş və özünün ən yüksək inkişaf səviyyəsinə XVIII əsrdə Şuşada çatmışdır. Şuşada, xüsusi sifarişlə toxunan bu tipli xalçalar digər bölgələrdə toxunan xalçalardan mürəkkəb naxış tərtibatına görə seçilirdi. XIX əsrdən bu kompozisiya ilə toxunan xalçalar Şuşada və Ağdamda çox geniş yayılmışdı. Qərbi Azərbaycanda toxunan "Qoca" adlanan xalçalar da yüksək bədii naxış tərtibatına və əlvan rəng çalarlarına malikdir. Xalçanın ara sahəsinin zəngin kompozisiya strukturu diqqəti cəlb edir. Sürməyi yerlikli ara açıq və tünd qırmızı, şabalıdı, mavi və yaşıl medalyonların kənarlarında alovlanan palmettaları xatırladan kiçikölçülü motivlər işlənmişdir. Bu motivlər medalyonların yerliyi və içərisindəki elementlərlə uzlaşaraq xalçanın görünüşünü daha da zənginləşdirir. Xalçanın ara sahəsindəki boşluqlar altıləçəkli, səkkizləçəkli gül-çiçək, kiçikölçülü ağac və digər motivlərlə doldurulmuşdur. Kiçikölçülü ağacların budaqlarında qönçə təsvirləri vardır. Xalçanın qırmızı yerlikli ensiz haşiyəsi dalğavari diliklərlə tərtib edilmişdir. Haşiyə mavi, sarı, şabalıdı, yaşıl, çəhrayı, şəkəri, ağ rənglərlə işlənmişdir. Haşiyəni hər iki tərəfdən mavi, qırmızı rəngli diliklərlə işlənmiş mədaxillər əhatə edir. Diliklərin kənarları ağ rəngli "su"larla, mədaxillər isə ağ, qırmızı rəngli "siçandişi"lərlə tamamlanır. Xalçada kontrast rənglər üstünlük təşkil edir. Kontrast rənglərlə yanaşı, soyuq rənglər də yüksək peşəkarlıqla verilmişdir.

Xanlıqlar dövrünə aid olan yeddinci xalça **(bax: Kataloq. №7)** h. 1233-cü ildə (1817) Aparan mahalında toxunmuşdur. Ölçüsü 202x168-dir. Xalçanın aşağı hissəsində ara sahənin sağ tərəfində h. 1233 tarixi vardır. Bu xalça Qazax-Borçalı xalça qrupuna daxil olan "Qaraçöp" kompozisiyası əsasında toxunmuşdur. Kərpici yerlikli bu xalçanın ara sahəsinin mərkəzində böyükölçülü ağ yerlikli göl tərtib edilmişdir. Gölün içərisində mərkəzdə kənarları mavi rəngli qarmaqlarla işlənmiş medalyon təsvir edilmişdir. Medalyonun içərisində qırmızı rəngli Qazax-Borçalı qrupu xalçaları üçün səciyyəvi olan bir cüt "qoşabuynuz" motivi işlənmişdir. "Qoşabuynuz" motivləri arasında rombvari element vardır. Medalyonun yuxarı və aşağı hissəsində sarı rəngli yerlikdə də mavi rəngli "qoşabuynuz" motivləri təkrarlanır. Aşağı medalyonun sağında və solunda "S"şəkilli elementlər vardır. Ağ yerlikli gölün sağ və sol künclərindən mərkəzə doğru qırmızı qarmaqlı elementlər istiqamətlənmişdir. Medalyonun kənarları qırmızı, yaşıl zolaqlar və şəkəri, sürməyi, kərpici zolaqlar içərisində "siçandişi"lərlə işlənmişdir. Medalyonun xarici divarlarına bitişik, sürməyi, ağ rəngli "siçandişi"lərlə tərtiblənmiş xətlər ümumilikdə cecimi xatırladır və xalçaya təkrarsız görünüş gətirir. Xalçanın yuxarı və aşağı hissəsində Qazax-Borçalı qrupu xalçaları üçün səciyyəvi olan qoşa dördbucaqlı şəkəri yerlikli həndəsi göllər təsvir edilmişdir. Bu həndəsi formalı göl dörd tərəfdən bir-birinə əks istiqamətdə tərtiblənmiş qarmaqlarla bəzədilmişdir.

Bu elementlərin hər birində doqquz səkkizguşəli ulduz motivi işlənmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətinin bütün sahələrində (dulusçuluq, misgərlik, ağacişləmə, tikmə, zərgərlik) beşguşəli, altıguşəli, səkkizguşəli, onikiguşəli, ulduz naxışlı motivlərə tez-tez rast gəlinir. Bu motivlərin tarixi çox qədimdir. Orta əsr şəhərlərindən arxeoloji qazıntılar zamanı əldə edilmiş çoxlu əşyalar üzərində də ulduz təsvirlərinə təsadüf edilir. 1960-cı ildə Qəbələnin Qala hissəsində aparılmış arxeoloji qazıntılar zamanı tapılmış XII-XIII əsrlərə aid misdən düzəldilmiş qabın üzərindəki ulduz motivləri buna daha bir sübutdur. Ara sahənin boşluqları müxtəlif həndəsi, "S"şəkilli, "dörd ünsür" və digər klassik elementlərlə doldurulmuşdur. Şəkəri yerlikli enli haşiyə (ana haşiyə) "zülfələm" adlandırılan motivlərlə bəzədilmişdir. Bu motivlərə, nisbətən fərqli formada Quba, Şirvan qrupuna daxil olan xalçalarda da təsadüf edilir. Ana haşiyə baş hissədə sürməyi, sağ, sol və aşağı hissədə mavi yerlikli bala haşiyələrlə əhatə olunmuşdur. Bu haşiyələrin içərisində sarı, kərpici və sürməyi rənglərlə dalğavari xətlər işlənmişdir. Bala haşiyələrin kənarları daxildən və xaricdən qırmızı, sarı rənglərlə işlənmiş "siçandişi"lərlə bəzədilmişdir.

Xanlıqlar dövrünə aid növbəti xalça **(bax: Kataloq. №8)** h.1240-cı ildə (1824) Əştərək mahalında toxunmuşdur. Ölçüsü 282x142-dir. Xalçanın yuxarı hissəsində, ara sahənin sağında küncə yaxın hissədə h. 1240 tarixi vardır. Sürməyi yerlikli xalçanın ara sahəsində bir böyükölçülü, qırmızı yerlikli göl yerləşdirilmişdir. Göl hər tərəfdən qarmaqlarla əhatə olunub, qarmaqların kənarları ağ "siçandişi"lərlə işlənmişdir. Gölün içərisində yaşıl, ağ, sarı, narıncı, sürməyi rənglərlə tərtib edilmiş rombvari medalyon vardır. Rombvari element sarı rəngli "su"lar və qarmaqlarla əhatə olunub. Ara sahənin boşluqlarında, gölün yuxarı və aşağı hissələrində eyni formalı kiçikölçülü göllər təsvir edilmişdir. Digər hissələrdəki boşluqlar xaça bənzər (dörd ünsür), qarmaqlı,"S"şəkilli, işarəsi şəbəkə düzülüşü ilə tərtiblənmiş, dördbucaqlı, rombvari elementlərlə bəzədilmişdir. Ara sahənin yuxarı hissəsində sağda bir, mərkəzdən bir qədər aşağı hissədə isə üfüqi istiqamətdə düzülmüş qırmızı, sarı rənglərlə işlənmiş stilizə olunmuş quş təsvirləri vardır. Xalçanın şəkəri yerlikli ara haşiyəsi "zülfələm" naxışları ilə bəzədilmişdir. Bu naxışlar yaşıl, mavi, göy, narıncı, tünd şabalıdı, bənövşəyi, tünd qırmızı rənglərlə tərtib edilmişdir. Ara haşiyə hər iki tərəfdən içərisində yaşıl, qırmızı rəngli "mollabaşı" motivləri ilə işlənmişdir. "Mollabaşı" motivlərinin kənarları ağ rəngli "siçandişi"lərlə tamamlanır. Xalçanın ara haşiyəsinin kənarları qara rəngli "su"larla, xarici bala haşiyənin kənarları isə sağdan və soldan qırmızı, mavi, şabalıdı , sarı, narıncı, göy, sürməyi rəngli iplərlə hörmə üsulu ilə işlənmiş, yuxarı və aşağı hissələrdə isə qara rəngli "su"larla tamamlanmışdır. Xalçanın rəng tərtibatında on bir rəngdən istifadə edilmişdir. Xalça zəngin rəng palitrasına malikdir.

Xanlıqlar dövrünə aid sonuncu, doqquzuncu xalça **(bax: Kataloq. №9)** h. 1240-cı ildə (1824) Zəngəzur mahalında (Mehri) toxunmuşdur. Ölçüsü 210x121-dir. Xalçanın ara sahəsinin yuxarı hissəsində sağ küncdə h. 1240 tarixi vardır. Xalçanın bədii quruluşu ara sahə və haşiyə hissəsindən ibarətdir. Sadə quruluşa malik olan ara sahənin əsas bəzəyi iki böyükölçülü, istiqamətlənən qolları olan göllərdən ibarətdir. Göllərin içərisində dördbucaqlı formaya malik olan üç medalyon yerləşdirilmişdir. Göllərin mərkəzindəki medalyonların içərisində "X"vari, bənzər ucları qarmaqlı motivlər vardır. Tünd sürməyi yerlikli yuxarı və aşağı hissədəki medalyonların

sağında və solunda üz-üzə istiqamətlənən spiralşəkilli çıxıntılar vardır. Göllərin sağ və sola istiqamətlənən qollarında da yuxarı və aşağı hissədə təsvir edilmiş medalyonlar nisbətən kiçik (mərkəzi hissəsi ensiz) ölçüdə təkrarlanır. Yuxarı və aşağı hissədəki medalyonların içərisində tünd qırmızı rənglə tərtib edilmiş qarmaqlı motivlər vardır. Bu motivlərin kənarları mavi rəngli "su"larla işlənmişdir. Medalyonların kənarları daxildən ağ və qırmızı rəngli "Z"-ə bənzər, xaricdən isə açıq yaşıl rəngli zolaqlarla əhatə olunub. "Z"-ə bənzər və açıq yaşıl rənglə işlənmiş zolaqlar tünd qırmızı rəngli "su"larla tamamlanır. Xalçanın açıq şabalıdı yerlikli enli haşiyəsi tənək yarpağına bənzər elementlərlə bəzədilmişdir. Elementlər sürməyi, boz və tünd qırmızı rənglərlə tərtib edilmişdi. Haşiyə hər iki tərəfdən tünd qırmızı, şəkəri rəngli "Z" şəkilli motivlər işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Xalçanın rəng tərtibatı yüksək peşəkarlıqla həll edilmişdir.

### 3.3.2. XIX əsrin 20-ci illərinin sonu - XX əsrin əvvəllərinə aid xovlu xalçalar

84 xovlu xalçadan 73-ü Rusiya imperiyası dövründə, biri isə 1920-ci ildə toxunmuşdur. Bu xalçalar xanlıq dövründə əldə edilmiş ənənələri davam etdirməklə yanaşı, eyni zamanda yeni tarixi şəraitin tələblərini də əks etdirməyə başlayır. Bu dövrə aid əlimizdə olan xalçaların kəmiyyətcə nisbətən çoxluğu onlar haqqında daha ətraflı fikir yürütməyə imkan verir.

İrəvan bölgəsinin Şəmşəddin mahalında (Tovuzqala) h.1250-ci ildə (1834) toxunmuş xalça **(bax: Kataloq. №10)** xanlıqlar dövrü ilə Rusiya imperiyasının tarixi qovşağını əks etdirir. Xalçanın ölçüsü 231x190-dır. Xalçanın ara sahəsinin yuxarı hissəsinin sol küncündə h. 1250 tarixi vardır. Xalçanın adı Borçalı bölgəsi ilə bağlıdır. Qırmızı yerlikli bu xalçanın ara sahəsinin bəzəyi bir böyükölçülü, şəkəri yerlikli və iki nisbətən kiçikölçülü, qırmızı yerlikli səkkizbucaqlı medalyondan ibarətdir. Mərkəzdəki medalyonun içərisində "dörd ünsür" motivi yerləşdirilmişdir. Bu motivin baş və ayaq hissəsində qarmaqlı, sağda və solda "qoşabuynuz", mərkəzdə dördləçəkli gül, qarmaqlı elementlərin içərisində isə ağ, sürməyi rənglərlə işlənmiş üçbucaqlı elementlər yerləşdirilmişdir. Medalyonun baş və ayaq hissəsində mərkəzə doğru istiqamətlənən oxvari, kənarları qarmaqlı motivlər işlənmişdir. Medalyonun ara sahəsindəki boşluqlarda "qoşabuynuz" motivləri, kənarlarında daxildən dilikli, xaricdən isə qarmaqlı elementlər təsvir edilmişdir. Nisbətən kiçikölçülü medalyonlarda şəkəri yerlikli, səkkizguşəli ulduzun içərisi qırmızı, sürməyi rənglərlə tərtib edilmiş altı üçbucaqlı hissələrə bölünmüşdür. Medalyonun kənarları daxildən sürməyi rəngli, xaricdən eyni rənglə işlənmiş qarmaqlı elementlərlə əhatə olunmuşdur. Xalçanın enli haşiyəsi şəkəri, sürməyi, qırmızı rənglərlə tərtib edilmiş kənarları pilləli üçbucaqlı motivlərlə bəzədilmişdir. Bu motivlərin kənarlarındakı diliklər sarı, qırmızı, göy, sürməyi, şəkəri rənglərlə işlənmişdir. Ara haşiyəni hər iki tərəfdən içərisində qarmaqlı və "mollabaşı" motivləri ilə işlənmiş ensiz haşiyələr əhatə edir. Ara haşiyənin kənarları ağ rəngli "su"larla işlənmişdir. Ensiz haşiyələr ağ, sürməyi, sarı, qırmızı qırıq-qırıq xətlərlə əhatə olunmuşdur. Xalçanın ara sahəsinin boşluqları Quba və Qazax-Borçalı qrupu xalçaları üçün səciyyəvi olan motivlərlə

bəzədilmişdir. Gül motivləri sarı, sürməyi, ağ, qırmızı, digər motivlər isə sürməyi, qırmızı, şəkəri rənglərlə tərtib edilmişdir. Xalça sadə naxışlı kompozisiyalar sırasına daxildir. Xalçanın kənarları sağdan və soldan qara rəngli "su"larla tamamlanır. Qazax-Borçalı bölgəsinin xalçaları üçün səciyyəvi olan rənglər bu xalça üzərində uğurla tətbiq edilmişdir.

H.1252 (1836)-ci ilə aid olan digər xalça **(bax: Kataloq. №12)** da Şəmşəddin mahalında (Tovuzqala) toxunmuşdur. Ölçüsü 207x165-dir. Xalçanın yuxarı hissəsində h. 1252 tarixi vardır. Xalçanın qırmızı yerlikli ara sahəsində böyükölçülü səkkizbucaqlı göl yerləşdirilmişdir. Gölün mərkəzində "dörd ünsür" elementlərinin içərisində göy və açıq yaşıl yerlikdə sarı rəngli bir cüt "qoşabuynuz" və mərkəzdə qırmızı rəngli dördbucaqlı elementin içərisində isə nisbətən kiçikölçülü "qoşabuynuz" motivi təsvir edilmişdir. Gölün yuxarı və aşağı hissəsində eyni motivlər dördbucaqlı elementlərin içərisində işlənmişdir. Gölün ağ yerlikli boşluqları altıləçəkli gül, kiçikölçülü səkkizbucaqlı həndəsi və "gözqaytarıcı" rombvari elementlərlə doldurulmuşdur. Gölün künclərində xaricdən göy, yaşıl, qırmızı, ağ kvadratşəkilli və nöqtəvari elementlər ümumilikdə cecim kompozisiyasını xatırladır. Xalçanın ara sahəsinin yuxarı və aşağı hissəsində ağ yerlikli kənarları göy rənglərlə işlənmiş dördbucaqlı qoşa həndəsi element ümumi kompozisiyanı tamamlayır. Göllərin sağında və solunda yaşıl, sarı rəngli "qoşabuynuz", aşağı və yuxarı hissədə sarı və göy rəngli qarmaqlı çıxıntılar işlənmişdir. Xalçanın ara sahəsinin boşluqlarında altı ləçəkli gül, çiçək, səkkizbucaqlı həndəsi, "S"şəkilli motivlər tərtib edilmişdir. Xalçanın göy yerlikli enli ara haşiyəsi Qazax-Borçalı qrupunun "Qaraçöp" xalçaları üçün səciyyəvi olan, bəzi xalçaçıların "qaz ayağı" adlandırdığı ağ, qırmızı rənglərlə işlənmiş motivlər və "qayçıbalıq" elementləri ilə doldurulmuşdur. Bu elementlər qırmızı, sarı, göy, yaşıl, ağ rənglərlə tərtib edilmişdir. Ara haşiyə xaricdən sağda və solda açıq yaşıl, şabalıdı, ağ rənglərlə işlənmiş "mollabaşı" motivləri ilə bəzədilmiş ensiz haşiyə ilə əhatə olunur. Baş və ayaq hissədə isə ara haşiyə şabalıdı rəngli "mollabaşı" elementləri işlənmiş ensiz haşiyə ilə əhatə olunmuşdur. "Mollabaşı" motivlərinin kənarları qırmızı "su"larla işlənmişdir. Ara haşiyəni daxildən şabalıdı və ağ rəngli dilikli elementlər işlənmiş ensiz haşiyə əhatə edir. Xarici ensiz haşiyənin kənarları şəkəri, göy, yaşıl, sarı rənglərlə işlənmiş kvadrat formalı kiçikölçülü elementlərlə tamamlanır. Zəngin naxış tərtibatına malik olan bu xalça mürəkkəb kompozisiyalı xalçalar sırasına daxildir. Xalçanın rəng texnikasına ustalıqla yiyələnmiş sənətkar heyrətamiz dərəcədə ahəngdar koloritli bir xalça yaratmışdır. Bu xalçada rəng palitrası çox zəngindir. Xalçanın ara sahəsindəki ornamental motivlərin rəngi haşiyə hissəsindəki motivlərdə də təkrarlanır. Rənglərin uzlaşması ənənəvi qanunauyğunluqla həll edilmişdir.

İrəvan bölgəsinin Dərələyəz mahalında (Keşişkənd) h. 1254-cü ildə (1838) toxunan xalçanın **(bax: Kataloq. №13)** ölçüsü 220x136-dır. Xalçanın aşağı hissəsində h. 1254 tarixi vardır. Orijinal kompozisiya quruluşuna malik olan qırmızı yerlikli bu xalçanın mərkəzində kənarları alovlanan palmettaları xatırladan ağ yerlikli medalyon yerləşdirilmişdir. Ağ yerlikli medalyonun içərisində göy yerlikli nisbətən kiçikölçülü medalyon vardır. Medalyonun içərisində göy, ağ, sarı, qırmızı, künclərində isə sarı, qırmızı rənglərlə səkkizləçəkli güllər işlənmiş qırmızı rəngli rombvari göl təsvir edilmişdir. Ara sahənin yuxarı və aşağı hissəsində iki böyükölçülü yarımçıq göl vardır. Yarımçıq göllərin içərisində sürməyi yerlikdə sarı, qırmızı, ağ, göy rəngli

güllər işlənmişdir. Yarımçıq göllərin sağ və sol istiqamətə şaxələnən qolları ağac budaqlarına bənzər motivlərlə bəzədilmişdir. Ağ yerlikli bu qolların üzərindəki ağaca bənzər elementlər sürməyi və qırmızı rənglərlə tərtib edilmişdir. Xalçanın yuxarı və aşağı hissəsində haşiyə divarına yaxın tünd şabalıdı yerlikli yarımçıq medalyonlar ümumi kompozisiyanı tamamlayır. Medalyonların kənarlarında ağ, göy, şabalıdı rənglərlə işlənmiş dalğavari çıxıntılar vardır. Ara sahənin boşluqlarında yuxarı və aşağı hissədə ağac budağına bənzər şabalıdı, ağ, sürməyi rənglərlə işlənmiş motivlər vardır. Xalçanın ağ yerlikli haşiyəsi göy, qırmızı, yaşıl, tünd şabalıdı rəngli "səkkizguşəli ulduz" motivləri ilə bəzədilmişdir. Bu motivlərin mərkəzində sarı, göy, qırmızı, açıq və tünd şabalıdı rənglərlə işlənmiş dördbucaqlı kiçikölçülü həndəsi elementlər vardır. Ağ yerlikli haşiyəni hər iki tərəfdən içərisində tünd şabalıdı və göy rəngli motivlərlə bəzədilmiş mədaxillər əhatə edir. Mədaxillər sağdan və soldan qırmızı, sarı rəngli qırıq-qırıq xətlərlə, baş və ayaq hissədə isə sarı, qırmızı rəngli "Z"şəkilli motivlərlə tamamlanır. Xalçanın rəng tərtibatı yüksək peşəkarlıqla və ənənəvi qanunauyğunluqla həll edilmişdir.

İrəvan şəhərində h.1260-cı ildə (1844) toxunan xalça **(bax: Kataloq. №14)** da yüksək sənətkarlıq nümunəsidir. Ölçüsü 298x182 olan xalçanın ara sahəsinin yuxarı hissəsində sağ küncündə h. 1260 tarixi, sol küncündə isə ərəb əlifbası ilə "Əmir Əli" yazısı vardır. Zoğalı yerlikli bu xalçanın ara sahəsində üç bütöv və bir yarımçıq medalyon təsvir edilmişdir. Yuxarı hissədəki yarımçıq medalyon və ikinci bütöv medalyon yaşıl, bənövşəyi və ağ rənglərlə, digər iki bütöv medalyon isə mavi, zoğalı və bənövşəyi rənglərlə tərtib edilmişdir. Medalyonların yuxarı və aşağı hissəsində "cütbuynuz" motivləri vardır. Mərkəzdəki medalyonların içərisində altıləçəkli güllər, rombvari və "ox" elementləri vardır. Aşağı hissədəki medalyonun içərisində isə qoşa rombşəkilli və "ox" elementləri işlənmişdir. Xalçanın ara sahəsinin boşluqları altıləçəkli güllər, səkkizguşəli ulduzlar, səkkizbucaqlı həndəsi elementlər və "buta" ornamentləri ilə doldurulmuşdur. Altıləçəkli güllər yaşıl, ağ, sarı ilə yaşıl, sürməyi ilə ağ və bənövşəyi rənglərlə tərtib edilmişdir. Mərkəzdəki bənövşəyi rəngli butanın kənarları sarı, yuxarı hissədəki bənövşəyi yerlikli butaların kənarları sarı, ağ, mavi, yaşıl, butaların kənarları yaşıl, bəziləri sarı, yaşıl butalar şabalıdı, mərkəzdəki yaşıl butanın kənarları isə sarı rəngli kvadratşəkilli elementlərlə işlənmişdir. Səkkizguşəli ulduzlar sarı, mavi, ağ, bənövşəyi, sarı, bənövşəyi rənglərlə işlənmişdir. Xalçanın tünd şabalıdı yerlikli ana haşiyəsi səkkizbucaqlı medalyonlarla bəzədilmişdir. Medalyonların içərisində səkkizləçəkli güllər vardır. Güllər sarı ilə qırmızı, ağla yaşıl, yaşılla qırmızı, sürməyi ilə sarı, ağla bənövşəyi, sarı ilə sürməyi, mavi ilə bənövşəyi, ağla qırmızı, yaşılla mavi, mavi ilə qırmızı, bəzi güllər isə yalnız bir rənglə sarı, bənövşəyi, sürməyi rənglərlə işlənmişdir. Güllərin ləçəklərinin kənarları müxtəlif rəngli "su"larla işlənmişdir. Medalyonların kənarları yaşıl zolaqlarla, zolaqlar isə qırmızı rəngli "su"larla tamamlanır. Haşiyə hər iki tərəfdən mavi rəngli zolaqlarla tərtib edilib. Ana haşiyə hər iki tərəfdən ağ yerlikli bala haşiyələrlə əhatə olunmuşdur. Bala haşiyələr zoğalı rəngli dalğavari naxışlarla işlənmişdir. Dalğaların üzəri güllərlə bəzədilmişdir. Güllər bənövşəyi, zoğalı, mavi, sarı, yaşıl rənglərlə tərtib edilmişdir. Daxildəki haşiyənin kənarları xaricdən bənövşəyi, daxildən yaşıl, şabalıdı rəngli, xarici haşiyə isə daxildən bənövşəyi, xaricdən isə zoğalı və qara "su"larla tamamlanır.

H.1260-cı (1844) ilə aid bir xalça **(bax: Kataloq. №15)** Gərnibasar mahalında

(Qəmərli) toxunmuşdur. Ölçüsü 196x131-dir. Bu xalçanın ara sahəsinin mərkəzində qırmızı rəngli medalyonun içərisində h. 1260 tarixi vardır. Bu xalça Qəmərli xalçaları üçün səciyyəvi olan xüsusiyyətləri özündə əks etdirir. Qırmızı yerlikli bu xalçanın kompozisiyası ara sahə və haşiyə hissəsindən ibarətdir. Ara sahənin əsas bəzəyini bir böyükölçülü göl təşkil edir. Gölün içərisində yaşıl rəngli medalyon yerləşdirilmişdir. Medalyonun içərisindəki nisbətən kiçikölçülü, eyni formalı tünd-qırmızı rəngli medalyonun mərkəzində ağ rəngli dördbucaqlı element vardır. Dördbucaqlı elementin içərisində səkkizguşəli ulduz motivi işlənmişdir. Bu element daxildən sürməyi, xaricdən isə sarı, sürməyi rəngli “su”larla əhatə olunmuş, sağdan və soldan sarı rəngli nalşəkilli, aşağı və yuxarı hissələrdə ağac motivləri ilə tamamlanmışdır. Ağ yerlikli gölün boşluqlarında yaşıl rəngli, içərisində qarmaqlı motivlər işlənmiş yaşıl yerlikli, kiçikölçülü səkkizbucaqlı medalyonlar, “X”şəkilli elementlər sürməyi, tünd qırmızı, sarı, qara rənglərlə işlənmiş, yuxarı və aşağı hissələrdə “cütbuynuz” motivləri təsvir edilmişdir. Gölün sağ və sol kənarlarında yaşıl, sürməyi, tünd qırmızı rənglərlə tərtib edilmiş “S”-ə bənzər motivlər vardır. Gölün kənarları içərisində tünd qırmızı dilikli dalğalar işlənmiş sürməyi zolaqla əhatə olunub. Gölün kənarlarındakı sürməyi yerlikli zolaq daxildən sarı, xaricdən isə ağ rəngli “su”larla işlənmişdir. Xalçanın ara sahəsinin künclərində “cütbuynuz” çıxıntılı, yaşıl yerlikli elementlər, içərisində pilləli rombvari formalı “gözqaytarıcı” motivlər işlənmiş, sürməyi yerlikli kiçikölçülü medalyonlar təsvir edilmişdir. Boşluqlar kiçikölçülü dördləçəkli güllər, yaşıl rəngli “X”şəkilli motivlərlə doldurulmuşdur. Xalçanın tünd şabalıdı yerlikli ana haşiyəsi kənarları pilləli klassik elementlər, kiçikölçülü “gözqaytarıcı” motivlərlə bəzədilmişdir. Klassik elementlər ağ, göy, sarı, yaşıl, tünd qırmızı, sürməyi, mavi rənglərlə, “gözqaytarıcı” motivlər isə tünd qırmızı və ağ rənglərlə tərtib edilmişdir. Ana haşiyə hər iki tərəfdən içərisində dilikli dalğalar işlənmiş sarı yerlikli bala haşiyələrlə əhatə olunub. Dilikli dalğalar tünd qırmızı, sürməyi və qara rənglərlə işlənmişdir. Daxili haşiyə xaricdən qırmızı, ağ, daxildən ağ, şabalıdı, xarici haşiyə isə hər iki tərəfdən tünd-qırmızı və ağ rəngli kvadratşəkilli elementlər işlənmiş mədaxillərlə əhatə olunub.

1850-ci illərə aid üç xalça diqqəti cəlb edir. Onlardan biri **(bax: Kataloq. №16)** h.1267-ci ildə (1850) Dərəçiçək mahalında (Axtı) toxunmuşdur. Ölçüsü 154x89-dur. Bu xalça özünəməxsus naxış tərtibatına malikdir. Bu “Namazlıq” xalçadır. Xalçanın ara sahəsinin yuxarı hissəsində mehrabın sağında və solunda iki hissəyə bölünmüş h. 1267 tarixi vardır. Ara sahəsinin yuxarı hissəsində kənarları itibucaqlı “mehrab” təsvir edilmişdir. Mehrabın içərisində mavi yerlikdə dördbucaqlı, ağ yerlikdə isə oxşəkilli ornament vardır. Mavi yerlikli dördbucaqlı medalyonun içərisində sarı rəngli, aşağı tərəfi üç çıxıntılı rombvari element vardır. Bu elementin sağa və sola istiqamətlənən çıxıntılarının aşağı hissəsində içərisi qara xətlərlə dörd hissəyə bölünmüş rombvari element təsvir edilmişdir. Mehrabın sağında və solunda hər tərəfdə qoşa “buta” motivləri işlənilmişdir. Butalar üst hissədə moruq rəngli, alt hissədə isə yaşıl rənglidir. Butaların kənarları qırmızı, ağ, qara rəngli zolaqlarla tamamlanır. Sağ tərəfdəki moruq rəngli butanın içərisində kiçikölçülü ağ, mavi rənglə işlənmiş buta və rombvari element, digər butaların içərisində isə yalnız rombvari element yerləşdirilmişdir. Xalçanın sürməyi yerlikli ara sahəsinin boşluqlarındakı budaqlarda gül, yarpaq motivləri vardır. Güllər və yarpaqlar qırmızı, mavi, şabalıdı, açıq və tünd yaşıl, tünd

və açıq şabalıdı, tünd qırmızı, ağ, çəhrayı rənglərlə tərtib edilmişdir. Ara sahə və mehrabın kənarları içərisində "S"şəkilli motivlər işlənmiş moruğu yerlikli mədaxillə əhatə olunmuşdur. Ara sahədəki elementlərin rəngi mədaxildəki motivlərdə də təkrarlanır. Xalçanın ağ yerlikli ana haşiyəsi kənarları pilləli klassik elementlərlə bəzədilmişdir. Bu elementlərin mərkəzində xaça bənzər dördləçəkli motivlər vardır. Pilləli elementlər bənövşəyi, narıncı, qırmızı, sarı, yaşıl, mavi, çəhrayı rənglərlə tərtib edilmişdir. Haşiyənin boşluqları üçbucaqlı və rombvari motivlərlə doldurulmuşdur. Pilləli motivlərin rəngi rombvari və üçbucaqlı elementlərin rəngləri ilə yüksək peşəkarlıqla və qanunauyğunluqla uzlaşdırılmışdır. Xalçanın nisbətən ensiz haşiyəsi mərkəzdəki yuxarı hissələrdə mavi, qara və solğun qara, mərkəzdən aşağı hissələrdə isə göy və qara rəngli "mollabaşı"larla tərtiblənmişdir. Haşiyələr hər iki tərəfdən qara, qırmızı, yaşıl rəngli "su"larla tamamlanır.

Digər iki xalça isə h. 1270-ci (1853) ilə aiddir. Onlardan biri **(bax: Kataloq. №17)** Ağbaba mahalında toxunmuşdur. Ölçüsü 244x162-dir. Xalçanın ara sahəsində ağ yerlikli gölün aşağı hissəsində h. 1270 tarixi vardır. Kərpiciyə çalan qırmızı yerlikli bu xalçanın ara sahəsində böyükölçülü, ağ yerlikli göl yerləşdirilmişdir. Gölün mərkəzində yaşıl yerlikli medalyon vardır. Medalyonun mərkəzində qırmızı yerlikli altıbucaqlı həndəsi element işlənmişdir. Bu həndəsi elementin içərisində dördbucaqlı, kənarları mavi rənglərlə işlənmiş "qoşabuynuz" çıxıntılı motiv öz orijinal forması ilə diqqəti cəlb edir. Dördbucaqlı elementin mərkəzində bənövşəyi yerlikdə sarı rəngli səkkizguşəli ulduz vardır. Bu həndəsi elementin kənarları kiçikölçülü qırmızı, sarı rəngli kvadratşəkilli motivlər və mavi rəngli "su"larla əhatə olunub. Qırmızı altıbucaqlı medalyonun boşluqlarında stilizə olunmuş qoşa quş və gül təsvirləri vardır. Medalyonun kənarları ağ rəngli "siçandişi"lərlə tamamlanır.Yaşıl yerlikli medalyonun künclərində içərisində tünd və açıq şabalıdı rəngli üçbucaqlı hissələrə bölünmüş ağ yerlikli dördbucaqlı həndəsi elementlər təsvir edilmişdir. Bu elementlərin kənarları qırmızı rənglərlə tamamlanır. Ağ yerlikli gölün boşluqları bir-birinə əks istiqamətdə "dördayaqlı" quş, "gözqaytarıcı", dördbucaqlı, "qoşabuynuz" çıxıntıları olan motivlərlə doldurulmuşdur. Gölün kənarındakı boşluqlarda "sırğa" adlandırılan elementlər zəncirvari düzülüşlə işlənmişdir. Gölün kənarları qırmızı rəngli "su"larla və içərisində qırmızı rəngli ziq-zaq şəkilli xətlə işlənmiş yaşıl zolaqla tamamlanır. Zolaqlar daxildən qırmızı, qara, sarı, xaricdən isə ağ, qara rəngli "su" larla işlənmişdir. Ağ yerlikli, böyükölçülü, mehrab şəkilli gölün yuxarı və aşağı hissələrində, mehrabın sağında və solunda mavi yerlikli, kiçikölçülü, dördbucaqlı medalyon təsvir edilmişdir. Medalyonların içərisi qırmızı, sarı rəngli üçbucaqlı hissələrə bölünmüşdür. Medalyonun kənarlarında cüzi nəzərə çarpan qırmızı, ağ rənglərlə işlənmiş ulduz motivləri vardır. Ara sahənin kərpiciyə çalan boşluqları sarı, mavi, yaşıl, şabalıdı, ağ rəngli qarmaq, gül-çiçək, "qoşabuynuz", stilizə olunmuş insan, dördayaqlı fantastik quş və stilləşmiş maral, it təsvirləri ilə bəzədilmişdir. Xalçanın ağ yerlikli haşiyəsi Gəncə, Qazax-Borçalı qrupu xalçaları üçün səciyyəvi olan klassik elementlərlə işlənmişdir. Bu elementlər mavi, yaşıl, sarı, göy, qırmızı, sürməyi rənglərlə tərtib edilmişdir. Sürməyi yerlikli ensiz haşiyə ağ, qırmızı, sarı, açıq şabalıdı, yaşıl səkkizguşəli ulduzlarla işlənmişdir. Haşiyələr hər iki tərəfdən ağ, qırmızı, sarı rənglərlə işlənmiş "siçandişi"lərlə əhatə olunub. Ağ yerlikli haşiyəni

xaricdən kənarları “siçandişi”lərlə tamamlanmış mavi, sürməyi dilikli mədaxillər tamamlayır.

Digər xalça **(bax: Kataloq. №18)** isə Vedibasar mahalında (Vedi) toxunub. Ölçüsü 283x137-dir. Qazax-Borçalı xalça qrupuna daxil olan bu xalça 1849-cu ildə Vedinin Kotanlı kəndində toxunmuşdur. Sürməyi yerlikli ara sahənin əsas bəzəyi dörd böyükölçülü göldən ibarətdir. Göllərin içərisində qarmaqlı elementlər yerləşdirilib. Birinci, ikinci və dördüncü göllərin mərkəzində sürməyi, narıncı, sarı, şəkəri, bənövşəyi, mor rənglərlə işlənmiş kvadratşəkilli elementlər vardır. Göllərin kənarları mor rəngli qarmaqlarla əhatə olunmuşdur. Qarmaqların kənarları isə sarı rəngli “su”larla tamamlanır. Ara sahənin boşluqları qarmaqlı, rombvari, kənarları pilləli klassik, dörd ünsür, “S”, “X”şəkilli elementlər, stilizə olunmuş insan, dəvə və digər heyvan təsvirləri ilə zənginləşmişdir. Xalçanın solmuş qırmızı yerlikli ana haşiyəsində səkkizguşəli ulduz təsvirləri vardır. Ulduzların rəngi bir-aşırı dəyişərək xüsusi ahəng yaradır. Ulduzlar sarı, sürməyi, açıq qırmızı, mor, açıq və tünd yaşıl, ağ, şəkəri, bənövşəyi rənglərlə tərtib edilmişdir. Haşiyə daxildən sarı, sürməyi, xaricdən isə göy, qara rəngli dilikli elementlərlə işlənmiş ensiz və nisbətən enli haşiyələrlə əhatə olunmuşdur. Daxili ensiz haşiyənin yuxarı hissəsi sarı, şabalıdı, tünd yaşıl, xarici nisbətən enli haşiyənin yuxarı sağ və sol hissələri isə mor, sarı və şabalıdı rənglərlə tərtib edilmişdir. Ana haşiyəni əhatə edən daxili haşiyədəki diliklərin kənarları mor, xarici haşiyədəki diliklərin kənarları isə sarı rəngli “su”larla işlənib. Haşiyənin kənarları sarı, mor, ağ, şəkəri rənglərlə işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Xalçanın ara sahəsini əhatə edən haşiyə “T”şəkilli elementlərlə bəzədilmişdir. Bu elementlər mor, ağ, sarı, solmuş qırmızı, şabalıdı, yaşıl, bənövşəyi rənglərlə işlənmişdir. “T”şəkilli elementlərin kənarları qara rəngli “su”larla tamamlanır. Haşiyə sarı-açıq-qırmızı, ağ-mor, ağ-sürməyi, mor-yaşıl, açıq-qırmızı-şabalıdı-yaşıl rəngli qırıq-qırıq xətlərlə işlənmiş mədaxillərlə əhatə olunub. Xalçanın yuxarı və aşağı hissələri solğun sürməyi, yuxarıdan bir qədər aşağı hissəsi şabalıdı, mərkəz hissəsi isə sürməyi yerliklidir. Xalça Qazax-Borçalı xalça qrupu üçün səciyyəvi olan texnologiya əsasında Qərbi Azərbaycanın Vedi bölgəsinin Kotanlı kəndində yaşamış məşhur xalça ustası Əsli xanım tərəfindən toxunmuşdur. Xalçanın xovu, ərişi və arğacı yundandır. Xalça əl üsulu ilə əyrilmiş iplərdən toxunmuşdur. Xalça bədii, tarixi əhəmiyyət kəsb edir. Xalça üzərindəki bütün rənglər təbiidir. Saxlanma vəziyyəti əladır.

1850-ci illər nisbətən çox, 19 xalça ilə təmsil olunmuşdur. Bu xalçaları ardıcıllıqla nəzərdən keçirək. Onlardan 5-i 1850-ci ilə aiddir.

H.1271-ci ildə (1854) Gərnibasar mahalında (Qəmərli) toxunan xalçanın **(bax: Kataloq. №19)** ölçüsü 268x155-dir. Zəngin naxış tərtibatına malik olan bu xalçanın ara sahəsinin yuxarı hissəsindəki tünd qırmızı rəngli gölün içərisində h. 1271 tarixi vardır. Bu xalçada tarixən Qərbi Azəzbaycanın xalçaçılıq mərkəzləri üçün, səciyyəvi olan, özünəməxsus bədii quruluş və kolorit həlli qorunub saxlanmışdır. Göy yerlikli ara sahədə üç böyükölçülü səkkizbucaqlı göl yerləşdirilmişdir. Bu göllər formaca eyni olub, yalnız rəng tərtibatına görə bir-birindən fərqlənirlər. Tünd qırmızı yerlikli göllərin içərisində sarı rəngli dördbucaqlı medalyon vardır. Medalyonların kənarları qarpızı rəngli zolaqlarla əhatə olunub, yuxarı, aşağı hissələrdəki künclərdə qarmaqlı çıxıntılar, sağda və solda isə “cütbuynuz” motivləri işlənmişdir. Medalyonların içərisində sürməyi rəngli, kənarları pilləli elementlərin mərkəzində dördləçəkli gülü

xatırladan "dörd ünsür" motivi, yuxarı hissədəki medalyonun boşluqları yaşıl rəngli "S"şəkilli motivlərlə, aşağı hissədəki medalyonun içərisində isə dördləçəkli gül və kiçikölçülü, kənarları pilləli elementlər vardır. "Dörd ünsür"motivlərinin kənarları isə tünd qırmızı rəngli "su"larla tamamlanır. Göllərin yuxarı və aşağı hissəsində ağ və sürməyi rənglərlə tərtib edilmiş "T"şəkilli motivlər təsvir edilmişdir. Bu motivlərin üzərində və kənarlarında kiçikölçülü "dörd ünsür", kənarları pilləli klassik elementlər vardır. Göllərin içərisindəki boşluqlar yuxarı hissələrdə göy, sarı rəngli "S"şəkilli ağ, sarı, göy, yaşıl rənglərlə işlənmiş üçbucaqlı elementlərlə doldurulmuşdur. Mərkəzdəki ağ yerlikli gölün içərisində də eyni formalı medalyon tünd yaşıl və tünd qırmızı rənglərlə işlənmişdir. Medalyonun kənarları da tünd qırmızı rənglərlə işlənmişdir. Medalyonun kənarlarında tünd qırmızı, tünd yaşıl, göy, sarı rəngli rombvari, dördləçəkli gül, "S"şəkilli və kiçikölçülü "dörd ünsür" motivləri vardır. Ara sahənin boşluqları "qoşabuynuz", səkkizguşəli ulduz, dördləçəkli, səkkizləçəkli güllər, rombvari, dördbucaqlı, kənarları pilləli klassik, "S"şəkilli elementlərlə zənginləşmişdir. Bu elementlərin arasında cüzi nəzərə çarpan "dörd ünsür" motivləri vardır. Boşluqlardakı elementlər sarı, tünd qırmızı, yaşıl, ağ, sürməyi, şabalıdı, qara rənglərlə tərtib edilmişdir. Xalçanın ağ yerlikli haşiyəsi "zülfələm" adlandırılan naxışlarla bəzədilmişdir. Bu naxışlar sürməyi, sarı, tünd qırmızı, yaşıl, göy rənglərlə işlənmişdir. Ana haşiyənin yuxarı hissəsində, sol küncdə tünd qırmızı, sürməyi rənglərlə işlənmiş "cütbuynuz", göy və qırmızı rəngli dördləçəkli gül, qırmızı, sürməyi, yaşıl rəngli kiçikölçülü "dörd ünsür" motivləri vardır. Ana haşiyə daxildən içərisində yaşıl və tünd qırmızı qarmaqlı elementlərlə tərtib edilmiş bala haşiyələrlə əhatə olunmuşdur. Haşiyələr hər iki tərəfdən sarı, tünd qırmızı kvadratşəkilli motivlər işlənmiş mədaxillərlə əhatə olunub. Mədaxillərin kənarları qara rəngli "su"larla tamamlanır.

Həmin ilə aid ikinci xalça Zəngəzur mahalında (Sisian) toxunub. Ölçüsü 263x200-dür. Xalçanın kompozisiyası ara sahə və haşiyə hissəsindən ibarətdir. Qırmızı yerlikli ara sahədə iki böyükölçülü, altıbucaqlı göl yerləşdirilmişdir. Göllərin içərisində göy yerlikli, dördbucaqlı medalyon vardır. Medalyonların mərkəzində tünd qırmızı rəngli, səkkizguşəli ulduz işlənmişdir. Ulduzların içərisində mavi, sarı rəngli, üçbucaqlı motivlər kənar hissələrdəki motivlərlə uyğunlaşaraq kompozisiyanı canlandırır. Dördbucaqlı medalyonların yuxarı və aşağı hissələrində ağaca bənzər elementlər vardır. Bu elementlərin kənarlarında "cütbuynuz" motivləri təsvir edilmişdir. Medalyonun sağında və solunda "T"şəkilli motivlər vardır. Ağaca bənzər və "T"şəkilli motivlər mavi rənglə tərtib edilmişdir. Ağ yerlikli gölün boşluqları spiralşəkilli, "S"şəkilli, "qoşabuynuz", "dördləçəkli" çiçəklərlə doldurulmuşdur. Spiralşəkilli motivlər tünd qırmızı, "qoşabuynuz" motivləri mavi rənglə "S"şəkilli motivlər qırmızı, mavi, göy, güllər isə qırmızı, sarı, yaşıl, göy və şabalıdı rənglərlə tərtib edilmişdir. "Qoşabuynuz" motivlər mor yerlikli kətəbələrdə işlənmişdir. Gölün yuxarı və aşağı hissəsindəki göy rəngli ağaca bənzər elementlərin şaxələri qarmaqlı və oxşəkillidir. Gölün kənarları yuxarıdan və aşağıdan "cütbuynuz", "qarmaqlı", sağdan və soldan isə "T"şəkilli motivlərlə əhatə olunub. Xalçanın ara sahəsinin boşluqlarında Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan elementlər işlənmişdir. Xalçanın ağ yerlikli haşiyəsi kənarları pilləli elementlərlə bəzədilmişdir. Bu elementlər üçbucaqlı formaya malikdir. Bu elementlərin kənarları diliklərlə əhatə olunmuşdur.

Haşiyə motivləri tünd qırmızı, göy, mavi, sarı, yaşıl rənglərlə işlənmişdir. Pilləli motivlərin və diliklərin kənarları qırmızı, şabalıdı "su"larla tamamlanır. Haşiyədəki boşluqlar "məşəl" və yaxud "şamdan" adlandırılan qırmızı, göy, mavi, sarı rəngli elementlərlə bəzədilmişdir. Haşiyə hər iki tərəfdən içərisində qırmızı, sarı rəngli, kiçikölçülü rombvari elementlər işlənmiş sürməyi yerlikli ensiz haşiyələrlə əhatə olunmuşdur. Ensiz haşiyələrin kənarları sarı, qırmızı rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Xalçanın kərpiciyə çalan qırmızı yerlikli, nisbətən kiçik haşiyəsi spiralşəkilli motivlərlə işlənmişdir. Bu motivlərin arasında "buta" elementləri vardır. Spiralşəkilli və "buta" motivləri mavi rənglə, kənarları isə şabalıdı rənglə tərtib edilmişdir. Butaların içərisində ağ, sarı, qırmızı, şabalıdı, mavi, yaşıl, sürməyi rəngli kiçikölçülü, butalar yerləşdirilmişdir. Qırmızı yerlikli haşiyəni daxildən içərisində sarı-qırmızı rəngli nəbati elementlər işlənmiş mavi yerlikli, ensiz haşiyə əhatə edir.

Üçüncü xalçanın **(bax: Kataloq. №22)** ölçüsü 267x110 olub, Üçkilsədə toxunmuşdur. Xalçanın ara sahəsinin yuxarı hissəsinin sol küncündə h. 1271 tarixi vardır. Zoğalı yerlikli bu xalçanın ara sahəsinin əsas bəzəyi yuxarıdan birinci cərgədə sağa, ikinci cərgədə sola doğru istiqamətlənən və digər cərgələrdə eyni düzümlə tərtib edilən kompozisiya quruluşundan ibarətdir. Butalar birinci cərgədə yaşıl, zoğalı, göy və ağ rəngli, ikinci cərgədə isə bir-aşırı dəyişdirilərək xüsusi ahəng yaratmışdır. Butaların kənarlarında yarpağa bənzər çıxıntılar və qotazlar vardır. Toxucular arasında bu növ butalar "qotazlı buta"lar adlandırılır. Çox qədim bir tarixə malik olan buta motivləri, Azərbaycanın digər bölgələrində olduğu kimi, Qərbi Azərbaycanın nəinki xalçalarında, hətta memarlıq, zərgərlik, ağacişləmə, misgərlik, dulusçuluq, tikmə və s. tətbiqi sənət sahələrində dönə-dönə təsvir edilmişdir. Qərinələr ötdükcə "buta" motivləri dəyişmiş, müxtəlif məzmunda yeni-yeni formalar almışdır. "Buta"nın formaları inkişaf etdikcə sənətkarlar onlara yeni-yeni adlar vermiş və daha da təkmilləşdirməyə çalışmışlar. Xalçanın yaşıl yerlikli ana haşiyəsi kiçikölçülü səkkizləçəkli güllərlə bəzədilmişdir. Güllərin arasındakı boşluqlar kənarları dilikli budaqlarla doldurulmuşdur. Dilikli elementlərə Azərbaycanın Quba, Şirvan, Gəncə, Qazax-Borçalı xalçalarında daha çox təsadüf edilir. Diliklər uzunsov formalı yarpaqların kənarlarında özünəməxsus düzülüşlə tərtib edilmişdir. Budaqlar bir-birinə birləşdirilərək dalğavari forma almışdır. Güllərin sağında və solundakı zoğalı rəngli budaqlar və budaqlarda zəif nəzərə çarpan gül-çiçəklər haşiyəni zənginləşdirir. Ana haşiyə hər iki tərəfdən içərisində "S"şəkilli motivlər işlənmiş bala haşiyələrlə əhatə olunmuşdur. "S"şəkilli motivlər ağ, zoğalı, tünd şabalıdı, mavi, sarı rənglərlə işlənmişdir. Bu motivlərin arasında "sırğa" adlandırılan kiçikölçülü elementlər vardır. "S"şəkilli motivlərin rəngləri "sırğa" elementlərində də təkrarlanır. Bala haşiyələrin kənarları zoğalı, ağ rəngli "siçandişi"lərlə tamamlanır. Ara sahəni əhatə edən haşiyə daxildən mavi, zoğalı, kənar haşiyə isə xaricdən eyni rəngli diliklərlə əhatə olunmuşdur. Haşiyədəki güllər zoğalı, sarı, mavi, ağ, şabalıdı, yaşıl, sürməyi rənglərlə işlənmişdir.

Dördüncü və beşinci xalçalar İrəvan şəhərində toxunmuşdur. Onlardan birinin ölçüsü 228x95-dir. Xalçanın **(bax: Kataloq. №23)** yuxarı hissəsində ara sahədəki kərpiciyə çalan qırmızı yerlikli medalyonun içərisində "ağac" motivinin altında h. 1271 tarixi vardır. Xalçanın tünd şabalıdı yerlikli ara sahəsində on səkkiz bütöv və on dörd yarımçıq altıbucaqlı medalyon yerləşdirilmişdir. Medalyonlar kərpiciyə

çalan qırmızı, açıq yaşıl, sarı, ağ, sürməyi yerlikdə tərtib edilmişdir. Medalyonların kənarları sürməyi, qırmızı, sarı, ağ yaşıl, açıq şabalıdı rənglərlə işlənmişdir. Medalyonların içərisində ağac motivləri vardır. Ağac motivləri qırmızı yerlikdə sarı, yaşıl, ağ, sürməyi; yaşıl yerlikdə qırmızı, sarı, ağ; ağ yerlikdə yaşıl, sürməyi, qırmızı; sarı yerlikdə sürməyi, qırmızı, yaşıl rənglərlə işlənmişdir. Bəzi toxucular bu motivləri "budaqbaşı" adlandırırlar. "Budaqbaşı" motivlərinə Azərbaycanın Gəncə, Qazax-Borçalı xalçalarında da tez-tez təsadüf olunur. Xalçanın sağında və solunda, aşağı və yuxarı hissəsindəki yarımçıq medalyonlar ara sahənin kompozisiyasını tamamlayır. Xalçanın haşiyəsi kiçikölçülü altıbucaqlı elementlərlə bəzədilmişdir. Ara sahədəki altıbucaqlı elementlərin rəngi haşiyə hissəsindəki elementlərdə də təkrarlanır. Haşiyədəki medalyonların içərisində "çarx" adlandırılan motivlər işlənmişdir. Bu motivlər qırmızı yerlikdə ağ, sarı, yaşıl yerlikdə qırmızı, ağ, sarı, göy yerlikdə sarı, qırmızı rənglərlə tərtib edilmişdir. Bala haşiyə sürməyi, kərpici rəngli "mollabaşı" larla tərtib edilmişdir. Haşiyənin kənarları daxildən sarı, qırmızı, xaricdən isə ağ, qırmızı rənglərlə işlənmiş ağ rəngli qırıq-qırıq xətlərlə əhatə olunub. Xalçadakı isti və soyuq rənglər bir-biri ilə ənənəvi qanunauyğunluqla və yüksək peşəkarlıqla uzlaşdırılaraq diqqəti cəlb edən bir görünüş yaradılmışdır.

H.1271-ci ilə (1854) aid olub, İrəvan şəhərində toxunan digər xalçanın **(bax: Kataloq. №24)** ölçüsü 190x130-dur. Xalçanın ara sahəsinin aşağı hissəsində solda h. 1271 tarixi vardır.

Qırmızı yerlikli bu xalçanın ara sahəsi rapportlara bölünmüşdür. Rapportlarda iki şəkəri, iki yaşıl rəngli qarmaqlı medalyonlar vardır. Nisbətən kiçikölçülü qarmaqlı motivlər medalyonların içərisində yerləşdirilmişdir. Qarmaqlı motivlər şəkəri rəngli medalyonlarda sürməyi, qırmızı rənglə; yaşıl yerlikli medalyonlarda ağ, sürməyi və qırmızı rənglərlə işlənmişdir. Ara sahənin boşluqları ağ, sürməyi, yaşıl rəngli kiçikölçülü dördləçəkli çiçəklər, ağ, sürməyi, sarı rəngli rombvari motivlərlə doldurulmuşdur. Rapportların kənarları hər tərəfdən nöqtəvari motivlərlə tərtib edilmişdir. Bu motivlər ümumilikdə torvari görünüş yaradır. Xalçanın şəkəri yerlikli ana haşiyəsi yaşıl, tünd qırmızı, şabalıdı, sürməyi rəngli kənarları yuxarı və aşağı hissələrdə qarmaqlı, yan hissələrdə isə "T"şəkilli elementlərlə işlənmişdir. Bu elementlər tünd qırmızı, sürməyi, yaşıl, tünd şabalıdı, açıq yaşıl rənglərlə tərtib edilmişdir. Ana haşiyənin boşluqları kiçikölçülü, dördləçəkli çiçəklərlə doldurulmuşdur. Haşiyədəki motivlərin içərisində rombvari elementlər vardır. Ana haşiyəni xaricdən göy, tünd şabalıdı və sürməyi, daxildən isə qırmızı, açıq yaşıl rəngli qarmaqlı motivlər işlənmiş bala haşiyələr əhatə edir. Haşiyələrin kənarlarını xaricdən şəkəri, qırmızı; daxildən sarı, qırmızı rəngli "Z"şəkilli cüzi nəzərə çarpan motivlərlə işlənmiş mədaxillər əhatə edir. Mədaxillər hər iki tərəfdən şabalıdı rəngli "su"larla tamamlanır. Rombvari elementlərin içərisi dörd hissəyə bölünmüşdür. Bu hissələr, üçbucaqlı formaya malik olub sürməyi ilə şabalıdı, ağla qırmızı, yaşılla qırmızı, sürməyi ilə qırmızı, şabalıdı ilə qırmızı, tünd şabalıdı ilə açıq şabalıdı, yaşılla şabalıdı rənglərlə tərtib edilmişdir. Xalçanın bir-birini əvəz edən əlvan və harmonik rəng qamması, ənənəvi dekorativ kompozisiya həlli ümumi görünüşə xüsusi bir dinamiklik və ifadəlilik verir.

H.1272-ci ildə (1855) Vedibasar mahalında (Vedi) toxunan xalçanın **(bax: Kataloq. №25)** ölçüsü 227x168-dir. Xalçanın kompozisiyası ara sahə və haşiyə hissəsindən ibarətdir. Ara sahənin yuxarı hissəsində sağ tərəfdə h. 1272 tarixi vardır. Xalçanın

qırmızı yerlikli ara sahəsinin mərkəzində mehrab formalı, altıbucaqlı medalyon yerləşdirilmişdir. Medalyonun kənarları daxildən yaşıl, xaricdən şəkəri rəngli qarmaqlarla işlənmişdir. Medalyonun mərkəzində dördbucaqlı, açıq sürməyi rəngli həndəsi elementin içərisində Qazax-Borçalı qrupunun "Qaraçöp" xalçaları üçün səciyyəvi olan "qoşabuynuz" motivi təsvir edilmişdir. Bəzi xalçaçılar bu motivləri "qoşaquyrum" da adlandırırılar. Eyni motivlə işlənmiş şəkəri yerlikli həndəsi element sağ və sol tərəfdə də təkrar edilmişdir. Medalyonun aşağı hissəsində ara sahənin sol tərəfində, üstündə insan təsviri verilmiş at fiquru vardır. Medalyonun sağında və solunda ara sahənin boşluqları rombvari, içərisi şahmat düzülüşlü motivlərlə doldurulmuşdur. Xalçanın ara sahəsinin baş və ayaq hissəsində içərisində sarı, tünd qırmızı, yaşıl, qarpızı rəngli, səkkizguşəli ulduzlarla işlənmiş, qoşa dördbucaqlı həndəsi elementlər tərtib edilmişdir. Bu həndəsi elementlərin yaşıl çərçivəli kənarlarında yuxarı və aşağı hissədə üz-üzə, sağda və solda isə əks istiqamətdə işlənmiş qarmaqlı motivlər xalçanın ümumi kompozisiyasına xüsusi görünüş gətirir. Xalçanın sürməyi yerlikli enli haşiyəsindəki elementlər Quba qrupuna daxil olan "Qədim Minarə" və "Uqah" xalçalarının ara haşiyəsində işlənən "tənək yarpağı"nı xatırladır. Bu elementlər şəkəri, tünd qırmızı və yaşıl rənglərlə işlənmişdir. Haşiyənin kənarları hər iki tərəfdən "siçandişi"lərlə tərtib edilmişdir. Ana haşiyə sağdan və soldan tünd şabalıdı, baş hissədə isə xaricdən yaşıl, daxildən şabalıdı rəngli "mollabaşı" motivləri ilə bəzədilmiş şəkəri yerlikli bala haşiyələrlə əhatə olunmuşdur. "Mollabaşı" motivlərinin kənarları tünd qırmızı "su"larla işlənmişdir. Xalçanın ara sahəsinin boşluqları "S"şəkilli, "çərxi-fələk", "dörd ünsür" və müxtəlif kiçikölçülü motivlərlə doldurulmuşdur. Ara sahəsindəki elementlərin rəngi haşiyə hissəsindəki elementlərdə də təkrar olunaraq diqqətəlayiq bir kompozisiya görünüşü və gözoxşayan rəng palitrası yaradılmışdır. Xalçanın kənarları sağdan və soldan Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan tünd qırmızı, şəkəri, yaşıl rəngli iplərlə hörmə üsulu ilə işlənmişdir. Qazax-Borçalı xalçaları üçün xarakterik olan rənglər bu xalçada öz əksini tapmışdır.

H.1272-ci (1855) ilə aid ölçüsü 221x133 olan xalça **(bax: Kataloq. №26)** İrəvan şəhərində toxunmuşdur. Xalçanın ara sahəsinin yuxarı hissəsindəki ağ yerlikli medalyonun sağında və solunda iki hissəyə bölünmüş h. 1272 tarixi vardır. Tünd qırmızı yerlikli bu xalçanın ara sahəsində iki ağ yerlikli və bir göy yerlikli göl yerləşdirilmişdir. Göllərin içərisində kənarları qarmaqlı, tünd qırmızı rəngli medalyon vardır. Mərkəzdəki medalyonun içərisində sarı, aşağı və yuxarı hissələrdəki medalyonlarda isə sürməyi rəngli "cütbuynuz" motivləri işlənmişdir. Yuxarı və aşağı hissədəki medalyonların mərkəzi dörd hissəyə bölünmüş, mərkəzdəki "cütbuynuz" motivinin içərisində isə yaşıl, şəkəri rəngli nöqtəvari elementlər təsvir edilmişdir. Göllərin sağında və solunda, yuxarı hissələrdə dördbucaqlı həndəsi formaya malik medalyonlar təsvir edilmişdir. Medalyonların içərisində "cütbuynuz", üçbucaqlı elementlər işlənmişdir. Ara sahənin boşluqlarında rombvari elementlər vardır. Xalçanın ara sahəsi yaşıl rəngli "mollabaşı"larla əhatə olunub. "Mollabaşı" motivlərinin kənarları ağ rəngli "su"larla tamamlanır. Ağ yerlikli ana haşiyə "zülfələm" adlandırılan ornamentlərlə bəzədilmişdir. Bu ornamentlər tünd və açıq yaşıl, göy, sürməyi, tünd qırmızı, sarı rənglərlə tərtib edilmişdir. Haşiyəni xaricdən sürməyi, daxildən isə göy və şabalıdı rənglərlə işlənmiş ensiz haşiyələr

əhatə edir. Haşiyələr "mollabaşı" motivləri ilə işlənmişdir. "Mollabaşı" motivlərinin kənarlarında qırmızı rəngli gəzmələr vardır. Xalçanın sarı yerlikli ensiz haşiyəsində "S"şəkilli elementlər vardır. Bu elementlər qırmızı, ağ, göy, sürməyi, yaşıl, şabalıdı rənglərlə tərtib edilmişdir. Haşiyə daxildən qırmızı, göy, xaricdən ağ, qırmızı, göy yerlikli haşiyə xaricdən qırmızı, sarı, kənar haşiyə isə xaricdən ağ, qırmızı, daxildən isə sarı, qırmızı "Z"şəkilli elementlərlə işlənmiş mədaxillərlə əhatə olunub. Xalçanın kənarları sürməyi, tünd qırmızı, sarı, yaşıl rənglərlə dolama üsulu ilə işlənmişdir. Xalçanın rəng tərtibatı ənənəvi qanunauyğunluqla həll edilmişdir.

Loru mahalında (Cəlaloğlu) h.1273-cü ildə (1856) toxunan xalçanın **(bax: Kataloq. №27)** ölçüsü 254x147-dir. Xalçanın ara sahəsinin aşağı hissəsində sağ küncündə h. 1273 tarixi vardır. Qırmızı yerlikli bu xalçanın ara sahəsinin əsas bəzəyi iki açıq-yaşıl və bir mavi rəngli böyükölçülü ağac təsvirindən ibarətdir. Ağacların budaqları sarı və ağ rəngli "tumurcuq"larla bəzədilmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətində ağaclar müxtəlif formalarda təsvir olunur. Yaz, payız ağacları çiçəklər və yaxud bəhərlə təsvir edilir. Əksər hallarda sərv, söyüd, ağlayan söyüd ağacları dekorativ ağac kimi göstərilir. Qədim dövrlərdə Yaxın Şərqdə, Mərkəzi Asiyada, o cümlədən Azərbaycanda zeytun, çinar, tut, əncir və üzüm ağacları müqəddəs ağaclar hesab olunurdu. Xüsusilə əyri budaqlı ağaclar daha müqəddəs sayılırdı. Dekorativ-tətbiqi sənətdə ağlayan söyüd məhəbbət, palıd güc (qüvvət) rəmzi, nar ağacı müvəffəqiyyət və nəsil artımı rəmzi kimi qəbul olunurdu. Azərbaycan sənətkarları xüsusilə, xalça ustaları bu obrazları stilizə olunmuş formada təsvir etmişlər. Əksər hallarda xalçaların ara sahəsində bir və yaxud iki böyükölçülü ağac təsviri olur. Bəzən üç və daha çox ağac təsvirlərinə də rast gəlinir. Xalçanın ara sahəsinin aşağı hissəsində, yaşıl ağacın altında sarı rəngli kənarları şabalıdı "su"larla işlənmiş motivlər bəzədilmişdir. Eyni motiv şabalıdı və sarı rənglə mərkəzdə də təkrarlanır. Ara sahənin boşluqları "S"şəkilli, "buynuz" və "gül" motivləri ilə doldurulmuşdur. Ağacların arasındakı boşluqlarda dördbucaqlı həndəsi elementlər də işlənmişdir. Bu elementlərin içərisində yuxarı hissədə mavi, sarı, aşağı hissədə isə sürməyi, sarı rəngli üçbucaqlı elementlərin kənarlarında ağ yerlikdə qırmızı, göy, sarı, mavi, yaşıl, şabalıdı rəngli kiçikölçülü klassik elementlər tətbiq edilmişdir. Xalçanın enli haşiyəsində sarı, sürməyi, mavi, qırmızı, yaşıl rəngli pilləli elementlər vardır. Bu elementlər bir-birindən ağ rəngli "su"larla ayrılır. Enli haşiyə xaricdən mavi, daxildən isə sürməyi yerlikli ensiz haşiyələrlə əhatə olunur. Ensiz haşiyələrin içərisində sarı, qırmızı, narıncı, ağ, mavi, göy rəngli, dördləçəkli çiçəklər, kənarları pilləli motivlər və rombvari elementlər təsvir edilmişdir. Xarici haşiyənin kənarları xaricdən ağ, qırmızı, daxili haşiyənin kənarları xaricdən sarı, qırmızı, daxildən isə ağ, qırmızı qırıq-qırıq xətlərlə əhatə olunmuşdur. Toxucu xalçada rəng həlli texnikasına ustalıqla yiyələnmişdir. Xalçada ara sahənin və ara haşiyənin ornamental motivlərinin rəngləri parlaqdır. Xalçanın bir-birini tamamlayan əlvan və harmonik rəng qamması, dekorativ kompozisiya həlli şən əhval-ruhiyyə yaradır. Motivlərin rəngləri arasındakı bədii cəhətdən bağlılıq, xovların parıltısı aydın nəzərə çarpır.

Vedibasar mahalında (Vedi) h.1274-cü ildə (1857) toxunan xalçanın **(bax: Kataloq. №28)** ölçüsü 226x118-dir. Xalçanın aşağı hissəsində qırmızı yerlikdə h. 1274 tarixi vardır. Qırmızı yerlikli bu xalçanın ara sahəsində üç böyükölçülü bütöv və bir yarımçıq medalyon təsvir edilmişdir. Medalyonlar çalağan quşunu və yaxud qurbağanı

xatırladır. Şaquli istiqamətdə üç bütöv və bir yarımçıq element bir-birinin arxasınca düzülərək, dinamik və ritmik bir kompozisiya yaratmışdır. Mərkəzdəki medalyon sürməyi, tünd qırmızı, ağ və yaşıl rənglərlə işlənmişdir. Medalyonun mərkəzində səkkizbucaqlı həndəsi element vardır. Bu elementin içərisində dördbucaqlı uzunsov kətəbəni xatırladan sarı yerlikli gölün içərisində dördləçəkli altı gül işlənmişdir. Dördbucaqlı elementin yuxarı və aşağı hissəsində ox işarəli çıxıntılar vardır. Medalyonun sağa və sola istiqamətlənən ağ rəngli çıxıntılarında "S"şəkilli elementlər, yuxarı və aşağı hissələrdə isə ağ yerlikdə stilizə olunmuş "at" fiqurlarına bənzər elementlər tərtib edilmişdir. Ara sahənin yuxarı və aşağı hissəsindəki eyni formaya malik olan medalyonlarda açıq yaşıl rəng üstünlük təşkil edir. Xalçanın ara sahəsinin boşluqları rombvari, dördbucaqlı, üç dördləçəkli gül-çiçək, spiralşəkilli, stilizə olunmuş keçi, quş və digər motivlərlə bəzədilmişdir. Xalçanın ağ yerlikli enli haşiyəsi səkkizləçəkli güllərlə işlənmişdir. Güllər qırmızı, sürməyi, göy, yaşıl, sarı, şabalıdı, açıq yaşıl rənglərlə tərtib edilmişdir. Güllərin kənarları "su"larla tamamlanır. Haşiyə hər iki tərəfdən qırmızı, sürməyi dilikli elementlər işlənmiş ensiz haşiyələrlə əhatə olunmuşdur. Haşiyələrin kənarları sarı, qırmızı rəngli kvadratşəkilli elementlər işlənmiş mədaxillərlə tərtib edilmişdir. Xalçanın rəng həlli texnikasına ustalıqla yiyələnmiş sənətkar (toxucu) bir rəngdən digərinə ənənəvi qanunauyğunluqla keçmiş, kontrastlı uzlaşmalarda rəng ahəngdarlığına nail olmuşdur. Rənglər harmonikdir və xoş əhval-ruhiyyə yaradır.

Üçkilsədə h.1276-cı ildə (1859) toxunmuş xalçanın **(bax: Kataloq. №29)** ölçüsü 198x131-dir. Xalçanın ara sahəsinin aşağı hissəsində sol tərəfdə h. 1276 tarixi vardır. Açıq qırmızı yerlikli bu xalçanın ara sahəsində mərkəzdə bir səkkizbucaqlı göl yerləşdirilmişdir. Gölün mərkəzində "cütbuynuz" motivi vardır. "Cütbuynuz" motivi kənarları ağ rənglə işlənmiş, dörd tərəfdən qarmaqlı çıxıntıları olan dördbucaqlı medalyonun içərisində təsvir edilmişdir. Gölün və medalyonun kənarları ağ rəngli zolaqlarla işlənmişdir. Zolaqlar qırmızı xətlərlə tamamlanır. Yaşıl yerlikli gölün yuxarı və aşağı hissəsində göy yerlikli, dördbucaqlı göl təsvir edilmişdir. Göllərin kənarları sarı zolaqlarla, zolaqlar isə qırmızı və şabalıdı xətlərlə əhatə olunub. Göllərin içərisindəki dördbucaqlı medalyonların içərisində "cütbuynuz" motivləri təkrarlanır. Xalçanın ara sahəsinin boşluqlarında kiçikölçülü dördbucaqlı medalyonlar yuxarı, aşağı, sağ və sol hissələrdə eyni ölçüdə və eyni motivlərlə təkrarlanır. Medalyonların içərisində "cütbuynuz" motivləri təsvir edilmişdir. "Cütbuynuz" motivləri sürməyi, sarı, yaşıl yerlikdə qırmızı rənglə, yaşıl yerlikdə bəzən ağ rənglə, qırmızı yerlikdə isə bəzən sarı rənglə tərtib edilmişdir. Xalçanın ağ yerlikli enli haşiyəsi yuxarı hissədə və solda sürməyi, qırmızı rəngli "qoşabuynuz", kənarları sağdan, soldan çıxıntıları olan üz-üzə istiqamətlənən qarmaqlı elementlərlə tərtib edilmişdir. Haşiyənin boşluqları kiçikölçülü rombvari elementlərlə doldurulmuşdur. Haşiyənin kənarları daxildən sarı-qırmızı rəngli kvadratşəkilli elementlər işlənmiş mədaxillə, xaricdən isə qırmızı ,şabalıdı rəngli "su"larla əhatə olunub. Ağ yerlikli enli haşiyənin aşağı hissələrində dördbucaqlı kənarların qarmaqlı elementləri vardır. Xalçanın göy yerlikli haşiyəsi şabalıdı rəngli "mollabaşı"larla işlənmişdir. "Mollabaşı"ların kənarları qırmızı rəngli "su"larla tamamlanır. Göy yerlikli nisbətən ensiz haşiyə hər iki tərəfdən sarı, qırmızı rəngli, kvadratşəkilli motivlər işlənmiş mədaxillərlə əhatə olunub. Xalçanın rəng texnikasına ustalıqla yiyələnmiş sənətkar (toxucu) müxtəlif rənglərin uzlaşmasından çox baxımlı bir rəng palitrası yaratmışdır.

H. 1277-ci ildə (1860) İrəvan şəhərində toxunan xalçanın **(bax: Kataloq. №30)** ölçüsü 204x122-dir. Xalçanın kompozisiyası ara sahə, enli və ensiz haşiyələrdən ibarətdir. Ara sahənin yuxarı hissəsində h. 1277 tarixi işlənmişdir. Sürməyi yerlikli ara sahədə bir-birinin ardınca ağ, sarı və qırmızı yerlikli üç böyük medalyon yerləşdirilmişdir. Qırmızı rəngli medalyonun içərisində ağ, sarı rəngli medalyonun içərisində isə qırmızı rəngli qarmaqlı motivlər işlənmişdir. Bu motivlərin kənarlarındakı boşluqlar kiçikölçülü mədaxillər üçün səciyyəvi olan motivlər və "dörd ünsür" elementləri ilə doldurulmuşdur. Xalçanın ara sahəsinin sağında və solunda tünd qırmızı, sarı, ağ rənglərlə "S"şəkilli , spiralşəkilli zəncirvari düzülüşlə işlənmiş elementlər təsvir edilmişdir. Bu elementlərə Şərq xalqlarının incəsənətində və qədim yunan incəsənətində də təsadüf edilir. Azərbaycan xalçalarında çox geniş yayılmış ornamentlərdən biri də spirallar və spiralvari ornametlərdir. Sadə, mürəkkəb formalı spirallar, əks və yaxud ikitərəfli spirallar, "S"şəkilli formada olan spirallar son tunc və erkən dəmir dövrlərində geniş yayılmışdır. Bu elementlərə saxsı qabların və zərgərlik məmulatlarının, metal əşyaların ornamentasiyasında tez-tez rast gəlirik. Azərbaycanın son tunc və erkən dəmir dövrlərinə aid məşhur naxışlı bürünc kəmərlər üzərində, Gəncəçay sahilindən, Quşçulu kəndindən tapılmış həmin dövrə aid qəbirüstü sərdabələrdə tapılmış saxsı məmulatlar, Covdardan tapılmış sırğa, Göygöl rayonundan tapılmış liraşəkilli və eynəkşəkilli sırğalar, Xoşbulaqdan tapılmış gümüş kəmər və bir çox digər nümunələrdəki haşiyə ornamentləri spiralvari ornamentlərə misaldır. Spiralvari qıvrımların semantik məzmununa diqqət yetirən bir çox tədqiqatçılar bu elementləri su və suvarma rəmzi kimi yozmuşlar. Spiralvari elementlərə XV əsrə aid Gəncə, Qazax-Borçalı xalçalarında, XVII əsrə aid Qarabağ xalçalarında, Şirvan qrupuna aid "Bico" xalçasında, Bakı qrupuna aid olan "Xilə-buta" xalçasında rast gəlinir. Xalçanın aşağı hissəsində tünd sürməyi yerlikdə "qoşabuynuz" və sırğa motivləri təsvir edilmişdir. Bu motivlərin kənarlarında kiçikölçülü "S"şəkilli elementlər aydın nəzərə çarpır. Ağ və qırmızı yerlikli medalyonun yuxarı hissəsindəki ara sahənin boşluqları qırmızı, sarı, ağ, qara rənglərlə işlənmiş kiçikölçülü "gözqaytarıcı" motivlərlə bəzədilmişdir. Xalçanın ara sahəsini ağ rəngli enli haşiyə əhatə edir. Haşiyənin içərisində "şamdan", "məşəl" və "qayçıbalıq" motivləri işlənmişdir. Bu motivlər tünd qırmızı, qara, sürməyi, sarı, şabalıdı, yaşıl, mavi rənglərlə tərtib edilmişdir. Sürməyi yerlikli ensiz haşiyə ağ, tünd qırmızı rənglərlə tərtib edilmiş "sırğa" elementləri ilə bəzədilmişdir. Hər iki haşiyəni qırmızı və sarı rənglərlə işlənmiş "siçandişi"lər əhatə edir. Xalçanın kənarları sağdan və soldan açıq şabalıdı iplərlə hörmə üsulu ilə işlənmişdir. Bu xalçada bütün rənglər qanunauyğunluqla bir-biri ilə uzlaşdırılaraq çox canlı bir görünüş yaradılmışdır. Qazax-Borçalı bölgəsi üçün səciyyəvi olan rənglər bu xalçada öz əksini tapmışdır. Xalçanın ara sahəsindəki motivlərin rəngi enli və ensiz haşiyədəki motivlərdə də təkrarlanır. Medalyonların rənglərinin bir-aşırı dəyişməsi, haşiyə hissəsindəki motivlərdə də eyni düzümlə tamamlanır.

Eyni ildə, h.1277-ci ildə (1860) Dərələyəz mahalında (Keşişkənd) toxunan daha bir xalça **(bax: Kataloq. №31)** da vardır. Onun ölçüsü 252x134-dür. Xalça zəngin kompozisiya quruluşuna malikdir. Xalçanın ara sahəsinin yuxarı hissəsində sağ tərəfdə h. 1277 tarixi vardır. Ara sahənin əsas bəzəyi xalçanın uzunu istiqamətində düzülmüş 24 səkkizbucaqlı medalyondan ibarətdir. Medalyonların yerliyi bir-aşırı

dəyişdirilərək xalçaya xüsusi görünüş bəxş edir. Medalyonların içərisində Muğan xalçaları üçün səciyyəvi olan 12 qarmaqlı motiv işlənmişdir. Qərbdə bu xalçaları "Quyrumlu" adlandırırlar. Bu kompozisiyalı xalçalar orta əsrlərdə də toxunmuş və Azərbaycanda olmuş əcnəbi səyyahların marağına səbəb olmuşdur. Gəncənin qocaman toxucuları bu tipli qarmaqlı elementləri "damğa", türkmən toxucuları isə "qırxbuynuz" adlandırırlar. Qədim türk xalqlarının təqvimində qarmaqlı elementlər 12 ilin rəmzi kimi çıxış edir. Belə ki, Şərq təqviminə görə, hər il bir heyvan üzərində təhvil olunur. Qarmağın hər biri ayrı-ayrılıqda bir ilə işarədir. Medalyonların kənarları və rapportlar latın əlifbasının "Z" hərfinə bənzər motivlərlə əhatə olunmuşdur. Qarmaqlı medalyonun içərisində təsvir edilən səkkizguşəli ulduz motivlərini bəzi xalçaçılar "dördbuynuz" adlandırırlar. Qarmaqlı elementlərdə işlənmiş rapportlara bölünmüş dördbucaqlı elementlər ara sahənin küncləründə də tərtib edilmişdir. Yaşlı xalçaçılar bu xalçanı "Qoşagöl Muğan" adlandırır. Azərbaycan xalça sənətində kökləri uzaq keçmişlərə gedib çıxan bu elementlərə Orta Asiya və Əfqanıstan xalçalarında da rast gəlinir. Göllər bir-birindən "siçandişi"lərlə işlənmiş rapportlarla ayrılır. Xalçanın ara sahəsi içərisi dörd hissəyə bölünmüş dördbucaqlı həndəsi motivlərlə işlənmiş bala haşiyə ilə əhatə olunmuşdur. Bala haşiyə xaricdən zoğalı və şəkəri rəngli qırıq-qırıq xətlərlə işlənmişdir. Xalçanın ana haşiyəsi kənarları dilikli motivlərlə bəzədilmişdir. Şəkəri rəngli bu motivlər stilizə olunmuş "quş"u xatırladır. Quşa bənzər bu motivlər bir-birinə əks istiqamətdə baş-ayaq düzülmüşdür. Mor, tünd qırmızı, sürməyi, açıq şabalıdı, açıq yaşıl və mavi rəngli boşluqlar nəbati elementlərlə bəzədilmişdir. Haşiyə şəkəri rəngli "su"larla əhatə olunmuşdur. Haşiyənin kənarları sarı və zoğalı rənglərlə işlənmiş qırıq-qırıq xətlər və mavi dilikli mədaxillərlə tamamlanmışdır. Xalçanın baş və ayaq hissəsindəki ana haşiyə stilizə olunmuş ağac və kənarları dilikli elementlərlə bəzədilmişdir.

H.1278-ci (1861) ilə aid iki xalça müəyyən edilmişdir. Onlardan biri Göyçə mahalında (Çəmbərək) toxunub **(bax: Kataloq. №32)**, ölçüsü 272x105-dir. Xalçanın ara sahəsində yuxarıdan ikinci yaşıl yerlikli gölün içərisində h. 1278 tarixi vardır. Xalçanın adı Gəncənin şimal-şərqində 25 km-də yerləşən Faxralı kəndinin adı ilə bağlıdır. Qocaman toxucular bu xalçanı "Gəncənin fəxri" adlandırırlar. XIX əsrdə bu tipli xalçalar Qərbi Azərbaycanın bir çox bölgələrində, o cümlədən Göyçə mahalında toxunmuşdur. Qırmızı yerlikli bu xalçanın ara sahəsində böyükölçülü baş və ayaq hissəsi mehrab şəkilli göl yerləşdirilmişdir. Gölün içərisində bir-birinin ardınca düzülmüş dörd altıbucaqlı baş və ayaq hissəsi "qoşabuynuz"motivləri ilə tamamlanmış medalyon təsvir edilmişdir. Medalyonların mərkəzində kətəbəni xatırladan uzunsov formalı sağdan və soldan "T"şəkilli , baş və ayaq hissədə ağaca bənzər motivlərlə tamamlanmış elementlər tərtib edilmişdir. Bu tipli elementlərə Gəncə, Qazax-Borçalı xalçalarında tez-tez təsadüf edilir. Gölün içərisindəki boşluqlar "qoşabuynuz", səkkizguşəli ulduz, rombvari, nəbati və digər klassik elementlərlə doldurulmuşdur. Xalçanın küncləründəki boşluqlar səkkiz və dörd ləçəkli motivlərlə bəzədilmişdir. Xalçanın aşağı və yuxarı hissəsində mehrabın sağında və solunda şəkəri rəngli klassik elementlər işlənmişdir. Bu elementlərə Göygöl şəhəri ətrafında tapılmış kurqanlardakı saxsı qablarda, medalyonların sürmə lövhələrində təsadüf edilir. Tədqiqatçılar bu elementləri erkən əkinçilik dövrünə aid kult rəmzi kimi yozurlar. Şəkəri yerlikli böyük sahə içərisində qırmızı, sarı, ağ, yaşıl kənarları, pilləli rombvari

motivlər işlənmiş sürməyi yerlikli haşiyə ilə əhatə olunmuşdur. Xalçanın göy yerlikli enli haşiyəsi qırmızı, sarı, ağ, yaşıl, bənövşəyi, sürməyi, şəkəri, göy rənglərlə işlənmiş nəbati elementlərlə bəzədilmişdir. Enli haşiyəni daxildən sarı yerlikli, xaricdən isə qırmızı yerlikli ensiz haşiyələr əhatə edir. Haşiyələrin içərisində qırmızı, sarı, göy, ağ, açıq və tünd yaşıl rənglərlə işlənmiş, kənarları pilləli, rombvari elementlər təsvir edilmişdir. Qırmızı yerlikli haşiyəni göy, sarı, qırmızı, sarı yerlikli haşiyəni isə ağ və qırmızı rəngli "Z"şəkilli kiçikölçülü elementlər əhatə edir. Xalçanın çoxsaylı rənglərinin qanunauyğunluqla uzlaşdırılmasından çox baxımlı bir görünüş yaradılmışdır.

H.1278-ci (1861) ilə aid digər xalça **(bax: Kataloq. №33)** Zəngəzur mahalında (Gorus) toxunub, ölçüsü 213x162-dir. Xalça Gəncə qrupunun "Gədəbəy" kompozisiyası əsasında toxunmuşdur. Bu xalçanın bədii quruluşu ara sahə və haşiyə hissəsindən ibarətdir. Ara sahənin mərkəzinə yaxın hissədəki ağ yerlikli dörbucaqlı medalyonun mərkəzində h. 1278 tarixi vardır. Bu xalça çox mürəkkəb kompozisiya quruluşuna malikdir. Xalçanın sürməyi yerlikli ara sahəsində kənarları çıxıntılı böyükölçülü göl yerləşdirilmişdir. Gölün içərisində bir - birinin ardınca şaquli istiqamətdə düzülmüş iki ağ yerlikli dördbucaqlı və üç tünd qırmızı yerlikli kənarları çıxıntılı medalyon təsvir edilmişdir. Ağ yerlikli dördbucaqlı medalyonun mərkəzində içərisində damğa motivi işlənmiş dörbucaqlı element vardır. Dördbucaqlı elementin sağında və solunda "cütbuynuz" motivləri vardır. Medalyonun boşluqlarında sarı-qırmızı rənglə işlənmiş rombvari tünd şabalıdı rəngli "S"şəkilli, qırmızı rənglərlə işlənmiş qoşa üçbucaqlı motivlər vardır. Aşağı hissədəki ağ yerlikli medalyonun içərisində mərkəzdəki 1278 tarixinin sağında və solunda "cütbuynuz" motivləri, boşluqlarda isə müxtəlif ölçülü rombvari və "S"şəkilli elementlər təsvir edilmişdir. Qırmızı yerlikli medalyonların mərkəzində qarmaqlı motivlər, boşluqlarda isə yuxarı hissədəki medalyonda dördləçəkli gülvə "S"şəkilli motivlər, mərkəzdəki və aşağı hissədəki medalyonlarda isə kənarları çıxıntılı klassik elementlər, rombvari, "S"şəkilli, dördləçəkli güllərlə tərtib edilmişdir. Gölün yuxarı, mərkəzi və aşağı hissəsindəki çıxıntılı boşluqlarda kənarları qarmaqlı üçbucaqlı elementlər," S"şəkilli elementlər və stilizə edilmiş keçi təsvirləri vardır. Gölün boşluqlarındakı və medalyonlarındakı kiçikölçülü motivlər, kənarları qarmaqlı üçbucaqlı elementlər və stilizə edilmiş heyvan təsvirləri ara sahənin boşluqlarında da müxtəlif rənglərlə tərtib edilmişdir. Xalçanın ara sahəsini içərisində "zülfələm" motivləri işlənmiş ağ yerlikli ana haşiyə əhatə edir. Bu motivlər tünd yaşıl, tünd qırmızı, sürməyi, sarı, göy, bənövşəyi, kərpiciyə çalan qırmızı, narıncı, şabalıdı rənglərlə tərtib edilmişdir. Ana haşiyə hər iki tərəfdən içərisində sürməyi, tünd qırmızı, mavi və narıncıya çalan qırmızı, bəzi hissələrdə mavi rəngli "mollabaşı" elementləri işlənmiş bala haşiyələrlə əhatə olunmuşdur. Haşiyələr hər iki tərəfdən qırmızı, sarı, daxildəki haşiyə isə xaricdən qırmızı, sarı, daxildən isə qırmızı, ağ rənglərlə tərtib edilmiş kvadratşəkilli motivlərlə işlənmiş mədaxillərlə əhatə olunub. Mədaxillərin kənarları tünd şabalıdı rəngli "su"larla tamamlanır.

H.1279-cu ilə (1862) aid iki xalça da sənətkarlıq baxımından olduqca dəyərlidir. Bu xalçalardan biri **(bax: Kataloq. №34)** Dərələyəz mahalında (Soylan) toxunmuşdur. Ölçüsü 234x115-dir. Xalçanın ara sahəsinin mərkəzində h. 1279 tarixi vardır. Xalçanın ara sahəsi sürməyi, qırmızı, şəkəri, şabalıdı yerlikli rapportlara bölünmüşdür. Şəkəri rəngli rapportlarda yaylaq-qışlaq həyat tərzi keçirən tərəkəmələrin məişətində istifadə edilən məfrəşlərdə təsadüf edilən "sərmə" adlanan elementlər tətbiq edilmişdir.

Bu elementlərə Bakı qrupuna daxil olan xalça məmulatlarında (xurcun, heybə və məfrəşlərdə) da rast gəlinir. "Sərmə" elementlərinin mərkəzində "dörd ünsür", baş və ayaq hissəsində isə sarı, qırmızı rənglərlə işlənmiş gül təsvirləri vardır. Şəkəri yerlikli rapportların ara sahəsindəki boşluqlar "T" hərfinə bənzər və yaxud ərsinəbənzər motivlərlə bəzədilmişdir. Sürməyi, şabalıdı və qırmızı yerlikli rapportları kənarları "içiqıynaq" adlanan elementlərlə tərtiblənmiş böyükölçülü motivlər bəzəyir. Bu motivlərin içərisində kənarları dilikli, on iki guşəli elementlər vardır. Bu motivlərin mərkəzində qırmızı yerlikdə səkkizbucaqlı kiçikölçülü həndəsi elementlər yaşıl rənglərlə, qırmızı yerlikdəki elementlər isə ağ, yaşıl, rənglərlə işlənmişdir. Qırmızı, şabalıdı, sürməyi rapportların ara sahəsi kənar hissədə içərisində ağac təsvirinə və yaxud "əlibelində" insan fiqurlarına bənzər və qarmaqlı motivlər işlənmiş yarımçıq medalyonlarla bəzədilmişdir. Boşluqlar müxtəlif ölçülü klassik və nəbati elementlərlə doldurulmuşdur. Rapportları ayıran ensiz zolaqlarda "S"şəkilli motivlər təsvir edilmişdir. Bu zolaqları "siçandişi"lər əhatə edir. Xalçanın sarı yerlikli haşiyəsi bəzi xalçaçıların "şamdan" adlandırdığı qırmızı və mavi motivlərlə işlənmişdir. Bu motivlərə Quba qrupuna daxil olan xalçalarda və Şirvan qrupuna daxil olan kilimlərdə də təsadüf edilir. Haşiyə qırmızı və ağ rənglərlə işlənmiş mədaxillərlə əhatə olunmuşdur.

Eyni dövrə aid ikinci xalça **(bax: Kataloq. №35)** isə Pəmbək mahalında (Hamamlı) toxunmuşdur. Ölçüsü 228x167-dir. Xalçanın ara sahəsinin yuxarı hissəsində sağ tərəfdə h. 1279 tarixi vardır. Xalçanın kompozisiyası ara sahə və haşiyə hissəsindən ibarətdir. Qırmızı yerlikli ara sahədə böyükölçülü göl yerləşdirilmişdir. Yaşıl yerlikli böyükölçülü gölün içərisində ağ yerlikli, dördbucaqlı həndəsi medalyon tərtib edilmişdir. Medalyonun kənarları qırmızı rəngli "qoşabuynuz" motivləri ilə əhatə olunmuşdur. Medalyonun mərkəzindəki kiçikölçülü, dördbucaqlı elementin içərisində səkkizguşəli ulduz, sağda ağ, yaşıl, solda isə sarı, göy rəngli, kənarları pilləli, kiçikölçülü, klassik elementlər işlənmişdir. Dördbucaqlı elementin kənarları sarı, qırmızı, ağ "siçandişi"lər və göy qırmızı diliklərlə əhatə olunmuşdur. Yaşıl yerlikli gölün boşluqları sağ, sol, baş və ayaq hissələrdə içərisində "qoşabuynuz", qədim yunan motivlərini xatırladan elementlər və pilləli klassik elementlər işlənmiş dördbucaqlı həndəsi elementlərlə doldurulmuşdur. Gölün kənarları içərisində səkkizguşəli ulduz, rombşəkilli və kənarları pilləli klassik elementlər işlənmiş ağ yerlikli haşiyə ilə əhatə olunmuşdur. Gölün yuxarı və aşağı hissəsindəki çıxıntılarda sağ və sol istiqamətə yönəldilmiş qarmaqlı motivlərin arasında ərsinəbənzər element təsvir edilmişdir. Qarmaqlı elementlər "siçandişi"yə bənzər düzülüşlə işlənmişdir. Xalçanın ara sahəsinin küncləriındəki boşluqlar içərisində "qoşabuynuz" motivləri işlənmiş kənarları "mollabaşı" və "siçandişi"lərlə tamamlanmışdır. Eyni motivlər ara sahənin digər hissələrində də təkrarlanır. Ara sahənin boşluqlarında təsvir edilmiş "S"şəkilli və kənarları pilləli kiçikölçülü, klassik elementlər də aydın nəzərə çarpır. Xalçanın göy yerlikli ara haşiyəsi qırmızı, şəkəri, sarı rənglərlə işlənmiş qarmaqlı motivlərlə bəzədilmişdir. Bu elementlər sarı, qırmızı rənglərlə tərtib edilmişdir. Ara haşiyə hər iki tərəfdən içərisində səkkizguşəli ulduzlar və "S" bənzər elementlər təsvir edilmiş sarı yerlikli bala haşiyələrlə əhatə olunmuşdur. Səkkizguşəli ulduzlar və "S" bənzər motivlər qırmızı, sarı, mavi, göy və yaşıl rənglərlə işlənmişdir. Bala

haşiyələrin kənarları ağ, qırmızı "siçandişi"lərlə tamamlanır. Xalçada rəng tərtibatı yüksək peşəkarlıqla həll edilmiş və baxımlı bir görünüş yaradılmışdır.

H.1280-ci ildə (1863) Pəmbək mahalında (Hamamlı) toxunmuş daha bir xalça **(bax: Kataloq. №36)** vardır. Ölçüsü 272x189-dur. Xalçanın ara sahəsinin yuxarı hissəsində, sağ küncündə h. 1280 tarixi vardır. Bu xalça Qazax-Borçalı xalça qrupunun kompozisiyası əsasında toxunmuşdur. Tünd qırmızı yerlikli bu xalçanın ara sahəsinin əsas bəzəyi bir böyükölçülü və iki kiçikölçülü göldən ibarətdir. Mərkəzdəki şəkəri yerlikli səkkizbucaqlı gölün mərkəzində xaçabənzər böyükölçülü element yerləşdirilmişdir. Toxucular və sənətşünaslar bu elementi "dörd ünsür" adlandırırlar. Gölün sağında və solunda boşluqlarda üz-üzə dayanmış qoşa quşu xatırladan qarmaqlı elementlər təsvir edilmişdir. Yuxarı və aşağı hissələrdəki boşluqlarda "buynuz" motivləri, "S" bənzər elementlər, yan və aşağı hissələrdə isə kiçikölçülü güllər təsvir edilmişdir. Gölün kənarları daxildən sürməyi, qırmızı rəngli dilikli, kənardan isə sarı, qırmızı "siçandişi"lər, yuxarı və aşağı hissələrdə yaşıl rəngli "qarmaq"lı, sağ və solda isə "qoşabuynuz" motivləri ilə tamamlanır. Kiçikölçülü göllərin içərisində səkkizguşəli ulduz elementləri vardır. Bu elementlərin içərisində göy, qırmızı rənglərlə işlənmiş üçbucaqlı həndəsi elementlər işlənmişdir. Xalçanın ara sahəsindəki boşluqlar Quba, Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan motivlərlə doldurulmuşdur. Ara sahəni qırmızı yerlikli haşiyə əhatə edir. Haşiyədə yaşıl rəngli dalğavari elementlər tətbiq edilmişdir. Dalğavari elementlərin arasındakı boşluqlar "həmli buta" adlanan motivlərlə işlənmişdir. Butalar ağ, sarı, mavi, qırmızı, qara rənglərlə tərtib edilmişdir. Xalçanın aşağı və yuxarı hissəsindəki haşiyələrdə butalar və dalğavari elementlər kiçildilmiş formada iki cərgədə təsvir edilmişdir. Qırmızı yerlikli haşiyə içərisində ağ, qırmızı, sarı klassik elementlər işlənmiş göy yerlikli mədaxillərlə əhatə olunmuşdur. Mədaxillər hər iki tərəfdən ağ, qırmızı qırıq-qırıq xətlərlə tamamlanır. Xalçanın şəkəri yerlikli haşiyəsi pilləli, kənarları qırmızı, yaşıl, sarı, sürməyi, göy rənglərlə işlənmişdir. Haşiyədəki boşluqlar "şamdan" və yaxud "məşəl" adlandırılan motivlərlə bəzədilmişdir.

H.1280-ci ilə aid iki xalça vardır. Dərələyəz mahalında (Soylan) toxunan xalçanın **(bax: Kataloq. №37)** ölçüsü 158x127-dir. Xalçanın ara sahəsinin yuxarı hissəsində, sağ küncündə h. 1280 tarixi vardır. Xalçanın tünd qırmızı yerlikli ara sahəsində böyükölçülü açıq yaşıl və yuxarı hissəsi mavi rənglə işlənmiş göl yerləşdirilmişdir. Gölün kənarları daxildən tünd qırmızı diliklərlə, xaricdən isə qırmızı dalğavari xətlər işlənmiş göy yerlikli zolaqlarla əhatə olunub. Diliklərin kənarları "siçandişi"lərlə, göy yerlikli zolaqların kənarları isə ağ rəngli "su"larla tamamlanır. Gölün baş və ayaq hissəsi mehrab formalıdır. Azərbaycan xalçalarının ornamentasiyasında geniş yayılmış dalğavari xətlərə tunc və erkən dəmir dövrlərinə aid olan keramika nümunələrində tez-tez rast gəlirik. Xalçanın ara sahəsindəki gölün içərisində yeddibucaqlı medalyon vardır. Medalyonun mərkəzindəki ağ yerlikdə dördbucaqlı element təsvir edilib. Bu elementin yuxarı, aşağı sağ və sol hissəsi "qoşabuynuz" motivləri ilə əhatə olunub. Ağ yerlikli medalyonun kənarları yuxarı və aşağı hissələrdə sürməyi rəngli qarmaqlarla sağda və solda eyni rəngli zolaqlarla işlənmişdir. Medalyonun kənarları xaricdən ağ rəngli "su"larla, yuxarı və aşağı hissələrdə "qoşabuynuz" motivləri ilə tamamlanır. Gölün yuxarı və aşağı hissəsində içərisi dörd hissəyə bölünmüş rombvari medalyonlar vardır. Medalyonların kənarları daxildən yaşıl, ağ "su"larla, xaricdən

isə qırmızı rəngli qarmaqlarla işlənmişdir. Mərkəzdəki medalyonun kənarlarındakı boşluqlarda içərisində "cütbuynuz" motivləri işlənmiş ağ yerlikli, kiçikölçülü göllər təsvir edilmişdir. Medalyonların arasında "S"şəkilli, "qazayağı", dördləçəkli gül təsvirləri vardır. Xalçanın ara sahəsinin boşluqları ağ, sarı, sürməyi, açıq-yaşıl rənglərlə işlənmiş qarmaqlı, "qazayağı", "S"şəkilli, dördləçəkli gül motivləri ilə doldurulmuşdur. Xalçanın göy yerlikli enli haşiyəsində sarı, ağ, mavi, açıq-yaşıl, tünd qırmızı rənglərlə işlənmiş qarmaqlı, "qazayağı" motivləri ilə bəzədilmişdir. Ara haşiyə şabalıdı, ağ rəngli diliklər işlənmiş mədaxillərlə əhatə olunub. Diliklərin kənarları qırmızı "su"larla işlənib. Mədaxillərin kənarları sarı, qırmızı kvadratşəkilli motivlərlə tamamlanır.

Eyni ilə aid digər bir xalça **(bax: Kataloq. №38)** isə Gərnibasar mahalında (Qəmərli) toxunub. Ölçüsü 220x132-dir. Sürməyi yerlikli bu xalçanın ara sahəsində bir-birinin ardınca şaquli istiqamətdə düzülmüş beş bütöv və haşiyə divarlarına bitişik hər tərəfdə beş yarımçıq medalyon təsvir edilmişdir. Qırmızı yerlikli medalyonlarda ağ, göy və ağ yerlikli medalyonlarda qırmızı, sürməyi yerlikli medalyonda isə sarı rəngli nisbətən kiçikölçülü eyni medalyon yerləşdirilmişdir. Medalyonların mərkəzində dörd rombşəkilli element vardır. Yarımçıq medalyonların içərisində cüzi nəzərə çarpan xaçformalı "dörd ünsür" motivləri təsvir edilmişdir. Xalçanın ara sahəsini içərisində dördləçəkli güllər işlənmiş sarı yerlikli haşiyə əhatə edir. Güllər kərpiciyə çalan qırmızı, tünd qırmızı, mavi, göy, sürməyi, çəhrayı, şabalıdı, qara rənglərlə tərtib edilmişdir. Haşiyə daxildən ağ və soğanı rəngli, xaricdən isə mavi və çəhrayı "Z"şəkilli motivlər işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Mədaxillər qara rəngli "su"larla tamamlanır. Xalçanın şəkərli yerlikli ana haşiyəsi Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan klassik elementlərlə bəzədilmişdir. Bu elementlər kərpiciyə çalan qırmızı, göy, yaşıl, açıq və tünd şabalıdı, mavi, sürməyi, sarı, ağ, qara rənglərlə işlənmişdir. Ana haşiyə daxildən yaşıl, yarı qırmızı, yarı soğanı, xaricdən isə yarı mavi, yarı sürməyi və tünd şabalıdı "mollabaşı" motivləri işlənmiş bala haşiyələrlə əhatə olunmuşdur. Daxili və yuxarı hissədəki "mollabaşı"motivlərinin kənarları ağ, aşağı hissədəki haşiyələrdə işlənən "mollabaşı"ların kənarları isə çəhrayı rəngli "su"larla tərtib edilmişdir. Haşiyələr sarı, soğanı rəngli "Z"şəkilli elementlər işlənmiş mədaxillərlə tamamlanır. Mədaxillərin kənarları qara rəngli "su"larla işlənib. Xalça mürəkkəb kompozisiya quruluşuna və bir-birini tamamlayan harmonik rəng qammasına malikdir.

1860-cı illərə aid 11 xalça tədqiqata cəlb edilmişdir. Onlardan üçü h.1282-ci ilə (1865) aiddir. İlk belə xalça **(bax: Kataloq. №39)** İrəvan şəhərində toxunmuşdur. Ölçüsü 126x99-dur. Xalçanın ara sahəsində dördbucaqlı həndəsi medalyonun içərisindəki qırmızı rəngli çərxi-fələk motivinin üzərində h. 1282 tarixi vardır. Göy yerlikli bu xalçanın ara sahəsində qırmızı rəngli, böyükölçülü göl vardır. Gölün içərisində böyükölçülü dördbucaqlı medalyon yerləşdirilmişdir. Medalyonun içərisində çərxi-fələk motivləri vardır. Bu motivlərin rəngi böyükölçülü gölün rəngi ilə eynidir. Çərxi-fələk motivlərinin mərkəzində ağ, şabalıdı rəngli səkkizbucaqlı elementlər vardır. Bu elementlərin içərisi dörd hissəyə bölünmüşdür. Çərxi-fələk motivlərinin arasındakı boşluqlar uzadılmış "S"şəkilli elementlərlə doldurulmuşdur. Bu elementlərə Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrində rast gəlinir. Dördbucaqlı medalyonun kənarları içərisində dalğavari xətlər işlənmiş çəhrayı yerlikli zolaqlar

medalyona xüsusi görünüş gətirir. Medalyon yuxarı və aşağı hissələrdə üçbucaq formalı elementlərlə tamamlanır. Bu həndəsi elementlərin içərisində ağaca bənzər və maili istiqamətdə düzülmüş ağ, mavi, göy rəngli motivlər sadə görünüşlü olmasa da, kompozisiyanı daha baxımlı edir. Ara sahənin boşluqları dördləçəkli, səkkizləçəkli gül-çiçək və səkkizguşəli ulduz motivləri ilə doldurulmuşdur. Xalçanın mavi yerlikli haşiyəsi səkkizbucaqlı həndəsi elementlərlə tərtib edilmişdir. Bu elementlərin içərisi dörd hissəyə bölünmüş və bu hissələrdə nalşəkilli motivlər işlənmişdir. Xalq arasında nalşəkilli motivlər xeyir-bərəkət gətirən, insanları bəd əməllərdən, bədnəzərdən qoruyan rəmz kimi yozulur. Azərbaycanın bir çox bölgələrində indi də qapıların üstündə və darvazaların yuxarı hissələrində nal asıldığının şahidi oluruq. Xalçanın haşiyəsindəki motivlərin rəngi ara sahədəki motivlərdə də təkrarlanır. Haşiyənin kənarları ağ və qırmızı rəngli "siçandişi"lərlə, qırmızı rəngli medalyonun kənarları isə açıq şabalıdı, qara və qırmızı rəngli "su"larla tamamlanır.

İkinci xalça **(bax: Kataloq. №40)** Zəngəzur mahalında (Mehri) toxunmuşdur. Ölçüsü 210x140-dır. Xalçanın ara sahəsinin mərkəzində h. 1282 tarixi vardır. Bu xalça özünəməxsus kompozisiya quruluşuna malikdir. Xalçanın ara sahəsində yuxarı və aşağı hissələri mehrab şəkilli olan tünd qırmızı yerlikli böyükölçülü göl yerləşdirilmişdir. Gölün içərisində bir-birinin ardınca düzülmüş on iki rombvari medalyon təsvir edilmişdir. Sürməyi yerlikli medalyonların kənarları sarı, ağ, qırmızı, şabalıdı "su"larla işlənmişdir. Şabalıdı yerlikli medalyonların kənarları ağ, qırmızı, qara, sarı "su"larla, sarı və göy yerlikli medalyonlar isə qırmızı, şabalıdı ağ rənglərlə işlənmişdir. Mərkəzdəki medalyonların sağında və solunda ağla qara, sarı ilə şabalıdı rənglərlə işlənmiş qoyun təsvirləri vardır. Kərpiciyə çalan qırmızı yerlikli gölün kənarları ağ diliklərlə tərtib edilmişdir. Diliklər qara rəngli "su"larla tamamlanır. Xalçanın mavi yerlikli künclərində kiçikölçülü, sürməyi rəngli, rombvari medalyonlar vardır. Medalyonların kənarları sarı, qırmızı "su"larla işlənib. Xalçanın ara sahəsini sürməyi yerlikli enli haşiyə əhatə edir. Haşiyənin içərisində qırmızı, ağ, sarı, yaşıl rənglərlə işlənmiş rombvari medalyonlar vardır. Haşiyə daxildən ağ, qırmızı; xaricdən isə sarı və qırmızı kvadratşəkilli mədaxillərlə əhatə olunub. Mədaxillərin kənarları tünd şabalıdı "su"larla işlənmişdir. Xalçanın ağ yerlikli enli haşiyəsi üz-üzə dayanmış quşu xatırladan stilizə olunmuş motivlərlə bəzədilmişdir. Bu motivlər sürməyi, mavi rənglərlə, kənarları isə qırmızı "su"larla işlənmişdir. Haşiyə xaricdən "T"şəkilli elementlərlə bəzədilmişdir. "T"şəkilli elementlər tünd qırmızı, sarı və ağ rənglərlə tərtib edilmişdir. Haşiyə xaricdən ağ, qırmızı, daxildən isə sarı, qırmızı kvadratşəkilli mədaxillərlə tamamlanır. Ağ yerlikli haşiyə daxildən yaşıl yerlikli, nisbətən ensiz haşiyə ilə əhatə olunub. Haşiyənin içərisində qırmızı rəngli dalğavari xətlər təsvir edilmişdir. Dalğaların arasında, sağda və solda ağ, sarı, aşağı və aşağıdan bir qədər yuxarıdakı hissələrdə qırmızı, sürməyi ilə qırmızı, sarı ilə qırmızı, yuxarı haşiyədəki sürməyi, sarı, ağ rəngli dördləçəkli güllər xalçaya ritmik bir görünüş gətirir. Haşiyə hər iki tərəfdən qırmızı "su"larla tərtib edilmişdir. Xalçanın sürməyi yerlikli enli haşiyəsi xaricdən "T"şəkilli motivlər işlənmiş şabalıdı yerlikli ensiz haşiyə ilə əhatə olunub. Haşiyənin kənarları daxildən sarı, qırmızı, xaricdən ağ, qırmızı mədaxillərlə tamamlanır. Mədaxillərin kənarları şabalıdı "su"larla işlənmişdir. Xalçanın kənarları qırmızı, sarı, şabalıdı iplərlə hörmə üsulu ilə işlənmişdir.

Eyni ilə aid üçüncü xalça **(bax: Kataloq. №41)** Loru mahalında (Barana)

toxunmuşdur. Ölçüsü 217x137-dir. Bu xalçanın ara sahəsinin yuxarı hissəsində h. 1282 tarixi vardır. Bu xalça sadə kompozisiya quruluşu, orijinal tərtibatı ilə seçilir. Qırmızı yerlikli ara sahənin bəzəyi mərkəzdə orta ölçülü, yuxarı və aşağı hissədə isə kiçikölçülü dördbucaqlı həndəsi motivlərdən və səkkizləçəkli güllərdən ibarətdir. Mərkəzdəki sarı yerlikli medalyonun içərisində qırmızı rəngli, yuxarı hissədəki göy rəngli və aşağı hissədəki yaşıl rəngli medalyonun içərisində isə sarı rəngli "qoşabuynuz" motivləri işlənmişdir. Mərkəzdəki həndəsi medalyon xaricdən ağ, qırmızı "siçandişi"lər, daxildən isə qırmızı, sürməyi rəngli dilikli motivlərlə əhatə olunub. Yuxarı və aşağı hissədəki həndəsi medalyonlar isə qırmızı, ağ, sürməyi rəngli "siçandişi"lərlə əhatə olunub. Ara sahənin aşağı hissəsində künclərdə sürməyi rəngli stilizə olunmuş ulaq təsviri vardır. Ara sahəni yaşıl yerlikli, içərisində sarı, qırmızı, ağ rənglərlə tərtib edilmiş haşiyə əhatə edir. Haşiyə yuxarı və aşağı hissələrdə nisbətən ensiz tərtib edilmişdir. Sağdan və soldan haşiyələrin içərisində qırmızı, sarı, ağ rənglərlə işlənmiş "cütbuynuz" motivləri vardır. Bu motivlərin arasında haşiyənin boşluqlarında sarı, ağ rəngli rombvari elementlər işlənmişdir. Yuxarı və aşağı hissədəki yaşıl yerlikli ensiz haşiyə qırmızı, ağ, sarı rəngli, kənarları pilləli, rombvari elementlərlə bəzədilmişdir. Bu elementlər kiçik ölçüdə işlənmişdir. Yaşıl yerlikli haşiyədə təsvir edilmiş "cütbuynuz" və pilləli motivlər silsiləsi kompozisiyanın ümumi, dinamik əhval-ruhiyyəsini daha da gücləndirir. Xalçanın qırmızı yerlikli haşiyəsi səkkizləçəkli güllərlə bəzədilmişdir. Güllər sürməyi, sarı, yaşıl, ağ rənglərlə tərtib edilmişdir. Ləçəklərin üzərində cüzi nəzərə çarpan kvadratşəkilli elementlər işlənmişdir. Xalçanın ağ yerlikli haşiyəsi bir-birinin ardınca düzülmüş, sürməyi, yaşıl, qırmızı rənglərlə işlənmiş oxabənzər və rombşəkilli elementlərlə bəzədilmişdir. Ağ yerlikli bu haşiyənin içərisində rombvari motivlər tərtib edilmişdir. Haşiyələr qırmızı, sarı, ağ "siçandişi"lərlə əhatə olunmuşdur. "Siçandişi"lər şabalıdı rəngli "su"larla tamamlanır.

H.1283-cü ilə (1866) aid xalçalardan biri **(bax: Kataloq. №42)** Zəngəzur mahalında (Mehri) toxunmuşdur. Ölçüsü 492x108-dir. Xalçanın ara sahəsinin yuxarı hissəsində yuxarıdan ikinci medalyonun alt hissəsində ara sahənin boşluğunda sağda və solda iki hissədə h. 1283 tarixi vardır. Xalçanın sürməyi yerlikli ara sahəsində on bir medalyon yerləşdirilmişdir. Medalyonların içərisində səkkizləçəkli gül və kənarları çıxıntılı dördbucaqlı elementlər təsvir edilmişdir. Səkkizləçəkli güllərin mərkəzində çalağan quşunu xatırladan motivlər vardır. Bu motivlər şabalıdı yerlikdə sarı, göy, qara yerlikdə qırmızı-sarı rənglərlə işlənmişdir. Ləçəklərin üzərində kvadratşəkilli motivlər vardır. Medalyonlar kərpiciyə çalan qırmızı, göy, tünd şabalıdı, narıncı, kərpici, narıncı, açıq şabalıdı, tünd qırmızı və mavi yerliklidir. Kərpiciyə çalan qırmızı, tünd qırmızı, açıq və tünd şabalıdı, çəhrayı, kərpici rəngli medalyonların kənarları göy zolaqlarla əhatə olunmuşdur. Zolaqlar hər iki tərəfdən qırmızı rəngli "su"larla tamamlanır. Göy və mavi rəngli medalyonların kənarları sarı, çəhrayı rəngli medalyonun kənarları mavi, digər tünd şabalıdı medalyonun kənarları isə açıq yaşıl zolaqlarla əhatə olunmuşdur. Medalyonların kənarlarında alovlanan palmettaları xatırladan motivlər var. Bu motivlər göy, narıncı, tünd və açıq şabalıdı, ağ, tünd yaşıl, sürməyi, sarı, kərpici, şəkəri rənglərlə işlənmişdir. Medalyonlar bir-birinə şaquli istiqamətdə işlənmiş ağac gövdəsinə bənzər elementlərlə birləşdirilir. Bu elementlərin içərisində kvadratşəkilli ornamentlər vardır. Medalyonların aşağı və yuxarı hissələrində sağda və solda ağla sürməyi, kərpici ilə ağ rənglərlə işlənmiş

ilana bənzər motivlər ara sahənin kompozisiyasını canlandırır. Xalçanın ara sahəsinin boşluqları kənarları pilləli klassik elementlər, dördləçəkli, səkkizləçəkli gül, buta, "S" bənzər motivlərlə doldurulmuşdur. Xalçanın ağ yerlikli ana haşiyəsi quşa bənzər uzadılmış buta motivləri ilə bəzədilmişdir. Haşiyə elementləri tünd qırmızı, sürməyi, mavi, çəhrayı, tünd və açıq şabalıdı, tünd və açıq yaşıl, narıncı, kərpici rənglərlə tərtib edilmişdir. Ana haşiyəni hər iki tərəfdən içərisində dalğavari budaqlarda üzünü əks istiqamətə çevirmiş qoşa buta təsvirləri olan bala haşiyələr əhatə edir. Daxili haşiyə kərpici yerlikli, xarici haşiyə isə mavi yerliklidir. Mavi yerlikli bala haşiyə daxildən yaşıl, qırmızı, xaricdən isə ağ, qırmızı, kərpici yerlikli haşiyə isə xaricdən mavi, qırmızı kvadratşəkilli naxışlarla, daxildən isə ağ, qırmızı "siçandişi"lərlə işlənmişdir. Xalçanın aşağı hissəsindəki xarici haşiyənin içərisində qırmızı, çəhrayı rəngli dördləçəkli gül və ağ, qırmızı rəngli paxlavaya bənzər naxışlar tərtib edilmişdir. Daxildəki bala haşiyələrdə təsvir edilən butaların kənarları qara rəngli "su"larla, mavi yerlikli bala haşiyədəki butaların kənarları isə qırmızı rəngli "su"larla işlənmişdir. Xalçanın kənarları sağdan və soldan sarı, kərpici, narıncı, qırmızı iplərlə hörmə üsulu ilə işlənmişdir. Xalça mürəkkəb kompozisiya quruluşuna və zəngin koloritə malikdir.

H.1283-cü (1866) ilə aid daha bir xalça **(bax: Kataloq. №43)** Zəngibasar mahalında toxunmuşdur. Ölçüsü 212x139-dur. Xalçanın yuxarı hissəsində tünd şabalıdı yerlikli haşiyənin içərisində h. 1283 tarixi vardır. Xalçanın ara sahəsində üç böyükölçülü dördbucaqlı göl yerləşdirilmişdir. Mərkəzdəki gölün kənarları ağ rəngli "T"şəkilli motivlərlə işlənmişdir. Gölün içərisində göy yerlikli sarı rəngli qarmaqlı element vardır. Bu elementin kənarları qırmızı "su"larla tamamlanır. Qarmaqlı elementin mərkəzində içərisi dörd hissəyə bölünmüş rombvari element vardır. Göl xaricdən yaşıl və tünd qırmızı diliklərlə əhatə olunub. Xalçanın ara sahəsinin aşağı hissəsindəki gölün mərkəzində ağ yerlikdə yaşıl rəngli "cütbuynuz" motivi təsvir edilmişdir. Gölün kənarları daxildən göy rəngli "T"şəkilli motivlərlə, xaricdən isə ağ, yaşıl, tünd qırmızı, göy rəngli diliklərlə işlənmişdir. Xalçanın yuxarı hissəsindəki gölün mərkəzində ağ yerlikdə tünd qırmızı rəngli qarmaqlı element tətbiq edilmişdir. Qarmaqlı elementin mərkəzində sürməyi rəngli dörd hissəyə bölünmüş rombvari element vardır. Gölün kənarları daxildən yaşıl rəngli "T"şəkilli , xaricdən isə ağ, tünd qırmızı, göy, şabalıdı rəngli diliklərlə bəzədilmişdir. Ara sahənin kənarlarında 30 kiçikölçülü, dördbucaqlı göl təsvir edilmişdir. Göllər ağ, tünd qırmızı, sürməyi, yaşıl və göy yerliklidir. Xalçanın yuxarı hissəsindəki ağ və tünd qırmızı yerlikli göllərdə tünd qırmızı, yaşıl və sürməyi rəngli "qoşabuynuz" motivləri vardır. Aşağı hissədəki qırmızı yerlikli göldə ağ, yaşıl yerlikdə şabalıdı, göy yerlikdə qırmızı, ağ yerlikdə isə qırmızı və şabalıdı rəngli "qoşabuynuz" motivləri təsvir edilmişdir. Ara sahənin sağ və solundakı göllərdə yuxarı hissələrdə ağ yerlikdə tünd qırmızı rənglə -qırmızı, yerlikdə isə göy rəngli "qoşabuynuz" motivlər işlənmişdir. Xalçanın sarı yerlikli ana haşiyəsi qarmaqlı "qoşabuynuz", yuxarı və aşağı hissəsi "cütbuynuz" çıxıntılı dördbucaqlı elementlərlə tərtib edilib. Eyni formaya malik olan motivlər xalçanın yuxarı haşiyəsində də ardıcıl olaraq təkrarlanır. Ana haşiyə hər iki tərəfdən diliklərlə işlənmiş bala haşiyələrlə əhatə olunub. Xarici haşiyədəki diliklər sürməyi, qırmızı, daxili haşiyə isə qırmızı və ağ diliklərlə tərtib edilmişdir. Xarici haşiyə ağ, qırmızı rəngli qırıq-qırıq xətlərlə işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Daxili haşiyə xaricdən qırmızı, sürməyi, daxildən isə sarı, qırmızı rəngli qırıq-qırıq xətlərlə

tamamlanır. Mədaxillərin kənarları şabalıdı rəngli “su”larla işlənib. Xalçanın yuxarı hissəsində tünd şabalıdı yerlikli haşiyədə “çəngəl” motivləri vardır. Bu motivlər sarı, qırmızı, yaşıl, sürməyi və ağ rənglə tərtib edilib.

H. 1284-cü (1867) ilə aid iki xalçadan biri **(bax: Kataloq. №44)** Göyçə mahalında (Basarkeçər) toxunmuşdur. Ölçüsü 197x136-dır. Xalçanın ara sahəsinin yuxarı hissəsində sağda h. 1284 tarixi vardır. Xalçanın kərpiciyə çalan qırmızı yerlikli ara sahəsində göy rəngli böyükölçülü medalyon tətbiq edilmişdir. Gölün kənarları açıq yaşıl yerlik içərisində qırmızı ziq-zaqşəkilli dalğavari xətlər işlənmiş zolaqlarla əhatə olunmuşdur. Gölün içərisində mərkəzdə yaşıl rəngli qarmaqlı motivlər yerləşdirilmiş qırmızı yerlikli rombvari medalyonlar vardır. Medalyonların kənarları daxildən yaşıl, qırmızı rəngli qırıq-qırıq xətlərlə, xaricdən isə ağ rəngli qarmaqlı elementlərlə əhatə olunmuşdur. Medalyonların yuxarı və aşağı hissələrində qırmızı, narıncı, yaşıl, ağ, şabalıdı rənglərlə işlənmiş, nisbətən kiçikölçülü qarmaqlı medalyonlar təsvir edilmişdir. Gölün içərisindəki boşluqlar sarı, qırmızı, yaşıl, ağ rənglərlə işlənmiş rombvari, “S”şəkilli motivlər və gül-çiçək təsvirləri ilə tərtib edilmişdir. Bu elementlər gölün sağında və solunda simmetrik formada təkrar olunaraq ümumi kompozisiyanı zənginləşdirir. Medalyonun aşağı hissəsindəki çıxıntıların sağında və solunda stilizə edilmiş it təsvirləri verilmişdir. Xalçanın qırmızı yerlikli ara sahəsinin sağında və solunda yuxarı və aşağı küncləri ağaca bənzər qarmaqlı və baş hissəsi spiralşəkilli motivlərlə bəzədilmişdir. Gölün çıxıntıları arasında sağda və solda ağ rəngli “cütbuynuz” elementləri işlənmişdir. Ara sahənin boşluqları “S”şəkilli dördləçəkli xaçabənzər gül və kiçikölçülü çiçəklərlə doldurulmuşdur. Xalçanın ağ yerlikli haşiyəsi Muğan xalçaları üçün səciyyəvi olan, bəzən Şirvan qrupuna daxil olan “Salyan”, “Çuxanlı” və Qazax-Borçalı qrupuna daxil olan xalçalarda təsvir edilən elementlərlə bəzədilmişdir. Bu elementlər tünd qırmızı, sürməyi, açıq-yaşıl, ağ, şabalıdı, göy, narıncı rənglərlə işlənmişdir. Haşiyənin kənarları sarı, qırmızı rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Haşiyə xaricdən açıq-yaşıl, qırmızı, göy, daxildən isə sürməyi rəngli diliklərlə əhatə olunmuşdur. Xalçanın ara sahəsinə doğru istiqamətlənən sürməyi rəngli diliklər ümumi kompozisiyanın dekorativliyini daha artıq nəzərə çarpdırır və xalçanın kompozisiyasına lakoniklik və ciddilik verir. Azərbaycanın Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan rənglər bu xalçada ənənəvi qanunauyğunluqla tərtib edilmişdir.

Həmin ilə aid ikinci xalça **(bax: Kataloq. №45)** Loru mahalında (Voronsovka) toxunub. Ölçüsü 251x147-dir. Xalça Qarabağın “Bəhmənli” kompozisiyası əsasında toxunmuşdur. Xalçanın mərkəzində göy rəngli böyükölçülü elementin işərisində h. 1284 tarixi vardır. Bu xalça Azərbaycan xalçalarına məxsus olan ənənəvi xüsusiyyətləri özündə yaşadır.Xalçanın ara sahəsinin əsas bəzəyi tünd şabalıdı yerlikdə yerləşdirilmiş iki şəkəri yerlikli böyükölçülü medalyondan ibarətdir. Medalyonun içərisində səkkizbucaqlı qırmızı rəngli həndəsi elementin içərisində sürməyi rəngli altıbucaqlı həndəsi motiv təsvir edilmişdir. Bu həndəsi motivlərin mərkəzində “səkkizbuynuz” motivləri işlənmişdir. Altıbucaqlı elementlərin kənarlarında sarı, sürməyi rəngli qarmaqlı motivlər vardır. Altıbucaqlı elementin kənarları şəkəri, səkkizbucaqlı elementin kənarları isə sürməyi rəngli “su”larla əhatə olunmuşdur. Şəkəri yerlikli böyük medalyonların boşluqları sağdan və soldan Qarabağın “Qasımuşağı” və “Çələbi” xalçalarında təsadüf edilən qırmızı rəngli,

kənarları qarmaqlı ağac budaqlarına bənzər motivlərlə bəzədilmişdir. Ara sahənin boşluqlarında, yuxarı və aşağı hissədəki medalyonların sağında və solunda qarmaqlı, rombvari, gözqaytarıcı, kənarları pilləli klassik elementlər təsvir edilmişdir. Şəkəri yerlikli medalyonların yuxarı və aşağı hissəsində ara sahənin boşluqlarında sağdan və soldan böyükölçülü elementlər tərtib edilmişdir. Bu elementlərin içərisində ağacabənzər, kənarları diliklərlə tərtiblənmiş rombşəkilli elementlər işlənmişdir. Bu elementlərin yuxarı və aşağı hissəsindəki boşluqlar "ağacabənzər", oxşəkilli və digər motivlərlə bəzədilmişdir. Xalçanın şəkəri yerlikli haşiyəsində tünd və açıq göy, tünd şabalıdı, sürməyi rəngli səkkizguşəli ulduzlar tərtib edilmişdir. Haşiyədəki boşluqlar kiçikölçülü klassik elementlərlə doldurulmuşdur. Ulduzlar bir-birinə qırmızı xətlərlə işlənmiş həndəsi formalı motivlərlə birləşdirilir. Haşiyə hər iki tərəfdən qırmızı və şabalıdı rəngli dilikli elementlərlə bəzədilmiş mədaxillərlə əhatə olunmuşdur. Diliklərin kənarları çəhrayı "su"larla tamamlanır. Daxildəki mədaxil soldan şəkəri, qırmızı, sağdan isə sarı, qırmızı, xarici mədaxillər hər iki tərəfdən sarı, qırmızı rəngli qırıq-qırıq xətlərlə əhatə olunmuşdur. Baş və ayaq hissədəki mədaxillər isə daxildən şəkəri, qırmızı, xaricdən isə sarı qırmızı "Z"şəkilli motivlər işlənmiş xətlərlə tamamlanır.

XIX əsrin 60-cı illərinin ortaları da iki xalça ilə təmsil olunmuşdur. Həmin xalçalardan biri **(bax: Kataloq. №46)** İrəvan şəhərində h. 1286-cı ildə (1869) toxunub. Xalçanın ölçüsü 192x157-dir. Xalçanın yuxarı hissəsində h. 1286 tarixi vardır. Zoğalı yerlikli bu xalçanın əsas bəzəyi ara sahədə xalça boyu bir-birinə bitişik formada yerləşdirilmiş böyükölçülü, rombşəkilli göllərdən ibarətdir. Göllərin mərkəzi həndəsi motivlərlə bəzədilmişdir. Mərkəzi gölün ara sahəsi mavi, baş və ayaq hissədəki göllərin ara sahəsi zoğalı rənglidir. Bu zoğalı rəngli sahələr yaşıl rəngli qarmaqlı motivlər, mərkəzdəki gölün ara sahəsində isə qarmaqlı elementlər mavi rənglərlə işlənmişdir. Ara sahənin yuxarı hissəsindəki gölün sağında və solunda insan, maral təsvirləri vardır. Gölün nisbətən aşağı hissəsində iki maral balasının təsviri verilib. Ara sahənin aşağı hissəsində sağda üzü haşiyə divarına istiqamətlənən stilizə olunmuş dördayaqlı fantastik quş təsviri vardır. Mərkəzdəki gölün içərisində qırmızı, mavi rənglərlə işlənmiş qarmaqlı motivlər baş və ayaq hissədəki göllərdə qırmızı və yaşıl rənglərlə təkrarlanır. Göllərin kənarlarında ağ yerlikdə latın əlifbasının "S" hərfinə bənzər yaşıl rəngli elementlər işlənmişdir. Bu elementlərin kənarları qırmızı "su"larla əhatə olunmuşdur. Ara sahənin kənarlarında qədim yunan memarlıq bəzəklərini xatırladan motivlər işlənmişdir. Ağ, sarı, yaşıl, mavi rənglərlə işlənmiş bu motivlərə Azərbaycanın Qarabağ, Qazax-Borçalı və Quba xalçalarında da təsadüf edilir. Xalçanın ara sahəsindəki boşluqlar "çəngəl", "dörd ünsür", "S"şəkilli bənzər, "qıvrım", "oraq", "tac" və s. motivlərlə doldurulmuşdur. Ağ yerlikli ana haşiyə "qoşabuynuz" və ara haşiyələr üçün səciyyəvi olan digər motivlərlə bəzədilmişdir. Bu elementlərə Qazax-Borçalı qrupuna aid "Qaraçöp" xalçalarında da rast gəlinir. Ana haşiyə xaricdən yaşıl, daxildən isə mavi rəngli "mollabaşı" elementləri ilə işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Mədaxillər zoğalı və sarı rəngli "siçandişi"lərlə tamamlanır. Həndəsi və klassik elementli kompozisiya quruluşuna malik olan bu xalça İrəvan qrupuna daxil olan digər xalçalardan özünəməxsusluğu ilə seçilir.

Eyni dövrə aid digər bir xalça **(bax: Kataloq. №47)** Dərələyəz mahalında (Keşişkənd) toxunub. Ölçüsü 263x134-dür. Bu xalçanın yuxarı tərəfində mavi yerlikli gölün

içərisində h. 1286 tarixi vardır. Xalça Qarabağın "Malıbəyli" kompozisiyası əsasında toxunmuşdur. Bu kompozisiyalı xalçalar Qarabağın müxtəlif xalçaçılıq mərkəzlərində toxunmuşdur. Xalçanın adı Şuşa şəhərinin 15 km-də yerləşən Malıbəyli kəndinin adı ilə bağlıdır. Bu kəndin əhalisi heyvandarlıqla, sənətkarlıqla, əsasən də xalça toxumaqla məşğul olurdu. Sonralar "Malıbəyli" xalçaları Qarabağın digər bölgələrində və Qərbi Azərbaycanın xalçaçılıq məntəqələrində də toxunmuşdur. İrəvan qrupuna aid olan bu xalça Qarabağın xalçaçılıq məntəqələrində toxunan xalçalardan əriş və arğaclarının rənglərinə görə seçilir. Bu mahalda toxunan "Malıbəyli" xalçalarının əriş və arğacı qara rəngli olur. Qırmızı yerlikli bu xalçanın əsas bəzəyi ara sahədə yerləşdirilmiş üç böyükölçülü, orijinal formalı göldən ibarətdir. Göllərin mərkəzində dördbucaqlı element yerləşdirilmişdir. Bu elementlərin içərisində "çərxi-fələk" motivi təsvir edilimişdir. Çarhovuzun içərisində isə üz-üzə başı əks istiqamətə yönəldilmiş ördək təsvirləri vardır. Ördəklər suyun rəmzi kimi yozulan "S"şəkilli motivlərlə əhatə olunmuşdur. Dördbucaqlı elementləri əhatə edən səkkiz ilana bənzər motiv toxucular arasında "bulud" da adlandırılır. "Bulud" elementlərinə orta əsr Çin-uyğur təsviri sənətində, xüsusən miniatür əsərlərində və dulusçuluq məmulatlarında təsadüf edilir. Göllərin içərisindəki boşluqlar müxtəlif nəbati, həndəsi və klassik elementlərlə doldurulmuşdur. Göllərin kənarları xaricdən yuxarı və aşağı hissələrdə qoruyucu elementlər sayılan qarmaqlarla əhatə olunmuşdur. Qarmaqların rəngi bir aşırı dəyişdirilərək baxımlı bir görünüş yaradılmışdır. Göllərin sağında və solunda zəncirvari formada düzülmüş "dörd ünsür" motivləri işlənmişdir. Xalçanın ağ yerlikli enli haşiyəsi tünd şabalıdı, yaşıl, mavi, sürməyi, sarı rənglərlə işlənmiş "zülfələm" adlanan elementlərlə bəzədilmişdir. Bu elementlərə Quba, Şirvan qrupuna daxil olan xalçalarda da təsadüf edilir. Bəzi toxucular bu elementləri "saçlı haşiyə" adlandırır. Haşiyə hər iki tərəfdən mavi, qırmızı, sarı rəngli qırıq-qırıq xətlərlə işlənmiş mədaxillərlə əhatə olunmuşdur.

H.1287-ci ilə (1870) aid yeganə xalça **(bax: Kataloq. №48)** Zəngibasar mahalında toxunmuşdur. Ölçüsü 271x140-dır. Xalçanın ara sahəsinin yuxarı hissəsində h. 1287 tarixi vardır. Xalçanın ara sahəsi göy və mavi rənglidir. Rənglər mərkəz hissədə mavi, aşağı hissədə göy, yuxarı hissədə isə yarı mavi və yarı göy rənglərlə tərtib edilmişdir. Ara sahənin əsas bəzəyi simmetrik formada düzülmüş on dörd bütöv və səkkiz yarımçıq medalyondan ibarətdir. Medalyonlar tünd qırmızı, ağ, sarı, yaşıl, mor və qara yerlikdə tərtib edilmişdir. Tünd qırmızı yerlikli medalyonlarda mor, ağ, yaşıl; qara rəngli ağ yerlikli medalyonlarda qırmızı, qara, yaşıl; sarı yerlikli medalyonlarda yaşıl, qırmızı; yaşıl yerlikli medalyonlarda sarı, şabalıdı; qara rəngli medalyonda isə ağ rəngli klassik elementlər təsvir edilmişdir. Medalyonların kənarları qarmaqlarla əhatə olunmuş, mərkəzində isə səkkizguşəli ulduz motivləri işlənmişdir. Xalçanın ara sahəsinin boşluqlarında səkkizguşəli ulduz, kiçikölçülü səkkizbucaqlı, "S"şəkilli, rombvari, sağ və soldan "T"şəkilli kənarları pilləli elementlər təsvir edilmişdir. Ara sahənin sağ və solunda stilizə olunmuş quş təsvirləri vardır. Xalçanın tünd qırmızı yerlikli ana haşiyəsi kənarları qarmaqlı, klassik elementlərlə bəzədilmişdir. Bu elementlərin mərkəzində içərisi dörd hissəyə bölünmüş rombvari elementlər vardır. Klassik elementlər sarı, tünd-yaşıl, ağ, sürməyi, mavi, açıq şabalıdı rənglərlə tərtib edilmişdir. Ana haşiyəni hər iki tərəfdən dördbucaqlı elementlərlə işlənmiş bala haşiyələr əhatə edir. Dördbucaqlı elementlər tünd-qırmızı, mavi, sürməyi, tünd-yaşıl,

sarı, açıq-şabalıdı, ağ, göy rənglərlə tərtib edilmişdir. Dördbucaqlı elementlərin içərisi dörd hissəyə bölünmüşdür. Bala haşiyələrin və kiçikölçülü dördbucaqlı elementlərin kənarları ağ "su"larla işlənmişdir. Haşiyələr hər iki tərəfdən içərisində sarı, qırmızı kiçikölçülü kvadratşəkilli motivlər işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Mədaxillərin kənarları qara rəngli "su"larla işlənmişdir. Xalçanın ara sahəsindəki elementlərin rəngləri haşiyə hissəsində olan motivlərdə də təkrarlanır. Müxtəlif rəng çalarlarının bir-biri ilə əvəzlənməsi nəticəsində çox baxımlı bir rəng düzümü yaradılmışdır.

H.1288-ci ilə (1871) aid olan xalça **(bax: Kataloq. №49)** isə Vedibasar mahalında (Vedi) toxunub. Ölçüsü 320x150-dir. Xalça Qazax-Borçalı kompozisiyası əsasında toxunub. Xalçanın bədii quruluşu ara sahə və haşiyə hissəsindən ibarətdir. Ara sahəsinin yuxarı sağ küncündəki yaşıl yerlikdə h. 1288 tarixi vardır. Bu xalça Qərbi Azərbaycan xalçalarına xas olan bədii xüsusiyyətləri özündə əks etdirir. Yaşıl yerlikli bu xalçanın ara sahəsində bir-birinin ardınca düzülmüş dörd bütöv və iki yarımçıq göl təsvir edilmişdir. Göllər rombşəkilli olub, kənarları qarmaqlarla əhatə olunmuşdur. Göllərin içərisində nisbətən kiçikölçülü, rombvari medalyon yerləşdirilmişdir. Medalyonlar sürməyi, qırmızı, ağ yerlikli göllərdə açıq şabalıdı, zoğalı yerlikli göldə yaşıl, sürməyi yerlikdə isə yaşıl və ağ rənglərlə tərtib edilmişdir. Medalyonların dörd tərəfindən gölün künclərinə doğru istiqamətlənən ağaca bənzər motivlər xalçanın ümumi kompozisiyasını zənginləşdirir. Ara sahəsinin boşluqlarında kiçikölçülü qırmızı, sürməyi, ağ, yaşıl rənglərlə işlənmiş kənarları qarmaqlı səkkiz medalyon vardır. Aşağı hissədə isə tünd qırmızı yerlikli iki rombvari medalyon təsvir edilmişdir. Xalçanın tünd qırmızı yerlikli ana haşiyəsi spiralşəkilli düzülüşlə işlənmiş budaqlar və güllərlə bəzədilmişdir. Budaqlar sürməyi, güllər ağ, yarpaqlar isə yaşıl rənglərlə tərtib edilmişdir. Budaqların kənarları açıq şabalıdı, yarpaqlar və güllər isə tünd şabalıdı "su"larla tamamlanır. Ana haşiyə hər iki tərəfdən dalğavari budaqlar üzərində üçbucaqlı formaya malik olan yaşıl, tünd qırmızı, sürməyi, mavi rəngli bala haşiyələrlə əhatə olunmuşdur. Motivlərin kənarları tünd şabalıdı rəngli "su"larla tamamlanır. Bala haşiyələri içərisi sarı, tünd qırmızı, qırıq-qırıq xətlərlə bəzədilmiş mədaxillər əhatə edir. Xalçanın sürməyi yerlikli haşiyələri ilə "çərxi-fələk" motivləri işlənmiş kiçikölçülü, səkkizbucaqlı medalyonlarla bəzədilmişdir. Haşiyələr sarı, qırmızı rəngli qırıq-qırıq xətlərlə tərtib edilmiş mədaxillərlə əhatə olunub.

1870-ci illər 4 xalça ilə təmsil olunmuşdur. Həmin xalçalardan ikisi 1871-ci ilə, biri 1878-ci, biri isə 1879-cu ilə aiddir.

H.1292-ci ilə (1875) aid olan xalça **(bax: Kataloq. №53)** Şörəyel mahalında (Gümrü şəhəri) toxunmuşdur. Ölçüsü 208x169-dur. Xalçanın ara sahəsinin yuxarı hissəsində sol tərəfdə h. 1292 tarixi vardır. Qazax-Borçalı bölgəsində yaşayan toxucular bu kompozisiyanı "Borçalı" adlandırırlar. "Borçalı" adlanan xalçalar müxtəlif variantlarda toxunmuşdur. Bu xalçanın kompozisiyası ara sahə və haşiyə hissədən ibarətdir. Ara sahənin əsas bəzəyini bir böyükölçülü və iki nisbətən kiçikölçülü səkkizbucaqlı göllər təşkil edir. Mərkəzdəki şəkəri yerlikli gölün içərisində "dörd ünsür" motivi yerləşdirilmişdir. Bu motivin yuxarıya və aşağıya doğru istiqamətlənən hissəsində qarmaqlı elementlər təsvir edilmişdir. Gölün içərisindəki boşluqlar kiçikölçülü qırmızı və sarı rənglərlə işlənmiş həndəsi elementlərlə doldurulmuşdur. Toxucular arasında "xal" adlandırılan bu motivlər gölün görünüşünü tamamlayır.

Gölün kənarları daxildən zoğalı rəngli dilikli, xaricdən isə yaşıl rəngli qarmaqlı elementlərlə əhatə olunmuşdur. Gölü əhatə edən qarmaqlı motivlər xoşbəxtliyi kin-küdurətdən, bəd əməllərdən qoruyan rəmz kimi yozulur. Ara sahənin yuxarı və aşağı hissəsindəki səkkizbucaqlı, nisbətən kiçikölçülü gölün içərisində şəkəri rəngli səkkizguşəli ulduz tərtib edilmişdir. Ulduzun içərisində sürməyi, zoğalı, sarı rənglərlə işlənmiş "dörd ünsür" elementi yerləşdirilmişdir. Göl daxildən və xaricdən qarmaqlarla bəzədilmişdir. Qarmaqlı çərçivələrin arasında şəkəri rəngli qırıq-qırıq xətlər təsvir edilmişdir. Xalçanın ara sahəsinin boşluqları Quba xalçaları üçün xarakterik olan elementlərlə və künclərdə kənarları qarmaqlı dördbucaqlı həndəsi elementlərlə tərtib olunmuşdur. Xalçanın şəkəri yerlikli haşiyəsi kənarları pilləli üçbucaqlı motivlərlə bəzədilmişdir. Bu motivlərin arasındakı boşluqlar ara haşiyə üçün xarakterik olan motivlərlə işlənmişdir. Ara haşiyəni sürməyi və mavi rəngli bala haşiyələr əhatə edir. Bala haşiyələrdə şəkəri və zoğalı rəngli güllər işlənmişdir. Ara haşiyə şəkəri rəngli "su"larla, bala haşiyələr isə qırıq-qırıq xətlərlə əhatə olunmuşdur. Xalçada rəng ahəngdarlığı yüksək peşəkarlıqla həll edilmişdir. Kontrast rənglərin qanunauyğunluqla uzlaşmasından çox baxımlı bir rəng palitrası yaradılmışdır.

Həmin ilə aid digər xalça **(bax: Kataloq. №56)** Pəmbək mahalında (Hamamlı) toxunmuşdur. Ölçüsü 222x177-dir. Xalçanın ara sahəsinin yuxarı hissəsində sağda h. 1292 tarixi vardır. Bu xalça Qazax-Borçalı kompozisiyası əsasında toxunmuşdur. Qırmızı yerlikli bu xalçanın ara sahəsində iki səkkizbucaqlı və bir kənarları pilləli böyükölçülü medalyon yerləşdirilmişdir. Mərkəzdəki sürməyi yerlikli medalyonun içərisində mərkəzdə bir rombvari element, kənarlarında isə səkkiz kənarları pilləli kiçikölçülü klassik elementlər təsvir edilmişdir. Medalyonun boşluqları altı kiçikölçülü dördbucaqlı və bir səkkizbucaqlı motivlə doldurulmuşdur. Pilləli motivlərin içərisində təsvir edilən elementlərə Göygöl şəhəri ətrafında qazıntılar aparılmış kurqanlarda tapılmış saxsı qablarda, medalyonların sürmə lövhələrində təsadüf edilir. Tədqiqatçılar belə hesab edirlər ki, bu elementlər erkən əkinçilik dövrünə aid kult rəmzidir. Ara sahənin yuxarı və aşağı hissəsindəki şəkəri yerlikli medalyonlarda Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan elementlər işlənmişdir. Medalyonların boşluqları səkkizguşəli ulduz, bəzi toxucuların "qazayağı" adlandırdığı elementlərlə doldurulmuşdur. Xalçanın ara sahəsində mərkəzdəki medalyonun yuxarı və aşağı hissələrində sarı yerlikli kənarları mavi qarmaqlarla işlənmiş səkkizbucaqlı kiçikölçülü medalyonlar tərtib edilmişdir. Medalyonların içərisində sürməyi, ağ, qırmızı, mavi rənglərlə səkkizguşəli ulduzlar işlənmişdir. Xalçanın ara sahəsinin aşağı və yuxarı künclərində yaşıl yerlik içərisində ulduzlar təsvir edilmiş medalyonlar vardır. Bu medalyonların kənarları ağ, qırmızı "Z"şəkilli bənzər motivlərlə tamamlanır. Xalçanın ara sahəsindəki boşluqlar kiçikölçülü, dördləçəkli güllər, rombşəkilli, qarmaqlı, "qoşabuynuz", səkkizbucaqlı, dalğavari və digər motivlərlə doldurulmuşdur. Xalçanın mavi yerlikli ara haşiyəsi şabalıdı, sarı, qırmızı, ağ, yaşıl rəngli dilikli və "şamdan" motivləri ilə bəzədilmişdir. Ara haşiyəni qırmızı, ağ "mollabaşı" motivlərilə işlənmiş bala haşiyələr əhatə edir. Kənar haşiyə sarı, qırmızı, daxili haşiyə isə xaricdən sarı, qırmızı, daxildən isə yaşıl qırmızı qırıq-qırıq xətlərlə tamamlanır. Qırıq-qırıq xətlərin kənarları şabalıdı "su" larla işlənmişdir.

H.1299-cu ilə (1881) aid olan bir xalça **(bax: Kataloq. №62)** da Pəmbək mahalında (Hamamlı) toxunmuşdur. Ölçüsü 376x191-dir. Xalçanın ara sahəsində mərkəzdəki

gölün alt hissəsində h. 1299 tarixi vardır. Tünd qırmızı yerlikli bu xalçanın ara sahəsində üç böyükölçülü, altıbucaqlı göl yerləşdirilmişdir. Göllərin içərisində qırmızı yerlikli, dördbucaqlı medalyon vardır. Medalyonların kənarları sarı rəngli "su"larla əhatə olunmuş, sağdan və soldan qarmaqlı motivlərlə işlənmişdir. Medalyonların yuxarı və aşağı hissəsindəki üz-üzə tərtib edilmiş qarmaqlardan ağac forması alınmışdır. Türk xalqlarında ağaca, bitkiyə inam çox güclü olmuşdur. Bu da onların mifik görüşləri ilə əlaqədar olmuşdur. Onlar ağaca həmişə yaradıcı qüvvə kimi baxmışlar. Bir çox oğuz əfsanələrində insanın hətta ağacdan əmələ gəlməsi də qeyd olunur. Sürməyi yerlikli gölün kənarları yaşıl rəngli "su"larla əhatə olunur, yuxarı və aşağı hissələrdə buynuz motivləri ilə tamamlanır. Gölün kənarlarında sağdan və soldan eyni rəngli qarmaqlı elementlər işlənmişdir. Mərkəzdəki sürməyi yerlikli gölün yuxarı hissələrində ara sahənin boşluqlarında rombvari medalyonlar təsvir edilmişdir. Medalyonların içərisində qara yerlikdə səkkizguşəli ulduz, yuxarı və aşağı künclərdə isə kiçikölçülü rombşəkilli motivlər vardır. Ulduzların yuxarı qoşa guşələri üzünü əks istiqamətə çevirmiş quş başlarını xatırladır. Medalyonların kənarları qarmaqlarla əhatə olunmuşdur. Xalçanın ara sahəsinin yuxarı hissəsindəki boşluqlarda sağda və solda içərisində ulduzabənzər motivlər işlənmiş kənarları qarmaqlı, nisbətən böyükölçülü iki qara yerlikli, rombvari medalyon təsvir edilmişdir. Medalyonların içərisində üfüqi istiqamətdə içərisində qırmızı, ağ qırıq-qırıq xətlər işlənmiş dördbucaqlı həndəsi element vardır. Xalçanın ara sahəsinin aşağı künclərində dördbucaqlı elementlər vardır. Ağ yerlikli bu elementlərin içərisində klassik motivlər işlənmiş, kənarları isə dalğavari xətlərlə işlənmiş zolaqlarla əhatə olunmuşdur. Ara sahənin boşluqlarında maral, keçi və quş təsvirləri vardır. Azərbaycan dekorativ-tətbiqi sənətində zoomorf və əfsanəvi obrazlar qədim dövrlərdən işlənərək bəzədikləri əşyalara yüksək bədii məna vermişlər. Bu obrazlara quşlar, heyvanlar, balıqlar və əfsanəvi, mifik surətlər aid edilir. Quş təsvirləri sənət nümunələri üzərində dəfələrlə rast gəlinən motiv kimi bədii ideya xüsusiyyətləri ilə əlaqədə inkişaf etmişdir. Bu surətlər əsrlər boyu Azərbaycan incəsənətinin müxtəlif növlərində - metal məmulatlarında, saxsı qablarda, parçada dönə-dönə işlənmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətində, o cümlədən xalçaların tərtibatında rast gəlinən maral, keçi və digər heyvanların təsvirlərinə Qobustanın qayaüstü rəsmlərində də təsadüf olunur. Xalçanın ağ yerlikli haşiyəsi Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan ana haşiyə motivləri ilə tərtib edilmişdir. Eyni motivlər qırmızı yerlikli haşiyədə də yaşıl rənglə işlənmişdir. Haşiyələr göy rəngli "su"lar və ağ rəngli "siçandişi"lərlə əhatə olunmuşdur.

XIX əsrin 70-ci illərinə aid son xalça **(bax: Kataloq. №65)** h.1300-cü ilə (1882) aiddir. Ölçüsü 275x187 olan xalça Ağbaba mahalında toxunmuşdur. Xalçanın ara sahəsinin yuxarı hissəsində solda h. 1300 tarixi vardır. Bu xalça Qazax-Borçalı kompozisiyası əsasında toxunmuşdur. Bu tipli xalçalar Qazax rayonunun Dağkəsəmən, Qıraqkəsəmənli, Ağköynək, Tatlı, Qarapapaqlı, o cümlədən Qərbi Azərbaycanın bir sıra xalçaçılıq məntəqələrində toxunmuşdur. Bəzi toxucular bu xalçanı "Karvansaray" adlandırırlar. Xalçanın qırmızı yerlikli ara sahəsində böyükölçülü, uzunsov formalı baş və ayaq hissəsi mehrab şəkilli göl yerləşdirilmişdir. Mehrab şəkilli üçbucaqlı sahədə baş və ayaq hissədə yarımçıq, qoşa rombvari və ağaca bənzər element təsvir edilmişdir. Gölün içərisində dörd qırmızı yerlikli medalyon və üç rombvari element təsvir edilmişdir. Qırmızı yerlikli medalyonlarda xaçformalı motivlər işlənmişdir.

Gölün boşluqları nəbati, dördbucaqlı, qoşa oxvari, "S"şəkilli, kiçikölçülü, cüzi nəzərə çarpan klassik və butayabənzər elementlərlə doldurulmuşdur. Gölün yuxarı hissəsində ağaca bənzər və kiçikölçülü romb, sağda və solda maili istiqamətdə kəsik-kəsik xətlər tərtib edilmişdir. Gölün kənarları narıncı yerlikli mədaxillə əhatə olunmuşdur. Mədaxillərin içərisində qırmızı, mavi, yaşıl, sürməyi, göy rəngli çıxıntılı "su"lar işlənmişdir. Xalçanın küncləri və kənar hissələri sürməyi yerliklə işlənmişdir. Ara sahədəki gölün içərisində təsvir edilmiş həndəsi, klassik, nəbati elementlər eyni üslubla təkrarlanaraq ümumi kompozisiyanı tamamlayır. Xalçada təsvir edilən ağac motivləri özünəməxsusluğu ilə diqqəti cəlb edir. Xalçanın ara sahəsinin kənarlarından mərkəzə doğru istiqamətləndirilən mavi, şabalıdı, şəkəri rənglərlə işlənmiş sağda və solda çıxıntılı, baş və ayaq hissədə maili istiqamətdə tərtib edilmiş dilikli elementlər kompozisiyaya orijinal görünüş gətirir. Ara sahənin künclərindəki boşluqlar sağ və sol hissələrdə "ağac", dördbucaqlı, rombvari, torvari, "S"şəkilli və kənarları dilikli yarpaq motivləri ilə bəzədilmişdir. Dördbucaqlı elementlərin kənarlarındakı "siçandişi"lər çox aydın nəzərə çarpır. Boşluqlar dördləçəkli, altıləçəkli, səkkizləçəkli elementlərlə doldurulmuşdur. Narıncı yerlikli ara haşiyə dördləçəkli güllər, kənarları pilləli üçbucaqlı və "qayçıbalıq" motivlərlə bəzədilmişdir. Bu motivlər ağ, qırmızı, göy, şabalıdı rənglərlə işlənmişdir. Ara haşiyəni hər iki tərəfdən göy yerlikli haşiyələr əhatə edir. Göy yerlikli haşiyələrdə oxşəkilli, butaya bənzər və kiçikölçülü ağ rəngli cüzi nəzərə çarpan dördbucaqlı motivlər işlənmişdir. Bu motivlər ağ, yaşıl, qırmızı, göy rəngli, mavi rənglərlə tərtib edilmişdir. Haşiyələr qırmızı, yaşıl, şabalıdı, göy rəngli "su"larla və ağ rəngli qırıq-qırıq xətlərlə tamamlanır.

1880-ci illərə aid 5 xalça tədqiqata cəlb edilmişdir. H.1306-cı ildə (1888) Əştərək mahalında toxunan xalçanın **(bax: Kataloq. №66)** ölçüsü 233x162-dir. Xalçanın ara sahəsinin yuxarı hissəsində mavi yerlikdə h. 1306 tarixi vardır. Mavi yerlikli bu xalçanın ara sahəsində bir böyükölçülü göl işlənmişdir. Qırmızı yerlikli gölün içərisində iki səkkizləçəkli və bir rombvari medalyon yerləşdirilmişdir. Səkkizləçəkli medalyonların içərisində yaşıl, ağ, sarı və mavi rənglərlə tərtib edilmiş motivlər vardır. Medalyonların kənarları sarı rəngli "su"larla işlənmişdir. Mərkəzdəki medalyonun içərisində doqquz kiçikölçülü, rombvari medalyon yerləşdirilmişdir. Bu rombvari medalyonların içərisində mərkəzdə mavi, sarı, qırmızı rənglərlə, kənardakı medalyonlarda isə qırmızı, sarı, mavi rənglərlə işlənmiş səkkizguşəli ulduzlar vardır. Ulduz motivlərinin mərkəzindən dörd tərəfə yuxarı, aşağı, sağ və sola oxşəkilli elementlər istiqamətlənir. Bu elementlərin rəngləri kənarlarındakı guşələrin rənginə uyğun tərtib edilmişdir. Rombvari medalyonun kənarları diliklərlə əhatə olunmuşdur. Xalçanın ara sahəsinin künclərində ağac təsvirləri vardır. Ağaclar qırmızı rənglə, budaqlardakı çiçəklər isə sarı və ağ rənglərlə tərtib edilmişdir. Ara sahənin kənarlarında sağda və solda bir-birinin ardınca düzülmüş kiçikölçülü rombvari elementlər işlənmişdir. Xalçanın ara sahəsi içərisində ağ, qara, qırmızı, göy, mavi, sarı rəngli kiçikölçülü səkkizbucaqlı elementlər işlənmiş yaşıl yerlikli haşiyə ilə əhatə olunmuşdur. Haşiyə qırmızı, ağ rəngli "siçandişi"lərlə tamamlanır. Xalçanın ağ yerlikli haşiyəsi sarmaşıq düzülüşü ilə tərtiblənmiş budaqlarla bəzədilmişdir. Budaqlarda dördbucaqlı, səkkizbucaqlı və rombvari motivlər işlənmişdir. Bu motivlər qırmızı, mavi, şabalıdı, yaşıl, sarı, göy rənglərlə tərtib edilmişdir. Ağ yerlikli haşiyəni hər iki tərəfdən içərisində qırmızı, ağ, sarı, yaşıl, şabalıdı rəngli dördləçəkli güllər işlənmiş göy yerlikli haşiyə əhatə edir.

Haşiyələr qırmızı, ağ və qırmızı, sarı rəngli "siçandişi"lərlə tamamlanır. Xalçanın bir-birini tamamlayan əlvan rəng qamması, yüksək peşəkarlıqla həll edilən naxış tərtibatı hər bir kəsin zövqünü oxşaya bilir.

H.1307-ci ildə (1889) İrəvan şəhərində toxunan xalçanın **(bax: Kataloq. №68)** ölçüsü 234x170-dir. Xalçanın ara sahəsində yuxarıdakı medalyonun aşağı hissəsində h. 1307 tarixi vardır. Xalçanın əsas bəzəyi tünd qırmızı yerlikli ara sahədə yerləşdirilmiş üç böyükölçülü göldən ibarətdir. Sürməyi yerlikli mərkəzdəki gölün içərisində kənarları pilləli kiçikölçülü medalyonlar və səkkizbucaqlı nisbətən kiçikölçülü həndəsi motivlər vardır. Bu motivlər səkkizləçəkli gülü də xatırladır. Eyni formalı motivlər kiçik ölçüdə pilləli elementlərin içərisində də işlənmişdir. Mərkəzdəki pilləli elementin kənarları ağ, yuxarı, aşağı, sağ və sol hissədəki pilləli elementlərin kənarları isə sarı rəngli "su" larla tamamlanır. Göllərin kənarları qırmızı, ağ, narıncı, göy "su"larla əhatə olunmuşdur. Ağ və narıncı "su"ların arasında qırmızı və yaşıl rənglərlə işlənmiş "siçandişi"lər cüzi nəzərə çarpır. Xalçanın ara sahəsindəki boşluqlar altıbucaqlı, səkkizbucaqlı həndəsi elementlər, səkkizguşəli ulduzlarla doldurulmuşdur. Ara sahənin yuxarı və aşağı hissəsində künclərdə yaşıl rənglərlə işlənmiş pilləli klassik elementlər vardır. Bu elementlərin kənarları ağ rəngli "su" larla əhatə olunmuşdur. Yuxarı və aşağıdakı gölün sağında və solunda, künclərə yaxın hissəsindəki ara sahədə yaşıl, narıncı, mor rənglərlə tərtib edilmiş qarmaqlı motivlər təsvir edilmişdir. Gölün aşağı hissəsindəki ara sahənin boşluqlarında stilizə edilmiş insan, heyvan təsvirləri və digər doldurucu elementlər vardır. Ara sahənin sağında və solunda mərkəzdəki gölün aşağı hissəsində "sırğa" adlanan motivlər çox aydın nəzərə çarpır. Xalçanın göy yerlikli haşiyəsi "qayçıbalıq" və "məşəl" adlandırılan motivlərlə bəzədilmişdir. Bu motivlər ağ, qırmızı, yaşıl, narıncı, sarı, mor rənglərlə işlənmişdir. Enli haşiyəni ağ, qırmızı rənglərlə işlənmiş dilikli mədaxillər əhatə edir. Mədaxillər ağ, qırmızı, narıncı, yaşıl rənglərlə işlənmiş zəncirlərlə tamamlanır. Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan rənglər bu xalçada yüksək peşəkarlıqla tərtib edilmişdir.

H.1309-cu ilə (1891) aid iki xalçadan birincisi **(bax: Kataloq. №69)** Talın mahalında toxunmuşdur. Ölçüsü 262x119-dur. Xalçanın qeyri-adi gözəlliyinin, parlaqlığının səbəbi onların zərif və parıltılı elastik yundan alınan iplərdən toxunmasıdır. Burada toxunan xalçalarda rənglərin və rəng çalarlarının sayı 7-dən 10-a qədər, bəzən isə daha çox olmaqla dəyişir. Bu xalça sadə naxış tərtibatına malikdir. Zoğalı yerlikli ara sahənin əsas bəzəyi bir-birinin ardınca şaquli istiqamətdə düzülmüş dörd səkkizləçəkli medalyondan ibarətdir. Medalyonların kənarları daxildən ağ rəngli "su"larla, xaricdən isə göy rəngli diliklərlə əhatə olunmuşdur. Medalyonların içərisində tünd qırmızı rəngli səkkizguşəli ulduza bənzər, nisbətən kiçikölçülü medalyon yerləşdirilmişdir. Bu medalyonların mərkəzində şabalıdı rəngli rombvari element vardır. Rombvari elementlərin yuxarı, aşağı, sağ və sol hissələrində mavi rəngli oxşəkilli motivlər vardır. Medalyonların digər guşələrində də çiçəkli budaqlar vardır. Xalçanın ara sahəsinin boşluqları mavi, şabalıdı, şəkəri, sürməyi, qırmızı rənglərlə işlənmiş klassik elementlərlə və aşağı hissələrdə stilizə olunmuş tovuzquşu motivləri ilə bəzədilmişdir. Xalçanın ara sahəsinin kənarlarını mavi və qara rənglərlə işlənmiş "su"lar əhatə edir. "Su"lardan ara sahəyə doğru istiqamətlənən ucu haça formalı motivlər xalçaya xüsusi görünüş gətirir. Xalçanın yuxarı hissələrdə açıq-şabalıdı, aşağı hissələrdə isə yarı açıq şabalıdı və yarı tünd şabalıdı yerlikli ensiz haşiyəsi qara, qırmızı, ağ və göy rənglərlə

işlənmiş dalğavari xətlərlə tərtib edilmişdir. Xətlərin arası tünd qırmızı, sürməyi, mavi, şəkəri rəngli dördləçəkli güllərlə bəzədilmişdir. Haşiyə daxildən zoğalı, mavi, sürməyi, xaricdən isə şəkəri rəngli diliklər işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Mədaxillərin kənarları "su"larla tamamlanır. Xalçada zoğalı, tünd və açıq şabalıdı, sürməyi və mavi rənglər üstünlük təşkil edir. Rənglər bu bölgənin rəng palitrasına uyğun olaraq ənənəvi surətdə uzlaşdırılmışdır.

H.1309-cu ildə (1891) toxunmuş ikinci xalça **(bax: Kataloq. №70)** İrəvan şəhərinə aiddir. Ölçüsü 198x155-dir. Xalçanın ara sahəsinin yuxarı hissəsində h. 1309 tarixi vardır. Tünd qırmızı yerlikli bu xalçanın ara sahəsində iki cərgədə altıbucaqlı səkkiz medalyon yerləşdirilmişdir. Sol cərgədə medalyonlar ağla qırmızı, yaşılla qırmızı, şabalıdı ilə ağ, göylə qırmızı rənglərlə, sağ cərgədəki medalyonlar şabalıdı ilə qırmızı, göylə qırmızı, ağla şabalıdı, yaşılla qırmızı rənglərlə işlənmişdir. Medalyonların içərisində Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan motivlər tərtib olunmuşdur. Medalyonların içərisində göy, göylə qırmızı rəngli medalyonların mərkəzində sarıya çalan şabalıdı, yaşılla qırmızı medalyonların içərisində ağ rəngli sağa və sola istiqamətlənmiş nalşəkilli motivlər işlənmişdir. Medalyonların kənarları "siçandişi"lərlə əhatə olunmuşdur. Xalçanın ağ yerlikli haşiyəsində oxşəkilli və baltanı xatırladan, Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan şabalıdı rəngli elementlər işlənmişdir. Bu motivlərin arasında dilikli işləmələr vardır. Şabalıdı rəngli elementlərin kənarları qırmızı "su"larla işlənmişdir. Ara haşiyə soldan tünd şabalıdı rəngli "su"larla əhatə olunmuşdur. Ara haşiyəni daxildən qırmızı və göy, xaricdən isə qırmızı və yaşıl rəngli qarmaqlı motivlərlə işlənmiş, nisbətən ensiz haşiyələr əhatə edir. Sol haşiyə daxildən ağ, qırmızı xaricdən sarı, mavi, qırmızı rənglərlə işlənmiş "siçandişi"lərlə əhatə olunmuşdur. Xalçada tünd qırmızı və şəkəri rənglər üstünlük təşkil edir. Bu rənglərin ənənəvi qanunauyğunluqla uzlaşması yüksək peşəkarlıqla həll edilmişdir.

XIX əsrin 80-ci illərinin sonlarına aid xalça **(bax: Kataloq. №71)** h.1310-cu ildə (1892) Loru mahalında (Voronsovka) toxunub. Ölçüsü 225x145-dir. Xalçanın ara sahəsinin aşağı hissəsində sol tərəfdə h. 1310 tarixi vardır. Bu xalça Qazax-Borçalı kompozisiyası əsasında toxunmuşdur. Qırmızı yerlikli bu xalçanın ara sahəsində iki böyükölçülü, yaşıl və mavi yerlikli göl yerləşdirilmişdir. Mavi yerlikli gölün mərkəzində qırmızı yerlikdə dördbucaqlı medalyon təsvir edilmişdir. Eyni formalı medalyon ağ yerliklə yaşıl gölün içərisində işlənmişdir. Medalyonların mərkəzində "cütbuynuz" motivləri işlənmişdir. Bu motivlər qırmızı yerlikdə yaşıl rənglə, ağ yerlikdə isə qırmızı rənglə işlənmişdir. Dördbucaqlı medalyonların kənarları sağdan və soldan "qoşabuynuz" motivləri, yuxarı və aşağı hissələrdə isə qırmızı rəngli yarımçıq "qarmaqlı" medalyonlarla tamamlanmışdır. Xalçanın ara sahəsində yaşıl, mavi, qırmızı rənglərlə işlənmiş səkkiz dördbucaqlı medalyon vardır. Bu medalyonların içərisində "qoşabuynuz", səkkizguşəli ulduz, bəzi medalyonlarda dörd hissəyə bölünmüş üçbucaqlı elementlər işlənmişdir. Ara sahənin boşluqları "S"şəkilli, "qarmaqlı", "sırğa", "ulduz", "buynuz" və digər motivlərlə doldurulmuşdur. Xalçanın ağ yerlikli haşiyəsi yaşıl, göy, qırmızı, kərpici, sarı, mavi, sürməyi, şabalıdı rənglərlə işlənmiş, kənarları pilləli, klassik və yarımçıq rombvari medalyonlarla bəzədilmişdir. Haşiyəni hər iki tərəfdən mavi-qırmızı və yaşıl-qırmızı qarmaqlı motivlərlə işlənmiş haşiyələr əhatə edir. Haşiyələrin kənarları sarı-qırmızı və ağ-qırmızı rəngli qırıq-qırıq xətlərlə

tamamlanır. Xalçada rəng ahəngdarlığı ənənəvi qanunauyğunluqla və yüksək peşəkarlıqla tərtib edilmişdir. Müxtəlif rəng çalarlarının bir-biri ilə uzlaşdırılması nəticəsində zəngin və baxımlı rəng palitrası yaradılmışdır.

XIX əsrin 90-cı illərinə aid olan 13 xalça toplanaraq tədqiqata cəlb edilmişdir. 1890-cı ilə aid olub, ölçüsü 245x188 olan xalça **(bax: Kataloq. №72)** Əştərək mahalında toxunmuşdur. Xalçanın ara sahəsinin yuxarı hissəsində - yaşıl medalyonun altında, ağ yerlikli kətəbənin içərisində "1890" tarixi vardır. Bu xalça özünəməxsus naxış tərtibatına malikdir. Ağ yerlikli bu xalçanın ara sahəsində mor yerlikli böyükölçülü göl yerləşdirilmişdir. Gölün içərisində dörd yaşıl, iki göy və iki sürməyi rəngli medalyon təsvir edilmişdir. Medalyonların içərisində dördbucaqlı, kənarları çıxıntılı klassik elementlər vardır. Bu elementlərin mərkəzində dördləçəkli gül, aşağıdakı elementin mərkəzində isə içərisi dörd hissəyə bölünmüş rombvari element işlənmişdir. Gölün kənarları sağ və soldan göy və sürməyi rənglərlə işlənmiş "mollabaşı"lar yuxarı hissədə göy rəngli, aşağı hissədə isə sürməyi rəngli diliklərlə əhatə olunmuşdur. Xalçanın ara sahəsinin boşluqları sağ və solda "paxlava" formalı və kənarları pilləli rombşəkilli motivlərlə bəzədilmişdir. Bu elementlər şabalıdı rəngli ağac gövdəsinə bənzər xətlərin üzərində tərtib edilmişdir. Gövdələrin sağa və sola şaxələnən budaqları da vardır. Motivlər qırmızı, yaşıl, göy rənglərlə işlənmişdir. Xalçanın ara sahəsinin künclərində kvadratşəkilli, rombvari elementlər budaqlarda tərtib edilmişdir. Bu elementlər göy, mor, yaşıl, sürməyi rənglərlə tərtib edilmişdir. Xalçanın ara sahəsini göy və sürməyi rənglərlə işlənmiş haşiyə əhatə edir. Ara sahənin künclərində təsvir edilmiş elementlər nisbətən böyük ölçüdə, haşiyədə isə kiçik ölçüdə təkrarlanır. Xalçanın ağ yerlikli haşiyəsində də bu elementlər dalğavari düzülüşlü budaqlarda təsvir edilmişdir. Kərpiciyə çalan qırmızı və yaşıl yerlikli haşiyələr dördləçəkli güllərlə bəzədilmişdir. Güllər yaşıl yerlikli haşiyədə qırmızı, göy, şabalıdı, sarı, sürməyi, mor rənglərlə, qırmızı yerlikli haşiyələrdə isə yaşıl, göy, sürməyi, ağ, sarı rənglərlə işlənmişdir. Xalçanın kənarındakı qırmızı yerlikli haşiyə xaricdən ağ, qırmızı, ağ yerlikli haşiyə hər iki tərəfdən sarı, qırmızı, qırmızı yerlikli ara haşiyələr hər tərəfdən ağ, qırmızı qırıq-qırıq xətlərlə əhatə olunmuşdur. Xətlərin kənarları şabalıdı rəngli "su"larla tamamlanır. Eyni düzülüşlü sarı, qırmızı rənglərlə işlənmiş xətlər ara sahənin kənarlarında da təkrarlanır. Azərbaycanın Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan rəng tərtibatı və kompozisiya quruluşu ənənəvi surətdə bu xalçada da əks etdirilmişdir.

H.1311-ci ilə (1893) aid olan xalçanın **(bax: Kataloq. №73)** ölçüsü 206x127 olub, İrəvan şəhərində toxunmuşdur. Xalçanın ara sahəsinin mərkəzindəki ağ rəngli medalyonun içərisində h. 1311 tarixi vardır. Tünd qırmızı yerlikli bu xalçanın ara sahəsində sürməyi, şabalıdı, mavi, yaşıl rəngli, güldana bənzər klassik elementlər təsvir edilmişdir. Bu elementlərin sağa və sola istiqamətlənən qolları "sünbül"ü xatırladır. Bu klassik elementlərin arasındakı boşluqlar içərisində "T"şəkilli motivlər işlənmiş dördbucaqlı elementlərlə doldurulmuşdur. Dördbucaqlı elementlər ağ, sürməyi, içərisindəki motivlər isə şabalıdı, sarı rənglərlə tərtib edilmişdir. Xalçanın ağ yerlikli ana haşiyəsində üz-üzə istiqamətlənən üçbucaqlı formaya malik olan elementlər tərtib edilmişdir. Bu motivlərin yuxarısında buynuza bənzər çıxıntıları vardır. Üçbucaqlı motivlərin içərisində kiçikölçülü, cüzi nəzərə çarpan rombvari motivlər vardır. Toxucular arasında bu motivlər "gözqaytarıcı" adlandırılır. Üçbucaqlı elementlər

sürməyi, yaşıl, qırmızı, mavi rənglərlə tərtib edilmişdir. Ana haşiyəni hər iki tərəfdən diliklərlə işlənən mədaxillər əhatə edir. Mədaxillər ana haşiyənin xaricində yaşıl, sürməyi, daxildə isə sürməyi rənglə tərtib edilmişdir. Xalçanın ensiz haşiyələri maili istiqamətdə işlənmiş kiçikölçülü zolaqlarla bəzədilmişdir. Bu zolaqlar sarı, qırmızı, göy, qırmızı, mavi, qırmızı, ağ tünd və yaşıl rənglərlə tərtib edilmişdir. Haşiyələr sürməyi, mavi, qırmızı qarmaqlarla işlənmiş mədaxillərlə əhatə olunub. Xalçanın yuxarı hissəsindəki ensiz haşiyə daxildən açıq yaşıl və tünd qırmızı diliklərlə aşağı hissədə isə tünd qırmızı, mavi və bəzi hissələrdə cüzi nəzərə çarpan sürməyi rənglə işlənmişdir. Xalça özünəməxsus naxış və rəng tərtibatı ilə diqqəti cəlb edir.

H.1312-ci ildə (1894) Göyçə mahalında (Basarkeçər) toxunan xalçanın **(bax: Kataloq. №75)** ölçüsü 205x143-dür. Xalçanın yuxarı hissəsindəki medalyonun içərisində h. 1312 tarixi vardır. Tünd qırmızı yerlikli bu xalçanın ara sahəsinin əsas bəzəyi dörd böyükölçülü göldən ibarətdir. Göllərin kənarları daxildən ağ, qırmızı rəngli "siçandişi"lərlə, xaricdən isə sürməyi rəngli qarmaqlarla tərtib edilmişdir. Göllərin içərisində "dördbuynuz"motivləri yerləşdirilmişdir. Xalçanın yuxarı və aşağı hissəsindəki medalyonun mərkəzində tünd qırmızı və şabalıdı rəngli rombvari motivlər vardır. Bu motivlər ağ rəngli "su"larla dörd hissəyə bölünür. Mərkəzdəki gölün yuxarı hissəsində dəvəni xatırladan stilizə edilmiş heyvan motivləri vardır. Bu fiqurlar ağ və yaşıl rənglərlə işlənmişdir. Xalçanın ara sahəsini ağ yerlikli haşiyə əhatə edir. Haşiyənin içərisini yaşıl, qırmızı, sürməyi, göy, mavi, tünd qırmızı, tünd şabalıdı, kərpici rənglərlə işlənmiş kənarları dilikli motivlər bəzəyir. Bu motivlərin içərisində kənarları pilləli elementlər yerləşdirilmişdir. Haşiyənin boşluqları "məşəl", "şamdan" adlandırılan motivlərlə tərtib edilmişdir. Xalçanın tünd qırmızı yerlikli enli haşiyəsi qarmaqlı motivlərlə bəzədilmişdir. Bu motivlər mavi, sürməyi, ağ, şabalıdı rənglərlə işlənmişdir. Motivlərin içərisində oxşəkilli elementlər çox aydın nəzərə çarpır. Haşiyəni hər iki tərəfdən içərisində qırmızı dalğavari xətlər işlənmiş göy yerlikli mədaxillər əhatə edir. Xarici mədaxil ağ, qırmızı, daxildəki mədaxil isə sağdan yaşıl, qırmızı "siçandişi"lərlə işlənmişdir. Enli haşiyənin içərisində aşağıya doğru istiqamətlənən ağ rənglə işlənmiş oxşəkilli motivlərin rəngi ara sahə motivlərinin rəngi ilə tərtib edilərək xalçanın ümumi görünüşünə bir-birini tamamlayan rəng qamması gətirir. Bu motivlərin kənarları şabalıdı "su"larla tamamlanır.

H.1312-ci ilə (1894) aid olan digər xalça **(bax: Kataloq. №76)** da Göyçədə (Basarkeçər) toxunub. Ölçüsü 236x168-dir. Xalçanın yuxarı hissəsində sağ tərəfdə h. 1312 tarixi vardır. Xalçanın sürməyi yerlikli ara sahəsində açıq qırmızı yerlikli, böyükölçülü göl yerləşdirilmişdir. Gölün kənarları çıxıntılı və dilikli formaya malikdir. Bu çıxıntılı və dilikli hissələr ağ və sürməyi zolaqlarla əhatə olunmuşdur. Gölün çıxıntıları arasındakı boşluqlar hörümçək torunu xatırladan rombvari motivlərlə bəzədilmişdir. Gölün mərkəzində sürməyi yerlikli uzunsov medalyon təsvir edilmişdir. Bu medalyon ümumi xalça kompozisiyasına bənzəyir. Gölün içərisində, mərkəzdə iki narıncı və bir mavi rənglərlə işlənmiş "çərxi-fələk" motivləri diqqəti cəlb edir. Azərbaycan dekorativ- tətbiqi sənətinin bütün növlərində, o cümlədən xalçalarda tez-tez rast gəlinən "çərxi-fələk" dörd əsas ünsürü (od, su, hava, torpaq) (bəzən isə günəşi) təmsil etmişdir. Bu element xoşbəxtlik və arzu mənasını təmsil edirmiş. Bu element Azərbaycanda dini nişan kimi neolit dövründən başlayaraq mürəkkəb formada, XIX yüzillikdən nisbətən sadə formada bir çox sənət əsərlərində öz əksini tapmışdır. Arxeoloji qazıntılar zamanı tapılmış möhür xarakterli

qəliblərin üzərində bu elementlərə rast gəlinir. Bu elementin mənşəyi ilə məşğul olan sənətşünaslar onun günəşin rəmzi olduğunu qeyd edirlər. Bu fikri Avropanın bir çox alimləri də təsdiq edirlər. Günəşin rəmzi olan (zolaqlı dairə) tədricən stilizə edilərək sadələşərək bu şəklə düşmüşdür. "Çərx-fələy"in kənarlarındakı boşluqlar "qoşabuynuz", rombvari, "səkkizgüşəli ulduz", "buta" və digər motivlərlə təsvir edilmişdir. Gölün kənarları sarı yerlikli zolaqlarla əhatə olunmuş, baş və ayaq hissədə isə mehrab formalı üçbucaqlı həndəsi motivlərlə tamamlanmışdır. Üçbucaqlı hissələrdə narıncı, sarı rənglərlə işlənmiş qarmaqlı və rombvari elementlər tərtib edilmişdir. Medalyonun mərkəzindəki "çərxi-fələk" motivləri xalçanın ara sahəsinin künclərində də təkrarlanır. Ara sahənin boşluqları sağdan və soldan müxtəlif ölçülü yaşıl, narıncı, şəkəri, sarı, qırmızı, sürməyi rənglərlə işlənmiş rombşəkilli və kənarları qarmaqlı motivlərlə bəzədilmişdir. Bu motivlər sağda və solda iki cərgə zəncirvari formalı düzülüşlə, qalan hissələrdə isə səpələnmiş formada işlənmişdir. Xalçanın narıncı rəngli ara haşiyəsi nəbati elementlərlə tərtib edilmişdir. Ara haşiyəni hər iki tərəfdən mavi yerlikli haşiyə əhatə edir. Bu haşiyələrin içərisində butanı və yaxud quşu xatırladan motivlər vardır. Bu motivlər sarı, qırmızı, yaşıl, qarpızı, ağ, açıq şabalıdı rənglərlə tərtib edilmişdir. Butaların kənarları tünd sürməyi rəngli "su"larla tamamlanır. Haşiyələri ağ, narıncı rənglərlə işlənmiş "siçandişi"lər əhatə edir. Xalçanın narıncı rəngindəki əbrəş çox aydın nəzərə çarpır.

H.1313-cü ilə (1895) aid olan iki xalçadan biri **(bax: Kataloq. №77)** Dərələyəz mahalında (Soylan) toxunub. Ölçüsü 230x142-dir. Xalçanın yuxarı hissəsində şabalıdı yerlikli haşiyənin içərisində h. 1313 tarixi vardır. Bu xalça mürəkkəb kompozisiya quruluşuna malikdir. Açıq sürməyi yerlikli bu xalçanın ara sahəsinin əsas bəzəyi simmetrik düzülüşlə tərtib edilmiş rombvari medalyonlardan ibarətdir. Bu medalyonların kənarları qarmaqlı motivlərlə işlənmişdir. Medalyonların içərisində narıncı yerlikdə göy, qırmızı, ağ yerlikdə qırmızı, sürməyi, mavi yerlikdə ağ, qırmızı, bəzən isə bu rənglər bir-birini əvəz edərək müxtəlif çalarlarla işlənmişdir. Qarmaqlar narıncı, qırmızı, mavi, şabalıdı, ağ, firuzəyə çalan rənglərlə tərtib edilmişdir. Ara sahənin kənarlarını mavi və qırmızı rənglərlə işlənmiş "mollabaşı"motivləri əhatə edir. Ara sahənin boşluqları qarmaqlı, "dörd ünsür", pilləli motivlər və quş təsvirləri ilə doldurulmuşdur. Xalçanın şəkəri yerlikli ara haşiyəsi "məşəl"i və yaxud "şamdan"ı xatırladan qırmızı, göy, mavi, sarı, tünd şabalıdı, sürməyi rənglərlə işlənmiş elementlərlə bəzədilmişdir. Haşiyədəki boşluqlar kiçikölçülü kvadratşəkilli motivlərlə işlənmişdir. Ara haşiyəni əhatə edən şabalıdı yerlikli, nisbətən ensiz haşiyələr dördləçəkli gülü xatırladan elementlərlə işlənmişdir. Bu elementlər mavi, göy, qırmızı, narıncı, sarı rənglərlə tərtib edilmişdir. Güllərin ləçəkləri rombşəkillidir. Xalçanın şəkəri yerlikli ara haşiyəsi qırmızı, qara, nisbətən ensiz haşiyələr isə göy və qara rənglərlə işlənmiş "su"larla əhatə olunmuşdur. Şabalıdı yerlikli xarici haşiyəni şəkəri, qırmızı rəngli "mollabaşı" motivlərilə işlənmiş mədaxil əhatə edir. Mədaxilin kənarları qara, göy rənglərlə işlənmiş "su"larla tamamlanır. Xalçanın kənarları qırmızı, göy, şabalıdı, mavi, açıq şabalıdı rənglərlə hörmə üsulu ilə işlənmişdir.

Yenə həmin dövrə aid ikinci xalça **(bax: Kataloq. №78)** isə Zəngəzur mahalında (Sisyan) toxunmuşdur. Ölçüsü 260x166-dır. Xalçanın ara sahəsinin yuxarı hissəsində h. 1313 tarixi vardır. Bu xalça Qazax-Borçalı kompozisiyası əsasında toxunmuşdur. Mor yerlikli bu xalçanın ara sahəsində böyükölçülü səkkizbucaqlı göl yerləşdirilmişdir.

Gölün içərisində "dörd ünsür" elementi vardır. "Dörd ünsür" motivi açıq yaşıl rənglə, içərisindəki dörd tərəfə istiqamətlənən xaçşəkilli bənzər elementlər, sağda və solunda "qoşabuynuz", yuxarı və aşağı hissəsindəki qarmaqlı medalyonlar isə tünd qırmızı rənglə tərtib edilmişdir. Ağ yerlikli gölün boşluqlarında "cütbuynuz" motivləri vardır. Xalçanın ara sahəsinin yuxarı və aşağı hissələrindən mərkəzə doğru istiqamətləndirilən oxşəkilli motivlər vardır. Gölün kənarları kiçikölçülü sarı, mor rənglərlə işlənmiş kvadratşəkilli elementlərlə, daxildən şabalıdı rəngli diliklər, xaricdən isə sürməyi rəngli qarmaqlarla işlənmişdir. Tünd şabalıdı rəngli, sağ və sol hissəsi "ox" işarəli motivlərin kənarları mor rəngli "su"larla tamamlanır. Ara sahənin künclərində qarpızı rəngə çalan yerlikdə Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan klassik elementlər təsvir edilmişdir. Bu elementlər tünd şabalıdı, kənarları isə mor rəngli "su"larla işlənib. Ara sahənin kənarlarından mərkəzə doğru istiqamətləndirilən ucu kiçikölçülü rombşəkilli elementlər ara sahənin ümumi kompozisiyasına xüsusi görünüş gətirir. Bu elementlər sürməyi rənglə tərtib edilmişdir. Xalçanın ara sahəsini içərisində kiçikölçülü rombşəkilli motivlər işlənmiş qarpızı yerlikli haşiyə əhatə edir. Rombşəkilli motivlər ağ, sürməyi, mor, şabalıdı, sarı rənglərlə işlənmişdir. Haşiyənin kənarları ağ, mor rəngli "siçandişi"lərlə tamamlanır. Xalçanın ağ yerlikli haşiyəsi yaşıl rəngli budaqlarla, rombvari, dördbucaqlı və səkkizbucaqlı elementlərlə bəzədilmişdir. Dördbucaqlı elementlərin içərisi dörd hissəyə bölünmüş sarı və mor rənglərlə tərtib edilib. Səkkizbucaqlı dairə formalı motivlər mor rənglə işlənmişdir.

H.1314-cü ilə (1896) aid olub, ölçüsü 210x140 olan xalça **(bax: Kataloq. №79)** Sərdarabad mahalında toxunmuşdur. Xalçanın aşağı hissəsində tünd qırmızı yerlikli medalyonun içərisində h. 1314 tarixi vardır. Xalçanın ara sahəsi rapportlara bölünmüşdür. Ara sahənin yuxarı hissəsindəki ensiz rapport və aşağı hissəsindəki enli rapport tünd şabalıdı, mərkəzdəki rapport isə açıq yaşıl rənglə tərtib edilmişdir. Rapportların içərisində tünd qırmızı yerlikli altıbucaqlı göllər yerləşdirilmişdir. Göllərin mərkəzində dördbucaqlı medalyonlar vardır. Yaşıl yerlikli dördbucaqlı medalyonların içərisində "qoşabuynuz" motivləri işlənmişdir. Mərkəzdəki medalyonların kənarları göy, sarı, yuxarı və aşağı hissələrdəki medalyonların kənarları ağ, qırmızı rəngli diliklərlə tərtib edilmişdir. Diliklərin kənarları mərkəzdəki medalyonda qırmızı, aşağı hissədəki medalyonda isə qara rəngli "su"larla tamamlanır. Medalyonların sağında və solunda hər tərəfdə qoşa "T"şəkilli motivlər işlənmiş çıxıntılar, yuxarı və aşağı hissələrdə isə şaquli istiqamətli ağacabənzər və üfüqi istiqamətdə kənarları qarmaqlı elementlər tərtib edilmişdir. Bu elementlərin arasındakı boşluqlar dördləçəkli, səkkizləçəkli güllərlə bəzədilmişdir. Xalçanın ara sahəsinin sağında və solunda bir-birinin ardınca düzülmüş dördləçəkli güllər işlənmişdir. Rapportlardakı boşluqlar "cütbuynuz" və güllərlə doldurulmuşdur. Xalçanın ara sahəsindəki şabalıdı yerlikli rapportların kənarları sarı rəngli dilikli dalğalarla, yaşıl yerlikli rapportların kənarları isə ağ rəngli "siçandişi"lərlə bəzədilmişdir. Xalçanın tünd şabalıdı yerlikli enli haşiyəsi səkkizbucaqlı həndəsi medalyonlarla tərtib edilmişdir. Bu həndəsi medalyonların içərisində səkkizguşəli ulduzlar vardır. Medalyonlar və ulduzlar tünd qırmızı, tünd şabalıdı, sarı, ağ, sürməyi, tünd və açıq yaşıl rənglərlə tərtib edilmişdir. Ulduzların kənarları "su"larla işlənmişdir. Haşiyə hər iki tərəfdən sarı və qırmızı rəngli qırıq-qırıq xətlər və tünd qırmızı rəngli "su"larla tamamlanır.

H. 1315-ci ildə (1897) Göyçə mahalında (Çəmbərək, Qırmızıkənd) toxunan xalça-

nın **(bax: Kataloq. №80)** ölçüsü 245x110-dur. Xalçanın yuxarı hissəsindəki qırmızı medalyonun altında h. 1315 tarixi vardır. Xalçanın mavi və göy yerlikli ara sahəsində iki tünd qırmızı və bir kərpiciyə çalan qırmızı yerlikli medalyon təsvir edilmişdir. Medalyonların mərkəzində kənarları qarmaqlı mavi yerlikli dördbucaqlı element işlənmişdir. Bu elementlərin içərisində hər iki tərəfi "T" hərfinə bənzər element vardır. Qırmızı yerlikli mərkəzi medalyonun yuxarı və aşağı hissəsindəki ara sahədə ağ yerlikli dördbucaqlı göllər yerləşdirilmişdir. Göllərin içərisində göy yerlikdə içərisində "qoşabuynuz" yerləşdirilmiş dördbucaqlı element vardır. Bu elementin sağında və solunda bir cüt "qoşabuynuz" motivi vardır. Ağ yerlikli göllərin kənarları qırmızı, yaşıl diliklərlə işlənmişdir. Diliklər ağ, qırmızı "siçandişi"lərlə tamamlanır. Xalçanın ara sahəsinin boşluqlarında səkkizbucaqlı ulduz, dördləçəkli gül, rombşəkilli, "X"şəkilli elementlər vardır. Mavi yerlikli ara sahənin boşluqları sağda və solda stilizə olunmuş dördayaqlı fantastik quş və heyvan təsvirləri ilə tərtib edilmişdir. Xalçanın yuxarı hissəsindəki ağ yerlikli göl və tünd qırmızı yerlikli medalyonun yuxarı hissəsindəki ara sahənin "göy" rəngli yerliyi aydın nəzərə çarpır. Xalçanın ağ yerlikli ara haşiyəsi qarmaqlı motivlərlə bəzədilib. Bu motivlər göy, qırmızı, yaşıl, sürməyi, şabalıdı, mavi rənglərlə işlənmişdir. Bu motivlərin kənarları qara, qırmızı, çəhrayı "su"larla tamamlanır. Ara haşiyədəki boşluqlar yaşıl, qırmızı rəngli "gözqaytarıcı" motivlərlə doldurulmuşdur.Ara haşiyəni daxildən qırmızı, yaşıl, göy, xaricdən sürməyi, göy, qırmızı, çəhrayı rəngli "mollabaşı"motivləri ilə işlənmiş ensiz haşiyələr əhatə edir. Haşiyələr ağ, qırmızı, sarı, qırmızı "siçandişi"lərlə əhatə olunmuşdur. "Siçandişi"lər qara rəngli "su"larla tamamlanır. Xalçanın ara sahəsində göy yerlikdə təsvir edilmiş elementlər daha aydın nəzərə çarpır.

H. 1317-ci ilə (1899) aid iki xalçadan biri **(bax: Kataloq. №81)** Göyçə mahalında (Kəvər) toxunmuşdur. Ölçüsü 220x118-dir. Xalçanın ara sahəsinin aşağı hissəsində şaquli istiqamətdə tərtib edilmiş ağ yerlikli rapportların içərisində iki hissədə h. 1317 tarixi vardır. Bu xalça Qarabağ kompozisiyası əsasında toxunmuşdur. Xalçanın ara sahəsi üç hissəyə bölünmüş rapportlardan ibarətdir. Mərkəzdəki rapport tünd qırmızı yerlikli, sağ və sol hissədəki rapportlar isə ağ yerliklidir. Qırmızı yerlikli rapportda göy rəngli buynuza bənzər uc hissələri "qarmaq" şəkilli elementlər təsvir edilmişdir. Eyni motivlər ağ yerlikli rapportlarda tünd qırmızı rənglə işlənmişdir. Rapportlar hər iki tərəfdən içərisində dalğavari xətlər işlənmiş mavi yerlikli zolaqlarla əhatə olunmuşdur. Mərkəzdəki qırmızı yerlikli rapportun kənarlarındakı mavi rəngli zolaqlar daxildən qara, xaricdən isə qırmızı xətlərlə işlənmişdir. Ağ yerlikli rapportların kənarlarındakı xarici zolaqlar qırmızı və açıq şabalıdı rənglərlə tərtib edilmişdir. Bu zolaqlar hər iki tərəfdən qara rəngli "su"larla tamamlanır. Rapportlardakı elementlərin üzərində cüzi nəzərə çarpan xaçşəkilli, formaca çox dəyişmiş kiçikölçülü "buta" motivləri işlənmişdir. Eyni motivlər mavi yerlikli zolaqlarda da təkrarlanır. Tünd qırmızı və ağ yerlikli rapportların boşluqları da kiçikölçülü buta, bəzi hissələrdə isə xaçşəkilli motivlərlə doldurulmuşdur. Xalçanın tünd qırmızı yerlikli enli haşiyəsi ağ, mavi, solğun sarı, göy, qırmızı, qara rənglərlə işlənmiş "qarmaqlı" medalyonlarla bəzədilmişdir. Haşiyənin boşluqları "ox" işarəli motivlərlə doldurulmuşdur. Bu motivlər ağla qırmızı, göylə sarı, qırmızı ilə sarı, bəziləri isə qırmızı, göy, sarı və yaxud, dəyişik rənglərlə işlənmişdir. Xalçanın ağ yerlikli ensiz haşiyəsi qırmızı, göy, mavi, sarı, şabalıdı rəngli gül, yarpaq və dalğavari budaqlarla tərtib edilmişdir. Haşiyə

qırmızı, sarı rənglərlə işlənmiş mədaxillərlə əhatə olunmuşdur. Mədaxillər qara rəngli "su"larla tamamlanır. Haşiyədəki gül və yarpaqların kənarlarında qara rəngli gəzmələr vardır. Xalçanın ara sahəsindəki qırmızı yerlikli rapportun və ağ yerlikdəki qırmızı motivlərin rəngi ana haşiyənin yerliyi ilə uzlaşır. Qırmızı rapportdakı göy rəngli elementlərin rəngi ağ yerlikli haşiyədə təsvir edilən göy rəngli güllərlə uzlaşdırılaraq ümumi kompozisiya vəhdətinə nail olunmuşdur.

Həmin dövrə aid ikinci xalça **(bax: Kataloq. №82)** Qırxbulaq mahalında (Ellər) toxunmuşdur. Ölçüsü 248x165-dir. Bu xalçanın kompozisiyası ara sahə, ana haşiyə və iki bala haşiyədən ibarətdir. Ara sahənin aşağı hissəsində sol tərəfdə h. 1317 tarixi vardır. Al qırmızı yerlikli ara sahədə sürməyi rəngli böyükölçülü göl yerləşdirilmişdir. Gölün sağ və solunda hər iki tərəfdə dörd həndəsi formalı çıxıntılar vardır. Gölün kənarları daxildən qırmızı rəngli dilikli, xaricdən isə yaşıl rəngli mədaxillərlə əhatə olunmuşdur. Yaşıl mədaxillərdə mavi, qırmızı, sarı, ağ rənglərlə işlənmiş çiçək təsvirləri vardır. Gölün içərisində xalça boyu şaquli istiqamətdə ağac və səkkizguşəli ulduz motivləri təsvir edilmişdir. Gölün çıxıntılı sahələri də səkkizguşəli ulduz motivləri ilə bəzədilmişdir. Azərbaycanın nəbati naxışları içərisində əksər hallarda kiçik, bəzən isə böyük ölçüdə işlənən ağac təsvirləri xalça və xalça məmulatlarında, o cümlədən dekorativ-tətbiqi sənətin müxtəlif sahələrində çox geniş yayılmışdır. Azərbaycanın zəngin təbiətindən götürülmüş bu təsvir formaları (yarpaq, budaq, çiçək, ağac, kolların şaxələri və s.) xalqın torpaqla, təbiətlə sıx əlaqədə olmasını göstərir. Ağac təsvirləri əksər hallarda böyük sahələrdə, bəzən isə kiçikölçülü doldurucu elementlər kimi işlənmişdir. Azərbaycan dekorativ-tətbiqi sənət nümunələrində təsvir edilən ağac motivi həm nəbati, həm də emblem mahiyyətli bəzək nümunələri sırasına daxildir. Ağac motivi çox qədimlərdən xalq arasında zənginliyin, bolluğun, baharın, bir sözlə diriliyin nişanəsi kimi müqəddəsləşdirilmiş və qərinələr ötdükcə sənət əsərlərində müxtəlif formalarda təsvir edilmişdir. Azərbaycanın əksər bölgələrində olan ağac pirlərinə sitayiş onun keçmiş emblemmatik mahiyyətinin itirilmədiyinə bir daha sübutdur. Xalçanın ara sahəsinin boşluqlarında və gölün içərisindəki çıxıntılarda təsvir edilən səkkizguşəli həndəsi motiv də çox aydın nəzərə çarpır. Azərbaycan xalçalarının naxışlarındakı bir çox həndəsi formalar (düz, dalğavari, qırıq, üç, dörd, beş, altı, səkkiz, onikiguşəli ulduzlar, üçbucaq, dördbucaq, dairə və s.) çox qədimlərdən inkişaf edərək, ənənəvi forma alıb öz mahiyyətini itirməmiş və son dövrlərə qədər xalçalarda və dekorativ-tətbiqi sənətin bütün sahələrində dönə-dönə təsvir edilmiş və hal-hazırda da edilir. Xalçanın ara sahəsinin aşağı hissəsinin künclərində kənarları ox şəkilli "göl içi" adlandırılan motivlər təsvir edilmişdir. Bu motivin mərkəzində sürməyi, yaşıl rəngli "dörd ünsür" elementi yerləşdirilmişdir. Sürməyi və yaşıl rənglər bir-birindən qırmızı qırıq-qırıq xətlərlə ayrılır və kənarları ağ, qırmızı rəngli "siçandişi"lərlə tamamlanır. Sürməyi yerlikli ana haşiyə qırmızı dalğavari dilikli xətlərlə tərtib edilmişdir. Dalğavari xətlərin arasındakı boşluqlar "çapar" adlandırılan "rəhil"i (kitab qoymaq üçün predmet) xatırladan qırmızı, yaşıl, ağ, mavi rənglərlə işlənmiş motivlərlə doldurulmuşdur. Ana haşiyəni daxildən yaşıl yerlikli, xaricdən isə mavi yerlikli bala haşiyələr əhatə edir. Mavi yerlikli haşiyə yaşıl, ağ, sürməyi, qırmızı, sarı, açıq və tünd şabalıdı rəngli butalarla bəzədilmişdir. Haşiyələr "siçandişi"lərlə əhatə olunmuşdur. Xalçanın rəngləri ənənəvi qanunauyğunluqla və peşəkarlıqla tərtib edilməklə göz oxşayan bir görünüş yaradılmışdır.

XIX əsrin 90-cı illərinə aid son üç xalça h.1320-ci ilə (1902) aiddir. Bu xalçalardan biri **(bax: Kataloq. №83)** Sərdarabad mahalında toxunmuşdur. Ölçüsü 221x102-dir. Xalçanın yuxarı hissəsində ağacabənzər motivin altında h. 1320 tarixi vardır. Kərpiciyə çalan qırmızı yerlikli bu xalçanın ara sahəsində dörd böyükölçülü ağac motivi işlənmişdir. Ağacların altında ara sahədə yasəməni və sürməyi rənglərlə işlənmiş üz-üzə dayanan stilləşmiş qoşa quş təsvirləri vardır. Quşların arasında ucu "ox" işarəli element vardır. Sürməyi rəngli quşların bədəninin kənarlarındakı deliklər ağ rəngli "su"larla, yasəməni rəngli quşun bədəninin kənarlarında deliklər qara rəngli "su"larla işlənmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif sahələrində, o cümlədən xalçalarda tez-tez rast gəlinən motivlərdən biri quş təsvirləridir. Quş obrazı Azərbaycan incəsənətində ən geniş yayılmış obrazlardan idi. Bu obrazlar arasında tovuzquşu təsvirinə də rast gəlirik. Tovuzquşu surəti metal məmulatında, saxsı qablarda, parçada, xalçada, divar boyakarlığında və başqalarında dönə-dönə işlənmişdir. Sənət əsərlərində bülbül, göyərçin və qartal obrazları da əsrlər boyu Azərbaycan incəsənətinin müxtəlif sahələrində işlənmiş və hal-hazırda işlənir. "Şıxlı" xalçalarında təsvir edilən ağacları toxucular "cənnət ağacı", quşları isə "cənnət quşları" adlandırırlar. Bu surətlər digər bəzəklərlə birgə işlənərək Azərbaycan xalqının mənəvi aləmi, qədim inam və etiqadları ilə sıx əlaqədə olmuşdur. Xalçanın ara sahəsinin boşluqlarında səkkizbucaqlı, "X"-ə bənzər, rombvari, kiçikölçülü, kənarları pilləli klassik elementlər, üçləçəkli, dördləçəkli gül-çiçək, "buta", "daraq", "gözqaytarıcı" və stilləşmiş "tula" təsvirləri vardır.

Həmin ilə aid ikinci xalça **(bax: Kataloq. №84)** İrəvan şəhərində toxunmuşdur. Ölçüsü 196x138-dir. Xalçanın yuxarı hissəsində sol tərəfdə h. 1320 tarixi vardır. Bu standart ölçülü xalça çox zəngin bir kompozisiya quruluşuna malikdir. Qırmızı yerlikli bu xalçanın mərkəzində ağ yerlikli böyük göl yerləşdirilmişdir. Gölün mərkəzində göy, qırmızı rənglərlə işlənmiş rombvari element vardır. Bu elementin kənarları ağ rəngli "su"larla işlənmiş və eyni rəngli "su"larla dörd hissəyə ayrılmışdır. Rombvari elementin kənarları qırmızı, şabalıdı rəngli motivlərlə əhatə olunmuşdur. Qarmaqlı motivlər sarı yerlikdə təsvir edilərək çox aydın nəzərə çarpır. Sarı yerliyin kənarlarında iyirmi dörd qırmızı, göy rənglərlə işlənmiş qarmaqlar vardır. Mərkəzdəki medalyonun kənarları otuz səkkiz yaşıl rəngli qarmaqlarla tamamlanır. Medalyonun baş və ayaq hissəsində ara sahədə on iki qarmaqlı sarı rənglərlə işlənmiş elementlər xalçaya şux görünüş gətirir. Bu elementlərin içərisi dörd hissəyə bölünmüşdür. Rombvari motivlərin kənarları yaşıl rəngli "su"larla tamamlanır. Eyni ölçülü qarmaqlı motivlər xalçanın ara sahəsinin sağ və solunda künclərə yaxın hissədə göy, qırmızı və yaşıl rənglərlə işlənmişdir. Xalçanın baş və ayaq hissəsində Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan klassik elementlər təsvir edilmişdir. Bu elementlərin rəngi xalçanın eni istiqamətində dəyişdirilərək xüsusi ahəng yaradılmışdır. Bu elementlər ağ, qırmızı, yaşıl, sarı, göy rənglərlə tərtib edilmişdir. Xalçanın ara sahəsinin boşluqları "S"-ə bənzər rombvari, "qoşabuynuz", nəbati, stilləşmiş it, "dördbuynuz", "gözqaytarıcı" motivlərlə doldu-rulmuşdur. Ara sahənin sol tərə-fində baş və ayağı xalçanın eni istiqamətinə yönəldilmiş yaşıl, qara rənglərlə işlənmiş stilləşmiş insan təsviri vardır. Xalçanın ağ yerlikli ara haşiyəsi üz-üzə dayanmış "quş" fiqurunu xatırladan elementlərlə bəzədilmişdir. Bu elementlərin arasında "ox"a bən-zər motivlər təsvir edilmişdir. Ara haşiyə daxildən açıq yaşıl, xaricdən göy yerlikli haşiyələrlə əhatə

olunub. Haşiyələr ağ, qırmızı, sarı rəngli güllərlə bəzədilmiş və qırmızı "su"larla tamamlanmışdır. Haşiyələri sağ və soldan sarı, qırmızı rənglərlə işlənmiş mədaxillər əhatə edir. Mədaxillərin kənarları qara rəngli "su"larla işlənmişdir. Xalçada rəng tərtibatı yüksək peşəkarlıqla və ənənəvi qanunauyğunluqla həll edilmişdir.

Ölçüsü 223x138 olan üçüncü xalça isə **(bax: Kataloq. №85)** Dərəçiçəkdə (Axtı) toxunmuşdur. Xalçanın mərkəzində dördbucaqlı medalyonun içərisində h. 1320 tarixi vardır. Bu xalça Qazax-Borçalı qrupunun kompozisiyası əsasında toxunmuşdur. Kərpiciyə çalan qırmızı yerlikli bu xalçanın ara sahəsində böyükölçülü baş və ayaq hissəsi "mehrab"şəkilli sürməyi yerlikli göl yerləşdirilmişdir. Gölün mərkəzində böyükölçülü dördbucaqlı həndəsi medalyon vardır. Medalyonun içərisində iki şabalıdı yerlikli dördbucaqlı element tərtib edilmişdir. Bu elementlərin kənarlarında göy və qırmızı rənglərlə işlənmiş "buynuz", "T" hərfinə bənzər motivlər vardır. Gölün mehrab hissəsindəki boşluqlar "cütbuynuz" rombvari, səkkizbucaqlı, kənarları qarmaqlı dördləçəkli xaça bənzər güllər, "gözqaytarıcı" motivlərlə doldurulmuşdur. Mərkəzdəki böyükölçülü medalyonun yuxarı və aşağı hissələrində, ara sahənin boşluqlarında qoşa ağac təsvirləri vardır. Medalyonun kənarları içərisində "S"-ə bənzər motivlər işlənmiş açıq şabalıdı yerlikli zolaqlarla əhatə olunmuşdur. Bu zolaqlar xaricdən qırmızı rəngli "su"larla , daxildən isə ağ, qırmızı rəngli qırıq-qırıq xətlər və qırmızı "su"larla tamamlanır. Xalçanın ara sahəsinin boşluqları "mehrab"ın sağ və solu da, yuxarı və aşağı hissələrdə sürməyi, sarı, ağ və şabalıdı rəngli qarmaqlı motivlərlə işlənmişdir. Göy yerlikli böyükölçülü gölün kənarları içərisində qırmızı, sürməyi, rəngli ziq-zaq şəkilli dalğavari xətlərlə tərtiblənmiş ağ yerlikli zolaqlarla əhatə olunmuşdur. Xalçanın ağ yerlikli ana haşiyəsi "qayçıbalıq" və "qədəhə" bənzər motivlərlə bəzədilmişdir. Bu motivlər şabalıdı, qırmızı və sürməyi rənglərlə tərtib edilmişdir. Ana haşiyə hər iki tərəfdən sarı, qırmızı qırıq-qırıq xətlər və şabalıdı rəngli "su"larla tamamlanır. Ana haşiyəni kənarları xaricdən içərisində göy, qırmızı rəngli "mollabaşı" elementləri işlənmiş, daxildən isə "S"-ə bənzər qırmızı rəngli motivlərlə bəzədilmiş şabalıdı yerlikli bala haşiyələr əhatə edir. Bala haşiyələr xaricdən sarı, qırmızı və ağ, qırmızı qırıq-qırıq xətlərlə tərtib edilmişdir. Xalçanın ara sahəsinin elementlərinin rəngləri haşiyə elementlərində də qanunauyğunluqla təkrarlanaraq çox baxımlı bir görünüş yaratmışdır.

XX əsrin əvvəlinə aid xalçalardan biri **(bax: Kataloq. №86)** Vedibasar mahalında (Vedi) toxunmuşdur. Ölçüsü 347x112-dir. Sürməyi yerlikli bu xalçanın ara sahəsində səkkiz rombşəkilli göl yerləşdirilmişdir. Göllərin mərkəzi dörd hissəyə bölünmüş, hər bir hissə üçbucaqlı forma almışdır. Üçbucaqlar bir-birindən qara xətlərlə ayrılır və xətlərin üzərində kiçikölçülü rombvari motivlər vardır. Göllərin kənarları qarmaqlarla əhatə olunmuşdur. Qırmızı rəngli "qarmaq"ların kənarları mavi rəngli "su"larla, mavi rəngli "qarmaq"lar isə tünd qırmızı rəngli "su"larla tərtib edilmişdir. Xalçanın ara sahəsinin boşluqlarında kənar hissələrdə, sağ və solda hər tərəfdə yeddi yarımçıq göl təsvir edilmişdir. Ara sahənin künclərində gölün dörddə bir hissəsi işlənmişdir. Xalçanın ağ yerlikli enli haşiyəsi kənarları pilləli klassik elementlərlə bəzədilmişdir. Bu elementlər tünd və açıq qırmızı, göy, sürməyi, şabalıdı, mavi, mor, açıq yaşıl rənglərlə işlənmişdir. Klassik elementlərin mərkəzində dördləçəkli xaçabənzər gül motivləri vardır. Haşiyənin boşluqları kiçikölçülü "X"-ə bənzər və rombvari motivlərlə doldurulmuşdur. Xalçanın haşiyəsi hər iki tərəfdən içərisində

kiçikölçülü "S"-ə bənzər motivlər işlənmiş mədaxillərlə bəzədilmişdir. Mədaxillərin kənarları qırmızı və mavi rəngli "su"larla tamamlanır. Xalçanın ensiz haşiyəsi qara və mavi rənglərlə işlənmiş "mollabaşı"larla bəzədilmişdir. "Mollabaşı"ların kənarları qırmızı rəngli "su"larla, ensiz haşiyənin kənarları isə mavi, qırmızı və qara rəngli "su"larla işlənmişdir. Xalçada bəzək ünsürlərinin ahəngdar surətdə uzlaşdırılması, naxışların zərgər dəqiqliyinə bənzər düzümü yüksək peşəkarlıqla həll edilmişdir.

H.1322-ci ilə (1904) aid iki xalçadan birinin **(bax: Kataloq. №87)** ölçüsü 354x106 olub, İrəvan şəhərində toxunmuşdur. Xalçanın yuxarı hissəsində göy yerlikli haşiyənin içərisində h. 1322 tarixi vardır. Xalça Qarabağ kompozisiyası əsasında toxunmuşdur. Bu xalça ənənəvi qanunauyğunluqla tərtib edilmişdir. Xalçanın kompozisiyası sadə ara sahədən və zəngin haşiyə hissəsindən ibarətdir.Qırmızı yerlikli ara sahənin kənarları ağ və qırmızı rənglərlə tərtib edilmiş "ox" işarəli motivlərdən ibarətdir. Bu motivlər xalçanın uzunu və eni istiqamətində təsvir edilməklə çox baxımlı və sərbəst görünüş yaradılmışdır. Xalçanın ağ yerlikli ana haşiyəsi Qarabağ xalçaları üçün səciyyəvi olan kiçikölçülü göllərlə işlənmişdir. Bu motivlərin mərkəzində müxtəlif rənglərlə işlənmiş, dörd hissəyə bölünmüş rombşəkilli elementlər təsvir edilmişdir. Toxucular arasında bu motivlər "mollabaşı" adlandırılır.Ana haşiyənin boşluqları dördləçəkli güllərlə doldurulmuşdur. Bu güllərin rəngi böyükölçülü haşiyə motivlərində də təkrarlanır. Ana haşiyəni xaricdən yaşıl, daxildən isə göy yerlikli bala haşiyələr əhatə edir. Bala haşiyələrin içərisində sarmaşığa bənzər düzülüşlə işlənmiş dalğavari budaqlarda gül-çiçək təsvirləri vardır. Dalğavari budaqların arasındakı boşluqlar ağ, qırmızı, açıq şabalıdı, göy, sarı, mor rənglərlə işlənmiş "ox" işarəli motivlərlə işlənmişdir. Bala haşiyələri hər iki tərəfdən içərisində şəkəri, qara rənglərlə işlənmiş latın əlifbasının "Z" hərfinə bənzər cüzi nəzərə çarpan motivlər tərtib edilən qırmızı yerlikli mədaxillər əhatə edir. Mədaxillərin kənarları qara rəngli "su"larla tamamlanır. Xalçada tünd qırmızı və şəkəri rənglər çoxluq təşkil edir. Bu rənglərin göy, yaşıl, sarı rənglərlə uzlaşdırılaraq haşiyələrdə paylaşdırılması ənənə ilə ciddi surətdə tənzimlənmişdir.

Ölçüsü 210x157 olan digər xalça **(bax: Kataloq. №88)** isə Şörəyel mahalında toxunmuşdur. Xalçanın ara sahəsinin aşağı hissəsində sağküncündə h. 1322 tarixi vardır. Tünd qırmızı yerlikli bu xalçanın ara sahəsində baş və ayaq hissədə iki böyükölçülü göy yerlikli və bir nisbətən kiçikölçülü səkkizbucaqlı medalyon təsvir edilmişdir. Mərkəzdəki medalyonun içərisində bal rəngi yerlikdə sürməyi rəngli "qoşabuynuz" motivləri ilə işlənmiş element yerləşdirilmişdir. Bu elementin kənarları cüzi nəzərə çarpan kiçikölçülü "Z"şəkilli elementlərlə əhatə olunub. Medalyonun içərisindəki boşluqlar səkkizguşəli ulduz, dördləçəkli çiçək, gözqaytarıcı elementlərlə işlənmişdir. Göy yerlikli medalyonlarda da "qoşabuynuz", gül-çiçək və digər klassik elementlər təsvir edilmişdir. Xalçanın ara sahəsinin boşluqları qarmaqlı, rombvari, gözqaytarıcı, nəbati, "daraq" adlandırılan və digər motivlərlə bəzədilmişdir. Sürməyi yerlikli rombvari elementlərin içərisində qırmızı və bal rəngli dörd "nal" şəkilli elementlər vardır. Sürməyi yerlikli enli haşiyə göy, qırmızı, şəkəri, bal rəngi, açıq şabalıdı, sürməyi rəngli kiçikölçülü kvadrat formalı elementlərlə tərtib edilmişdir.Haşiyəni hər iki tərəfdən şəkəri və qırmızı rəngli diliklərlə işlənmiş mədaxillər əhatə edir. Mədaxillərin kənarları qırmızı, bal rəngli "siçandişi"lərlə tamamlanır. Xalçanın ara sahəsindəki medalyonların sağ və solunda sürməyi və şəkəri yerlikdə kərpici,

ağ yerlikdə isə sürməyi rənglərlə işlənmiş "cütbuynuz" motivləri vardır. Xalçada zəngin rəng çalarlarının ənənəvi qanunauyğunluqla uzlaşması yüksək peşəkarlıqla həll edilmişdir.

H.1326-cı ilə (1908) aid olub, ölçüsü 193x134 olan xalça **(bax: Kataloq. №89)** Pəmbək mahalında (Qarakilsə) toxunmuşdur. Xalçanın ara sahəsinin yuxarı hissəsində sol tərəfdə mavi yerlikdə h. 1326 tarixi vardır. Orijinal tərtibata malik olan bu xalça Qazax-Borçalının "Qaymaqlı" kompozisiyası əsasında toxunmuşdur. Xalçanın adı Qazaxın şimal-qərbində 32 km-də yerləşən Qaymaqlı kəndinin adı ilə bağlıdır. Bəzi toxucular bu xalçanı "Ləmbəli" adlandırırlar. Qaymaqlı xalçası bədii cəhətdən sadə kompozisiyalı xalçalar sırasına daxildir. XIX əsrin əvvəllərində toxunmuş "Qaymaqlı"xalçaları istər kompozisiya quruluşuna, istərsə də rəng tərtibatına görə, son dövrlərdə toxunmuş bu kompozisiyalı xalçalardan seçilir. Bu kompozisiyalı xalçalar sonralar kütləvi surətdə toxunduğu üçün bəzi bədii xüsusiyyətlərini itirmişdir. Xalçanın ara sahəsində böyükölçülü tünd qırmızı rəngli səkkizbucaqlı göl tərtib edilmişdir. Gölün içərisində mərkəzdən bir qədər yuxarı hissədə sarı, sürməyi, qırmızı, yaşıl rənglərlə işlənmiş altıbucaqlı element vardır. Bu elementin solunda iki yaşıl, sağında isə iki göy rəngli çiçək təsviri verilmişdir. Gölün kənarları qara rəngli "su"lar, künclərdə isə sarı, qırmızı rəngli cüzi nəzərə çarpan "siçandişi"lərlə işlənmişdir. Ara sahənin küncləri mavi rənglə tərtib edilmişdir. Mavi yerlikdəki əbrəş çox aydın nəzərə çarpır. Ara sahənin kənarları mavi, qırmızı diliklərlə əhatə olunmuşdur. Ara sahəni tünd yaşıl yerlikli haşiyə əhatə edir. Yaşıl yerlikli bu haşiyənin içərisində kiçikölçülü ağ, qırmızı, sarı, sürməyi, mavi, yaşıl, qara rənglərlə tərtib edilmiş altıbucaqlı motivlər vardır. Bu motivlər qara rəngli "su"larla dörd hissəyə bölünmüşdür. Xalçanın qırmızı yerlikli ara haşiyəsində qara rəngli budaqlarda yarpaq, gül təsvirləri vardır. Budaqların arasında dördbucaqlı həndəsi motivlər və altıbucaqlı sarı, mavi, sürməyi, yaşıl, ağ rəngli elementlər işlənmişdir. Budaqlarda dördbucaqlı motivlər sürməyi, qara, mavi, sarı, şabalıdı, yaşıl, qırmızı rənglərlə işlənmişdir. Qırmızı yerlikli ara haşiyəni sürməyi yerlikli haşiyələr əhatə edir. Bu haşiyələrin içərisində şəkəri, sarı, qırmızı, mavi, yaşıl, ağ rəngli güllər işlənmişdir. Sürməyi yerlikli xarici haşiyə qırmızı, ağ, daxili haşiyə isə xaricdən sarı, qırmızı, daxildən isə qırmızı, sarı "siçandişi"lərlə əhatə olunmuşdur. "Siçandişi"lər hər iki tərəfdən "su"larla işlənmişdir. "Qaymaqlı"xalçaları adətən standart ölçülü olurlar. Bəzən bu xalçalar 6-7 kv.m. ölçüdə toxunur. Nadir hallarda bu kompozisiya ilə toxunmuş böyükölçülü xalılara da rast gəlinir. "Qaymaqlı" kompozisiyası ilə toxunan xalçaların hər bir kvadrat metrində 70.000-dən 90.000-ə qədər ilmə yerləşdirilir, bu tipli xalçaların xovunun hündürlüyü 8-12 millimetr olur. Bu xalçanın özünəməxsus kolorit xüsusiyyəti vardır. Azərbaycan xalçalarında istifadə edilən əksər rənglər bu xalçada tərtib edilmişdir.

H.1327-ci ilə (1909) aid üç xalçadan biri **(bax: Kataloq. №90)** Zəngəzur mahalında (Sisyan) toxunmuşdur. Ölçüsü 295x145-dir. Xalçanın yuxarı hissəsində solda h. 1327 tarixi vardır. Qırmızı yerlikli bu xalçanın əsas bəzəyi ara sahədə yerləşdirilmiş dörd böyükölçülü göldən ibarətdir. Göllərin ikisi ağ yerlikli, ikisi isə sürməyi yerliklidir. Göllərin mərkəzində qırmızı, yaşıl, sürməyi, boz, ağ xaçabənzər motivlər yerləşdirilmişdir. Bu motivlərin mərkəzində səkkizbucaqlı həndəsi elementlər vardır. Həndəsi elementlərin kənarları ağ, qırmızı rəngli "siçandişi"lər, aşağı hissədəki açıq yaşıl yerlikli elementin kənarları isə qara rəngli "su"larla işlənmişdir. Ağ

yerlikli göllərin kənarları xaricdən göy, sürməyi rəngli medalyonların kənarları isə xaricdən sarı rəngli qarmaqlı motivlərlə əhatə olunmuşdur. Ağ rəngli medalyonlar daxildən qırmızı, yaşıl, sürməyi rəngli medalyonlar isə qırmızı, ağ qırıq-qırıq xətlərlə işlənmişdir. Xalçanın ara sahəsinin boşluqları səkkizbucaqlı həndəsi, səkkizguşəli ulduz, altıləçəkli çiçək, rombvari, "S"-ə bənzər, "gözqaytarıcı" və kiçikölçülü "sırğa" adlanan motivlərlə doldurulmuşdur. Xalçanın ara sahəsinin kənarlarında sağ və soldan mərkəzə doğru istiqamətləndirilən ağ, göy, sarı, yaşıl rənglərlə işlənmiş qarmaqlı elementlər ümumi kompozisiyanı tamamlayır. Ara sahənin aşağı hissəsindəki ağ yerlikli gölün yuxarı hissəsində sağ və solda kənarları yaşıl qarmaqlarla işlənmiş kiçikölçülü medalyonlar vardır. Medalyonların mərkəzi soldan sarı, qırmızı, ağ, sağdan isə qırmızı, ağ rənglərlə işlənmiş üçbucaqlı hissələrə bölünmüşdür. Üçbucaqların kənarları qara rəngli "su"larla işlənmişdir. Xalçanın aşağı hissəsində ağ rəngli gölün içərisindəki boşluqlarda tərtib edilən "S"-ə bənzər, dördləçəkli kiçikölçülü cüzi nəzərə çarpan xaçabənzər ("dörd ünsür") motivləri, digər göllərdə isə müxtəlif rənglərlə işlənmiş xaçabənzər elementlər kompozisiyaya xüsusi görünüş gətirir. Xalçanın göy yerlikli enli haşiyəsi toxucuların "qazayağı" adlandırdığı motivlər və altıbucaqlı medalyonlarla tərtib edilmişdir. Medalyonların içərisində "nal" şəkilli, rombvari, bəzi medalyonlarda isə səkkizguşəli ulduz motivləri vardır. Haşiyəni hər iki tərəfdən içərisində sarı, qırmızı "mollabaşı"lar işlənmiş bala haşiyələr əhatə edir. Bala haşiyələrin kənarları ağ rəngli xaçabənzər ("dörd ünsür") motivlərlə tamamlanır. Xalça sadə kompozisiya quruluşuna və zəngin rəng çalarlarına malikdir.

Eyni ilə aid ikinci xalça **(bax: Kataloq. №91)** Qırxbulaq mahalında (Ellər) toxunmuşdur. Ölçüsü 289x172-dir. Xalçanın yuxarı hissəsindəki medalyonun alt hissəsindəki ara sahədə h. 1327 tarixi vardır. Xalçanın zoğalı yerlikli ara sahəsində üç böyükölçülü altıbucaqlı göl təsvir edilmişdir. Mərkəzdəki gölün kənarları sürməyi, qırmızı, yuxarı və aşağı hissədəki göllərin kənarları isə mavi və qırmızı rənglərlə tərtib edilmiş diliklərlə işlənmişdir. Mərkəzdəki gölün yuxarı hissəsi yaşıl, sürməyi, aşağı hissəsi isə yaşıl yerliklə tərtib edilmişdir. Gölün mərkəzindəki göy yerlikli səkkizbucaqlı həndəsi element qırmızı yerlikli kənarları çıxıntılı medalyonun içərisində yerləşdirilmişdir. Medalyonun çıxıntılarında sağ və solda mavi və göy yerlikli səkkizləçəkli güllər təsvir edilmişdir. Çıxıntıların boşluqları dördləçəkli qırmızı güllərlə bəzədilmişdir. Mərkəzdəki həndəsi elementin içərisində səkkizguşəli ulduz motivləri vardır. Ara sahənin yuxarı və aşağı hissəsindəki göllərdə də eyni formalı elementlər işlənmişdir. Yalnız bu çıxıntılı motivlər açıq qırmızı rənglərlə, mərkəzdəki səkkizbucaqlı element isə yaşıl yerlikdə tərtib edilmişdir. Bu elementlərin içərisində "nal" motivləri vardır. Eyni formalı səkkizbucaqlı elementlər nisbətən kiçik ölçüdə medalyonların sağında və solunda da təkrarlanır. Xalçanın ara sahəsindəki boşluqlar içərisində "nal" və səkkizguşəli ulduzlar işlənmiş həndəsi elementlərlə bəzədilmişdir. Ara sahəni mavi rəngli dilikli mədaxil əhatə edir. Xalçanın qırmızı yerlikli ana haşiyəsində dalğavari naxışlar işlənmişdir. Azərbaycan dekorativ tətbiqi sənətinin naxış motivləri içərisində ən ilkin və sadəsi sınıq və dalğalı xətlərdir. Bunlara 4,5 min il bundan əvvəl yaradılmış Qazax, Göygöl və Naxçıvan ərazisindən tapılmış saxsı qablar üzərində təsadüf edilir. Əsrlər ötdükcə dalğalı xətt əsasında yeni, nisbətən mürəkkəb bəzək motivləri yaranmışdır. Dalğaların arasındakı boşluqlar

güllərlə və iki tərəfdən "doğanağ"a bənzər (örkən haçası) motivlərlə bəzədilmişdir. Ana haşiyəni daxildən göy yerlikli, xaricdən isə mavi yerlikli bala haşiyələr əhatə edir. Bala haşiyələrdə eyni dalğavari elementlər qırmızı rənglərlə tərtib edilmişdir. Dalğavari xətlərin arasındakı boşluqlar şəkəri, qırmızı, şabalıdı, mavi, sürməyi, göy, yaşıl, narıncı rəngli "buta"larla bəzədilmişdir. Haşiyələr hər iki tərəfdən qırmızı, ağ rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Qırıq-qırıq xətlərin kənarları qara rəngli "su"larla işlənmişdir. Xalçada qırmızı, sürməyi və mavi rənglər çoxluq təşkil edir. Bu rənglərin müxtəlif motivlərdə təkrar-təkrar tərtib edilməsi nəticəsində çox baxımlı bir görünüş yaradılmışdır.

1909-cı ilə aid üçüncü xalçanın **(bax: Kataloq. №92)** ölçüsü 262x110 olub, Dərələyəz mahalında (Soylan) toxunmuşdur. Xalçanın yuxarı hissəsində qırmızı yerlikli bala haşiyənin içərisində h. 1327 tarixi vardır. Bu xalça "Qədim Gəncə" kompozisiyası əsasında toxunmuşdur. Sürməyi yerlikli bu xalçanın əsas bəzəyi ara sahə boyu maili istiqamətdə düzülmüş "buta" motivlərindən ibarətdir. Butalar ağ, qırmızı, mavi, sürməyi, sarı, şabalıdı, bənövşəyi rənglərlə işlənmişdir. Toxucular arasında bu butalar "gəzən buta" adlandırılır.Butaların rəngi sağa istiqamətdə bir-aşırı, sola istiqamətdə isə bəzən cərgəbəcərgə, bəzən isə hər iki, üç, dörd butadan bir dəyişdirilərək ritmik bir görünüş yaradılmışdır. Butaların içərisində kiçikölçülü cüzi nəzərə çarpan pilləli klassik elementlər işlənmişdir. Azərbaycan dekorativ-tətbiqi sənətində, o cümlədən xalçalarda çox geniş istifadə edilən "buta" həm xovsuz, həm də xovlu xalçalar üzərində əsas və sərbəst element kimi işlədilir. Çox qədim bir tarixə malik olan buta motivlərinə, nəinki xalçalarda, hətta memarlıq, zərgərlik, misgərlik, təkəldüzlükdə, saxsı məmulatlarında və dekorativ-tətbiqi sənətin bir çox başqa sahələrində də təsadüf edilir. Buta elementi Yaxın Şərq xalçalarına nisbətən, Azərbaycan xalçalarında daha dərin kök salmış və müxtəlif formalarda Şirvan, Qarabağ, Cənubi Azərbaycanın Sərab xalçalarında, İrəvan qrupuna daxil olan xalçalarda və xüsusilə, Bakının Xilə və Suraxanı xalçalarında daha çox inkişaf etmişdir. Qocaman toxucular və xalça naxışları üzərində tədqiqat işi aparmış sənətşünaslar butanın forma etibarilə atəşpərəstlərin simvolik mahiyyət daşıyan "atəş" rəmzi olduğunu güman edirlər. Ara sahənin boşluqları qarmaqlı, kiçikölçülü pilləli elementlər, gül, "dörd ünsür" və digər motivlərlə doldurulmuşdur. Xalçanın ağ yerlikli ana haşiyəsi göy, qırmızı, şabalıdı, bənövşəyi rənglərlə işlənmiş qarmaqlı motivlərlə bəzədilmişdir. Bu qarmaqlı motivlərin rəngi qanunauyğunluqla dəyişdirilərək xüsusi ahəng yaradılmışdır. Qarmaqlı motivlərin arasındakı boşluqlar sağ və soldan qırmızı rəngli, yuxarı hissədə isə qırmızı və göy rəngli kiçikölçülü pilləli elementlərlə doldurulmuşdur. Ara haşiyəni daxildən qırmızı yerlikli, xaricdən isə göy yerlikli bala haşiyələr əhatə edir. Bu haşiyələrin içərisində bənövşəyi, ağ, göy, qırmızı, sarı, açıq sürməyi rəngli pilləli klassik elementlər işlənmişdir. Qırmızı rəngli haşiyə daxildən ağ, qırmızı, xaricdən sarı, qırmızı, göy rəngli haşiyə isə daxildən göy, qırmızı, xaricdən sarı, qırmızı rəngli "siçandişi" lərlə tərtib edilmişdir. Xalçanın kənarları mavi, qırmızı, bənövşəyi rənglərlə hörmə üsulu ilə işlənmişdir.

H.1329-cu ilə (1911) aid olan xalça **(bax: Kataloq. №93)** Göyçə mahalında (Basarkeçər) toxunmuşdur. Ölçüsü 388x113-dür. Xalçanın yuxarı hissəsində narıncı rəngli ara haşiyənin içərisində h.1329 tarixi vardır. İki tarixin arasında "Mirəhd. Ə." yazılmışdır. Xalça Qarabağ kompozisiyası əsasında toxunmuşdur. Xalçanın

qara yerlikli ara sahəsində səkkiz qırmızı yerlikli medalyon yerləşdirilmişdir. Medalyonların mərkəzində xaçabənzər ("dörd ünsür") elementləri vardır. Bu elementlər narıncı, açıq yaşıl, ağ və qara rənglərlə işlənmişdir. Medalyonların kənarları bəzən qırmızı, bəzən isə narıncı zolaqlarla tərtib edilmişdir. Zolaqlar hər iki tərəfədən açıq yaşıl "su"larla tamamlanır. Xalçanın ara sahəsinin boşluqları "buta", səkkizguşəli ulduz, stilləşmiş "tula", "it", "quş", "keçi", rombvari, gül-çiçək və digər motivlərlə doldurulmuşdur. Bu motivlər narıncı, yaşıl, qırmızı, ağ və qara rənglərlə işlənmişdir. Xalçanın narıncı yerlikli ara haşiyəsi üz-üzə təsvir edilmiş üçbucaqlı motivlərlə bəzədilmişdir. Bu elementlər açıq yaşıl, qırmızı və solmuş qırmızı rənglərlə tərtib edilmişdir. Bu elementlərin kənarları qara rəngli "su"larla işlənmişdir. Üçbucaqlı formaya malik olan bu elementləri hər iki tərəfi "T"-hərfinə bənzər motiv iki hissəyə ayırır. Narıncı yerlikli ara haşiyəni xaricdən tünd qırmızı, daxildən isə solmuş qırmızıya çalan, nisbətən ensiz haşiyələr əhatə edir. Bu haşiyələrin içərisində dördləçəkli gül, yarpaq və kiçikölçülü kvadrat formalı motivlər vardır. Bu motivlər açıq yaşıl, narıncı, tünd qırmızı rənglərlə işlənmişdir. Dalğavari budaqlar və motivlərin kənarları qara rənglə işlənmişdir. Haşiyələr ağ, qırmızı və yaşıl, qırmızı "siçandişi"lərlə tamamlanır. "Siçandişi"lərin hər iki tərəfi qara rəngli "su"larla işlənmişdir. Azərbaycanın Qarabağ xalçaları üçün səciyyəvi olan rənglər bu xalçada yüksək peşəkarlıq və ənənəvi qanunauyğunluqla tərtib edilmişdir. Xalçada narıncı və solğun qırmızıya çalan, qara və tünd qırmızı rənglər üstünlük təşkil edir. Xalçanın bir-birini tamamlayan əlvan rəng qamması, yüksək peşəkarlıqla həll edilən naxış tərtibatı zövqü oxşayır.

H.1331-ci ilə (1912) üç xalça tədqiq edilmişdir. Onlardan biri **(bax: Kataloq. №94)** Əştərək mahalında toxunmuşdur. Ölçüsü 225x131-dir. Xalçanın ara sahəsində yaşıl yerlikli qubbanın içərisində h. 1331 tarixi vardır. Kərpiciyə çalan qırmızı yerlikli bu xalçanın ara sahəsində böyükölçülü sürməyi yerlikli göl yerləşdirilmişdir. Gölün mərkəzində böyükölçülü medalyon vardır. Medalyonun kənarları yuxarı və aşağı hissələrdə diliklərlə işlənmişdir. Kərpiciyə çalan qırmızı yerlikli bu medalyonun içərisində kənarları çıxıntılı motivlər vardır. Bu motivlərin mərkəzində ağ yerlikdə qarmaqlı elementlər təsvir edilmişdir. Çıxıntılar açıq yaşıl, ağ və sürməyi rənglərlə təkrarlanır. Medalyonun sağ və solunda sürməyi və ağ rənglərlə işlənmiş elementlər vardır. Bu tipli elementlər gölün boşluqlarında da narıncı, yaşıl, qırmızı və tünd şabalıdı rənglərlə işlənmişdir. Medalyonun yuxarı, aşağı hissələrində, mərkəzində və sağ, sol hissəsindəki boşluqlarda rombvari elementlər təsvir edilmişdir.Yuxarı və aşağı hissələrdə bu elementlər ağ, yaşıl, mərkəzdə sürməyi, narıncı, sağ və solda isə ağ, açıq şabalıdı, narıncı rənglərlə işlənmişdir. Sürməyi yerlikli gölün yuxarı və aşağı hissəsində yaşıl yerlikli qubbalarda da kənarları çıxıntılı motivlər təkrarlanır. Lakin bu motivlər kərpiciyə çalan qırmızı, sürməyi rənglərlə işlənmişdir. Bu motivlərin mərkəzində qarmaqlı elementlər vardır. Qarmaqlı elementlər narıncı rənglidir. Çıxıntılarda narıncı, sürməyi rəngli kvadrat şəkilli və digər ornamentlər təsvir edilib. Qubbaların kənarları kərpiciyə çalan qırmızı rəngli "su"larla sağ və sol tərəflərdə pillələrlə tərtib edilmişdir. Gölün kənarları daxildən narıncı, xaricdən isə yaşıl rəngli qarmaqlarla əhatə olunmuşdur. Ara sahənin künclərində də mərkəzdəki eyni tipli ornamentlər sürməyi, narıncı, yaşıl, şabalıdı rənglərlə tərtib edilmişdir. Xalçanın açıq şabalıdı yerlikli enli haşiyəsi ağ, yaşıl, sürməyi, kərpiciyə çalan qırmızı rənglərlə

işlənmiş kənarları pilləli klassik elementlər və digər klassik elenentlərlə bəzədilmişdir. Haşiyə hər iki tərəfdən içərisində rombvari ornamentlər işlənmiş sürməyi yerlikli ensiz haşiyələrlə əhatə olunmuşdur. Xarici haşiyənin kənarları kiçikölçülü ağ rəngli dördləçəkli çiçəklər və narıncı, yaşıl, açıq şabalıdı, kərpiciyə çalan qırmızı, sürməyi, mavi rəngli kvadrat şəkilli elementlərlə bəzədilmiş mədaxillərlə əhatə olunub. Daxili haşiyə hər iki tərəfdən ağ, kərpiciyə çalan qırmızı rəngli "siçandişi"lərlə tamamlanır.

Həmin ilə aid ikinci xalça **(bax: Kataloq. №95)** Göyçə mahalında (Basarkeçər) toxunub. Ölçüsü 227x118-dir. Xalçanın yuxarı hissəsində h. 1331 tarixi vardır. Bu xalça özünəməxsus bədii tərtibatı ilə seçilir. Sürməyi yerlikli bu xalçanın ara sahəsində iki böyükölçülü ağac təsviri vardır. Azərbaycanın dekorativ tətbiqi sənətində, o cümlədən xalçalarda çox geniş yayılmış nəbati bəzək motivlərindən biri ağac elementidir. Bu tipli bəzək elementləri XV-XVIII yüzilliklərdə özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır. Azərbaycan xalçalarında qədim dövrlərdən təsvir edilən "ağac" süjetinin bütün Şərq təsviri incəsənətində də dərin kökləri olub. Ağac təsvirinə keramika, daş, metal məmulatları, parçalar, tikmələr və xalçalar üzərində tez-tez rast gəlinir. Bu süjet əksər hallarda bir çox kompozisiya quruluşlarının mərkəzi, təşkiledici motivinə çevrilir. Şərq xalqlarının təsəvvürlərində ən qədim dövrlərdən etibarən "ağac" obrazı mühüm yer tutmuşdur. Ağacı sehirli qüvvə, ecazkar xüsusiyyətlər mənbəyi sayır, ona sitayiş edərdilər. Ağac obrazı universal dünya konsepsiyasını özündə təcəssüm etdirir. Ağaca aid edilən ecazkar xüsusiyyətlər sayəsində zaman ötdükcə o, bir çox xalqlar arasında ilahiləşdirilir, bütün dünya dinlərinə və dünya xalqlarının mifologiyasına daxil olur. Ağac obrazı bir neçə minillik ərzində təsviri və dekorativ tətbiqi sənət əsərlərində "dünya ağacı", "həyat ağacı" kimi öz əksini tapır. "Ağac" işıqlı gələcək , ölməzlik, münbitlik, çoxalıb-artma, bolluq, xoşbəxtlik və i.a. simvolu olur. "Həyat ağacı" ilə bağlı süjetlərə zərdüştlərin müqəddəs kitabı "Avesta"da rast gəlinir. Qafqazın bir çox xalqları, o cümlədən azərbaycanlılar arasında ağaclara sitayiş halları hələ də mövcuddur. Bu xalçanın ara sahəsində xalça boyu sağ və sol istiqamətə şaxələnən iki ağacın budaqları ara sahənin bütün boşluqlarını doldurmuşdur. Budaqlarda səkkizləçəkli gül təsvirləri vardır. Güllərin ləçəklərinin rəngi bir aşırı dəyişdirilərək aydın nəzərə çarpan bir forma alınmışdır. Güllər sarı, qırmızı, yaşıl, ağ, mavi, göy, şabalıdı, sürməyi rənglərlə tərtib edilmişdir. Ağacın budaqları şabalıdı, ağ kiçikölçülü kvadrat şəkilli elementlərlə bəzədilmiş, budaqlar isə ağ və şabalıdı rənglərlə tərtib edilmişdir. Gövdə və budaqların kənarları hər iki tərəfdən qırmızı "su"larla əhatə olunmuşdur. Ara sahənin boşluqları kiçikölçülü ağ, qırmızı, sarı, yaşıl, şabalıdı, sürməyi rənglərlə işlənmiş rombvari və çiçək təsvirləri ilə doldurulmuşdur. Xalçanın ağ yerlikli ana haşiyəsi mavi, qırmızı, yaşıl, sürməyi, sarı, ağ rənglərlə işlənmiş "zülfələm" motivləri ilə bəzədilmişdir. Ana haşiyəni daxildən qırmızı yerlikli, xaricdən isə mavi yerlikli bala haşiyələr əhatə edir. Qırmızı yerlikli bala haşiyədə ağ, sarı, yaşıl, mavi, göy, sürməyi rəngli kiçikölçülü güllər və ağ, yaşıl, mavi, sarı, göy, sürməyi rəngli "X"- ə bənzər elementlər işlənmişdir. Haşiyə daxildən ağ, qırmızı, xaricdən sarı, qırmızı "siçandişi"lərlə tərtib edilmişdir. Mavi yerlikli haşiyə isə dördləçəkli qırmızı, sarı, mavi, yaşıl, göy, sürməyi rəngli güllərlə işlənmişdir. Bu haşiyəni daxildən sarı, qırmızı, xaricdən isə ağ, qırmızı rəngli "siçandişi"lər əhatə edir. "Siçandişi"lərin kənarları qara "su"larla tamamlanır.

Eyni ilə aid üçüncü xalça **(bax: Kataloq. №96)** Zəngəzur mahalında (Sisyan)

toxunmuşdur. Ölçüsü 246x157-dir. Xalçanın ara sahəsində yaşıl rəngli gölün alt hissəsindəki boşluqda h. 1331 tarixi vardır. Xalçanın kompozisiyası ara sahə və haşiyə hissəsindən ibarətdir. Mor yerlikli ara sahədə üç böyükölçülü altıguşəli göl yerləşdirilmişdir. Mərkəzdəki yaşıl yerlikli gölün içərisində qırmızı rəngli dördbucaqlı medalyon vardır. Medalyonun mərkəzində sürməyi rəngli kənarları qarmaqlı element təsvir edilmişdir. Qarmaqlar ağ rənglə işlənmişdir. Azərbaycan dekorativ-tətbiqi sənəti nümunələrində, o cümlədən xalçalarda çoxbucaqlı qarmaqlı ornamentlər çox geniş təmsil olunmuşdur. Xalçalarda qarmaqlı ornamentlərin çox saylı nümunələrinə rast gəlmək olar. Qarmaqlı ornamentlər yalnız xalçalarda deyil, digər məişət əşyalarında: məfrəşlərdə, xalça materialından olan duz torbalarında, xurcunlarda və dəvə çullarında da dönə-dönə təsvir edilib və hazırda da bu ənənə davam etdirilir. Yaşıl yerlikli gölün içərisindəki mor rəngli medalyonun yuxarı və aşağı hissələrində sürməyi, mor rəngli qollar çarpazlanır. Medalyonun sağ və solunda "sünbül"ə bənzər elementlər işlənmişdir. Bu elementlər sürməyi, mor, sarı rənglərlə tərtib edilmişdir. Medalyonun üst və alt hissəsinin mərkəzində ucu rombşəkilli motivlər işlənmişdir. Eyni motivlər "sünbül"ə bənzər elementlərdə də təkrarlanır. Medalyonun kənarları ağ, mor rəngli qırıq-qırıq xətlərlə işlənmişdir. Xətlərin kənarları şabalıdı rəngli "su"larla tamamlanır. Ara sahənin yuxarı və aşağı hissəsindəki göy yerlikli göllərin içərisində böyükölçülü rombvari medalyonlar vardır. Medalyonların kənarları mor rəngli qarmaqlarla tərtib edilmişdir. Bu ağ yerlikli medalyonların içərisində, nisbətən kiçikölçülü rombvari medalyon yerləşdirilmişdir. Böyükölçülü medalyonun kənarlarındakı qarmaqlı motivlər kiçikölçülü medalyonlarda da eyni rənglə təkrarlanır. Göy rəngli göllərin kənarları ağ, qırmızı rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Xalçanın ara haşiyəsi mor, yaşıl, bənövşəyi, sürməyi rəngli kənarları pilləli elementlərlə bəzədilmişdir. Pilləli elementlərin kənarları ağ rəngli "su"larla tamamlanır. Ara haşiyə xaricdən içərisində mor, yaşıl, bənövşəyi rəngli klassik elementlər və səkkizguşəli ulduz motivlərilə işlənmiş sürməyi yerlikli haşiyə ilə əhatə olunmuşdur. Yaşıl yerlikli haşiyə daxildən ağ, qırmızı, xaricdən narıncı, ağ, sürməyi yerlikli haşiyə isə daxildən narıncı, ağ, xaricdən isə ağ, qırmızı rəngli qırıq-qırıq xətlərlə əhatə olunub. Ara haşiyənin kənarları ağ rəngli "su"larla işlənmişdir.

H.1332-ci ilə (1913) aid olan xalçalardan birinin **(bax: Kataloq. №97)** ölçüsü 292x105 olub, Əştərək mahalında toxunmuşdur. Xalçanın ara sahəsinin yuxarı hissəsində kərpiciyə çalan qırmızı yerlikli haşiyənin içərisində h. 1332 tarixi vardır. Sarı yerlikli bu xalçanın ara sahəsinin əsas bəzəyi bir-birinin ardınca düzülmüş butalardan ibarətdir. Butalar yuxarıdan birinci sırada sağa, ikinci sırada sola və qalan cərgələrdə eyni düzümlə bir-aşırı dəyişdirilərək çox baxımlı bir kompozisiya quruluşu yaratmışdır. Xalçada təsvir edilən bu növ butaları qocaman toxucular "şabalıd buta" adlandırırlar. Butalar kərpiciyə çalan qırmızı, qara, mavi, ağ, sarı, sürməyi, şabalıdı rənglərlə işlənmişdir. Butaların içərisində gül və kiçikölçülü buta motivləri yerləşdirilmişdir. Bu motivlər göy, açıq yaşıl, tünd şabalıdı, qırmızı, sarı, ağ rənglərlə tərtib edilmişdir. Ara sahənin boşluqları kiçikölçülü tünd şabalıdı rəngli kənarları pilləli motivlərlə doldurulmuşdur. Toxucular bu motivləri "bədnəzərdən qoruyucu" rəmz kimi yozurlar. Qoruyucu motivlərin kənarlarında qırmızı gəzmələri vardır. Xalçanın ağ yerlikli ana haşiyəsi səkkizbucaqlı medalyonlarla bəzədilmişdir. Ara sahədə tərtib edilmiş rənglər bu motivlərdə də təkrarlanır. Səkkizbucaqlı

medalyonların mərkəzində kənarları pilləli rombvari elementlər işlənmişdir. Bu elementlərin rəngləri də ara sahədəki butaların və səkkizbucaqlı elementlərin rəngi ilə ənənəvi qanunauyğunluqla uzlaşdırılmışdır. Ana haşiyəni hər iki tərəfdən içərisində altıbucaqlı elementlər işlənmiş kərpiciyə çalan qırmızı yerlikli bala haşiyələr əhatə edir. Altıbucaqlı elementlərin arasındakı boşluqlarda qoşa üçbucaqlı motivlər vardır. Altıbucaqlı və qoşa üşbucaqlı elementlər açıq yaşıl, mavi göy, ağ rənglərlə tərtib edilmişdir. Altıbucaqlı motivlərin içərisində "S"ə bənzər elementlər işlənmişdir. Ana haşiyə və bala haşiyə motivlərinin kənarları qara rəngli "su"larla tamamlanır. Xalçanın yuxarı və aşağı hissəsindəki ağ yerlikli ana haşiyələrdə səkkizguşəli ulduz motivləri vardır. Bu motivlərin arasında kiçikölçülü rombvari elementlər təsvir edilmişdir. Ulduzların yuxarı və aşağı hissəsindəki guşələr digər ulduzlara qollarla birləşdirilir. Xalça zəngin rəng palitrasına malikdir. Xaricdəki bala haşiyə yan tərəflərdə sağdan, yuxarı və aşağı hissələrdə xaricdən, daxildəki haşiyə isə içəridən qırmızı, ağ yerlikli "siçandişi"lər işlənmiş mədaxillərlə əhatə olunub. Mədaxillərin kənarları qara rəngli "su"larla tamamlanır. Xalçanın kənarları sağ və soldan sarı və şabalıdı rənglərlə hörmə üsulu ilə işlənmişdir.

Yenə həmin ilə aid ikinci xalça **(bax: Kataloq.98)** Göyçə mahalında (Kəvər) toxunmuşdur. Ölçüsü 222x152-dir. Xalçanın yuxarı hissəsində yaşıl gölün sağ və solunda h. 1332 tarixi vardır. Zoğalı yerlikli bu xalçanın ara sahəsində böyükölçülü yaşıl rəngli göl yerləşdirilmişdir. Gölün kənarlarında üçbucaqlı formalı çıxıntılar vardır. Çıxıntılar və digər hissələr göy, zoğalı və qırmızı "su"larla əhatə olunub. Yaşıl gölün içərisində bir-birinin ardınca düzülmüş üç rombvari medalyon təsvir edilmişdir. Medalyonlar bir-birinə bitişik formada işlənmişdir. Medalyonların mərkəzində dördbucaqlı formaya malik olan kənarları çıxıntılı kətəbələr vardır. Kətəbələrin yuxarı və aşağı hissəsində "buynuz" motivləri sağ və solda çıxıntılarla tərtib edilmişdir. Xalçanın yuxarı və aşağı hissəsindəki medalyonlar "T" hərfinə bənzər, kənarları qarmaqlı elementlərlə tamamlanır. Rombvari medalyonların kənarları mavi və yaşıl "su"larla və qara rəngli dilikli elementlərlə işlənmişdir. Xalçanın mavi yerlikli ara haşiyəsi zoğalı rəngli dalğavari elementlərlə bəzədilmişdir. Dalğavari elementlərin arasındakı boşluqlar gül, budaq və rombvari motivlərlə doldurulmuşdur. Ara haşiyəni göy və zoğalı yerlikli haşiyələr əhatə edir. Göy yerlikli haşiyədəki gül, budaq motivləri zoğalı rənglə, zoğalı haşiyədəki eyni motivlər mavi rənglə tərtib edilmişdir. Haşiyələr hər iki tərəfdən ağ, zoğalı rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Ara sahənin kənarları mavi, sürməyi rəngli diliklərlə əhatə olunmuşdur. Diliklərin kənarları qara rəngli "su"larla tamamlanır. Xalça Qazax-Borçalı məktəbi üçün səciyyəvi olan xüsusiyyətləri özündə əks etdirməklə yanaşı Kəvər bölgəsinə xas olan ənənəviliyi də özündə yaşadır.

H.1336-cı ildə (1917) Dərəçiçək mahalında (Axtı) toxunmuş xalçanın **(bax: Kataloq. №99)** ölçüsü 312x173-dür. Xalçanın ara sahəsində mərkəzdəki gölün üst hissəsində h. 1336 tarixi vardır. Bu xalça Qazax-Borçalının "Dəmirçilər" kompozisiyası əsasında toxunmuşdur. Sürməyi yerlikli ara sahədə bir böyükölçülü göl vardır. Gölün içərisində üç sürməyi yerlikli medalyon yerləşdirilmişdir. Medalyonların içərisində açıq qırmızı yerlikli həndəsi element vardır. Açıq qırmızı rəngli həndəsi elementin mərkəzində, ağ rəngli dördbucaqlı element işlənmişdir. Dördbucaqlı elementin mərkəzində zoğalı rəngli "qoşabuynuz" motivləri təsvir edilmişdir. Ağ yerlikli

elementlərin kənar-larında sağ, sol, yuxarı və aşağı tərəfə istiamətlənən "T" hərfinə bənzər motivlər vardır. Medalyonun kənarlarında göy yerlikli narıncı, zoğalı, ağ, şabalıdı, moruq rənglərlə islənmiş klassik, dilikli, qarmaqlı və digər motivlər vardır. Göllərin kənarları xaricdən açıq şabalıdı rəngli "su"larla, daxildən isə qırmızı, ağ rəngli "siçandişi"lərlə işlənmişdir. Xalçanın zoğalı yerlikli enli haşiyəsi ağ rəngli dalğavari xətlərlə tərtib edilmişdir. Dalğavari xətlərin çıxıntıları vardır. Dalğavari xətlərin arasındakı boşluqlar çəhrayı, göy, ağ, sarı, narıncı, şabalıdı, sürməyi, açıq qırmızı, açıq yaşıl rənglərlə işlənmiş güllərlə bəzədilmişdir. Ara haşiyəni daxildən narıncı yerlikli, xaricdən isə göy yerlikli ensiz haşiyələr əhatə edir. Narıncı yerlikli ensiz haşiyədə çəhrayı, göy, zoğalı ağ, açıq şabalıdı, sürməyi, moruq rəngli kiçikölçülü dördləçəkli güllər təsvir edilmişdir. Eyni motivlər çəhrayı, narıncı, ağ, zoğalı şabalıdı, moruğu rənglərlə göy yerlikli haşiyədə də təkrarlanır. Göy yerlikli haşiyənin kənarları çəhrayı rəngli "su"larla tamamlanır. Haşiyələr ağ qırmızı rənglərlə işlənmiş "siçandişi"lərlə əhatə olunmuşdur. Xalçanın ara sahəsinin boşluqları Qazax-Borçalı xalçaları üçün səciyyəvi olan elementlər ilə doldurulmuşdur. Bu elementlər şəkəri, qırmızı, zoğalı, göy, açıq şabalıdı, narıncı, mavi rənglərlə tərtib edilmişdir. Xalçada rəng tərtibatı yüksək peşəkarlıqla həll edilmişdir. Müxtəlif rəng çalarlarının qanunauyğunluqla uzlaşdırılmasından xüsusi ahəng yaradılmışdır.

H.1339-cu ilə (1920) aid olan sonuncu xovlu xalça **(bax: Kataloq. №100)** da Dərəçiçək mahalında (Axtı) toxunmuşdur. Xalçanın mərkəzindəki yaşıl yerlikli medalyonun içərisində sağ və solda h. 1339 tarixi iki hissədə işlənmişdir. Mor yerlikli bu xalçanın ara sahəsində üç böyükölçülü səkkizbucaqlı göl yerləşdirilmişdir. Xalçanın mərkəzindəki göl tünd yaşıl yerlikli, yuxarı və aşağı hissələrdəki göllər isə göy yerliklidir. Yaşıl yerlikli gölün mərkəzində eyni formalı, nisbətən kiçikölçülü altıbucaqlı göl, yuxarı və aşağı hissədə isə dördbucaqlı narıncı yerlikli həndəsi element vardır. Altıbucaqlı kiçikölçülü gölün mərkəzində kənarları dilikli narıncı, açıq şabalıdı rənglərlə işlənmiş və mərkəzində rombvari element tərtib edilmiş medalyon, dördbucaqlı elementlərin içərisində isə "qoşabuynuz" ornamenti vardır. Göy yerlikli böyükölçülü gölün boşluqlarında səkkizguşəli ulduz, səkkizləçəkli gül və stilləşmiş "keçi" təsvirləri vardır. Gölün kənarları sağ və soldan göy, çəhrayı, açıq yaşıl rənglərlə işlənmiş kiçikölçülü kvadrat şəkilli motivlərlə, aşağı və yuxarı hissələrdə isə çəhrayı, yaşıl, göy və mavi rəngli qırıq-qırıq xətlərlə tamamlanır. Xalçanın yuxarı hissəsindəki göy rəngli gölün içərisində də eyni elementlər təkrarlanır. Lakin bu elementlər yaşıl, narıncı, şabalıdı rəngli səkkizbucaqlı, nisbətən kiçikölçülü göl isə tünd şabalıdı yerliklidir. Gölün kənarları ağ, şabalıdı kvadrat və "Z"şəkilli motivlərlə əhatə olunub. Dördbucaqlı həndəsi elementlər mor yerlikli "qoşabuynuz" motivləri açıq yaşıl rəngli, yuxarıdakı elementin kənarları yaşıl, narıncı, aşağıdakı elementin kənarları isə şabalıdı, sarı maili düzülüşlü xətlərlə işlənib. Ara sahənin aşağı hissəsindəki göy yerlikli gölün içərisindəki səkkizbucaqlı nisbətən kiçikölçülü göl mor rənglə, içərisindəki ornamentlər narıncı, tünd yaşıl, açıq şabalıdı, şəkəri, göy rənglərlə, kənarları sarı, mor kvadrat və "Z"şəkilli elementlərlə əhatə olunub. Gölün yuxarı hissəsindəki həndəsi element mor yerliklə, içərisindəki "qoşabuynuz" motivi açıq yaşıl, həndəsi elementin kənarları isə açıq yaşıl və narıncı kvadrat şəkilli elementlərlə tamamlanır. Gölün aşağı hissəsində kiçikölçülü səkkizbucaqlı göl yerləşdirilmişdir. Kiçikölçülü bu gölün içərisindəki həndəsi element narıncı yerlikli, "qoşabuynuz"

motivi tünd yaşıl, həndəsi elementin kənarlarındakı kvadrat şəkilli, hissələrdəki ″Z″ şəkilli motivlər isə yaşıl və narıncı rənglərlə tərtib edilmişdir. Xalçanın tünd və açıq yaşıl yerlikli ana haşiyəsi kənarları pilləli klassik elementlər, "cütbuynuz" motivləri və digər elementlərlə bəzədilmişdir. Pilləli klassik elementlərin mərkəzində "dörd ünsür" motivi vardır. Ana haşiyəni hər iki tərəfdən mor və göy rəngli "mollabaşı"larla işlənmiş bala haşiyələr əhatə edir. Haşiyələr hər iki tərəfdən ağ və şabalıdı rənglərlə tərtib edilmiş kvadrat şəkilli mədaxillərlə tamamlanıb.

# IV. İrəvan bölgəsi xalçalarının əsas işarə və simvolları

Azərbaycan xalçaçılıq tarixinin ən mürəkkəb məsələlərindən biri də xalçaların "oxunması"dır. Xalçanın ümumi kompozisiyası, quruluşu, rəng harmoniyası və s. ilə yanaşı, onun üzərindəki işarə və simvolların müəyyənləşdirilməsi, mənalarının açılması böyük əhəmiyyət kəsb edir.

Bu məqsədlə Azərbaycan xalça qrupları üzrə ümumi və özünəməxsus işarələr genişmiqyaslı tədqiqatlara cəlb edilmiş, hər bir qrupa, o cümlədən İrəvan bölgəsində toxunan xalçalara xas olan işarələr müəyyənləşdirilmiş və mənalandırılmışdır. Burada İrəvan bölgəsinin xalçalarındakı əsas işarə və simvollar, onların semantikası təqdim edilir.

## Damğa



Bir çox sənət əsərlərində, həmçinin xalçalar üzərində geniş tətbiq olunan simvoldur. Ailə, oba, tayfa, boy rəmzi kimi istifadə olunmuşdur. Damğa hər bir xalçaçının, toxucunun möhürü, tanınma nişanı, imzası kimi izah edilməlidir. Tədqiqatlar göstərir ki, bütün tarixi dövrlərdə yalnız Azərbaycanda deyil, bütün türk dünyasında bir çox peşəkar xalçaçılar əl işlərinin üzərində öz adlarını həkk etdirmişlər. Daha qədim dövrlərdə isə toxucu məhz öz üslubuna və fantaziyasına müvafiq formada yaratdığı şəxsi imzasını məhz damğa olaraq xalça üzərində bir və ya bir neçə yerdə əks etdirmişdir. Bu damğa xalçanın kimə aid olduğunu göstərmişdir. Müəyyən zaman keçdikdən sonra damğalar daha mühüm mahiyyət kəsb etməyə başlamış, ayrı-ayrı birliklərin, qəbilələrin, tayfaların rəmzinə çevrilmişdir. Qeyd etmək lazımdır ki, tarixi-etnoqrafik tədqiqatlar zamanı damğalar xalçaların hansı bölgəyə, tayfaya aid olduğunu müəyyənləşdirməyə kömək edir.

## Daraq

 

Bu element müxtəlif formalarda və məqsədlərlə tətbiq olunmuşdur. Əsasən "Namazlıq"lar üzərində təsbeh, su qabı və s. kimi əşyalarla birlikdə mehrabın sağ və sol tərəflərində toxunan real formalı və ölçülü "daraq"lar təmizlik atributu kimi qəbul olunur. Lakin xalçalar üzərində daraq formalı, lakin bəzək elementi, doldurucu vasitə kimi işlənən, bununla belə "daraq" adlanan elementlər də vardır.

## Dua formalı üçkünc işarə



Müxtəlif rənglərdə, bir qayda olaraq, üçkünc formada, bəzəklərlə toxunan nəzərliklər Azərbaycan xalçalarının kompozisiyalarında, əsasən köməkçi element hesab olunur. Xalçaların ara sahəsinin kənar bəzəyi kimi, bir və ya bir neçə ədəd toxunur. Xalq inancına görə, bu element xalçanı, onun toxucusunu, hədiyyə edildiyi ailəni, evi bəd nəzərdən, mənfi münasibətlərdən qoruyur; "mühafiz" xarakterlidir.

## Əjdaha



Bu mifik canlı bəzi Şərq xalqlarının totemi, rəmzi hesab edilir. Çin mifologiyasına görə, əjdaha suyun hamisidir. O, insanlara su verir, ona sədaqətlə xidmət edənlərin tarlasını bolluca suvarır, fəlakətlərdən qoruyur. Əjdaha əzəmətli, zabitəli və mübariz obrazdır. Azərbaycanlıların mifoloji təsəvvürlərində əjdaha bolluq rəmzi kimi, eləcə də evin, ailənin, qəbilənin qoruyucusu kimi tanınır. Qeyd etmək zəruridir ki, Azərbaycan xalçaları üzərində tarixən mənfi, şər qüvvələrin simvolları öz əksini tapmamışdır. Toxucu öz arzularının, istəklərinin məhsulu olan xalçanı mənfi enerji ilə "yükləmək" niyyətindən uzaq olmuşdur. Bu mənada, "əjdaha" elementi stilizə olunmuş formada Azərbaycan xalçaları üzərində geniş əks olunmuş, hətta ayrıca bir xalça kompozisiyasına da çevrilmişdir (Məsələn, "Əjdahalı", Qarabağ qrupu).

## Göz



Azərbaycan xalçaları üzərində müxtəlif variantlarda (sadə və mürəkkəb) təsvir olunan həndəsi elementdir. Qocaman toxucular kiçikölçülü bir nöqtəni, yaxud bir noqtə ətrafında toxunmuş dörd kiçik kvadratı, rombşəkilli, daxilən dörd bərabər və rəngarəng hissələrə bölünmüş formaları və s. "göz" adlandırırlar. Bu, yardımçı elementdir. Xalçalar üzərində böyük ölçülərə malik, müstəqil şəkildə işlənən "göz" elementinə rast gəlinmir. Bir növ nəzərlik xarakteri daşıdığından, xalça üzərində müxtəlif mövqelərdə kiçik ölçüdə tətbiq

  

olunur. Bu elementə Azərbaycan xalçalarının bütün qruplarında rast gəlinir. Xalq inanclarına görə, üzərində "göz" işarəsi olan xalçalar həm özünü, həm də aid olduğu ailəni, evi bəd nəzərdən, pis niyyətlərdən mühafizə edir. "Göz"lər xalçalar üzərində kiçik ölçüdə toxundundan ilk baxışdan diqqəti cəlb etmir, digər "bəd nəzər"lər kimi mənfi enerjini "dəf edə" bilir.

## Gül

  

Bütün sənət əsərlərinin, o cümlədən xalçaların üzərində gözəllik, sevgi, dostluq, əmin-amanlıq rəmzi kimi təsvir olunan elementdir. Toxucunun əhval-ruhiyyəsindən, həyata, ətraf mühitə, insanlara münasibətindən və xalçanın toxunma məqsədindən asılı olaraq, güllərin rəngi, forma müxtəlifliyi, işlənmə tezliyi də dəyişir. Bəzi xalçalarda gül arasahədə əsas element kimi çıxış edir. Adətən böyükölçülu bu güllər saya (bir çox hallarda tünd) rəngli yerlik üzərində toxunur. Bu, onların daha qabarıq və gözəl görünməsinə imkan yaradır. Bəzən arasahədə iki və ya üç iriölçülü gül toxunur. Azərbaycan xalçalarının arasahəsində iriölçülü güllərə həndəsi və yaxud zoomorf elementlərlə birlikdə, demək olar ki, təsadüf edilmir. Toxucular xalçanın estetik gözəlliyini təmin etmək məqsədilə eyni və yaxud müxtəlif rəngli bu elementlərdən haşiyələrdə daha geniş istifadə edərək arasahədəki gülləri ön plana çəkməyə çalışmışlar. Lakin kiçikölçülü güllər digər qrup elementlərlə birlikdə xalçalar üzərində uğurla tətbiq olunmuşdur. Bu elementlər xalçanın ümumi fonunda təbiilik, mənzərə ab-havası yaradır.

## Heyvan



Tarixən xalçalar üzərində Azərbaycan türklərinin qədim təsərrüfat ənənələrini əks etdirən - ruzi-bərəkət, artım rəmzi kimi yozulan qoyun, keçi, at, dəvə, it və s. ev heyvanların təsvirləri daha çox üstünlük təşkil etmişdir. İrəvan qrupuna aid Azərbaycan xalçalarında heyvan motivləri əsasən kiçik ölçülərdə, müxtəlif rənglərdə, köməkçi, bəzək elementi kimi toxunmuşdur. Adətən, o qədər də böyük olmayan xalça səthində bu heyvan təsvirlərini bütünlüklə, real ölçüləri və formaları ilə toxumaq çətin olur. Burada toxumanın ibtidailiyi, texniki məhdudiyyətləri ilə əlaqədar təsvirlər şərti xarakter daşıyır. Məsələn, bir çox hallarda heyvanlar dörd ayaqla deyil, iki ayaqla toxunur. Bəzi hallarda isə həndəsi cizgilər, formalar qazanır.

## Həyat ağacı



Bu element türk folklorunun, etnoqrafiyasının, xalq sənətinin özəyini təşkil edir. Xüsusilə qədim xalq-tətbiqi sənət sahələrində bu elementin tez-tez tətbiq olunduğunu müşahidə etmək mümkündür. Xalçalar üzərində "həyat ağacı" həm təbii istiqaməti, həm də əks istiqaməti ilə toxunmuşdur. Adi ağac

təsvirlərindən fərqli olaraq, “həyat ağacı” daha çox şaxələnən budaqlardan ibarət olur. Onun uzərində bar, yarpaq, gül-cicək təsvirlərinə yer verilmir. Burada əsas diqqət inkişafı, gələcəyi səciyyələndirən budaqlara yönəldilir. Azərbaycanın bütün xalça qruplarında tətbiq olunan “həyat ağacı” elementi bir ailənin, nəslin, tayfanın, ümumiyyətlə geneoloji cəhətdən bir-biri ilə bağlı olan birliklərin inkişafının rəmzi kimi çıxış edir. Bəzən xalçalar üzərində əks istiqamətdə toxunmuş “həyat ağacı”na da rast gəlinir. Sənət tarixində bu, ölümdən sonrakı həyatın- axirət dünyasının, əbədiyyətə qovuşmuş nəsillərin simvolu kimi səciyyələndirirlər.

## Qoç buynuzu







Zoomorf elementdir. Azərbaycan xalçalarının bütün qruplarına aid xalçalar üzərində qoyun, qoç, keçi və s. kimi ev heyvanlarının təsvirləri xalqın təsərrüfat həyatının, bolluğun, bərəkətin rəmzi olaraq əks etdirilmişdir. Qoç mifik təsəvvürlərdə, əfsanə və nağıllarda xilaskar obrazıdır. “Qoç döyüşünə qoç dayanar”, “iki qoçun başı bir qazanda qaynamaz” və s. kimi məsəllər, “qoç kimi” ifadəsi də xalq arasında geniş işlənir. Xalçalar üzərində “qoç buynuzu” simvolu müxtəlif ölçülərdə və rənglərdə, bir qayda olaraq, həm əsas, həm də köməkçi, bəzək elementi kimi tətbiq edilir.

## Quş

 

Xalçalar üzərində əks olunan ən qədim zoomorf elementlərdən biridir. Həm vəhşi, həm də ev quşlarının təsvirləri Azərbaycan xalçalarının bütün qrupları üçün səciyyəvidir. Real və əfsanəvi quşların təsvirləri, üsluba müvafiq olaraq, xalçaçılıq tarixinin bütün mərhələlərində öz ifadəsini tapmışdır. Toxucular realistik üslublu xalçalar üzərində daha çox ev quşlarının təsvirlərini tətbiq etmişlər. Bəzən bir quş balası ilə birlikdə təsvir olunur. Burada müvafiq ölçüyə və oxşarlığa riayət olunması diqqəti cəlb edir. Xalçalar üzərində "quş" obrazı xəbər, müjdə daşıyıcısı kimi qəbul olunur. Balası ilə birlikdə təsvir olunan "quş" isə ailə, nəsil artımı, övlad yolu gözləyən qadın kimi yozulur.

Quşları adətən ya üz-üzə, ya da bir-birindən "küsmüş" şəkildə təsvir edirlər. Bu motivləri xalq sevgi və ayrılığın simvolu kimi izah edir.



## Ox



Azərbaycan xalçaları üzərində geniş şəkildə tətbiq edilən elementdir. Lakin o xalça kompozisiyada müstəqil şəkildə çıxış etmir. Köməkçi element kimi müxtəlif rəngli, orta, yaxud kiçikölçülü bir neçə "ox"un kompleks halda işləndiyini müşahidə etmək mümkündür. Bəzən müxtəlif rəngli oxlar eyni rəngli yerliklərdə, bəzən isə əksinə eyni rəngli oxlar müxtəlif rəngli yerliklər üzərində toxunmuşdur. Oxların əks istiqamətdə və ya eyni istiqamətdə to-







xunması xalçanın kənar haşiyəsinin tərtibatından və toxucunun şəxsi fantaziyasından, bədii təxəyyülündən asılıdır. Haşiyələrdə "ox" elementinin öz ilkin formasından uzaqlaşaraq sıralanması nəticəsində xalçaçılar arasında "su" adlanan silsilələr də yaranmışdır. Bu "su"lar üçbucaq formalı olurlar. Xalçalar üzərində "ox"lar məqsədyönlülük rəmzi kimi yozulur. Bir mərkəzə doğru yönəlmiş bir neçə ox təsviri isə vəhdət, eyni amal ətrafında birləşmək kimi mənalandırılır.

## Ulduz

 

Həm həndəsi, həm də astral simvoldur. Xalçalar üzərində ulduz adətən bəzək elementi kimi tətbiq olunur. Kompozisiyanın məna yükünü gücləndirmək məqsədilə ulduz işıq, ağıl və xoşbəxtlik rəmzi kimi də tətbiq olunur. Bu bilavasitə xalq təsəvvürləri, inancları ilə bağlı olan məsələdir. Təsadüfi deyil ki, “ulduzu parlamaq” ifadəsi Azərbaycanın müxtəlif bölgələrində xoşbəxtlik, rahatlıq mənasında işlənir. Xalça üzərində təsvir edilən içərisində rəngbərəng, beş, altı, səkkizguşəli ulduzlar olan göllər firavan ailə rəmzi kimi yozulur. Üzərində ulduz təsviri olan xalçaları yeni qurulan ailələrə hədiyyə etmək ənənə halını almışdır.

# NƏTİCƏ

Azərbaycan xalçaçılığı xalqın tarixən əldə etdiyi ən böyük nailiyyətlərdən biridir. Azərbaycan xalçaçılığının tarixinin öyrənilməsi sahəsində müəyyən işlər görülsə də, onun əsas istiqamətlərindən biri olan İrəvan bölgəsinin xalçaçılıq sənəti uzun müddət tədqiqatlardan kənarda qalmışdır. Xalçaçılığa aid ümumi tədqiqat əsərlərində isə İrəvan bölgəsi xalçaları Qarabağ qrupuna aid edilmişdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra, qədim Azərbaycan torpaqları olan İrəvan bölgəsinin tarixinə, o cümlədən onun xalçaçılıq sənətinin tarixinə maraq artmışdır. Bunun nəticəsidir ki, Azərbaycanın İrəvan bölgəsində xalçaçılıq sənətinin tarixi müstəqil mövzu kimi seçilmiş və tədqiqata cəlb edilmişdir. Mövzunun xronoloji çərçivəsi ümumi tarixi inkişafın ən mühüm dövrünü - XVIII əsrin II yarısı-XX əsrin əvvəllərini və ya konkret olaraq İrəvan xanlığı (1747-1827-ci illər) və Rusiya imperiyasının bölgədəki müstəmləkəçilik dövrlərini (1827-1917-ci illər) əhatə edir. Bu xronoloji çərçivə 170 illik dövr ərzində İrəvan bölgəsində xalçaçılıq sənətinin əsas inkişaf məsələlərini aydınlaşdırmağa imkan verir.

Mövzunun ətraflı şəkildə araşdırılması məqsədi ilə mövcud tarixi və sənətşünaslıq ədəbiyyatı tədqiqata cəlb edilmiş, geniş mənbə bazası formalaşdırılmışdır. İstifadə edilən mənbələr içərisində uzun müddət ərzində aparılan etnoqrafik çöl tədqiqatları zamanı böyük çətinliklərlə toplanan və mövzunun xronolji çərçivəsinə aid olan 100 xalça xüsusi olaraq qeyd edilə bilər. Bu metod xalçaçılığa dair tarixi tədqiqatlarda ilk dəfə tətbiq olunur. Bununla əlaqədar olaraq işdə xalçaların sənətkarlıq xüsusiyyətinin də tədqiqinə geniş yer verilməsi zərurəti yaranmışdır.

Tədqiqat işində XVIII əsrin II yarısı-XX əsrin əvvəllərində Azərbaycanın İrəvan bölgəsində xalçaçılıq sənətinin inkişafını obyektiv tədqiq etmək məqsədi ilə onun ən mühüm məsələlərini nəzərə almaq zərurəti meydana gəlmişdir. Bu məqsədlə işin birinci hissəsində müəyyən edilmiş xronoloji çərçivədə ümumiazərbaycan tarixi istiqamətində bölgənin əvvəlcə siyasi tarixi öyrənilmişdir. Tarixi faktlar əsasında bir daha İrəvan bölgəsinin Azərbaycanın qədim tarixi-coğrafi ərazisi olması təsdiq edilmişdir. İrəvan xanlığının meydana gəlməsi Azərbaycanda xanlıqyaranma prosesinin tərkib hissəsi olmuşdur. İrəvan xanlığı Azərbaycan dövlətçilik tarixində də mühüm yer tutmuşdur. Xanlıq bir tərəfdən yadelli işğalçılara qarşı layiqli mübarizə aparmış, digər tərəfdən öz müstəqilliyini qorumağa xüsusi diqqət yetirmişdir. XVIII əsrin sonları-XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazı işğal siyasətini gücləndirməsi İrəvan xanlığından da yan keçməmişdir. Lakin İrəvan xanlığının mübarizəsi nəticəsində 1804-1813-cü illər müharibəsi zamanı onu işğal etmək mümkün olmamışdır. Buna baxmayaraq Rusiya imperiyası yeni 1826-1828-ci illər müharibəsinədək olan dövrdə İrəvan xanlığına qarşı iddialarını davam etdirmiş, müharibənin gedişi zamanı isə ciddi müqavimətə baxmayaraq 1827-ci il oktyabrın 1-də xanlığın mərkəzi İrəvan şəhərini tutmağa nail olmuşdur.

Beləliklə, İrəvan bölgəsində xanlıq dövrü başa çatmış, ağır müstəmləkəçilik dövrü başlamışdır. Rusiya imperiyası İrəvan bölgəsinin inzibati idarə üsulunun dəyişdirilməsinə çalışmışdır. 1828-ci ildə Naxçıvan xanlığı ilə birlikdə tarixi İrəvan bölgəsində qondarma "erməni vilayəti" yaradılmışdır. Belə bir siyasətin doğru olmadığını dərk edən Rusiya imperiyası 1840-cı illər islahatının gedişi zamanı

onu ləğv etmiş, İrəvan əyaləti təşkil edilmişdir. 1849-cu ildə isə İrəvan quberniyası yaradılmışdır. İrəvan bölgəsinin ümumi idarəsi ilə yanaşı, onun tarixən formalaşmış inzibati-ərazi bölgüsü də tədricən aradan qaldırılmış, qəza sistemi yaradılmışdır.

İrəvan bölgəsi tarixinin ən ağır səhifələrindən biri onun Rusiya imperiyası tərəfindən məqsədyönlü şəkildə erməniləşdirilməsi olmuşdur. İrəvan ən ciddi erməniləşdirmə siyasətinə məruz qalmış bölgə olmuşdur. Bu siyasət nəticəsində bölgənin etno-demoqrafik tərkibi dəyişikliyə uğramış, onun yerli əhalisi olan azərbaycanlılar ya bölgəni tərk etməyə məcbur olmuş, ya da demoqrafik sarsıntıya məruz qalmışlar.

İrəvan bölgəsində cərəyan edən mürəkkəb siyasi proseslər sosial-iqtisadi həyata da ciddi təsir göstərmişdir. Xanlıq dövründəki ara çəkişmələri, XIX əsrin ilk qərinəsindəki müharibələr iqtisadi böhran yaratmış, əkin sahələrinin azalmasına, sənətkarlıq sahələrinin zəifləməsinə səbəb olmuşdur.

İrəvan bölgəsinin iqtisadiyyatında, bütün dövrlərdə olduğu kimi tədqiq edilən dövrdə də xalçaçılıq sənəti mühüm rola malik olmuşdur. Aparılan tədqiqatlar nəticəsində İrəvan bölgəsinin bütün tarixi mahallarında xalçaçılığın ənənələri və vəziyyəti hərtərəfli şəkildə araşdırılmışdır.

Tədqiqat işində İrəvan bölgəsi xalçalarının sənətkarlıq xüsusiyyətlərinin müəyyən edilməsi önəmli yer tutur. Bu məqsədlə İrəvan bölgəsininm mahallarından toplanmış 100 xalça xovlu və xovsuz olmaqla növlərinə görə təsnif edilmiş, onların hər birinin ayrıca xarakteristikası verilmişdir. Bundan başqa, İrəvan bölgəsi xalçaları üçün səciyyəvi olan əsas elementlər müəyyənləşdirilmiş və onların semantikası şərh edilmişdir.

Tədqiqat işində əldə edilmiş elmi-təcrübi nəticələr Azərbaycanın xalça sənəti tarixini, o cümlədən xalça sənətşünaslığını yeni müddəalarla zənginləşdirmişdir.

Azərbaycanın İrəvan bölgəsinin xalça sənəti tarixinin tədqiqi bəzi tövsiyələri də zəruri edir:

- Azərbaycanın İrəvan bölgəsində toxunan xalçalar Azərbaycan xalçalarının İrəvan qrupu kimi ayrılmalı və bu əsasda tədqiq edilməlidir;
- İrəvan bölgəsi xalçalarının çeşnilərinin itib-batmaması üçün həmin çeşnilər bərpa edilməli və müasir xalçaçılıqda tətbiq edilməlidir;
- Azərbaycan Xalça Muzeyində Azərbaycan xalçalarının İrəvan qrupu xüsusi qrup kimi təmsil olunmalıdır.

# İrəvan bölgəsi xalçalarının KATALOQU



**№1. Xalça. Yun. Xovlu. 178x124. h. 1201 (1780). İrəvan şəhəri.**



**№2. Xalça. Yun. Xovlu. 186x111 h. 1206 (1791). Talın.**



**№3. Xalça. Yun. Xovlu. 261x157. h. 1209 (1794). Soylan, Dərələyəz.**



**№4. Xalça. Yun. Xovlu. 180x112. h. 1230 (1814). Sisyan, Zəngəzur.**



**№5. Xalça. Yun. Xovlu. 463x250. h. 1230 (1814). İrəvan şəhəri.**



**№6. Xalça. Yun. Xovlu. 300x136. h. 1232 (1816). Basarkeçər, Göyçə.**



**№7. Xalça. Yun. Xovlu. 202x168. h. 1233 (1817). Aparan.**



**№8. Xalça. Yun. Xovlu. 282x142.h. 1240 (1824). Əştərək.**



**№9. Xalça.Yun. Xovlu. 210x121. h. 1240 (1824). Mehri, Zəngəzur.**



**№10. Xalça. Yun. Xovlu. 231x190. h. 1250 (1834). Tovuzqala, Şəmşəddin.**




**№11. Zili. Yun. Xovsuz. 204x150. h. 1252 (1836). Aparan.**



**№12. Xalça. Yun. Xovlu. 207x165. h. 1252 (1836). Tovuzqala, Şəmşəddin.**



**№13. Xalça. Yun. Xovlu. 220x136. h. 1254 (1838). Keşişkənd, Dərələyəz.**



**№14. Xalça. Yun. Xovlu. 298x182. h. 1260 (1844). İrəvan şəhəri.**



**№15. Xalça. Yun. Xovlu. 196x131. h. 1260 (1844). Qəmərli, Gərnibasar.**



**№16. Xalça. Yun. Xovlu. 154x89. h. 1267 (1850). Axta, Dərəçiçək.**



**№17. Xalça. Yun. Xovlu. 244x162. h. 1270 (1853). Ağbaba.**



**№18. Xalça. Yun. Xovlu. 283x137. 1849-cu il. Vedi, Vedibasar.**



**№19. Xalça. Yun. Xovlu. 268x155. h. 1271 (1854). Qəmərli, Gərnibasar.**



**№20. Xalça. Yun. Xovlu. 263x200. 1850-ci il. Sisyan, Zəngəzur.**



**№21. Vərni. Yun. Xovsuz. 302x230. 1850-ci il. Basarkeçər, Göyçə.**



**№22. Xalça. Yun. Xovlu. 267x110. h. 1271 (1854). Üçkilsə.**



**№23. Xalça. Yun. Xovlu. 228x95. h. 1271 (1854). İrəvan şəhəri.**



**№24. Xalça. Yun. Xovlu. 190x130. h. 1271 (1854). İrəvan şəhəri.**



**№25. Xalça. Yun. Xovlu. 227x168. h. 1272 (1855) . Vedi, Vedibasar.**



**№26. Xalça. Yun. Xovlu. 221x133. h. 1272 (1855). İrəvan şəhəri.**



**№27. Xalça. Yun. Xovlu. 254x147. h. 1273 (1856). Cəlaloğlu, Loru.**



**№28. Xalça .Yun. Xovlu. 226x118. h. 1274 (1857). Vedi,Vedibasar.**



**№29. Xalça. Yun. Xovlu. 198x131. h. 1276 (1859). Üçkilsə.**



**№30. Xalça. Yun. Xovlu. 204x122. h. 1277 (1860). İrəvan şəhəri.**



**№31. Xalça. Yun. Xovlu. 252x134. h. 1277 (1860). Keşişkənd, Dərələyəz.**



**№32. Xalça. Yun. Xovlu. 272x105. h. 1278 (1861). Çəmbərək, Göyçə.**



**№33. Xalça. Yun. Xovlu. 213x162 h. 1278 (1861). Gorus, Zəngəzur.**



**№34. Xalça. Yun. Xovlu. 234x115. h. 1279 (1862). Soylan, Dərələyəz.**



**№35. Xalça. Yun. Xovlu. 228x167. h. 1279 (1862). Hamamlı, Pəmbək.**



**№36. Xalça. Yun. Xovlu. 272x189. h. 1280 (1863). Hamamlı, Pəmbək.**



**№37. Xalça. Yun. Xovlu. 158x127. h. 1280 (1863). Soylan, Dərələyəz.**



**№38. Xalça. Yun. Xovlu. 220x132. h. 1280 (1863). Qəmərli, Gərnibasar.**



**№39. Xalça. Yun. Xovlu. 126x99. h. 1282 (1865). İrəvan şəhəri.**



**№40. Xalça. Yun. Xovlu. 210x140. h. 1282 (1865). Mehri, Zəngəzur.**



**№41. Xalça. Yun. Xovlu. 217x137. h. 1282 (1865). Barana, Loru.**



**№42. Xalça. Yun. Xovlu. 492x108. h. 1283 (1866). Mehri, Zəngəzur.**



**№43. Xalça. Yun. Xovlu. 212x139. h. 1283 (1866). Zəngibasar.**



**№44. Xalça. Yun. Xovlu. 197x136. h. 1284 (1867). Basarkeçər, Göyçə.**



**№45. Xalça. Yun. Xovlu. 251x147. h. 1284 (1867). Voronsovka, Loru.**



**№46. Xalça. Yun. Xovlu. 192x157. h. 1286 (1869). İrəvan şəhəri.**



**№47. Xalça.Yun. Xovlu. 263x134. h. 1286 (1869). Keşişkənd, Dərələyəz.**



**№48. Xalça. Yun. Xovlu. 271x140. h. 1287 (1870). Zəngibasar**



**№49. Xalça. Yun. Xovlu. 320x150. h. 1288 (1871). Vedi, Vedibasar.**



**№50. Zili. Yun. Xovsuz. 242x137. h. 1290 (1873). Basarkeçər, Göyçə.**



**№51. At çulu. Yun. Xovsuz. 193x161. h. 1291 (1874). Keşişkənd, Dərələyəz.**




**№52. Kilim. Yun. Xovsuz. 302x193. h. 1292 (1875). Gümrü şəhəri, Şörəyel.**




**№53. Xalça. Yun. Xovlu. 208x169. h. 1292 (1875). Gümrü şəhəri, Şörəyel.**



**№54. Kilim. Yun. Xovsuz. 340x173. h. 1292 (1875). Talın**



**№55. Kilim. Yun. Xovsuz. 262x176. h. 1292 (1875). Ağbaba.**



**№56. Xalça. Yun. Xovlu. 222x177. h. 1292 (1875). Hamamlı, Pəmbək.**



**№57. Kilim. Yun. Xovsuz. 266x165. h. 1293 (1876). Soylan, Dərələyəz.**



**№58. Kilim. Yun. Xovsuz. 300x173. h. 1296 (1878). Qafan, Zəngəzur.**



**№59. Kilim. Yun. Xovsuz. 367x131. h. 1297 (1879). Sərdarabad.**



**№60. Kilim. Yun. Xovsuz. 278x206. h. 1298 (1880). Qafan, Zəngəzur.**



**№61. Çiyi palaz. Yun. Xovsuz. 314x186. h. 1298 (1880). Barana, Loru.**



**№62. Xalça. Yun. Xovlu. 376x191. h. 1299 (1881). Hamamlı, Pəmbək.**



**№63. Kilim. Yun. Xovsuz. 280x199. h. 1299 (1881). Ağbaba.**



**№64. Vərni. Yun. Xovsuz. 374x228. h. 1299 (1881). Soylan, Dərələyəz.**



**№65. Xalça. Yun. Xovlu. 275x187. h. 1300 (1882). Ağbaba.**



**№66. Xalça. Yun. Xovlu. 233x162. h. 1306 (1888). Əştərək.**



**№67. Kilim. Yun. Xovsuz. 380x223. h. 1307 (1889). Basarkeçər, Göyçə.**



**№68. Xalça. Yun. Xovlu. 234x170. h. 1307 (1889). İrəvan şəhəri.**



**№69. Xalça. Yun. Xovlu. 262x119. h. 1309 (1891). Talın.**




**№70. Xalça. Yun. Xovlu. 198x155. h. 1309 (1891). İrəvan şəhəri.**



**№71. Xalça. Yun. Xovlu. 225x145. h. 1310 (1892). Voronsovka, Loru.**




**№72. Xalça. Yun. Xovlu. 245x188. 1890-cı il. Əştərək.**



**№73. Xalça. Yun. Xovlu. 206x127. h. 1311 (1893). İrəvan şəhəri.**



**№74. Kilim. Yun. Xovsuz. 267x204. h. 1312 (1894). Axta, Dərəçiçək.**



**№75. Xalça. Yun. Xovlu. 205x143. h. 1312 (1894). Basarkeçər, Göyçə.**



**№76. Xalça. Yun. Xovlu. 236x168. h. 1312 (1894). Basarkeçər, Göyçə.**




**№77. Xalça. Yun. Xovlu. 230x142. h. 1313 (1895). Soylan, Dərələyəz.**



**№78. Xalça. Yun. Xovlu. 260x166. h. 1313 (1895). Sisyan, Zəngəzur.**



**№79. Xalça. Yun. Xovlu. 210x140. h. 1314 (1896). Sərdarabad.**



**№80. Xalça. Yun. Xovlu. 245x110. h. 1315 (1897). Çəmbərək, Göyçə.**



**№81. Xalça. Yun. Xovlu. 220x118. h. 1317 (1899). Kəvər, Göyçə.**



**№82. Xalça. Yun. Xovlu. 248x165. h. 1317 (1899). Ellər, Qırxbulaq.**



**№83. Xalça. Yun. Xovlu. 196x138. h. 1320 (1902). İrəvan şəhəri.**



**№84. Xalça. Yun. Xovlu. 223x138. h. 1320 (1902). Axtı, Dərəçiçək.**



**№85. Xalça. Yun. Xovlu. 221x102. h. 1320 (1902). Sərdarabad.**



**№86. Xalça. Yun. Xovlu. 347x112. XX əsrin əvvəli. Vedi,Vedibasar.**



**№87. Xalça. Yun. Xovlu. 354x106. h. 1322 (1904). İrəvan şəhəri.**



**№88. Xalça. Yun. Xovlu. 210x157. h. 1322 (1904). Şörəyel.**



**№89. Xalça. Yun. Xovlu. 193x134. h. 1326 (1908). Qarakilsə, Pəmbək.**



**№90. Xalça. Yun. Xovlu. 295x145. h. 1327 (1909). Sisyan, Zəngəzur.**



**№91. Xalça. Yun. Xovlu. 289x172. h. 1327 (1909). Ellər, Qırxbulaq.**



**№92. Xalça. Yun. Xovlu. 262x110. h. 1327 (1909). Soylan, Dərələyəz.**



**№93. Xalça. Yun. Xovlu. 388x113. h. 1329 (1911). Basarkeçər, Göyçə.**




**№94. Xalça. Yun. Xovlu. 225x131. h. 1331 (1912). Əştərək.**



**№95. Xalça. Yun. Xovlu. 227x118. h. 1331 (1912). Basarkeçər, Göyçə.**




**№96. Xalça. Yun. Xovlu. 246x157. h. 1331 (1912). Sisyan, Zəngəzur.**



**№97. Xalça. Yun. Xovlu. 292x105. h. 1332 (1913). Əştərək.**



**№98. Xalça. Yun. Xovlu. 222x152. h. 1332 (1913). Kəvər, Göyçə.**



**№99. Xalça. Yun. Xovlu. 312x173. h. 1336 (1917). Axtı, Dərəçiçək.**



**№100. Xalça. Yun. Xovlu. 244x166. h. 1339 (1920). Axtı, Dərəçiçək.**

**V. A. Muradov**

# Iravan District of Azerbaijan: history and carpets (second half of the 18th century and early 20th century)

## Summary

Historical and geographical Western Azerbaijan or Iravan district composes part of Azerbaijan history. This historical district of Azerbaijan was one of the regions where carpet weaving art highly developed. In the monograph the development of the carpet weaving art and the artistic features of rare carpet samples are studied in the historical context of Iravan district of Azerbaijan during late 18th century and early 20th century.

The topicality of the subject, the chronological framework of the research, the level of the study of the issue, the source base, and the classification of a hundred original carpets related to the district in accordance with their chronology, geographical territory and type and other important issues are interpreted in the introduction of the monograph.

Fundamental problems of Iravan district history of late 18th century and early 20th century is considered in the first part. Eight maps related to the period given here create thorough information about history and geography of the district.

The situation of the development of carpet weaving in Iravan district's Iravan city and other provinces (Agbaba, Shoreyel, Loru, Pembek, Shemsheddin, Goyche and so on) is researched in the second part.

The third part that is dedicated to the flat-weave carpets of Iravan district concerns the classification of this type carpets, their artistic features and other products (kilim, palaz, zili, verni, horse cover).

The pile-weave carpets are reviewed on the basis of the khanate period and 20s of the 19th century and early 20th century in the fourth section.

The last fifth section clarifies the semantics of major signs and symbols of Iravan district carpets.

The conclusion deals with main results on the subject.

All the carpets described in the monograph are original; they were collected from Iravan district and are protected in the personal collection. The catalogue of those carpets comprises the significant part of the work.

**В.А.Мурадов**

# Иреванский регион Азербайджана: история и ковры (II половина XVIII– начало XX веков)

## Резюме

Западный Азербайджан, или Иреванский регион является составной частью истории Азербайджана. Эта историческая область Азербайджана была одним из регионов, где ковровое искусство получило высокое развитие. В монографии в историческом контексте Иреванского региона Азербайджана II половины XVIII – начала XX веков исследуются история ковроткацкого искусства и художественные особенности уникальных ковровых образцов.

Во вводной части монографии получили отражение актуальность темы, хронологические рамки исследования, уровень изученности проблемы, методологическая основа, классификацияпо времени, месту изготовления и типам ста оригинальных ковров, относящихся к региону, научная новизна работы и другие важнейшие вопросы.

В первой части прослежены фундаментальные проблемы истории Иреванского региона II половины XVIII – началаXX веков. Приведённые здесь восемь карт, относящихся к изучаемому периоду, создают широкое представление об истории и географии региона.

Во второй части содержится анализ состояния развития ковроткачества в городе Иреване и других областях Иреванского региона (Агбаба, Шораель, Лору, Пямбек, Шамшаддин, Гёйча и др.).

Третья часть, где анализируются безворсовые ковры Иреванского региона, посвящена классификации этого типа ковров, их художественным особенностям и рассмотрению отдельных изделий (килим, палаз, зили, вярни, лошадиная попона).

В четвёртой части рассматриваются ворсовые ковры Иреванского региона на основе хронологической периодизации, соответствующей периоду ханства и 20 гг. XIX – началу XX веков.

Последняя пятая часть посвящена выяснению семантики основных знаков и символов ковров Иреванского региона.

В заключении подытожены основные выводы по теме исследования.

Все ковры, описанные в монографии, это оригиналы, которые собраныв Иреванском регионе и хранятся в частной коллекции. Каталог этих ковров составляет важнейшую часть представленной работы.

**Vidadi Aydın oğlu Muradov**

**Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları**
**(XVIII əsrin II yarısı-XX əsrin əvvəlləri)**

| | |
|---|---|
| **Redaktor:** | Ü.N. Məmmədova |
| **Nəşrə məsul:** | T.Ə. Babayeva |
| **Foto:** | T.M. Bahadurov |
| **Dizayn:** | F.Q. Əliyev |

Kitabda Azərbaycanın İrəvan bölgəsinin XVIII əsrin II yarısı - XX əsrin əvvəllərinə dair tarixi icmalı verilmiş, bölgənin mahallarında xalçaçılığın vəziyyəti nəzərdən keçirilmişdir. İrəvan bölgəsi xalçalarının təsnifatına uyğun olaraq, xovsuz və xovlu xalçaların tarixi, sənətkarlıq xüsusiyyətləri və bu xalçalarda istifadə edilmiş əsas işarələrin, simvolların mənası ətraflı şərh edilmişdir.

Kitab xalçaçılıq sənəti ilə məşğul olan mütəxəssislər, tələbələr, xalça həvəskarları, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

